# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# QIRX SƏKKİZİNCİ KİTAB

## SENTYABR 2011 - NOYABR 2011

**AZƏRNƏŞR**
**BAKI - 2017**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2017

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Türkiyə və Qazaxıstana səfəri, həmçinin Fransa, Avstriya, Macarıstan və Bolqarıstan prezidentlərinin Azərbaycana səfərləri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə çoxşaxəli əlaqələrin inkişafından, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrdən, sazişlərdən, beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsindən bəhs olunur.

Azərbaycanın uğurla aparılan daxili və xarici siyasətinə, iqtisadi potensialının möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişafın həyata keçirilməsinə, cəmiyyətimizin demokratikləşdirilməsi istiqamətində önəmli nailiyyətlərinə və ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapmışdır. Azərbaycan prezidentinin bütün görüş və danışıqlarının qayəsini Ermənistanın işğalçılıq siyasəti, Dağlıq Qarabağ problemi və bu problemin həlli yolları təşkil edir.

Bu cilddə, həmçinin ölkəmizə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət və din xadimləri, ilə görüşləri, kütləvi informasiya vasitələrinə və xarici telekanallara verdiyi müsahibələri yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2017}}$ **ББК - 32**

© Azərnəşr, 2017

## POLŞA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*28 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Polşa Respublikasına işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Polşa Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Varşavanın «Şopen» Beynəlxalq Aeroportunda Polşanın yüksək səviyyəli dövlət və hökumət rəsmiləri qarşıladılar.*

# ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*Varşava*

*29 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Varşavada ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtke (ABŞ), Bernar Fasye (Fransa), İqor Popov (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşik ilə görüşmüşdür.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİRİ VLADİMİR FİLAT İLƏ GÖRÜŞ

*Varşava*

*29 sentyabr 2011-ci il*

*Polşada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Varşavada Moldovanın Baş naziri Vladimir Filat ilə görüşmüşdür.*

*Görüşdə Varşavada keçirilən Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» sammitinin əhəmiyyəti vurğulandı. Bu tədbirin eyni zamanda, ikitərəfli əlaqələrin müzakirəsi baxımından yaxşı imkan yaratdığı bildirildi.*

*Siyasi münasibətlərin yaxşı səviyyədə olduğunun qeyd edildiyi görüşdə iqtisadi sahədə də əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulandı.*

*Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı, Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM çərçivəsində əməkdaşlığı ilə bağlı məsələlər, eləcə də nəqliyyat, təhlükəsizlik, enerji sahələrində əlaqələrin inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparıldı. Bundan başqa, qarşılıqlı səfərlərin, iş adamları arasında görüşlərin təşkil edilməsinin önəmi qeyd edildi.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*Varşava*

*29 sentyabr 2011-ci il*

*Sentyabrın 29-da Varşavada Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin görüşü olmuşdur.*

*Görüşdə ölkələrimizin ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyi vurğulandı, Azərbaycan ilə Gürcüstan arasında əməkdaşlığın müxtəlif sahələrdə bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## AVROPA İTTİFAQININ XARİCİ ƏLAQƏLƏR VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ, AVROPA KOMİSSİYASININ VİTSE-PREZİDENTİ KETRİN EŞTON İLƏ GÖRÜŞ

*Varşava*

*29 sentyabr 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 29-da Varşavada Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Ketrin Eşton ilə görüşmüşdür.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji və digər sahələrdə əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «ŞƏRQ TƏRƏFDAŞLIĞI» SAMMİTİNDƏ İŞTİRAK

*Varşava*

*30 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Polşanın paytaxtı Varşavada Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» sammitində iştirak etmişdir.*

*Avropa İttifaqı ölkələrinin, eləcə də «Şərq Tərəfdaşlığı» Proqramına üzv olan ölkələrin dövlət və hökumət başçılarının iştirak etdiyi sammiti hazırda təşkilata sədrlik edən Polşanın Baş naziri Donald Tusk giriş sözü ilə açaraq qonaqları salamladı, «Şərq Tərəfdaşlığı» Proqramının əhəmiyyəti haqqında danışdı.*

*Bildirildi ki, sammitin keçirilməsində əsas məqsəd «Şərq Tərəfdaşlığı» ölkələrinin Avropaya inteqrasiyasının sürətləndirilməsi və qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsidir.*

*Bir çox vacib ikitərəfli görüşlərin keçirilməsi baxımından da əhəmiyyətli olan sammitdə əməkdaşlığın siyasi və iqtisadi aspektləri, prioritet proqramlar, Avropanın maliyyə institutları ilə əməkdaşlıq, viza rejimi və digər məsələlər ətrafında müzakirələr aparıldı.*

*Sonra Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» sammitində Birgə Bəyannamə qəbul edildi.*

*İki ildən bir təşkil edilən «Şərq Tərəfdaşlığı» sammiti ilk dəfə 2009-cu il mayın 7-də Çexiyanın paytaxtı Praqada keçirilmişdir. «Şərq Tərəfdaşlığı» Proqramı da məhz həmin sammitdə qəbul edilmişdir.*

*«Şərq Tərəfdaşlığı» təşəbbüsü 2008-ci il mayın 26-da Avropa İttifaqının Ümumi Məsələlər və Xarici Əlaqələr Şurasında Polşa və İsveç tərəfindən irəli sürülmüşdür.*

## MALTANIN BAŞ NAZİRİ LOURENS QONZİ İLƏ GÖRÜŞ

*Varşava*

*30 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Varşavada Maltanın Baş naziri Lourens Qonzi ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı.*

### Səfər başa çatdı

*Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Polşa Respublikasına işgüzar səfəri başa çatmışdır.*

*Varşavanın «Şopen» Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Polşanın yüksək səviyyəli dövlət və hökumət rəsmiləri yola saldılar.*

* * *

*Həmin gün prezident İlham Əliyev Bakıya qayıtmışdır.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## «HİLTON BAKU» OTEL KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*3 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 3-də Bakının mərkəzində yerləşən «Hilton Baku» otel kompleksinin açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev otelin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, son illər Azərbaycana turist axınının sürətli artımı müşahidə olunmaqdadır. 2011-ci ilin ölkəmizdə «Turizm ili» elan olunması bu sahənin daha da inkişaf etdirilməsi üçün yeni imkanlar açmışdır. Müasirləşən ölkəmizdə yüksək səviyyəli xidməti ilə seçilən mehmanxana komplekslərinin inşası geniş vüsət almışdır. «Hilton» otellər şəbəkəsi və onun sahibi «Hilton Worldwide» şirkəti 92 ildir biznes və istirahət məqsədilə səyahətə çıxan şəxslərə ən gözəl mehmanxanalar, xidmətlər, istirahət zonaları təklif edir. Özünün qlobal brendləri vasitəsilə qonaqlara yüksək xidmət ənənəsini davam etdirən «Hilton Worldwide» şirkətinin brendləri 84 ölkədə 3750 mehmanxanadan və 615 min otaqdan ibarətdir. Azərbaycanın paytaxtında inşa olunan «Hilton Baku» oteli də şirkətin xidmət sahəsində daha bir nailiyyətidir. Heydər Əliyev Beynəlxalq Aeroportundan 24 kilometr məsafədə yerləşən «Hilton Baku» otel kompleksi müasir dizaynı ilə seçilir. Otelin inşasında beynəlxalq və milli memarlıq üslubu peşəkarlıqla uzlaşdırılmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə ərazi ilə tanış oldular.*

*Bildirildi ki, hər növ yüksək xidmətin göstəriləcəyi otel kompleksi paytaxtın müasir görkəminə uyğunlaşdırılmışdır. «Koray İnşaat» şirkəti tərəfindən inşa edilən otelin tikintisində 700 işçi çalışmışdır. 25 mərtəbədən ibarət oteldə 309 otaq vardır. Finlandiya istehsalı olan beş müasir lift quraşdırılmışdır. Mehmanxananın birinci mərtəbəsində qeydiyyat mərkəzi və qonaqların istirahəti üçün rahatlığı ilə seçilən gözləmə otağı vardır.*

**İlham Əliyev:** Sizi «Hilton» otelinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Çox şadam ki, şəhərin mərkəzində çox gözəl, müasir otel tikilib istifadəyə verilib. «Hilton» otellər şəbəkəsinin Azərbaycanda fəaliyyətə başlaması da çox əlamətdar hadisədir və onu göstərir ki, ölkəmiz sürətlə inkişaf edir, ölkəmizin xidmət sektoru da inkişaf edir. Belə məşhur otellər şəbəkəsinin Azərbaycanda fəaliyyətə başlaması özlüyündə bir göstəricidir.

Mən çox şadam ki, Bakının mərkəzində yerləşən bu oteldə bütün şərait yaradılıbdır. Buna heç şübhəm də yox idi, çünki «Hilton» dünya şöhrətli bir brenddir və təbii ki, bu oteldə ən yüksək səviyyə tətbiq olunur. Otel çox böyük zövqlə tikilibdir. Həm istirahət etmək, qalmaq, həm də müxtəlif tədbirlər keçirmək üçün bütün şərait vardır.

İndi Azərbaycanda müxtəlif sahələrə böyük investisiyalar qoyulur, sənayenin inkişafı sürətlə gedir. Mən çox şadam ki, xidmət sektoruna da böyük həcmdə investisiyalar qoyulur. Otellərin yaradılması onu göstərir ki, Azərbaycana xaricdən gələn turistlərin marağı, ölkəmizin tarixi, mədəniyyəti ilə tanış olmaq üçün gələnlərin sayı artır və qonaqları yaxşı qəbul etmək üçün indi bütün imkanlarımız vardır.

Son dövrlərdə bütövlükdə Azərbaycanda – Bakıda və bölgələrdə yeni gözəl otellər tikilir. Təkcə Bakı şəhərində bu il və gələn il beşulduzlu 6 otel fəaliyyətə başlayır və onların içində ikinci otel «Hilton»dur. Bundan sonra hələ 4 otel də açılacaq və bu, Prezident kimi, məni çox sevindirir. Bu, otellər arasında rəqabətin güclənməsinə və nəticə etibarilə burada qalan turistlər, qonaqlar üçün daha da yaxşı şəraitin yaradılmasına səbəb olacaqdır. Çünki

hər bir ölkənin inkişafı üçün bütün sahələrdə sağlam rəqabət çox vacib rol oynayır.

Azərbaycana investisiyaların cəlb edilməsinə dövlətimiz son illər çox böyük işlər görübdür. Təkcə keçən il ölkə iqtisadiyyatına 16 milyard dollar sərmayə qoyulmuşdur. Son 15 il ərzində isə Azərbaycana 100 milyard dollar investisiya qoyulmuşdur və son illər daxili investisiyalar xarici investisiyaları üstələyir. Təkcə neft-qaz sektoruna deyil, qeyri neft-qaz sektoruna – xidmət sektoruna investisiyalar qoyulur və «Hilton» otelinin fəaliyyətə başlaması dediyim sözlərin təsdiqidir.

Otelin yuxarı mərtəbələrindən açılan mənzərə göz oxşayır. Biz Bakının inkişafı ilə çox ciddi şəkildə məşğul oluruq. Şəhərin tarixi simasının qorunması ilə bərabər, müasir infrastrukturun yaradılması da vacib rol oynayır. Bulvarın uzadılması, Bayraq Meydanı ilə birləşməsi, Bayraq Meydanında indi gedən quruculuq-abadlıq işləri deyə bilərəm ki, dünya miqyasında nadir xarakter daşıyır. Əminəm ki, bir neçə aydan – Bayraq Meydanı istifadəyə veriləndən sonra Bakı sakinləri və gələn qonaqlar şəhərimizdən daha böyük zövq alacaqlar və inkişafımızla tanış olacaqlar.

Mən otelin yaradılmasında əməyi olan bütün insanlara minnətdarlığımı bildirmək istəyirəm. İlk növbədə investorlara minnətdaram ki, onlar ölkəmizin gələcəyinə inanıb Bakıya çox böyük həcmdə investisiyalar qoymuşlar. «Hilton» otellər şəbəkəsinin rəhbərliyinə minnətdaram ki, onlar qərar qəbul etmişlər ki, Bakıda otel açsınlar. Bu binanın tikintisində iştirak etmiş bütün inşaatçılara minnətdaram. Burada işləyən əməkdaşlara sözüm ondan ibarətdir ki, siz yaxşı bilirsiniz, ən gözəl otel odur ki, orada gözəl xidmət göstərilir. Xarici gözəllik, daxili dizayn, tərtibat – bütün lazımi məsələlər təbii ki, vacibdir. Ancaq xidmətdən çox şey asılıdır. Şübhə etmirəm ki, burada çox gözəl xidmət göstəriləcəkdir.

Bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm.

**İSPANİYA KRALI ƏLAHƏZRƏT**
**I XUAN KARLOSA**

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–İspaniya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Əminəm ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, dostluq əlaqələrimizin genişləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İspaniya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 oktyabr 2011-ci il*

# TÜRKİYƏ RESPUBLİKASININ AİLƏ VƏ SOSİAL SİYASƏT NAZİRİ XANIM FATİMA ŞAHİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Türkiyə Respublikasının Ailə və Sosial Siyasət naziri xanım Fatima Şahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Türkiyənin Ailə və Sosial Siyasət naziri xanım Fatima Şahin Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkələrimizin ailə, qadın və uşaq məsələləri ilə məşğul olan qurumları arasında əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti vurğulandı, Türkdilli Ölkələrin Parlament Assambleyasının təşəbbüsü ilə «XXI əsrdə qadının rolu: qadın siyasətçilərin məsuliyyəti» mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın önəmi qeyd olundu.*

*Dövlətimizin başçısı Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Baş nazirinə çatdırmağı xahiş etdi.*

## İRAN İSLAM RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ İSLAMİ İRŞAD NAZİRİ SEYİD MƏHƏMMƏD HÜSEYN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad naziri Seyid Məhəmməd Hüseyni qəbul etmişdir.*

*İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad naziri Seyid Məhəmməd Hüseyn prezident Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən humanitar sahədə inkişafından məmnunluq ifadə edildi, ötən il Azərbaycan Respublikası mədəniyyət günlərinin İranda, bu il isə İran İslam Respublikası mədəniyyət günlərinin Azərbaycanda keçirilməsinin əlaqələrimizin daha da genişləndirilməsi işinə töhfə verəcəyi vurğulandı.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## BUZOVNA QƏSƏBƏSİNDƏ YERALTI PİYADA KEÇİDLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*4 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində avtomobillərin və piyadaların daha sıx olduğu Heydər Əliyev Beynəlxalq Aeroportu – Zuğulba yolunun 12-ci kilometrliyində yeni inşa olunmuş yeraltı piyada keçidinin açılışında iştirak etmişdir.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına keçidin texniki göstəriciləri barədə məlumat verdi. Bildirdi ki, tikintisinə bu ilin iyununda başlanılmış keçid Heydər Əliyev Beynəlxalq Aeroportu – Zuğulba yolunun bu hissəsində nəqliyyatın hərəkətinin tənzimlənməsi, tıxacların qarşısının alınması və piyadaların təhlükəsizliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Dörd girişi olan keçidin ümumi uzunluğu 44, eni 6, hündürlüyü isə 3 metrdir. Pilləkənlərdə əlil arabalarının hərəkəti üçün ayrıca panduslar quraşdırılmışdır. Keçidin istifadəyə verilməsi yol hərəkəti qaydalarının pozulması hallarını aradan qaldıracaqdır.*

* * *

*Sonra prezident İlham Əliyev Heydər Əliyev Beynəlxalq Aeroportu–Zuğulba yolunun 11-ci kilometrliyində yeni istifadəyə verilmiş yeraltı piyada keçidinin açılışında iştirak etdi.*

*Piyada keçidinin tikintisinə bu ilin mayında başlanılmışdır. Burada yaşayış binalarının, məktəbin və iaşə obyektlərinin olması keçidin tikilməsi zərurətini yaratmışdır.*

*Dövlətimizin başçısına, həmçinin ərazidə aparılan abadlıq işləri barədə də ətraflı məlumat verildi.*

## ÜÇ SƏVİYYƏLİ MƏRDƏKAN YOL QOVŞAĞININ AÇILIŞI MƏRASİMİ

*4 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Xəzər rayonunda Heydər Əliyev Beynəlxalq Aeroportundan Zuğulbaya gedən magistralda üç səviyyəli Mərdəkan yol qovşağının açılışında iştirak etmişdir.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına yol qovşağının texniki göstəriciləri barədə məlumat verdi. Bildirildi ki, qovşağa daxil olan dördaşırımlı körpünün uzunluğu 220, eni isə 23, 5 metrdir. Dörd hərəkət zolağı olan körpünün ən böyük aşırımının uzunluğu 75 metr, nəzərə alınan seysmik davamlılığı 9 baldır. Körpünün kənar və orta dayağının üzlüyü fibro-beton, aşırım qurğusu asma tipli, eni və uzunu gərginləşdirilmiş dəmir-beton konstruksiyadan ibarətdir.*

*Qovşağın körpü trosunun texniki xüsusiyyətləri barədə də məlumat verildi. Burada istifadə olunan troslar Fransa istehsalıdır.*

*Prezident İlham Əliyev yol qovşağının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Qeyd edildi ki, qovşağın ətrafı abadlaşdırılmış, yaşıllıq zolağı salınmışdır. Bu müasir yol infrastruktur layihəsi Heydər Əliyev Beynəlxalq Aeroportundan Mərdəkan, Şüvəlan və Buzovna qəsəbələri, həmçinin paytaxt istiqamətlərində avtomobillərin sərbəst və təhlükəsiz hərəkətinə imkan yaradacaqdır.*

*Dövlətimizin başçısı görülmüş işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## BAKININ ZİYA BÜNYADOV PROSPEKTİNDƏ TİKİNTİSİ DAVAM ETDİRİLƏN YOL QOVŞAQLARI VƏ AVTOMOBİL YOLLARININ SXEMİ İLƏ TANIŞLIQ

*4 oktyabr 2011-ci il*

*Oktyabrın 4-də Azərbaycan prezidenti İlham Əliyev Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə Tədbirlər Planı çərçivəsində paytaxtın Ziya Bünyadov prospektində tikintisi davam etdirilən müxtəlif səviyyəli yol qovşaqları və avtomobil yollarının sxemi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu ərazidə Ziya Bünyadov prospektindən Böyük Şor dairəsi istiqaməti üzrə beş yol qovşağı və ötürücüsü tikilir.*

*Prezident İlham Əliyev Ziya Bünyadov prospektinin Əhməd Rəcəbli küçəsi ilə kəsişməsində tikilən yol qovşağının sxemi ilə tanış oldu. Məlumat verildi ki, bu yolötürücüsünün uzunluğu 328, eni isə 28 metrdir. Tikintisinə bu ilin əvvəlində başlanılan layihənin sifarişçisi Nəqliyyat Nazirliyidir.*

*Ziya Bünyadov prospekti ilə Əliyar Əliyev küçəsinin kəsişməsində dəmir yolu xətti üzərindən keçən yolötürücüsünün texniki göstəriciləri ilə tanış olan dövlət başçısına məlumat verildi ki, yenidən qurulacaq yolun uzunluğu 452, eni 27 metrdir. Dövlətimizin başçısı Ziya Bünyadov prospekti ilə Böyük Şor küçəsinin kəsişməsində inşa edilən yol qovşağının, Ziya Bünyadov prospekti ilə Müzəffər Nərimanov küçəsinin kəsişməsində tikilən tunelin sxemi ilə tanış oldu.*

*Prezident İlham Əliyev yol qovşaqları və avtomobil yollarının tikintisinin yüksək səviyyədə aparılması üçün tapşırıq və tövsiyələrini verdi.*

## BAKIDA NƏQLİYYATI İNTELLEKTUAL İDARƏETMƏ MƏRKƏZİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*4 oktyabr 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 4-də Bakıda Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzində görülmüş işlərlə tanış olmuşdur.*

*Nəqliyyat naziri Ziya Məmmədov Mərkəzdə görülmüş işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, yeni texnologiyaların tətbiqi nəqliyyat vasitələrindən istifadə edən insanların təhlükəsizliyinin təminində, paytaxt yollarında hərəkətə nəzarətin təşkilində, tıxac probleminin aradan qaldırılmasında böyük əhəmiyyət kəsb edir. Buna görə də 2008-ci ildə Bakıda nəqliyyatı intellektual idarəetmə sisteminin tətbiqi ilə bağlı Koreyanın «SK C&C» şirkəti ilə razılıq əldə olunmuş, yeni sistemin layihəsi hazırlanmış və icrasına başlanılmışdır. 2009-cu ilin aprelindən başlayaraq Bakıda layihə çərçivəsində Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi yaradılır. Nəzərdə tutulan işlərin böyük əksəriyyəti artıq reallaşmışdır. Layihə bu ilin sonunda başa çatdırılacaqdır.*

*Bildirildi ki, şəhərdə nəqliyyatın hərəkəti beşmərtəbəli inzibati binadakı müasir server, 18 şəbəkə avadanlığı, ümumi sahəsi 120 kvadratmetr olan monitor vasitəsilə idarə ediləcəkdir. İntellektual idarəetmə, server və iclas otaqları binanın ikinci mərtəbəsində yerləşir. Binada ayrıca konfrans zalları və digər inzibati otaqlar vardır.*

*Prezident İlham Əliyev intellektual idarəetmə zalına baxdı. Burada dünyada nəqliyyat əməliyyatlarının intellektual idarə*

edilməsi sistemində tətbiq olunan və 600 rəqəmsal görüntünü əks etdirən ən böyük monitor quraşdırılmışdır. Monitor vasitəsilə 150 yol kəsişməsində nəqliyyatın vəziyyəti, eləcə də 2 min avtobusun idarə edilməsi ilə bağlı məlumat əldə etmək mümkündür. Monitorda Abşeron yarımadasının rəqəmsal xəritəsini izləmək olar.

Bildirildi ki, Mərkəz cinayətkarlığın qarşısının alınmasında Daxili İşlər Nazirliyi ilə qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərir. Nazirliyin 600 kamerasının qeydə aldığı görüntülərin də monitorinqi bu Mərkəzdə aparılacaqdır.

Prezident İlham Əliyev nəqliyyatı intellektual idarəetmə sistemində istifadə edilən avadanlıqla tanış oldu, Mərkəzin fəaliyyəti ilə bağlı təqdimata baxdı. Qeyd edildi ki, Mərkəzin yaxınlığında Nəqliyyat Nazirliyinin yeni binasının tikintisi nəzərdə tutulur.

Ölkə üzrə intellektual nəqliyyat sisteminin təşkili prosesi ilə tanış olan Azərbaycan prezidentinin diqqətinə çatdırıldı ki, üç mərhələdən ibarət olan sistemin hazırda birinci mərhələsi Bakı şəhərinin əsas küçə və prospektlərini əhatə edir. Bu proses ikinci mərhələdə 2 min 200 kvadratkilometr sahədə Böyük Bakı və Abşeron ərazisini, üçüncü mərhələdə isə respublikanın bütün bölgələrində yerləşən nəqliyyat infrastrukturunu əhatə edəcəkdir. Birinci mərhələdə Bakıda intellektual nəqliyyat sistemi avadanlığının quraşdırılması artıq yekunlaşmışdır. İntellektual sistem üçün paytaxt ərazisində 450 kilometr müstəqil elektrik xətləri, 320 kilometr isə fiber-optik rabitə xətləri çəkilmişdir. Nəqliyyatın axını haqqında informasiyanın toplanılması və tıxacların azaldılması üçün siqnal sistemlərinin idarə edilməsi məqsədilə paytaxt ərazisində 150 nəzarət sisteminin yaradılması da həyata keçirilir.

Qeyd edildi ki, yollardakı vəziyyətin videoaşkarlayıcı vasitəsilə təhlil edilərək mərkəzi monitorda əks olunması üçün 326 sistem quraşdırılır.

Koreyalı mütəxəssislərin fikrincə, Bakıda yaradılan nəqliyyatın idarə edilməsinin intellektual sistemi ən müasir standartlara cavab verir.

*Mərkəzdə görülmüş işlərlə tanış olan prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ, RUSİYA PREZİDENTİNİN ŞİMALİ QAFQAZ FEDERAL DAİRƏSİ ÜZRƏ SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİ ALEKSANDR XLOPONİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Rusiya Federasiyası Hökuməti Sədrinin müavini, Rusiya prezidentinin Şimali Qafqaz Federal Dairəsi üzrə səlahiyyətli nümayəndəsi Aleksandr Xloponinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.*

*Rusiya Federasiyası Hökuməti Sədrinin müavini, Rusiya prezidentinin Şimali Qafqaz Federal Dairəsi üzrə səlahiyyətli nümayəndəsi Aleksandr Xloponinin və Rusiya Federasiyasının İnquşetiya Respublikasının başçısı Yunusbek Yevkurovun, Kabardin-Balkar Respublikasının Prezidenti Arsen Kanokovun, Şimali Osetiya–Alaniya Respublikasının başçısı Taymuraz Mamsurovun, Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedovun ölkəmizə səfərindən məmnunluğunu bildirən dövlətimizin başçısı əməkdaşlığımızın gələcək inkişafını bir daha müzakirə etmək üçün səfərin yaxşı imkan yaratdığını vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya Federasiyası arasında ticarət dövriyyəsinin artdığını, siyasi əlaqələrin möhkəmləndiyini, regional əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Rusiyanın Şimali Qafqaz respublikaları arasında da işgüzar, qardaşlıq və mehriban qonşuluq münasibətlərinin möhkəmləndiyini qeyd edərək bunun ölkələrimiz və xalqlarımız üçün önəmini vurğuladı.*

*Rusiya prezidentinin Şimali Qafqaz Federal Dairəsi üzrə səlahiyyətli nümayəndəsi Aleksandr Xloponin Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Dmitri Medvedevin tapşırıqlarına uyğun olaraq ölkələrimiz arasında ikitərəfli münasibətləri və əməkdaşlığı nəinki hökumətlər, eləcə də subyektlər səviyyəsində daha da inkişaf etdirməyin əhəmiyyətini vurğulayaraq respublikamızın Şimali Qafqaz dairəsi ilə əməkdaşlığını bunun yaxşı nümunəsi kimi qiymətləndirdi. O, artıq Bakıda mühüm görüşlərin və bir sıra kompleks layihələrin təqdimatını keçirdiklərini vurğulayaraq bunları inkişaf etdirmək niyyətində olduqlarını dedi.*

*Görüşdə bildirildi ki, Rusiya Federasiyası İnquşetiya Respublikasının veteranlarının və əhalisinin çoxsaylı xahişi ilə Rusiya Federasiyasının Şimali Qafqaz subyekti ilə Azərbaycan Respublikası arasında dostluq və mehriban qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsinin əlaməti olaraq, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi üçün Malqabek Şəhər Şurası bu şəhərdəki xiyabanların birinə Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rusiya Federasiyası Hökuməti Sədrinin müavini, Rusiya prezidentinin Şimali Qafqaz Federal Dairəsi üzrə səlahiyyətli nümayəndəsi Aleksandr Xloponinin başçılıq etdiyi nümayəndə heyətinin şərəfinə nahar verildi.*

## SƏNAYEÇİLƏR VƏ SAHİBKARLAR BEYNƏLXALQ KONQRESİNİN İŞGÜZAR KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – Sənayeçilər və Sahibkarlar Beynəlxalq Konqresinin işgüzar konfransının iştirakçılarını salamlayır və konfransın işə başlaması münasibətilə təbrik edirəm.

1992-ci ildə yaradılmış Sənayeçilər və Sahibkarlar Beynəlxalq Konqresi bu gün müəssisələrin iqtisadi və sənaye potensialının gücləndirilməsi, beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində səmərəli fəaliyyət göstərən təşkilata çevrilmişdir.

İşgüzar konfransın keçirildiyi bu günlərdə Azərbaycan Respublikasının müstəqilliyinin 20-ci ildönümü geniş qeyd olunur. Bu illərdə siyasi və iqtisadi islahatları uğurla həyata keçirən Azərbaycan regionun aparıcı dövlətlərindən olmaqla, transmilli layihələrin fəal iştirakçısıdır.

Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyasının prioritetlərindən biri də sahibkarlığın inkişaf etdirilməsi, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılmasıdır. Təsadüfi deyildir ki, hazırda ölkədə ümumi daxili məhsulun 80 faizinin çoxu özəl bölmənin payına düşür və qarşıda duran bir çox vəzifələrin həyata keçirilməsində sahibkarların rolu artmaqdadır.

Sahibkarlığın inkişafında iş adamlarının beynəlxalq əlaqələrinin genişləndirilməsi, onların birlikləri arasında əməkdaşlığın dərinləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Əminəm ki, Bakıda keçirilən işgüzar konfrans bu məsələlərin müzakirəsi üçün gözəl fürsət və gələcək səmərəli fəaliyyətinizə möhkəm zəmin yaradacaqdır.

Konfransın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 oktyabr 2011-ci il*

## İNTERPOLUN BAŞ KATİBİ RONALD NOBL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də İnterpolun Baş katibi Ronald Noblu qəbul etmişdir.*

*Görüşdə İnterpol təşkilatı ilə ölkəmizin müvafiq qurumları arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN XÜSUSİ XİDMƏT ORQANLARI KONFRANSININ 14-cü İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının 14-cü iclasının iştirakçılarını qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Mən sizi Azərbaycanda salamlayıram, xoş gəlmisiniz! Çox şadam ki, ölkəmizdə toplaşmısınız. Bilirəm ki, bu cür görüşlər müntəzəm keçirilir. Bildiyimə görə, dost dövlətlərin xüsusi xidmət orqanlarının rəhbərləri arasında yaxşı qarşılıqlı anlaşma vardır, səylərin əlaqələndirilməsi mövcuddur və bu çox vacibdir. Müasir dünyada informasiya mübadiləsi, təhlükələrin aradan qaldırılması üzrə əlaqələndirmə və birgə tədbirlər müstəsna əhəmiyyətə malikdir. Hər bir ölkənin təhlükəsizliyi dövlət üçün böyük əhəmiyyət kəsb edir. Təbii ki, təhlükəsizliyi daha uğurla təmin etmək yalnız birgə səylərlə mümkündür.

Əminəm ki, Bakıda keçirilən görüş sizin əlaqələrinizi daha da möhkəmləndirəcək. Bu bizim regionda sülhün möhkəmləndirilməsinə, vətəndaşlarımızın təhlükəsizliyinə, ölkələrimizin sabit inkişafına xidmət edəcəkdir. Sizə uğurlar, yaxşı iş və yaxşı nəticələr arzulayıram.

*Prezident İlham Əliyev dost ölkələrin xüsusi xidmət orqanları arasındakı qarşılıqlı fəaliyyətin gələcək təhlükələrə qarşı birgə mübarizədə uğurlu olacağına əminliyini bildirdi. Dövlətimizin başçısı müasir dünyada terror təhlükələrinə qarşı birgə mübarizənin xüsusi önəm daşıdığını vurğuladı. Əlaqələndirmə, informasiya mübadiləsi, qarşılıqlı yardım və dəstəyin*

*xüsusi xidmət orqanları qarşısında duran vəzifələrin uğurla həyata keçirilməsi üçün əsas şərtlərdən olduğunu qeyd etdi.*

*Türkiyə Cümhuriyyəti Milli İstihbarat Təşkilatının rəhbəri Hakan Fidan bu tədbirin yüksək səviyyədə keçirilməsinə görə Azərbaycan tərəfinə minnətdarlıq etdi. Bildirdi ki, bölgədə mövcud olan təhlükələrin birgə əməkdaşlıq şəraitində aradan qaldırılmasında xüsusi xidmət orqanlarının əməkdaşlığı faydalıdır və əlaqələr gücləndikcə bu təhlükələr də zəifləyir. Hakan Fidan Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev onun da salamlarını Türkiyə hökumətinin başçısına çatdırmağı qonaqdan xahiş etdi.*

*Azərbaycan tərəfinə gözəl qonaqpərvərliyə və bu tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkür edən Qazaxıstan Milli Təhlükəsizlik Komitəsinin sədri Nurtay Abıkayev bildirdi ki, bütün səylər regionda mövcud olan təhlükələrin aradan qaldırılması üçün qarşılıqlı fəaliyyətə yönəlib. Bir neçə il əvvəl Bakıda olduğunu, ötən müddətdə paytaxtımızda böyük inkişafın yaşandığını, budəfəki səfəri zamanı bütün bunların şahidi olduğunu deyən Nurtay Abıkayev Qazaxıstan prezidenti Nursultan Nazarbayevin salamlarını prezident İlham Əliyevə çatdırdı.*

*Dövlətimizin başçısı Nursultan Nazarbayevin salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Qazaxıstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

*Prezident İlham Əliyev bir daha ölkələrimizin xüsusi xidmət orqanları arasında səmərəli əməkdaşlığa toxundu. Dövlətimizin başçısı mövcud əlaqələrin daha da möhkəmləndirilməsi üçün bütün səylərin səfərbər olunmasının vacibliyini diqqətə çatdırdı. Prezident İlham Əliyev bu məsələdə qarşılıqlı fəaliyyətin önəmini vurğuladı və regiondakı təhlükələrə qarşı birgə mübarizənin əhəmiyyətini qeyd etdi. Azərbaycan prezidenti bir daha Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının Bakıda keçirilən 14-cü iclasının işinə uğurlar arzuladı.*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz qardaşım!

Ananız Tənzilə Ərdoğanın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 oktyabr 2011-ci il*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ NİKOLA SARKOZİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*7 oktyabr 2011-ci il*

*Oktyabrın 7-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Fransa Respublikasının Prezidenti Nikola Sarkozinin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Fransa prezidenti Nikola Sarkozini qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Fransa prezidentinə raport verdi. Fransanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Nikola Sarkoziyə, Fransa nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## FRANSA PREZİDENTİ NİKOLA SARKOZİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*7 oktyabr 2011-ci il*

*Oktyabrın 7-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Fransa prezidenti Nikola Sarkozinin təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişafından məmnunluq ifadə olundu. Ölkələrimiz arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.*

*Fransa prezidenti Nikola Sarkozinin Azərbaycana rəsmi səfərinin əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*Fransa prezidenti Nikola Sarkozi Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə görüşdü.*

## BAKIDA FRANSIZ LİSEYİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*7 oktyabr 2011-ci il*

*Oktyabrın 7-də Bakıda Fransız liseyinin təməlqoyma mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Fransa Respublikasının Prezidenti Nikola Sarkozi və ölkəmizin birinci xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Prezident İlham Əliyev Fransa dövlətinin başçısı Nikola Sarkozini qarşıladı.*

*Mərasim iştirakçıları Azərbaycan və Fransa prezidentlərini hərarətlə qarşıladılar.*

*Əvvəlcə «Azərbaycan Respublikasının Hökuməti və Fransa Respublikasının Hökuməti arasında Bakı Fransız Liseyinin yaradılması haqqında» Saziş imzalandı. Sənədi Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, Fransa tərəfindən isə Xarici və Avropa İşləri naziri yanında Əməkdaşlıq Məsələləri naziri Anri de Renkur imzaladılar.*

*Dövlət başçıları mərasimdə çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, mən Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Sizin səfəriniz tarixi xarakter daşıyır. İlk dəfə olaraq Fransa prezidenti Azərbaycana səfər edir. Əminəm ki, səfəriniz Fransa–Azərbaycan əlaqələrinin gələcək uğurlu inkişafına çox böyük

töhfəsini verəcəkdir. Əlaqələrimiz çoxşaxəlidir, bütün sahələri əhatə edir. Son illər ərzində ölkələrimiz arasında yaşanan əməkdaşlıq bizi daha da ruhlandırır və əmin edir ki, gələcəkdə də Fransa–Azərbaycan əlaqələri strateji xarakter daşıyacaqdır.

Siyasi əlaqələrimiz çox intensivdir. Mən dəfələrlə Sizin gözəl ölkənizə səfər etmişəm, bu gün isə Siz bizim qonağımızsınız. Siyasi sahədə əməkdaşlığın perspektivləri də çox gözəldir. Azərbaycan–Avropa İttifaqı əlaqələrinin inkişafında Fransanın çox böyük rolu vardır. Şəxsən Sizin və rəhbərlik etdiyiniz dövlətin Avropa İttifaqı–Azərbaycan əlaqələrinə verdiyiniz dəstəyə görə Sizə minnətdaram. Bu yaxınlarda «Şərq Tərəfdaşlığı» zirvə görüşünün keçirilməsi bir daha göstərdi ki, Avropa İttifaqı–Azərbaycan əlaqələri uğurla inkişaf edir. Azərbaycan–NATO əlaqələrində də Fransanın xüsusi rolu vardır. Bu əlaqələrin inkişafında Sizin ölkəniz əminəm ki, bundan sonra da dəstəyini göstərəcəkdir.

Əlbəttə, regional təhlükəsizlik məsələləri daim diqqət mərkəzindədir. Bu gün də bu məsələlərlə bağlı biz Sizinlə çox geniş və səmimi söhbət aparmışıq. Fransa Minsk qrupunun həmsədri kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması işində çox mühüm rol oynayır. Biz bu rolu yüksək qiymətləndiririk və ümid edirik ki, şəxsən Sizin səyləriniz nəticəsində münaqişə tezliklə beynəlxalq hüquq normalarına uyğun şəkildə həllini tapacaq və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Uzun illərdir ki, Azərbaycan torpaqları – Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon işğal altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı doğma torpağında qaçqın-köçkün həyatı yaşayır. Bu vəziyyətə son qoyulmalıdır və Sizin də qeyd etdiyiniz kimi, status-kvo dəyişdirilməlidir. Hesab edirəm ki, status-kvonun dəyişdirilməsi üçün yaxşı imkanlar vardır və status-kvonun dəyişdirilməsini ən çox arzulayan tərəf Azərbaycandır. Çünki bu bizim torpaqlarımızdır və bizim torpaqlar işğal altındadır. Beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz qərarlarını

vermişlər. BMT Təhlükəsizlik Şurası, ATƏT, Avropa Parlamenti, Avropa Şurası, digər təşkilatlar – yəni, məsələnin həlli üçün hüquqi baza vardır. Əminəm ki, yaxın zamanlarda daha da ciddi addımlar atılacaq, münaqişəyə son qoyulacaq və Cənubi Qafqazda sülh, əməkdaşlıq yaranacaqdır.

Ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlıq da çox uğurla inkişaf edir. Deyə bilərəm ki, bu ilin 8 ayında iki ölkə arasındakı ticarət dövriyyəsi 3 milyard dolları keçmişdir və gələcək inkişaf üçün imkanlar vardır. Ümid edirəm ki, ilin sonuna qədər bu rəqəm 4 milyard dollara çatacaqdır. Fransanın 40-a yaxın şirkəti Azərbaycanda uğurla fəaliyyət göstərir. Onlar ekologiya, ətraf mühitin qorunması ilə bağlı müxtəlif layihələri icra edirlər. Azərbaycanda məişət tullantıları zavodu Fransa şirkəti tərəfindən tikilir. Bakıda metronun konseptual inkişaf planında Fransa şirkətləri iştirak edirlər. Bizim birinci telekommunikasiya peykimizi orbitə Fransa şirkəti qaldıracaqdır. Bu sahədə də əməkdaşlıq üçün yaxşı imkanlar vardır.

Enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq çox uğurludur. Bu yaxınlarda «Total» və «Gaz de France» şirkətlərinin Azərbaycanda yeni qaz yatağını aşkarlaması həm ölkəmizin enerji potensialını gücləndirəcək, həm də Avropanın enerji təhlükəsizliyinə müsbət təsirini göstərəcəkdir. Bildiyiniz kimi, Azərbaycan «Cənub Qaz Dəhlizi»nin reallaşmasında çox mühüm rol oynayır. Bu məsələlər Avropa İttifaqı–Azərbaycan əlaqələrinin bir hissəsidir.

Bu yaxınlarda aşkar edilmiş qaz yatağında 350 milyard kubmetr qaz vardır və beləliklə, Azərbaycanın qaz potensialı hazırda 2,6 trilyon kubmetrdir. Mən çox şadam ki, Fransa şirkətləri bizim tərəfdaşlar kimi, Azərbaycanda uğurla fəaliyyət göstərir.

Nəhayət, humanitar sahədə əməkdaşlıq çox genişdir. Yaxın gələcəkdə Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi fəaliyyətə başlayacaqdır. Bu gün isə Bakıda Fransız liseyinin təməl daşı qoyulacaqdır. Bu çox əlamətdar və gözəl hadisədir. Bu liseyin

fəaliyyətə başlaması Fransa–Azərbaycan əlaqələrini daha da gücləndirəcəkdir. Bu bizim dostluğumuzun rəmzidir. Bu liseyin yaradılmasında əməyi olan bütün şəxslərə dərin minnətdarlığımı bildirirəm. Liseyin təməl daşının qoyulmasında Fransa prezidentinin iştirakı, əlbəttə ki, bugünkü mərasimə xüsusi əhəmiyyət verir.

Əminəm ki, hörmətli cənab Prezident, liseyin açılışında da biz Sizinlə bərabər iştirak edəcəyik. Bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, Sizə və rəhbərlik etdiyiniz ölkəyə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

**Fransa prezidenti Nikola Sarkozinin çıxışı**

Möhtərəm Prezident!

Bakı–Fransız Liseyinin təməl daşının qoyulması mərasimində, Bakıda Sizin aranızda olmaq mənim üçün bir sevincdir. Bu məktəbin yaradılması qərarı təkcə iki ölkə arasındakı yüksək səviyyədə olan diplomatik və siyasi əlaqələrin nümunəsi deyil, eyni zamanda, Azərbaycanın göstərdiyi dost münasibətin nümunəsidir. Bu həmçinin Azərbaycanın dinamizmini və onun dünyaya açıqlığını ifadə edir.

Bakı mühüm bir qovşaqdır. Əsrlərdən bəri müxtəlif xalqların və müxtəlif mədəniyyətlərin bir-birinə qovuşduğu məkandır. Fransız liseyi bu ölkənin tarixini təcəssüm etdirəcəkdir. Bir vaxtlar ölkənizin neft sənayesinin inkişafında çox mühüm rol oynamış Nobel qardaşlarının yaşadıqları prospektdə bu gün Azərbaycan Dövlət Neft Şirkətinin və Sizin həyat yoldaşınız, xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi sayəsində Fransız liseyinin təməli qoyulur. Mən bir daha yenidən Mehriban xanıma öz təşəkkürümü bildirmək istəyirəm.

Fransız Dünyəvi Təhsil Missiyasının və ölkələrimizin təhsil nazirliklərinin dəstəyi ilə bu lisey fransızdilli elitanın formalaşmasına imkan verəcəkdir. Fransa universitetlərinin qapıları bu fransızdilli tələbələrin üzünə daim açıq olacaqdır.

Aldıqları biliklərlə Azərbaycanı bəhrələndirmək üçün onlar ölkələrinə qayıdacaqlar.

Mən bilirəm ki, Sizin tələbələr Fransa hökumətinin, son illərdə isə, həmçinin Azərbaycan hökumətinin təqaüdləri sayəsində Fransada təhsil alırlar. Arzu edirəm ki, universitetlər arasında əməkdaşlıq daha da zənginləşsin. Ümidvaram ki, Fransız liseyi buna güclü töhfəsini verəcəkdir. Bu lisey, həmçinin ölkələrimiz arasındakı mədəni və tarixi əlaqələrin ardıcıllığını əks etdirəcəkdir. 1920-ci ildə bolşeviklərin işğalından sonra Fransa birinci müstəqil Azərbaycan hökumətinin sürgündə olan üzvlərinin çoxuna sığınacaq vermişdir. 1944-cü ilin noyabrında İkinci dünya müharibəsinin sonunu müzakirə etmək üçün Moskvaya gedən general Şarl de Qoll Bakıda bir gecə səfərdə olmuşdur. Mən bunu unutmuram.

Azərbaycan müstəqilliyini bərpa edən gündən ölkələrimiz arasında, xüsusilə də mədəniyyət və təhsil sahəsində dinamik və məhsuldar bir əməkdaşlıq başlanmışdır. Bu həm strateji tərəfdaşlıqda, həm də mədəniyyətdə özünü əks etdirir. Gələn ilin mart ayında Bakı İncəsənət Muzeyi dünyada ilk olaraq Fransanın inciləri sərgisini açacaqdır. Burada intibah dövründən bu günədək fransız mədəni irsini əks etdirən yüzədək görkəmli əsər nümayiş etdiriləcəkdir.

Möhtərəm Prezident! Əziz İlham! Mənimlə birlikdə bu liseyin yaranmasını qərara almaqla Siz mədəniyyət rəngarəngliyini və Frankofoniyanı seçmiş olursunuz. Bu, cəsarətli seçim və uğurlu gələcəkdir. Fransa bütün sahələrdə Sizin dostunuzdur, Sizin tərəfdaşınızdır. Siz bilirsiniz ki, artıq Frankofoniya tolerantlıq, azadlıq, insan hüquqları və demokratiya kimi bəşəri dəyərlərin daşıyıcısıdır. Nüfuzunuzla, bu gözəl layihəni müdafiə etməklə Siz bu dəyərlərə dəstək verdiyinizi nümayiş etdirirsiniz və mən bu münasibətlə Sizi təbrik edirəm. Mən bir daha Sizə təşəkkür etmək istəyirəm. Bu gün bizə göstərdiyiniz qəbul üçün, cənab Prezident, şəxsən Sizə və Sizin həyat yoldaşınıza təşəkkürümü bildirirəm. Bilin ki, Fransa Sizin dostunuzdur və Siz ona etibar edə bilərsiniz. Təşəkkür edirəm!

* * *

*Azərbaycan və Fransa prezidentləri tikiləcək liseyin stendinə baxdılar.*

*Sonra Fransız liseyinin təməli qoyuldu.*

*Prezident İlham Əliyev və prezident Nikola Sarkozi gilizi təmələ buraxdılar. Dövlət başçıları və Azərbaycanın birinci xanımı təmələ beton qarışığı tökdülər.*

*Bildirildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunacaq lisey ölkəmizdə müvəqqəti və daimi yaşayan fransızdilli əcnəbi vətəndaşların və Azərbaycan vətəndaşlarının bu dildə təhsil almalarına geniş imkanlar yaradacaqdır. Fransız məktəbinin tədris planı uşaq bağçasından başlayaraq 12 illik ümumi təhsil müəssisəsində tətbiq edilən klassik fransız tədris planı olacaqdır. Tədris proqramı Fransa milli təhsil sisteminin tələblərinə uyğun olaraq fransız dilində aparılacaqdır. Şagirdlərə veriləcək attestat Fransa Milli Təhsil Nazirliyinin standartlarına və tələblərinə cavab verəcək və nazirlik tərəfindən tanınacaqdır. Məktəbin məzunları öz seçimlərinə uyğun olaraq təhsillərini Fransanın istənilən ali təhsil müəssisəsində davam etdirmək imkanı qazanacaqlar.*

*Fransa prezidentinin diqqətinə çatdırıldı ki, bu təhsil ocağı Bakının «Ağ şəhər» adlanan ərazisində inşa olunacaqdır. Dünyada şəhərsalma sahəsində həyata keçirilən ən iri və nadir layihələrdən olan «Bakı Ağ şəhər» layihəsinin maraqlı tərəflərindən biri də burada Paris məhəlləsinin salınmasıdır.*

*Azərbaycanın və Fransanın dövlət başçıları ölkəmizdə fəaliyyət göstərən fransız iş adamları ilə görüşdülər, onlara fəaliyyətlərində uğurlar arzuladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Fransa prezidenti Nikola Sarkozini vətənə yola saldılar.*

## BAKIDA KEÇİRİLƏN BOKS ÜZRƏ XVI DÜNYA ÇEMPİONATININ FİNAL MƏRHƏLƏSİNDƏ İŞTİRAK

*Heydər Əliyev adına İdman-Konsert Kompleksi*

*8 oktyabr 2011-ci il*

*Bakıda keçirilən boks üzrə XVI dünya çempionatı oktyabrın 8-də başa çatmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Beynəlxalq Boks Assosiasiyasının prezidenti Çinq-Kuo Vu Heydər Əliyev adına İdman-Konsert Kompleksində keçirilən çempionatın final mərhələsinin qarşılaşmalarını izləmişlər.*

*Final mərhələsini izləyən tamaşaçılar və idmançılar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Son illərdə Azərbaycanda yüksək səviyyəli beynəlxalq yarışların keçirilməsi ölkəmizin dünya idman ailəsində tutduğu layiqli yerdən xəbər verir. Bunu sentyabrın 26-dan oktyabrın 8-dək Bakıda, Heydər Əliyev adına İdman-Konsert Kompleksində keçirilən boks üzrə XVI dünya çempionatı təsdiqləyir. Bundan əvvəl paytaxt Bakıda yeniyetmələr və gənclər arasında boks üzrə dünya birincilikləri uğurla təşkil olunmuşdur. Böyüklər arasında boks üzrə dünya çempionatı isə respublikamızda ilk dəfə keçirilmişdir.*

*Təqdirəlayiq haldır ki, MDB məkanında məhz Azərbaycan ilk dəfə belə bir möhtəşəm yarışa ev sahibliyi etmişdir. Bu cür yüksək səviyyəli beynəlxalq yarışlar keçmiş sovetlər məkanında yalnız 1989-cu ildə Moskvada keçirilmişdir. Boks üzrə XVI*

*dünya çempionatına 113 ölkədən 570 boksçu qatılmışdır. Yarış 2012-ci ildə Londonda keçiriləcək Yay Olimpiya oyunlarına lisenziya xarakteri daşıyırdı. 75 kiloqram çəki dərəcəsində Soltan Migitinov WSB liqasından London Olimpiadasına vəsiqə qazandığından çempionatda bu çəki dərəcəsində boksçumuz iştirak etməmişdir.*

*Bakıdakı dünya çempionatında 92 idmançı London Olimpiadasına vəsiqə qazanmışdır. Azərbaycan idmançılarından 64 kiloqram çəki dərəcəsində Heybətulla Hacıəliyev, 52 kiloqram çəki dərəcəsində Elvin Məmişzadə yarışların gedişində artıq Yay Olimpiya oyunlarına vəsiqəni təmin etmişdilər.*

*Çempionatın final mərhələsində 10 çəki dərəcəsi üzrə 20 idmançı mübarizə aparmışdır. Final mərhələsində Azərbaycanı iki idmançı təmsil etmişdir. 91 kiloqramda mübarizə aparan Azərbaycan boksçusu Teymur Məmmədov ukraynalı Aleksandr Usik ilə qarşılaşmışdır. Gərgin idman mübarizəsində keçən oyunda məğlub olan Azərbaycan boksçusu dünya çempionatında gümüş medal qazanmışdır.*

*91 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan Azərbaycan boksçusu Məhəmmədrəsul Məcidov isə İngiltərə idmançısı Entoni Coşuanı məğlub edərək, dünya çempionatının Qızıl medalına sahib olmuşdur.*

*Boks üzrə XVI dünya çempionatında milli komandamız 9 çəki dərəcəsində təmsil olunmuş və London Yay Olimpiya oyunlarına 4 lisenziya qazanmışdır. Azərbaycan komanda hesabında Ukrayna və Kubadan sonra üçüncü yerdə qərarlaşmışdır.*

*Sonra idmançıların mükafatlandırılması mərasimi oldu. Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev qalib idmançılara medalları təqdim etdi. Azərbaycan boksçusunun qələbəsinin şərəfinə Dövlət himni səsləndi.*

# «XXI ƏSR: ÜMİDLƏR VƏ ÇAĞIRIŞLAR» DEVİZİ İLƏ BEYNƏLXALQ HUMANİTAR FORUMUN AÇILIŞI MƏRASİMİ*

*«Gülüstan» sarayı*

*10 oktyabr 2011-ci il*

*Oktyabrın 10-da Bakıda «Gülüstan» sarayında «XXI əsr: ümidlər və çağırışlar» devizi ilə Beynəlxalq Humanitar Forum öz işinə başlamışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva forumun açılışı mərasimində və birinci plenar iclasında iştirak etmişlər.*

*Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir. Forumun keçirilməsi haqqında qərar 2010-cu ilin yanvarında Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə I Azərbaycan–Rusiya Forumunda qəbul edilmişdir.*

*Forumun işində 20-dən çox ölkənin və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri, o cümlədən mədəniyyət və incəsənət xadimləri, aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri, ictimai xadimlər iştirak edirdilər. Dövlətimizin başçısı forumun açılışında nitq söylədi.*

---

* Цмидляр вя чаьырышлар» девизи иля Бейнялхалг Щцманитар Форумун ачылышы мярасиминдя Русийа Федерасийасы Президент Администрасийасынын рящбяри Серэей Нарышкин, Тцркийянин ЫХ президенти Сцлейман Дямирял, Бирляшмиш Штатларын Азярбайъандакы сяфири Мятйу Брайзя, Авропа Шурасы Парламент Ассамблейасынын сядри Мювлуд Чавушоьлу, ЙУНЕСКО-нун баш директорунун коммуникасийа вя информасийа мясяляляри цзря мцавини Йанис Карклинс, ИСЕСКО-нун баш директору Ябдцлязиз бин Осман Тцвейъри чыхыш етдиляр.

* * *

**İ l h a m   Ə l i y e v:** Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Mən sizin hamınızı Azərbaycanda salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Bu gün və sabah Bakıda çox əlamətdar forum işləyəcəkdir. Foruma gəlmiş nümayəndələr bizim əziz qonaqlarımızdır. Əminəm ki, iki gün ərzində forum çərçivəsində aparılacaq fikir mübadiləsi, səslənəcək təkliflər humanitar sahədə əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcəkdir.

Bakı Birinci Beynəlxalq Humanitar Forumunun keçirilməsi ilə bağlı təşəbbüsü Rusiya və Azərbaycan ziyalıları irəli sürmüşlər. Rusiya və Azərbaycan rəhbərliyi də bu təşəbbüsü dəstəkləmişlər. Ölkəmizdə son illər mütəmadi qaydada humanitar əməkdaşlığa dair beynəlxalq tədbirlər keçirilir. Bakı prosesinin təməli 2008-ci ildə qoyulmuşdur. O vaxt Bakıda Avropa Şurasına üzv Ölkələrin Mədəniyyət Nazirlərinin Toplantısına biz İslam Əməkdaşlığı Təşkilatının nümayəndələrini, nazirləri dəvət etmişdik və ilk dəfə olaraq birgə beynəlxalq tədbir keçirilmişdir. 2009-cu ildə isə İslam Əməkdaşlığı Təşkilatına üzv ölkələrin nazirlərinin Bakıda keçirilən toplantısına Avropa Şurası ölkələrinin nazirləri də dəvət edilmişdi. 2010-cu ildə Bakıda Dünya Dinləri Liderlərinin zirvə görüşü keçirilmişdir və mən o tədbiri çox yaxşı xatırlayıram. Həm müzakirələr, həm də qəbul edilmiş qərarlar sivilizasiyalararası dialoqun möhkəmlənməsinə dəyərli töhfəsini vermişdir. Keçən il paytaxtımızda başqa beynəlxalq tədbirlər keçirilmişdir. Bu ilin aprel ayında Bakıda Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi də əlamətdar hadisə kimi tarixdə qalmışdır. Bu, gözəl ənənədir.

Ümid edirəm ki, bugünkü tədbir və bundan sonra Azərbaycanda keçiriləcək növbəti beynəlxalq forumlar arzularımızı reallaşdıracaq. Arzularımız ondan ibarətdir ki, bütün xalqlar, ölkələr bir-biri ilə daha da səmimi münasibətdə olsunlar, qarşılıqlı anlaşma dərinləşsin, beynəlxalq əməkdaşlıq üçün

əlverişli şərait yaradılsın. Əsrlər boyu Azərbaycanda müxtəlif mədəniyyətlərə mənsub olan xalqlar ölkədə hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bir ailə kimi yaşamışlar. Heç vaxt Azərbaycanda milli, yaxud dini zəmində heç bir qarşıdurma, anlaşılmazlıq olmamışdır, Azərbaycan bu ənənələrə sadiqdir.

Bizim təcrübəmiz göstərir ki, müxtəlif mədəniyyətlərə, dinlərə mənsub xalqlar mehribanlıq, sülh, əməkdaşlıq şəraitində yaşaya bilərlər. Ölkəmizdə bu səpkidə keçirilən tədbirlərin ənənəvi xarakter alması təbiidir və mən çox şadam ki, dəvətimizi qəbul edib forumda iştirak edən görkəmli ictimai xadimlər bu gün qonaqlarımızdır. Əminəm ki, forum çərçivəsində aparılan diskussiyalar, yaradılacaq təmaslar bizi daha da sıx birləşdirəcəkdir. İndiki qloballaşan dünyada belə tədbirlərin keçirilməsinin çöx böyük əhəmiyyəti vardır.

Bu gün Azərbaycan müstəqil ölkə kimi, həm Avropa Şurasının, həm də İslam Əməkdaşlığı Təşkilatının üzvüdür. Sivilizasiyaları, dünya dinlərini birləşdirmək, əməkdaşlığı dərinləşdirmək üçün hesab edirəm ki, bizim ölkə kifayət qədər böyük səylər göstərir. Bakı prosesi 2008-ci ildən bu günə qədər uğurla inkişaf edir. Əminəm ki, növbəti illərdə bu proses çərçivəsində əlavə tədbirlərin keçirilməsi işimizə böyük dəstək olacaqdır.

Azərbaycanda bütün dövrlərdə humanitar sahəyə çox böyük diqqət göstərilmişdir. Elmin, təhsilin inkişafı, səhiyyə, mədəniyyət, idman sahələrində yaşanan inkişaf bütövlükdə humanitar sektorun inkişafına xidmət göstərir. Bu sahələr üzrə ölkədə konkret proqramlar vardır. Proqramlar icra edilir. Bu sahə gələcəkdə də prioritet olacaq və çalışacağıq ki, nəzərdə tutulan bütün vəzifələr uğurla icra edilsin.

Humanitar sahə hər bir ölkə üçün çox vacibdir. Bu da doğrudur ki, humanitar sahəyə diqqət göstərmək üçün ölkənin maliyyə imkanları da olmalıdır. Müstəqilliyimizin ilk illərində biz böyük çətinliklər içərisində yaşamışıq. Azərbaycanda iqtisadi, siyasi böhran yaşanırdı. Bu sahəyə lazımi dərəcədə diqqət göstərilmirdi. Ona görə yox ki, bu diqqətdən kənarda qalmışdır. Ona görə ki,

maliyyə imkanlarımız yox idi. Bu gün Azərbaycan dünya miqyasında iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkədir. Humanitar sahənin inkişafı bizim üçün prioritetdir. Bu sahəni inkişaf etdirmək üçün bizdə imkanlar vardır. Hər bir ölkənin inkişafını təmin edən təbii resurslar deyil, humanitar amildir. Bir neçə il bundan əvvəl irəli sürülən, «qara qızıl»ı insan kapitalına çevirək tezisi bu gün reallıqdır. Minlərlə Azərbaycan gənci dünyanın aparıcı ali məktəblərində təhsil alır. Azərbaycanda təhsil sahəsində aparılan islahatlar əminəm ki, yaxın gələcəkdə daha da yaxşı nəticələrə gətirib çıxaracaqdır. Elmin inkişafı, gəncləri elmə cəlb etmək üçün konkret proqramlar icra edilir. Bu yaxınlarda qəbul edilmiş «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramının icrası da bu məqsədi güdür.

Bu gün və gələcəkdə ölkələrin uğurlu inkişafını müəyyən edən elmi-texniki tərəqqidir. Üstünlüyümüz ondan ibarətdir ki, biz təbii ehtiyatlardan səmərəli şəkildə istifadə edirik. Yoxsulluq şəraitində yaşayanların sayı son 7 ildə Azərbaycanda 5 dəfə, yəni 500 faiz aşağı düşmüşdür. Ancaq bütün müsbət meyillərlə yanaşı, humanitar sahədə çətinliklər də vardır. Ən böyük çətinliyimiz odur ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış torpaqları uzun illərdir işğal altındadır. Bu, böyük humanitar fəlakətdir. Bir milyondan çox Azərbaycan vətəndaşı öz doğma torpağında qaçqın, məcburi köçkün şəraitində yaşayır. Azərbaycana qarşı etnik təmizləmə siyasəti aparılmışdır və Ermənistanın işğalçı siyasəti nəticəsində Azərbaycana həm maddi ziyan, həm mənəvi zərbələr vurulmuşdur. Ümid edirik ki, yaxın gələcəkdə bu münaqişə həllini tapacaq, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa ediləcəkdir. Bunu etmək üçün hüquqi zəmin kifayət qədər güclüdür. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır və orada göstərilir ki, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmalıdır. BMT-nin Baş Məclisi qətnamə qəbul etmişdir. Avropa Parlamenti, İslam Əməkdaşlığı Təşkilatı, Avropa Şurası, ATƏT, yəni bütün beynəlxalq təşkilatlar bizim mövqemizi gücləndirərək münaqişə ilə bağlı çox dəyərli qərarlar və qətnamələr qəbul etmişlər.

Əfsuslar olsun ki, bu qərarların həyata keçirilməsi hələ mümkün olmamışdır. Əhalinin hər min nəfərinə düşən qaçqınların sayına görə, əfsuslar olsun ki, Azərbaycan dünyada birinci yerdədir. Bu münaqişəyə tezliklə son qoyulmalıdır və vətəndaşlarımız doğma torpaqlarına qayıtmalıdırlar. Bu onların hüququdur. Ədalət bərpa edilməlidir. Son illər ölkəmizdə bütün sahələrdə yaşanan inkişaf bizi ruhlandırır, məsuliyyətimizi artırır. Bu gün regional işlərdə Azərbaycan tərəfindən irəli sürülən təşəbbüslər nəinki ölkəmiz üçün, bölgə üçün böyük əhəmiyyət daşıyır. İqtisadi və siyasi təşəbbüslərimiz bir məqsədi güdür: Azərbaycan xalqı daha yaxşı yaşasın. Qonşuluqda yaşayan insanlar daim əlaqədə olsunlar. Regional təşəbbüslərimizin məqsədi ondan ibarətdir ki, qonşu ölkələrlə əlaqələrimizi gücləndirək. Bu gün bu belədir. Azərbaycanın qonşuları ilə çox səmimi və konstruktiv münasibətləri mövcuddur. Dünya ölkələri ilə münasibətlərimiz çox sağlam zəmində qurulmuşdur. Bu il biz müstəqilliyimizin iyirmi illik yubileyini qeyd edirik. İyirmi ildə ölkəmiz böyük yol keçmişdir. Bu forumun Azərbaycanda keçirilməsi, dünyada tanınmış və hörmətli ictimai xadimlərin forumda iştirakı mənim sözlərimin təsdiqidir. Bizim hər birimiz – ictimai xadimlər, siyasətçilər, cəmiyyətdə nüfuz sahibləri olan insanlar çalışmalıyıq, elə etməliyik ki, gələcəkdə xalqlararası əlaqələr daha da güclənsin. Buna böyük ehtiyac vardır. Bu bir zərurətdir. Əgər Azərbaycanda milli zəmində, dini zəmində hər hansı bir xoşagəlməz hal olsaydı, bu, ölkəmiz üçün böyük fəlakət olardı. Bizim həm dövlət siyasətimiz, həm də cəmiyyətdə mövcud olan ab-hava və cəmiyyətdən gələn siyasi sifariş onu diktə edir ki, biz bu məsələlərə daim diqqət göstərməliyik, siyasətimizi inamla və müvəffəqiyyətlə irəli aparmalıyıq. Bu gün dünyada multikulturalizm haqqında kifayət qədər geniş diskussiyalar aparılır. Forumun mövzularından biri də multikulturalizmdir. Son illər bu məsələ ilə bağlı müxtəlif səpkidə diskussiyalar aparılır. Deyə bilərəm ki, bir anlayış, bir termin kimi, multikulturalizm nisbətən yeni bir ifadədir. Ancaq biz Azərbaycanda əsrlər boyu multikulturalizm şəraitində yaşamışıq. Həyatımız, xüsusilə son iyirmi il ərzində müstəqil ölkə kimi, təcrübə-

miz göstərir ki, multikulturalizmin gələcəyi vardır. Biz bunu tam əminliklə deyirik. Nəinki Azərbaycanda, bir çox ölkələrdə və qonşu ölkələrdə multikulturalizmin böyük ənənələri vardır. Ona görə də bu gün multikulturalizmi şübhə altına qoymaq, yaxud onun iflası haqqında danışmaq, hesab edirəm ki, həm yersizdir, həm zərərlidir.

Multikulturalizmin alternativi özünütəcriddir. Mən inanmıram ki, XXI əsrdə, qloballaşan dünyada hər hansı bir siyasi qüvvə özünütəcrid siyasətini aparmağa cəhd etsin. Multikulturalizmin dəyərləri möhkəmləndirilməlidir. Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, xalqları birləşdirir. Hər bir ölkənin öz qaydaları, ənənələri vardır. Hər bir insan – həm ölkənin vətəndaşı, həm ölkəyə gələn qonaq o qaydalara, o ənənələrə hörmətlə yanaşmalıdır. Mən əminəm ki, bizim bu gün keçirdiyimiz forum multikulturalizmin təsdiqidir, onun təntənəsidir.

Əziz dostlar, bu gün və sabah müzakirələr zamanı, əlbəttə ki, çox dəyərli fikirlər səslənəcəkdir. Əminəm ki, bu fikirlər ümumi işimizə öz töhfəsini verəcəkdir. Mən bir daha sizi Azərbaycanda ürəkdən salamlayıram. Mən çox şadam ki, I Bakı Beynəlxalq Humanitar Forumu bu gün işinə başlayır. Əminəm ki, forumun doğrudan da çox ciddi nəticələri, gözəl qərarları olacaqdır. Bakı və Azərbaycan ilə tanış olmaq üçün sizə yaxşı imkanlar yaradılacaqdır. Azərbaycana ilk dəfə gələn qonaqlar şəhərimizlə tanış olacaqlar. Yəqin ki, bu gün Azərbaycan haqqında, Azərbaycanda yaşanan inkişaf haqqında sizin özünüzün də təəssüratlarınız olacaqdır.

Mən forumun təşkilində iştirak etmiş, bu təşəbbüsü irəli sürmüş və dəstəkləmiş bütün insanlara minnətdarlığımı bildirmək istəyirəm.

Forumun işinə uğurlar arzulayıram.

Sağ olun.

# TÜRKİYƏ RESPUBLİKASININ IX PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Türkiyə Respublikasının IX Prezidenti Süleyman Dəmirəli qəbul etmişdir.*

*Görüşdə ulu öndər Heydər Əliyev ilə Süleyman Dəmirəlin keçirdiyi görüşlər, onların arasında olan dostluq münasibətləri məmnunluqla xatırlandı, Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyəti vurğulandı, Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin gələcəkdə də daim möhkəmlənəcəyinə əminlik ifadə olundu.*

*Dövlətimizin başçısı dəvəti qəbul edib Beynəlxalq Humanitar Forumda iştirak etdiyinə görə Türkiyənin IX prezidentinə minnətdarlığını bildirdi.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkiyə Respublikasının IX Prezidenti Süleyman Dəmirəlin şərəfinə nahar verildi.*

## RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası və Rusiya Federasiyası tərəfindən əsası qoyulan Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyəti qeyd olundu, bu tədbirin beynəlxalq əməkdaşlığın genişlənməsi, xalqların və ölkələrin bir-birinə daha da yaxınlaşması işinə xidmət edəcəyi vurğulandı.*

*Görüşdə, həmçinin Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla qeyd edildi, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## SLOVAKİYANIN KEÇMİŞ PREZİDENTİ RUDOLF ŞUSTER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Slovakiyanın keçmiş prezidenti Rudolf Şusteri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rudolf Şuster arasında bundan əvvəlki görüşlər məmnunluqla xatırlandı, Bakıda keçirilən Beynəlxalq Humanitar Forumun əhəmiyyəti qeyd olundu, tədbirin ölkələrarası, mədəniyyətlərarası dialoqun daha da genişləndirilməsi baxımından önəmi vurğulandı.*

*Slovakiya Respublikasının keçmiş Prezidenti Rudolf Şuster Bakıda gedən nəhəng quruculuq, abadlıq işlərinin şahidi olduğunu dedi və bunu yüksək qiymətləndirdi.*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlunu qəbul etmişdir.*

*Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətini qeyd edən Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlu bu ilin aprelində Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun da yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Mövlud Çavuşoğlu Avropa Şurası Parlament Assambleyasının önəm verdiyi məsələlərlə bağlı tədbirlərin ölkəmizdə uğurla təşkil olunması münasibətilə şəxsən prezident İlham Əliyevə təbriklərini çatdırdı.*

*Bakı Beynəlxalq Humanitar Forumunun Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun bir növ davamı olduğunu vurğulayan dövlətimizin başçısı bu cür tədbirlərin ölkəmizdə keçirilməsinin artıq ənənə halı aldığını dedi. Prezident İlham Əliyev dəvəti qəbul edib forumda iştirakına görə Mövlud Çavuşoğluna təşəkkürünü bildirdi.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə edildi.*

## YUNESKO-nun KEÇMİŞ BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyeva oktyabrın 10-da YUNESKO-nun keçmiş baş direktoru Koişiro Matsuura ilə görüşmüşlər.*

*Bakıda keçirilən Beynəlxalq Humanitar Forumun əhəmiyyətinə toxunan YUNESKO-nun keçmiş baş direktoru Koişiro Matsuura son illər ölkəmizdə çox mühüm humanitar təşəbbüslərin həyata keçirildiyini vurğuladı. Koişiro Matsuura dünyanın görkəmli alimlərinin və ictimai xadimlərinin forumda iştirakını tədbirə olan beynəlxalq marağın ifadəsi kimi qiymətləndirdi.*

*Dövlətimizin başçısı YUNESKO-nun keçmiş baş direktoru Koişiro Matsuuranı yenidən ölkəmizdə görməyindən məmnunluğunu bildirdi. Bakı Beynəlxalq Humanitar Forumunu əhəmiyyətli hadisə kimi dəyərləndirən prezident İlham Əliyev ölkəmizin artıq beynəlxalq humanitar təşəbbüslərin mərkəzinə çevrildiyini vurğuladı.*

## BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*«Buta» sarayı*

*10 oktyabr 2011-ci il*

*Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarının şərəfinə «Buta» sarayında verilmiş rəsmi ziyafətdə iştirak etmişlər.*

*Mərasim iştirakçıları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

**İ l h a m Ə l i y e v**: Hörmətli qonaqlar, əziz dostlar!

Mən sizin hamınızı bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Bu gün I Bakı Beynəlxalq Humanitar Forumu öz işini uğurla davam etdirib. Birinci gün çox uğurlu oldu. Forum çərçivəsində səslənən fikirlər humanitar sahədə əməkdaşlığa böyük töhfə verdi.

Bu forumda iştirak etmiş bütün qonaqları səmimiyyətlə salamlayıram. Xüsusilə, mənim həmkarlarımı – sabiq prezidentləri, beynəlxalq təşkilatların rəhbərlərini, görkəmli dövlət xadimlərini, ictimai xadimləri, qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyətinin üzvlərini, jurnalistləri salamlayıram. Hesab edirəm ki, Bakı Beynəlxalq Humanitar Forumu dünya miqyasında özünə layiq yerini tutacaqdır. Ümid edirəm ki, bu forumun gələcəyi çox gözəl olacaqdır.

*Sonra Xalq artisti Teymur Göyçayevin rəhbərliyi ilə Qara Qarayev adına Azərbaycan Dövlət kamera orkestrinin konserti oldu.*

# «ƏL-CƏZİRƏ» TELEVİZİYA KANALINA MÜSAHİBƏ

*11 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də «Əl-Cəzirə» televiziya kanalının müxbiri Devid Frosta müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, Sizinlə burada, Bakıda görüşməkdən çox məmnunam. Sovet İttifaqının dağılmasından 20 il ötür. Bu 20 il ərzində Azərbaycanda hansı dəyişikliklər baş vermişdir? Sovet dövründən sonra həyat şəraiti nə dərəcədə dəyişib?**

**C a v a b:** Siz dəyişiklikləri hər yerdə görə bilərsiniz. Ən əhəmiyyətlisi isə odur ki, xalqımız indi azad və müstəqildir. Azərbaycan böyük tarixə, mədəniyyətə və ənənələrə malikdir. Lakin biz əsrlər boyu müstəqillikdən məhrum olmuşuq, başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq. İndi biz azadıq, gələcəyimiz Azərbaycan xalqının öz əlindədir. Digər əhəmiyyətli dəyişiklik isə indi Azərbaycanın demokratik sistemə və əvvəlki vaxtlardan fərqli olaraq bazar iqtisadiyyatına malik olmasıdır. Əvvəllər azad və müstəqil olmamaqla yanaşı, həm də çox məhdud ideoloji çərçivələrdə, özəl mülkiyyətin fəaliyyətinə icazə verilmədiyi avtoritar və totalitar sistemdə yaşamışıq. Biz iqtisadiyyatımızı tamamilə transformasiya edə bildik və indi ÜDM-in 80 faizi özəl sektorun payına düşür. 20 il əvvəl bu rəqəm sıfıra bərabər idi. Paytaxtın, regionların inkişafı ilə bağlı bir çox digər dəyişiklikləri də görə bilərsiniz. Enerji siyasəti Azərbaycanı tərəqqiyə aparır. İndi bizim malik olduğumuz hər şey – təbii sərvətlər, sənaye potensialımız Azərbaycan xalqının əlindədir və xalqımızın gələcəyinə xidmət edir.

**S u a l: Mən ABŞ prezidentinin Azərbaycandakı gənc demokratiya ilə bağlı söhbətini dinləmişəm. Siz mükəmməl**

**demokratiya istiqamətində nə qədər irəli getmisiniz? Gənc demokratiyaya malik olan bir ölkəsiniz, insan hüquqları və ya hər hansı başqa məsələlərlə bağlı nələri edəcəksiniz, nələri etmək niyyətindəsiniz? Gənc demokratiyadan mükəmməl demokratiyaya necə keçirsiniz?**

**C a v a b:** Düşünürəm ki, son 20 ildə mühüm nailiyyətlər əldə etmişik. Başlıcası və ən əhəmiyyətlisi Azərbaycanın inkişafla bağlı strateji seçimi olmuşdur. Müstəqilliyimizin əldə edildiyi illərdə, xüsusilə də müstəqilliyimizin ilk illərində, burada vəziyyət indikindən tamamilə fərqli idi. Azərbaycanın özünü necə transformasiya etməsi, xalqın hansı sistemi qəbul edəcəyi böyük sual altında idi. Demokratik dövlətin qurulması ilə bağlı strateji seçim edildi. O vaxtdan bəri görülən bütün işlər həmin strateji seçimin nəticəsidir.

Bu gün bizdə demokratik təsisatlar, azad mətbuat mövcuddur, internetdən istifadə sərbəstdir və məlumdur ki, heç də hər ölkədə internetə sərbəst qoşulma imkanı yoxdur. Azərbaycanda əhalinin 50 faizdən çoxu internetdən istifadə edir. Biz müxtəlif beynəlxalq təşkilatlara qoşulmuşuq, məsələn, 10 ildir ki, əsas gündəliyi insan hüquqları və demokratiya məsələləri olan Avropa Şurasının üzvüyük. Həmçinin Azərbaycan könüllü şəkildə Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» Proqramına qoşulmuşdur. Bir daha qeyd etmək istərdim ki, biz bunu könüllü şəkildə etdik. Beləliklə, bütün bunlar bizim strateji seçimimizin göstəricisidir. Biz iqtisadiyyatımızı və həmçinin siyasi sistemimizi gücləndiririk, məqsədimiz inkişaf etmiş ölkəyə çevrilməkdir. Güclü demokratik təsisatlar olmadan bu mümkün deyildir. Ona görə də Azərbaycanda siyasi, demokratik və iqtisadi islahatlar eyni vaxtda həyata keçirilir. İqtisadi inkişaf olmadan demokratik nailiyyətlər az səmərəli olar. Buna görə də biz həyat səviyyəsinin daha da yüksəldilməsinə, yoxsulluq və işsizliyin aradan qaldırılmasına, güclü orta təbəqənin, güclü özəl sektorun yaradılmasına böyük önəm veririk. Bu da iqtisadi azadlığa və siyasi azadlığa gətirib çıxarır.

**S u a l: Deməli, siyasi azadlıq indi qeyd etdiklərinizin «əlavə məhsulu»dur?**

**C a v a b:** Bu bir tərəfdən, iqtisadi inkişafın nəticəsidir, digər tərəfdən isə siyasi azadlıqlar olmadan iqtisadi artıma nail olmaq mümkün deyildir. Bu xüsusilə, müstəqilliyinin ilk illərində əsasən xarici investisiyalar hesabına inkişaf edən və qeyd etdiyiniz kimi, gənc demokratiyaya malik, nisbətən gənc müstəqil dövlət olan Azərbaycana aiddir. Əlbəttə ki, xarici sərmayələri cəlb etmək üçün əlverişli investisiya mühitinə, möhkəm hüquqi bazaya, qanunun aliliyinə malik olmaq lazımdır. Əks təqdirdə kimsə gəlib sərmayə yatırmaz. Bu bizə iqtisadi potensialımızı inkişaf etdirməyə və demokratik dövlət qurmağımıza kömək etdi.

**S u a l: 20 il bundan əvvəlki tarixi dəyişikliyə gəldikdə, bu yəqin ki, 1991-ci ilin avqustunda Qorbaçovu devirmək üçün edilmiş uğursuz cəhdlə başladı. Bu hadisə həqiqətən, Azərbaycanın azadlığına aparırdı, elə deyilmi?**

**C a v a b:** Əslində bütün keçmiş Sovet İttifaqı ölkələri bu tarixi prosesin nəticəsində müstəqil oldular. Bəziləri deyir ki, müstəqillik uğrunda güclü hərəkat olmuşdu. Bəzi respublikalarda güclü hərəkat olmuşdu, bəzilərində isə yox. Lakin buna baxmayaraq, bütün respublikalar müstəqillik əldə etdilər. Beləliklə, bu, obyektiv bir proses idi və Sovetlər İttifaqının süqutu nəticəsində biz müstəqil olduq. Lakin o vaxt üçün ən əhəmiyyətli olan bu deyildi. Ən əhəmiyyətlisi, müstəqilliyi qoruyub saxlamaq idi. Çünki Azərbaycanın keçmişində belə bir təcrübə olmuşdu. 1917-ci ildə Rusiya imperiyasının dağılmasından, bolşevik inqilabından sonra Azərbaycan müstəqil oldu. 1918-ci ildə müsəlman aləmində ilk demokratik respublika məhz Azərbaycanda yaradıldı. Lakin bu, yalnız 2 il davam etdi. Sonra bu müstəqillik əlimizdən alındı. Növbəti müstəqilliyimiz 1991-ci ildə baş verdi. Sovet İttifaqının süqutu nəticəsində biz müstəqil olduq, lakin 2 il ərzində vətəndaş müharibəsi, Ermənistanın ölkəmizə təcavüzü, ermənilər tərəfindən torpaqlarımızın işğalı nəticəsində Azərbaycanda çox xaotik vəziyyət əmələ gəldi. Müstəqilliyimiz yenidən təhlükə

qarşısında idi. Xalqımız müstəqilliyimizi qorumaq üçün böyük müdriklik və cəsarət göstərdi. İyirmi il keçəndən sonra, bu gün Azərbaycan müstəqil və azad ölkəyə transformasiya olmağın yaxşı nümunəsidir.

**S u a l: Sizin atanız iki dəfə yeni Azərbaycanın lideri seçildi. Bir Prezident kimi, atanızın irsi barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Xalqımızın ümummilli lideri ölkəmizin ən çətin vaxtında hakimiyyətə gəldi. Bu, müstəqilliyimizi əldə etdikdən iki il sonra – 1993-cü ildə, vətəndaş müharibəsi getdiyi bir dövrdə oldu. Azərbaycan çox ağır vəziyyətdə idi. Ölkədə iqtisadi və siyasi böhran hökm sürürdü, torpaqlarımız Ermənistan tərəfindən işğal olunmuşdu və perspektivlərimiz çox qaranlıq idi. Heydər Əliyev prezident seçildikdən sonra ölkədə vəziyyətin sabitləşdirilməsinə və vətəndaş həmrəyliyinə nail oldu. Sonra onun rəhbərliyi altında ölkədə siyasi və iqtisadi islahatlar həyata keçirilməyə və bir neçə ildən sonra iqtisadiyyatımız inkişaf etməyə başladı. Siz Heydər Əliyev irsini hər yerdə görə bilərsiniz. Elə bugünkü Azərbaycan onun irsidir.

**S u a l: Cənab Prezident, mənə elə gəlir ki, ən əhəmiyyətli və eyni zamanda, ən incə məqamlardan biri də budur ki, coğrafi baxımdan mərkəzdə yerləşdiyinizdən Sizin həm Şərqlə, həm də Qərblə əlaqələrinizin davam etdirilməsi önəmlidir.**

**C a v a b:** Əsrlər boyu Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkan olmuşdur və bu gün həm Şərqlə, həm Qərblə əməkdaşlıq siyasətimiz də, düşünürəm ki, xalqımızın çoxəsrlik adət-ənənələrinin və ölkəmizin coğrafi yerləşməsinin nəticəsidir. Bu siyasəti həyata keçirmək bizim üçün çətin deyildir. Əgər sizin öz mövqeniz varsa, müstəqil siyasət yürüdürsünüzsə və əgər siz etibarlı tərəfdaşsınızsa, xarici siyasət təşəbbüslərini həyata keçirmək çox asan olur. Deyə bilərəm ki, bu gün bizim müsəlman dünyası ölkələri ilə çox yaxşı münasibətlərimiz vardır. İslam dünyasının bir hissəsiyik. Eyni zamanda, Avropa ölkələri ilə də yüksək səviyyədə

əlaqələrimiz qurulub, biz Avropa təsisatları ilə fəal əməkdaşlıq həyata keçiririk. Azərbaycan nadir ölkələrdəndir ki, həm Avropa Şurasının, həm də İslam Əməkdaşlığı Təşkilatının üzvüdür.

**S u a l: Cənab Prezident, Dağlıq Qarabağ münaqişəsinə toxunmaq istərdim. Siz yaxın perspektivdə bu münaqişənin sülh yolu ilə nizama salınmasını mümkün hesab edirsinizmi? Yaxud da Azərbaycan ilə Ermənistan arasında mövcud durum müharibəyə apara bilərmi?**

**C a v a b:** Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi region üçün ən böyük təhlükədir. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir. «Qarabağ» Azərbaycan sözüdür. Ötən əsrin 90-cı illərinin əvvəllərində təkcə Dağlıq Qarabağdan deyil, eləcə də ermənilərin heç zaman yaşamadıqları Dağlıq Qarabağ ətrafındakı 7 rayondan bütün azərbaycanlılar qovuldular. Ümumilikdə bizim 1 milyondan çox qaçqın və məcburi köçkünümüz vardır. Dağlıq Qarabağ tarixi nöqteyi-nəzərdən bizim torpağımızdır, hüquqi nöqteyi-nəzərdən də beynəlxalq birlik Dağlıq Qarabağı Azərbaycanın bir hissəsi kimi qəbul edir – BMT-nin Təhlükəsizlik Şurası tərəfindən erməni işğalçı qoşunlarının Azərbaycanın Dağlıq Qarabağ ərazisindən qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edilmişdir. Digər mötəbər beynəlxalq təşkilatlar tərəfindən də müvafiq qərar və qətnamələr qəbul edilmişdir.

Biz münaqişənin hələ də sülh yolu ilə nizama salınacağına ümid edirik. Münaqişənin həll olunması beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, erməni silahlı qüvvələri bütün işğal olunmuş ərazilərimizdən çıxarılmalı, azərbaycanlıların öz ata-baba yurdlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmaq hüququ olmalıdır. Dağlıq Qarabağa muxtariyyət statusu verilə bilər. Dünyada və Avropada muxtariyyətlərin yaxşı nümunələri vardır. Təmas xəttindəki vəziyyətə gəldikdə isə, burada vəziyyət çox kövrəkdir. Faktiki olaraq sülh yoxdur.

**S u a l: Sülh əldə olunmayıb?**

**C a v a b:** Xeyr, atəşkəs sazişinin 1994-cü ildə əldə edilməsinə baxmayaraq, hələ də sülhə nail olunmayıb, sülh yoxdur. Buna görə də heç kim təmas xəttində hər hansı bir ssenarini istisna edə bilməz. Münaqişə nə qədər tez həll edilərsə, hamı üçün, o cümlədən Ermənistan üçün də bir o qədər yaxşı olar.

**S u a l: Oxuduğum son məqaləyə görə, bu münaqişə nəticəsində 25 min insan həyatını itirmişdir.**

**C a v a b:** Müxtəlif rəqəmlər vardır, lakin hərbi əməliyyatlar zamanı, əlbəttə ki, itkilər olmuşdur, müharibə dövründə bizdə 12–15 min insan həlak olmuş və itkin düşmüşdür. Ermənilər nə qədər itki veriblər, bunu onların özləri daha yaxşı bilirlər.

**S u a l: Sizin də dediyiniz kimi, region baxımından hazırda bölgənin ən təhlükəli məsələsi odur ki, Dağlıq Qarabağla bağlı vəziyyət necə olacaq?**

**C a v a b:** Düşünürəm ki, bu münaqişənin proqnozlaşdırılması mümkün olmadığından ən təhlükəli münaqişədir. Nəyin baş verəcəyini proqnozlaşdırmaq olmur. Azərbaycanın bütün beynəlxalq hüquq normalarına, o cümlədən BMT Nizamnaməsinə əsasən, öz ərazi bütövlüyünü istənilən vasitə ilə bərpa etmək üçün tam hüququ vardır. Elə ölkələr var ki, onlar özünün yerləşdiyi əsas ərazidən min kilometrlərlə uzaqda ərazi bütövlüklərini bərpa etmişlər. Dağlıq Qarabağ Azərbaycanın mərkəzində yerləşir. Dağlıq Qarabağın Ermənistan ilə heç zaman inzibati sərhədi olmayıb. Hətta sovet dövründə bu ərazinin – o zamanlar Dağlıq Qarabağ Muxtar Vilayəti adlanırdı – Ermənistan ilə heç bir inzibati sərhədi yox idi. Dağlıq Qarabağın əhalisinin təqribən 30 faizi azərbaycanlılar idi. Buna görə də bizim ərazi bütövlüyümüzü istənilən yolla bərpa etməyə tam hüququmuz vardır. Lakin biz bunu sülh yolu ilə etmək istəyirik. Demək olar, 20 ildir ki, beynəlxalq vasitəçilər heç bir nəticə olmadan bu məsələ ilə məşğuldurlar.

**S u a l: Rusiyanın son zamanlar bizim azad ticarət zonası adlandırdığımız bu əraziləri bir-birinə yaxınlaşdırmaq məqsədi daşıyan ideyasına münasibətiniz necədir? Siz bu ideyanı bəyənirsiniz?**

**C a v a b:** Bizim keçmiş sovet respublikalarının bir çoxu ilə azad ticarət sazişlərimiz var və bunlar özünü doğruldur. Bu baxımdan iqtisadi əlaqələrimiz üçün heç bir problem yoxdur. Bizim Rusiya ilə ticarət dövriyyəmiz sürətlə artır. İqtisadi əməkdaşlıq və qarşılıqlı sərmayələr güclü iqtisadi əlaqələrin yaradılmasına kömək edir. Buna görə də bu yeni ideyaları və bunun nəyə aparacağını təhlil etmək indi mənim üçün çətindir. Lakin biz hər hansı potensial təşəbbüsü və ya potensial addımı qiymətləndirərkən, əlbəttə ki, onun iqtisadi cəhətdən cəlbediciliyinə baxırıq. Əgər bu daha yaxşı iqtisadi əməkdaşlığa apararsa, onu dəstəkləyərik. Biz həmişə o mahiyyəti əsas götürürük ki, xalqımıza, ölkəmizə nə verəcək, iqtisadi maraqlarımıza necə xidmət edəcəkdir.

**S u a l: Hər yerdə Putinin hakimiyyətə qayıdışı ehtimal olunur. Fikrinizcə, Putinin siyasəti davam edəcək, yoxsa tamamilə fərqli bir vəziyyət olacaqdır?**

**C a v a b:** Düşünürəm ki, bu, Azərbaycan üçün cənab Putinin siyasətinin davamı olacaqdır. Çünki 2003-cü ildən 2008-ci ilədək cənab Putin prezident olduğu müddətdə biz onunla dəfələrlə görüşmüşük. O, Azərbaycana səfərlər edib, mən Moskvaya səfərlər etmişəm. Rusiyanın Azərbaycan ilə bağlı bugünkü siyasətinin əsası faktiki olaraq Vladimir Putin tərəfindən qoyulmuşdur. O, Azərbaycana səfər etmiş ilk Rusiya prezidenti olub – 2001-ci ildə. Təsəvvür edin, Azərbaycanın 10 illik müstəqilliyi ərzində Rusiyanın əvvəlki prezidenti ölkəmizə heç vaxt səfər etməmişdi. Prezident Putin Azərbaycana gəldi və bu, Rusiya ilə Azərbaycan arasında əlaqələrdə dönüş nöqtəsi oldu. O vaxtdan bəri, son 10 il ərzində biz ikitərəfli münasibətlərdə – siyasi, iqtisadi, energetika sahələrində əməkdaşlıqda çox böyük inkişafa nail olmuşuq. Biz sərhədlərin demarkasiyası ilə bağlı saziş imzalamışıq. Bu da həmçinin tarixi bir sənəddir. Fikrimcə, bu gün Rusiya və Azərbaycan yaxşı qonşuluq nümunəsi göstərirlər. Bu siyasətin əsası Vladimir Putin tərəfindən qoyulub və prezident Medvedev tərəfindən davam etdirilib. Biz əminik ki, bu siyasət davam etdiriləcəkdir.

**S u a l: Ölkənizdə neft və qazın ixrac həcmi sahəsində bölgü olduğu kimi qalacaqmı? Nisbi həcm necədir?**

**C a v a b:** İndi bu müqayisəolunmazdır. Çünki ixracımızın əsas hissəsini neft təşkil edir. Biz təqribən 1 milyon barrel neft hasil edirik və bunun böyük bir hissəsi ixrac olunur. Yaxın vaxtlarda qaz ixrac edən ölkəyə çevrilmişik. Qaz ixracımız hələ ki, regional bazarla məhdudlaşır. Çox böyük qaz ehtiyatlarımız vardır. Azərbaycanda təsdiq olunmuş qaz ehtiyatları təxminən 2,6 trilyon kubmetrdir. Neftdən fərqli olaraq, qaz biznesində nəqliyyat sistemi istehlakçılara birbaşa çatdırılmalıdır. Bunun üçün yeni boru kəmərləri inşa edilməli, ya da mövcud olanlar genişləndirilməlidir. Bizim belə planlarımız var və düşünürəm ki, 7–10 ilə Azərbaycan dünyada neftdən çox qaza görə tanınacaqdır.

**S u a l: 10 il ərzində?**

**C a v a b:** Bəlkə də daha tez.

**S u a l: Siz üçüncü müddətə prezidentliyə namizədliyinizi irəli sürməyi planlaşdırırsınız? Bu barədə qərar vermisiniz?**

**C a v a b:** Xeyr, qərar verməmişəm. Bu, xalqın istəyindən asılıdır. Əgər xalq məni və gördüyüm işləri dəstəkləməkdə davam etsə, bu variantı nəzərdən keçirəcəyəm. Bu, insanların mənim fəaliyyətimi necə qiymətləndirmələrindən və onların verdiyi dəstəyin nə səviyyədə olmasından asılı olacaqdır.

**S u a l: Gənc demokratiyadan danışdıq, Siz vəziyyəti təhlil edərək dediniz ki, bu sahədə irəliləyişlər əldə olunub. Azad demokratiya, azad mətbuat və insan haqları məsələlərində daha da irəliyə getməyi düşünürsünüzmü? Bu istiqamətdə başladığınız yolda daha da irəli gedəcəksinizmi?**

**C a v a b:** Əlbəttə, gələcəkdə görüləsi çox işlər var. Biz bu uzun prosesin hələ başlanğıcındayıq. Son 20 ildə, hətta 20 ildən də az bir vaxtda çox böyük nailiyyətlər əldə olunub. Bir daha demək istəyirəm ki, ən vacibi strateji seçimdir. Biz bu yolu seçmişik və demokratik institutlarımızı inkişaf etdirməkdə, siyasi islahatlar keçirməkdə davam edəcəyik. O ki qaldı, əsas azadlıqlara, bu gün bununla bağlı heç bir məhdudiyyət yoxdur. Bir daha demək istəyirəm ki, azad internet, əhalisinin 50 faizi

internet istifadəçisi olan bir ölkədə azad mətbuat məhdudlaşdırıla bilməz.

**S u a l: Beləliklə, internetə çıxış – böyük azadlıq deməkdir? C a v a b:** Əlbəttə, bu, ifadə azadlığı, mətbuat azadlığıdır. Siyasi sistemin inkişaf etdirilməsinə gəldikdə, bu halda heç də hər şey bizim hökumətdən asılı deyildir. Çünki bütün siyasi qüvvələr də öz növbəsində dəyişməli, özlərini müasirləşdirməli, təcavüzkar hərəkətlərdən çəkinməlidirlər. Əgər biz siyasi sistemdən danışırıqsa, bu, siyasi sistemdir, təcavüzkar davranış növü deyildir. Düşünürəm ki, bizim hökumətin göstərdiyi yaxşı nümunə, həmçinin indi öz siyasi mədəniyyətlərinin ilkin mərhələsində olan müxtəlif siyasi qüvvələrin transformasiyasına müsbət təsir edə bilər. Bizim yaxşı nümunələrimiz var, bir daha demək istəyirəm, Azərbaycan 10 ildir ki, Avropa Şurasının üzvüdür. Biz Avropa İttifaqının tərəfdaşına çevrilirik. Demokratik islahatlar bu institutlarla əməkdaşlığın gündəliyinin bir hissəsini təşkil edir. Əgər demokratik islahatları davam etdirmək istəməsəydik, bunu dayandırardıq. Biz 2001-ci ilədək Avropa Şurasının üzvü olmadan da yaşayırdıq. Bu gün Azərbaycan özü-özünü təmin edən bir ölkədir. Heç yerdən heç bir maliyyə yardımına, maddi dəstəyə ehtiyacımız yoxdur. Əksinə, bəzən tərəfdaşlarımıza maliyyə cəhətdən dəstək veririk. Buna görə də bizim demokratik inkişafla bağlı öhdəliyimiz dəyərlərə, ölkəni necə dəyişmək istəyimizə dair baxışlarımıza əsaslanan şüurlu seçimimizdir.

**S u a l: Bir məsələni soruşmaq istəyirəm. Fikrimcə, daha mükəmməl demokratiyaya nail olmaq üçün müxalifətin yaradılması önəmlidir. Siz bunun üzərində işləmisinizmi?**

**C a v a b:** Bəli. Ancaq müxalifətin çox zəif olması faktı bizim günahımız deyildir. Biz onlara məhdudiyyət qoymuruq. Son illər Azərbaycanda görülən işlər onların məkanını daraldır. Çünki onların mübahisə aparması üçün ciddi heç nə yoxdur. Ən vacib məsələ – Dağlıq Qarabağ məsələsində bizim hökumət milli maraqlarımızın daha güclü müdafiəçisidir. Bizə bəzən belə

məlumatlar gəlib çatır ki, bəzi müxalifət liderləri bəzi xarici nümayəndələrlə şəxsi ünsiyyətləri zamanı, beynəlxalq qüvvələrin onları dəstəkləyəcəyi halda, Dağlıq Qarabağı Ermənistana vermək, təslim etmək niyyətlərini ifadə edirlər. Son bir neçə il ərzində iqtisadi sahədə biz inanılmaz nəticələr əldə etmişik. Buna görə də onlar üçün mübahisə aparmağa heç nə qalmayıb. Son 7 ildə ÜDM-in artımı 300 faiz olub – 3 dəfə. Yoxsulluğun səviyyəsi 49 faizdən 9 faizə düşüb – 5 dəfə azalıb. Büdcə xərcləri 20 dəfə, 20 faiz yox, 20 dəfə artıb. Çox güclü sosial müdafiə sistemi, infrastruktur layihələri yaratmışıq. Bu səbəbdən müxalifət nə barədə mübahisə edə bilər? Əlbəttə ki, çatışmazlıqlar da vardır. Ancaq hökumət nə qədər yaxşı işləsə, təbii ki, müxalifətin də manevr etmək üçün daha az imkanı qalır. Buna görə də yeni Azərbaycanda özlərinə necə yer tapmaq onların öz işidir. Əfsuslar olsun ki, bugünkü müxalifətə rəhbərlik edənlər 1992–93-cü illərdə ölkəni vətəndaş müharibəsinə aparan insanlardır. Eyni adamlar 20 ildir ki, eyni vəzifədə oturublar və istefa vermək istəmirlər.

**S u a l: İnsanlar vəzifəyə gələndə bəzən belə edirlər, istefa vermək istəmirlər. Ermənistan fikir irəli sürüb ki, müəyyən mənada, Avropa İttifaqına qoşulmaqda maraqlı ola bilər. Mən Sizin buna reaksiyanızı bilmək istərdim. Bəs Siz nə vaxtsa Avropa İttifaqına qoşulmağa cəhd etmisinizmi? C a v a b:** İlk növbədə demək istərdim ki, mən heç vaxt eşitməmişəm ki, Ermənistan açıq şəkildə belə bir öhdəlik götürdüyünü desin. Mən bu barədə heç vaxt eşitməmişəm. Azərbaycana gəldikdə, qeyd etdiyim kimi, hazırda biz Avropa İttifaqı ilə «Şərq Tərəfdaşlığı» Proqramı üzərində işləyirik. Əlbəttə, biz bilməliyik ki, Avropa İttifaqının Cənubi Qafqazla bağlı gündəliyi nədən ibarətdir və onlar üzv ölkə olmaq üçün Azərbaycanın potensialını və ya perspektivlərini necə qiymətləndirirlər. Səmimi deyirəm, bizim siyasətimiz elədir ki, biz heç vaxt əlçatmaz bir şeyə nail olmağa çalışmırıq. Biz realistik. Əgər belə bir təklif alarıqsa, bunu nəzərdən keçirərik. Əgər almasaq, «bizi qəbul edin, qəbul edin» – deyə qapını sındırmağa çalışmayacağıq. Bir daha demək

istəyirəm ki, biz güclü ənənələri olan bir ölkəyik. Biz müsəlman ənənələri olan bir ölkəyik və bununla fəxr edirik. Biz müasir, dünyəvi və özü-özünü təmin edə bilən ölkəyik. Buna görə də Avropa İttifaqı ilə münasibətlərimizin hazırkı inkişaf mərhələsində hər iki tərəf əməkdaşlığın səviyyəsindən tam razıdır və bəlkə də indi gələcəyə baxmaq tezdir.

**S u a l: Siz müxtəlif qəzetlərdə başlıqlar görəndə ki, Avropa Parlamenti Azərbaycanı insan haqlarının pozulmasında ittiham edir, işgəncəyə, ifadə azadlığına və s. istinad edildikdə, bu Sizə təsir edirmi? Yoxsa Siz deyirsiniz ki, belə bir şey var və biz bunu aradan qaldırmalıyıq. C a v a b:** Yox, biz bu cür qeyri-dost addımlara məhəl qoymuruq. Azərbaycana qarşı bu cür hərəkətləri irəli sürən həmin təşkilatlarda olan tərəfdaşlarımızla çox ciddi şəkildə müzakirə edirik. Bu cür hallar ikili standartların nəticəsidir. Əfsuslar olsun ki, 2008-ci ilin martında hakimiyyətin dinc etirazçıları, ordunun isə 10-dan çox insanı öldürdüyü və bir çox siyasətçinin həbs edildiyi qonşu Ermənistan ilə bağlı Avropa Parlamenti heç vaxt belə bir qətnamə qəbul etməyib. Niyə? Çox güman ki, Avropa ölkələrində mövcud olan güclü erməni lobbisinə görə. Ancaq Azərbaycanda az əhəmiyyətli hansısa bir epizod baş verdikdə, onların bəziləri bu məsələni şişirtməyə çalışır. Cənubi Qafqazın bütün ölkələrinə münasibətdə vahid, standart siyasət olmalıdır, istər həll edilməmiş münaqişələr olsun, istərsə də demokratik inkişaf. Əfsuslar olsun ki, Azərbaycana hücumlar etmək, ölkəmizi nüfuzdan salmağa çalışmaq və məsələləri tamamilə yanlış yöndə təqdim etmək beynəlxalq təşkilatlardakı bəzi dairələrin gündəliyində duran məsələlərdir. Bu bizə təsir etmir, cüzi qıcıqlandırır.

**S u a l: Çünki Siz bunu yoxlayırsınız və əgər düzgün deyilsə, inkar edirsiniz. C a v a b:** Əlbəttə. Avropa Parlamenti belə bir ədalətsiz, qərəzli və yanlış qətnamə qəbul edəndə, bizim parlament bunu inkar edən bəyanat verir. Əlbəttə ki, Azərbaycana qarşı hər hansı bir bədxah, ədalətsiz və qərəzli, bəzən isə təhqiredici hərəkətlər cavabsız qalmır. Biz bunlara

ciddi şəkildə və dəlillərlə cavab veririk. Biz bu dəlilləri gətirəndə deyiləsi bir şey qalmır. Nə üçün Cənubi Qafqazda, qonşuluqda doğrudan da narahatlıq doğuran hadisələrə deyil, yalnız Azərbaycana diqqət yetirilir? Nə üçün bütün diqqət Azərbaycanın üzərində cəmləşib? Bu sualı biz daim veririk və heç vaxt da bir cavab ala bilmirik.

**S u a l: Bəs cavab nədir? Nə üçün bu mənada Azərbaycan diqqət mərkəzindədir? Əgər, Siz dediyiniz kimi, belə deyilsə və digərlərində insan haqları daha pisdirsə, Siz deyirsiniz ki, burada insan haqları daha yaxşıdır və ya hər nə isə. Bəs diqqətin yönəlməyinin səbəbi nədir? Çünki bu elə bir məsələdir ki, müxtəlif vaxtlarda, dünyanın başqa yerlərində olan digər ölkələrdə də soruşa bilərlər. C a v a b:** Düşünürəm ki, bunun bir neçə səbəbi vardır. Hansı birinin ən vacib olduğunu dəqiq bilmək mənim üçün çətindir. Ancaq mən parlamentin üzvü olduğum zaman Azərbaycanın Avropa Şurasındakı nümayəndə heyətinə rəhbərlik edən və Avropa Şurasında iki ildən artıq çalışan bir şəxs kimi deyə bilərəm ki, orada Azərbaycanın Avropanın bir hissəsi olduğunu qəbul edə bilməyən insanlar vardı. Bəlkə də bu, fobiyanın bir növü idi. Biz hamımız bilirik ki, bəzi ölkələrdə islamofobiya var və bu, bəzi qərarlara təsir edir.

Digər bir səbəb Azərbaycanın coğrafi baxımdan, iqtisadi cəhətdən müstəqil və zəngin təbii ehtiyatları olan bir ölkə kimi, təkcə regional deyil, qlobal miqyasda çox vacib bir ölkəyə çevrilməsi ola bilər. Bu hərəkətlərin bir hissəsi bizə təzyiq etmək, təsir göstərmək, hücum etmək və bəzən xeyir əldə etmək cəhdlərindən də irəli gəlir. Azərbaycanın Avropa institutları ilə əlaqələri çox müsbətdir. Bizim Avropa İttifaqının üzvü olan, demək olar ki, bütün ölkələrlə, eləcə də Avropa Parlamenti, Avropa Komissiyası ilə ikitərəfli səviyyədə çox yaxşı əlaqələrimiz vardır. Mən dəfələrlə bu institutların rəhbərləri ilə görüşmüşəm, çox açıq və konstruktiv müzakirələr aparmışam. Buna görə də sizin istinad etdiyiniz bu cür qətnamələr çox da

əhəmiyyətli deyil və onlar əslində Avropa ilə Azərbaycan arasındakı əməkdaşlığın real ruhunu və səviyyəsini əks etdirmir.

**M ü x b i r: Əlbəttə, daha bir dünya təşkilatı Azərbaycana maraq göstərir, Azərbaycana cəlb olunub. Bu, «Eurovision» mahnı müsabiqəsidir. Bu digər bir mühüm beynəlxalq məsələdir.**

**İ l h a m Ə l i y e v:** Əslində, biz bunun beynəlxalq məsələyə çevriləcəyini gözləmirdik. Biz buna mahnı kontekstində yanaşırdıq. Ancaq bilirsiniz, bugünkü dünyada hər şey o qədər siyasiləşdirilib ki, musiqinin harada qurtardığını, siyasətin harada başladığını bilmirsən. Bu, əlbəttə, bizim gənc müsabiqə iştirakçıları üçün böyük uğur idi. Azərbaycanda böyük bayram oldu. Qələbədən sonra mən şərhlər eşitdim ki, Avropada çoxlu sayda insan soruşurdu: Azərbaycan harada yerləşir, Avropada yerləşir? Onlar bu müsabiqədə necə iştirak edə bilərlər? Axı Azərbaycan Avropada deyil. Bilirsiniz, belə düşüncələr mövcuddur. Düşünürəm ki, çox məşhur beynəlxalq mahnı müsabiqəsində böyük qələbədən savayı, bu bizə özümüzü olduğumuz kimi təqdim etməyə yaxşı imkan yaradacaqdır. Çünki Azərbaycana, Bakıya xoş niyyətlərlə gələn hər kəs ölkəmizin son 10 və ya 20 ildə nələr əldə etdiyini asanlıqla görə bilər. Təmaslara və ölkəmizin təqdimatına gəldikdə, bizim əsas işimiz qonaqları dəvət etməkdir. Əvvəlki dövrlərdə biz Azərbaycan haqqında danışmaq, ölkəmiz haqqında məlumat vermək, təqdimatlar etmək üçün müxtəlif ölkələrə nümayəndələr göndərirdik. İndi isə sözün yaxşı mənasında, ən gözəl təbliğat insanları dəvət etmək, onlara ölkənin necə inkişaf etdiyini əyani şəkildə göstərməkdir. Bu mənada Bakıda keçiriləcək «Eurovision» müsabiqəsi Azərbaycan ilə Avropanın bir-birinə daha da yaxınlaşması üçün yaxşı fürsət olacaqdır.

**M ü x b i r: Biz Sizə burada uğurlu müsabiqə keçirməyinizi arzulayırıq. Siz yenidən qalib gəlməyə bilərsiniz, demək istəyirəm ki, Siz bunsuz da uğurlu müsabiqə keçirəcəksiniz. Sizə xoş günlər arzulayırıq. Bu söhbətə görə çox sağ olun, mən çox məmnun oldum. Gələn dəfəyədək.** **İ l h a m Ə l i y e v:** Çox sağ olun.

## ABŞ-ın KALİFORNİYA TEXNOLOGİYA İNSTİTUTUNUN FİZİKİ BİOLOGİYA MƏRKƏZİNİN DİREKTORU, KİMYA ÜZRƏ NOBEL MÜKAFATI LAUREATI, KİMYA VƏ FİZİKA ELMLƏRİ ÜZRƏ PROFESSOR ƏHMƏD ZEVAYL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də ABŞ-ın Kaliforniya Texnologiya İnstitutunun Fiziki Biologiya Mərkəzinin direktoru, kimya üzrə Nobel mükafatı laureatı, kimya və fizika elmləri üzrə professor Əhməd Zevaylı qəbul etmişdir.*

*Nobel mükafatı laureatı, professor Əhməd Zevayl Azərbaycana səfərindən məmnunluğunu bildirdi. Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətinə toxunan Əhməd Zevayl forumda Azərbaycan prezidenti İlham Əliyevin nitqini, xüsusilə dövlət başçısının elmlə, təhsillə bağlı fikirlərini yüksək qiymətləndirdi. O, ölkəmizdə böyük inkişaf proseslərinin şahidi olduğunu dedi.*

*Dövlətimizin başçısı Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etdiyinə görə qonağa təşəkkürünü bildirdi. Prezident İlham Əliyev bu cür tədbirlərin beynəlxalq əməkdaşlıq, qarşılıqlı anlaşma baxımından önəmini qeyd etdi. Azərbaycanı müasir ölkə kimi inkişaf etdirməyin qarşıya məqsəd qoyulduğunu deyən dövlət başçısı buna elmin, təhsilin yüksəlişi sayəsində çatmağın mümkün olduğunu vurğuladı.*

## AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ HAYNZ FİŞERİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 oktyabr 2011-ci il*

*Oktyabrın 12-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Avstriya Respublikasının Federal Prezidenti Haynz Fişerin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Avstriya Respublikasının Federal Prezidenti Haynz Fişeri və xanımı Margit Fişeri səmimiyyətlə qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Avstriya Respublikasının Federal Prezidentinə raport verdi.*

*Avstriyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Avstriya Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Haynz Fişerə, Avstriya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AVSTRİYA PREZİDENTİ HAYNZ FİŞER İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*12 oktyabr 2011-ci il*

*Oktyabrın 12-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Avstriya Respublikasının Federal Prezidenti Haynz Fişer və xanımı Margit Fişer ilə birgə görüşü olmuşdur.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avstriya Respublikasının Federal Prezidenti Haynz Fişerin təkbətək görüşü keçirilmişdir.*

*Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olundu. Ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.*

*Avstriya Respublikasının Federal Prezidenti Haynz Fişerin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 oktyabr 2011-ci il*

*Oktyabrın 12-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avstriya Respublikasının Federal Prezidenti Haynz Fişerin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi bir daha Azərbaycanda salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Sizin səfəriniz bizim üçün, ölkələrimiz arasında əlaqələrin inkişafı üçün çox əhəmiyyətlidir. Əminəm ki, səfərin nəticələri çox uğurlu olacaqdır.

Biz bir sıra mühüm sənədləri imzalamağı və bir sıra müxtəlif məsələləri ətraflı müzakirə etməyi planlaşdırırıq. İkitərəfli münasibətlərin gündəliyi kifayət qədər genişdir. Biz Dağlıq Qarabağ münaqişəsinin həlli də daxil olmaqla, enerji əməkdaşlığı, iqtisadi fəaliyyət sahələrində qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə etməyə hazırıq. Biz sürətlə inkişaf edən ikitərəfli münasibətlərimizdə yeni mərhələyə qədəm qoyuruq.

Mən bilirəm ki, iqtisadi sahədə qarşılıqlı maraqlar vardır. İşgüzar dairələr arasında görüşlər keçiriləcəkdir. Mədəniyyət sahəsində də bizim yaxşı nəticələrimiz vardır. Mən düşünürəm ki, əməkdaşlığımızın səviyyəsindən qane ola bilərik. Əlbəttə ki, Sizin səfəriniz bu əlaqələri daha da gücləndirir və əminəm ki, bu da çox yaxşı nəticələr verəcəkdir.

**Haynz Fişer:** Çox sağ olun, cənab Prezident!

Mən Sizin atanızın 2000-ci ildə Avstriyaya səfərini xatırlayıram. O vaxtdan 11 il keçmişdir, bir çox dəyişikliklər baş

vermişdir. Böyük inkişaf vardır. Ölkəniz inkişaf tempi baxımından böyük addımlar atmışdır. Bu çox təqdirəlayiqdir. Bu münasibətlə təbriklərimi bildirirəm.

Məni və məni müşayiət edən nümayəndə heyətini səfərə dəvətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Sizin dəvətinizi böyük məmnuniyyətlə qəbul etdim. Nümayəndə heyətimizin tərkibi təkcə siyasətçilər və diplomatlardan ibarət deyildir. Buraya, həmçinin işgüzar dairələrdən, elm və turizm sahələrindən nümayəndələr daxildir.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*12 oktyabr 2011-ci il*

*Oktyabrın 12-də Azərbaycan prezidenti İlham Əliyevin və Avstriya Federal prezidenti Haynz Fişerin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Avstriya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Krems Tətbiqi Elmlər Universiteti və Azərbaycan Turizm İnstitutu arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Turizm İnstitutunun rektoru Cəfər Cəfərov və Krems Tətbiqi Elmlər Universitetinin icraçı direktoru Haynz Boyer imzaladılar. «SOCAR və OMV şirkətləri arasında enerji layihələri üzrə Anlaşma Memorandumu»nu Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və OMV şirkətinin qaz və enerji məsələləri üzrə İdarə Heyətinin direktoru Gerhard Roys imzaladılar.*

*«Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Avstriya Respublikasının Nəqliyyat, İnnovasiya və Texnologiya Federal Nazirliyi arasında innovasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov və Avstriya Respublikasının Nəqliyyat, İnnovasiya və Texnologiya Federal Nazirliyinin baş direktoru Andreas Rayxhard imzaladılar.*

*«Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Avstriya Respublikasının Federal Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifov və Avstriya Respublikasının Federal Maliyyə nazirinin müavini Andreas Şider imzaladılar.*

## AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ HAYNZ FİŞER İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*12 oktyabr 2011-ci il*

*Oktyabrın 12-də Azərbaycan–Avstriya sənədlərinin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avstriya Respublikasının Federal Prezidenti Haynz Fişerin birgə mətbuat konfransı keçirilmişdir.*

*Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, mən Sizi Azərbaycanda salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əlaqələrimizin tarixində Avstriya prezidentinin Azərbaycana birinci səfəridir. Mən çox şadam ki, səfər uğurlu keçir. Əminəm ki, səfərinizin çox yaxşı nəticələri olacaqdır.

Bu gün biz Sizinlə ikitərəfli əlaqələrimizin geniş gündəliyini müzakirə etdik. Bu müzakirə göstərir ki, Avstriya–Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. Siyasi əlaqələr güclənir və Sizin Azərbaycana səfəriniz bunun bariz nümunəsidir. Siyasi məsləhətləşmələr, müxtəlif səviyyələrdə əməkdaşlıq aparılır. Siyasi əlaqələrin yüksək səviyyədə olması başqa sahələrdə əlaqələrin inkişafına güclü təkan verir.

Bu gün biz Sizinlə regional əməkdaşlıq məsələlərinə də toxunduq. Regional təhlükəsizlik məsələləri də bizim üçün çox vacibdir. Mən Sizə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, son vəziyyətlə bağlı məlumat verdim. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan tərəfi ümid edir ki,

yaxın zamanlarda münaqişə öz həllini tapacaq və Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa ediləcəkdir. Münaqişə nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşmüşdür. Bir milyondan çox azərbaycanlı doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır.

Beynəlxalq təşkilatlar, xüsusilə BMT Təhlükəsizlik Şurası çox vacib qətnamələr qəbul etmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır. Onlar Ermənistanın silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrdir. ATƏT, Avropa Parlamenti, Avropa Şurası, digər beynəlxalq təşkilatlar da oxşar qərarlar qəbul etmişlər. Ümid edirəm ki, münaqişə tezliklə öz həllini tapacaq və Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Biz iqtisadi məsələlərə də toxunduq. Bu sahədə də əməkdaşlıq çox uğurludur. Azərbaycanda 40 Avstriya şirkəti çox uğurlu fəaliyyət göstərir. Bu gün keçiriləcək Avstriya–Azərbaycan biznes-forumu da şübhə etmirəm ki, bu sahədəki əlaqələrin inkişafına öz töhfəsini verəcəkdir. Avstriya şirkətləri burada müxtəlif layihələrdə iştirak edir və Azərbaycan tərəfi də bu iştirakdan çox razıdır.

Biz enerji sahəsindəki əməkdaşlığa da toxunduq. İmzalanan sənədlərin sırasında OMV və SOCAR arasında sənəd xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan enerji siyasətini uğurla icra edir. Bizim zəngin neft və qaz yataqlarımız həm ölkənin, həm də tərəfdaşların enerji təhlükəsizliyinə xidmət göstərir.

Bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında «Cənub Qaz Dəhlizi» üzrə çox vacib bəyannamə qəbul edilmişdir. Bu bəyannamənin icrası nəticəsində Avropa qitəsi ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq üçün yaxşı şərait və imkanlar yaradılacaqdır. Təsdiq edilmiş qaz ehtiyatlarımız 2,6 trilyon kubmetr səviyyəsindədir. Əminəm ki, gələcəkdə bu rəqəm daha da artacaqdır. «Cənub Qaz Dəhlizi» layihəsinin icrası üçün hazırda çox gözəl imkanlar vardır. Birinci növbədə, mənbə – Azərbaycanın qaz resursları, ikinci

tərəfdən, Avropa qurumlarının bu məsələyə olan diqqəti yüksək səviyyədədir. Avropa İttifaqı–Azərbaycan əlaqələrinin gündəliyində bu məsələ xüsusi yer tutur. Ümid edirəm ki, yaxın zamanlarda bütün qalan məsələlər, o cümlədən tranzit məsələləri həllini tapacaqdır.

Mədəniyyət sahəsində də əməkdaşlıq qənaətbəxşdir. Bu gün bu sahə ilə bağlı çox gözəl tədbir keçiriləcəkdir. Dünya şöhrətli bəstəkar Motsartın Bakıda abidəsi ucaldılacaq. Bu da mədəniyyət sahəsində əməkdaşlığa yaxşı təsir göstərəcək və xalqlar arasında olan əlaqələrə də çox böyük töhfə olacaqdır.

Cənab Prezident, Sizin səfəriniz Avstriya–Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün çox əhəmiyyətlidir. Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Sizə və nümayəndə heyətinizə bu səfər zamanı Azərbaycanda xoş əhval-ruhiyyə arzulayıram.

## Avstriya prezidenti Haynz Fişerin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən də əvvəlcə Sizə bu qonaqpərvərliyə, xüsusilə dəvətə görə bir daha təşəkkür etmək istəyirəm. Məni bu səfərimdə hökumətin çoxsaylı üzvləri müşayiət edir. Böyük nümayəndə heyəti ilə gəlmişəm. Elm adamları da nümayəndə heyətinin tərkibindədir. Bu onu göstərir ki, biz Sizin ölkənizlə münasibətlərimizə böyük diqqət yetiririk və münasibətlərin inkişafı bizim də marağımızdadır. Açıq, maraqlı fikir mübadiləsinə görə Sizə yenə təşəkkür etmək istəyirəm. Siz bu şəraiti yaratmısınız, biz həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə və həmçinin üzbəüz, sonra isə nümayəndə heyətlərinin iştirakı ilə danışıqlar apardıq.

Fürsətdən istifadə edərək Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20 illiyi münasibətilə Sizi təbrik edirəm. Oktyabrın 18-də siz bu yubileyi qeyd edəcəksiniz. Əminəm ki, hər bir müşahidəçi, ölkənizə gələn hər bir qonaq sizin xüsusilə

son 10 ildə əldə etdiyiniz uğurların şahidi olacaqdır. Bu uğurları Bakıda gəzərkən aydınca görürsən. Bu dinamik inkişaf göz qabağındadır. Səfər müddətində də bizə göstərildi, izah olundu.

Avstriya həmin ölkələrdəndir ki, ilk olaraq sizinlə diplomatik münasibətlər yaratdı, sizin ölkəni tanıdı. Müstəqillik yolu – bu 20 illik yol, bizim diplomatik münasibətlərin də 20 ili deməkdir. Son illərdə biz müəyyən uğurlar əldə etmişdik.

İqtisadi mövzular Sizin də qeyd etdiyiniz kimi, bizim danışıqların ön planında dayanmışdır. Bu təkcə ikitərəfli deyil, həm də Avropa ilə bizim münasibətlərə dair mövzulara aid idi. Məsələn, Nabukko. Biz bu layihədə həm Avropa İttifaqının, həm də Avstriyanın vacib maraqlarının, mövqelərimizin ifadəsini görürük.

Əmin olmaq istəyirik ki, Avropanın enerji təhlükəsizliyi etibarlı əllərdədir. Sizinlə etibarlı əməkdaşlıq burada öz töhfəsini verir və müxtəlif sahələri əhatə edir. Müxtəlif layihələrin həyata keçirilməsi bu sahədə gözəl bazadır. Sizinlə söhbətin gedişində də bir daha məlum oldu ki, Azərbaycan bu münasibətlərə böyük əhəmiyyət verir. Sizin bu barədə fikirlərinizi biz çox əhəmiyyətli hesab edirik və düzgün interpretasiya etmək istəyirik. Nabukko bu əməkdaşlıqda yeganə layihə deyildir. Biz bir sıra firmalarla əməkdaşlığın şahidiyik və onları sadalamağa ehtiyac yoxdur. Amma onların fəaliyyətinə siz dəstək verirsiniz. Xüsusilə tikinti, küçəsalma və texnoloji sahələrdə gözəl əməkdaşlıq özünü göstərir. Səhiyyə, sağlamlıq, infrastruktur və idarəçilik sahələrində olan əməkdaşlıq da yüksək səviyyədədir. Bunlar hamısı o mövzulardır ki, biz Sizinlə fikir mübadiləsi apardıq və bu sahələrdə gözəl əməkdaşlıq özünü göstərir.

Verdiyiniz məlumatlara, Sizin nöqteyi-nəzərinizə görə Sizə bir daha təşəkkür edirəm.

Biz Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə həllinə tərəfdarıq. Bütün iştirakçılara müraciət edirik ki, danışıqlar aparmağa hazır olsunlar, danışıqlar masasına qayıtsınlar.

ATƏT-in Minsk qrupunun fəaliyyətini dəstəkləyirik ki, onlar da yaxşı iradə göstərsinlər, münaqişə həllini tapsın.

Biz insan hüquqları, mətbuat azadlığı barədə də danışdıq. Mən bu barədə fikirlərin ədalətli şəkildə ifadəsindən, bu məsələ ilə bağlı münasibətlərin müzakirəsindən məmnun qaldım. BMT çərçivəsində biz də müəyyən öhdəlik götürmüşük ki, lazım olan sahələrdə xoş əməlimizi göstərək, öz xidmətimizi təklif edək. Qeyd edim ki, BMT-nin bu sahədə qətnamələri də öz həllini tapmalıdır.

Biz hazırkı inkişaf barədə fikir mübadiləsi apardıq. Xüsusilə Avropa İttifaqında olan inkişaf barədə. Biz optimist bir şəkildə fikrimizi, əminliyimizi bildirdik ki, siyasi və iqtisadi münasibətlərimiz inkişaf edəcəkdir. Avropa İttifaqı da siyasi-iqtisadi cəhətdən öz gələcəyini təmin edəcəkdir. Bizim yaxınlaşmamız bu münasibətlər, bu əməkdaşlıq vasitəsilə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrə öz müsbət təsirini göstərir. Bu, Avstriya tərəfindən də dəstəklənir.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.*

**Markus Müller-Şinvald** *(Avstriyanın ORF Teleradiosu)*: **Cənab prezident Əliyev, cənab prezident Fişer. Danışıqlardan sonra bizə deyə bilərsinizmi ki, hansı üç konsorsium Azərbaycan qazının daşınması istiqamətində layihəni udacaq və hansı layihəyə üstünlük verilir?**

**İlham Əliyev:** Bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında «Cənub Qaz Dəhlizi» üzrə bəyannamə qəbul edilmişdir. Bəyannaməni Avropa Komissiyasının sədri cənab Barrozu və mən Bakıda imzalamışıq. Bəyannamədə göstərilir ki, «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsi üçün hər iki tərəf öz səylərini göstərəcək. Avropa Komissiyası və Azərbaycan Sənaye və Energetika Nazirliyi tərəfindən müştərək işçi qrupu yaradılmışdır. Bu işçi qrupunun fəaliyyəti artıq

müsbət xarakter daşıyır. Bu variantlar, layihələr təhlil edilməlidir. Bu yaxınlarda təkliflər irəli sürülmüşdür, onlara baxılacaqdır. Həm Azərbaycan, həm tərəfdaşlarımız, həm də əsas investorlar üçün ən məqbul variant seçiləcəkdir.

Azərbaycan böyük qaz potensialına malikdir. Bu barədə mən artıq söylədim və rəqəmləri gətirdim. Biz maraqlıyıq ki, qaz potensialımızı maksimum dərəcədə realizə edə bilək. Hazırda «Şahdəniz» əsas qaz layihəmiz kimi, ön plandadır. Son vaxtlar SOCAR tərəfindən aşkarlanmış «Ümid» yatağı da çox böyük ümidlər verir. Bu yaxınlarda «Total» və «Gaz de France» şirkətləri tərəfindən kəşf edilmiş «Abşeron» yatağında da böyük qaz ehtiyatları vardır. Son bir ildə Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları təqribən 600 milyard kubmetr səviyyəsində artmışdır. Ona görə də hər üç kommersiya layihəsinin kommersiya şərtləri, icra müddəti və texniki parametrləri əsas rol oynayacaqdır. Bu elə bir qərar olmalıdır ki, həm vaxt itirməyək, həm də Azərbaycan qaz resurslarını maksimum dərəcədə ixrac edə bilsin. Bu iki komponenti birləşdirmək üçün indi müzakirələr aparırıq. Bu qərarı birgə verməliyik. «Şahdəniz» layihəsinin ikinci fazasına nəzərdə tutulan investisiyaların həcmi təqribən 20 milyard dollar ətrafında gözlənilir. Əlbəttə, əsas investorların fikri nəzərə alınmalıdır, Azərbaycanın maraqları da təmin edilməlidir.

Bu günə qədər enerji sahəsində əməkdaşlıq bu prinsiplər üzərində qurulmuşdur. Həm investorların, həm Azərbaycanın maraqları. Avropa ölkələrinin maraqları da bu məsələdə öz rolunu oynamalıdır. Çünki biz bu gün cənab Prezidentlə bu barədə geniş fikir mübadiləsi apardıq və cənab Prezident çox dəqiq dedi ki, hər tərəf qələbə qazanmalıdır – Azərbaycan resursların sahibi kimi, tranzit ölkələr və istehlakçılar. Bunu etmək mümkündür. Ümid edirəm ki, yaxın zamanlarda düzgün qərar veriləcək, elə bir qərar ki, bizim potensial müştərilərimizin hamısını təmin edə bilmiş olsun.

**H a y n z F i ş e r:** Mənim məlumatım ondan ibarətdir ki, konsorsiumlar bir neçə gün əvvəl təkliflərini veriblər. Hazırda bu

təkliflər araşdırma mərhələsindədir. Avstriyalılar və avropalılar Nabukko layihəsi ilə bağlı yaxşı mövqedədirlər. Bu, Avstriya üçün xüsusilə yaxşı bir əməldir. Çünki bu layihə birbaşa Avstriyaya gətirib çıxarır. Bizdən də digər tədarükçülərə çıxmaq imkanı vardır və 100 milyon avropalı bizim ətrafımızda yaşayır, onların bu qazdan bəhrələnmək, faydalanmaq imkanı vardır. Bu Almaniyadır, Sloveniyadır, Çexiyadır, Xorvatiya və Slovakiyadır. Təkcə bizim qonşular üçün yox, bütün Avropa üçün nəzərdə tutulacaqdır. Fikrimcə, bu layihə Azərbaycan üçün də mühümdür.

**C e y h u n Q u l i y e v:** *(Azərbaycan Televiziyası)*: **Mənim sualım Avstriya prezidentinədir. Cənab Prezident, bildiyiniz kimi, Ermənistanın Azərbaycana qarşı təcavüzü 20 ildən artıqdır ki, davam edir. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan təcavüzkar işğal siyasətinə isə son qoymur. Bu münaqişə regionda sülh və təhlükəsizliyə təhdid mənbəyidir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Avstriyanın konkret mövqeyini bilmək istərdik. Çox sağ olun.**

**H a y n z F i ş e r:** Biz prezident Əliyevlə Dağlıq Qarabağ münaqişəsi barədə fikir mübadiləsi apardıq. Autentik formada çalışdıq fikirlərimizi yaxınlaşdıraq. Münaqişənin həlli bizi də maraqlandırır. Mən yaxşı başa düşürəm. Bu, Azərbaycan üçün fəlakətdir. Baş verən hadisələr və qaçqınlar var, onlar evlərinə qayıda bilmirlər. Münaqişə potensialı qalır. Bu fikirdəyəm ki, XXI əsrdə bu cür münaqişələr sülh yolu ilə həll olunmalıdır. Bu, Avstriyanın mövqeyidir. Çünki güc tətbiqi heç də həll variantı deyildir və sonra yenə də təkrarən güc tətbiqinə gətirib çıxarır. Avstriya bu siyasətin tərəfdarıdır ki, bu münaqişənin həllinə sülh yolu, danışıqlar yolu ilə nail olunsun. Bu ərazi münaqişəsi digər dövlətlərin köməyi cəlb olunmaqla, Minsk qrupu dövlətlərinin səyləri ilə həll olunmalıdır.

**İ v a n N o v a k** *(Avstriyanın informasiya agentliyi):* **Cənab prezident Əliyev, iqtisadiyyatla bağlı Sizə sual vermək**

**istəyirəm. Avstriyanın OMV şirkəti cəhd edir ki, Azərbaycanda qaz idxalı və qaz çıxarılması məsələsi ilə yaxından məşğul olsun. Fikirləşirlər ki, SOCAR Nabukko konsorsiumuna daxil olacaqdır. Bu imkanlara Siz necə baxırsınız? SOCAR Nabukko konsorsiumuna qoşula bilərmi?**

**İ l h a m Ə l i y e v:** Hörmətli OMV prezidenti cənab Roys ilə biz dəfələrlə görüşmüşük – həm Bakıda, həm başqa paytaxtlarda. Bu məsələ ilə bağlı çox səmimi fikir mübadiləsi aparmışıq. OMV ilə SOCAR arasında əlaqələr yüksək səviyyədədir və bu gün imzalanan sənəd bunun bariz nümunəsidir. Müxtəlif təkliflər vardır və onlar nəzərdən keçirilir. Biz hər bir tərəf üçün ən məqbul olan variantı seçməliyik. İndiki mərhələdə «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşdırılması üçün yaxşı imkanlar vardır. Qaza sahib olan dövlətlər arasında yeganə ölkə Azərbaycandır ki, bu layihəni rəsmən dəstəkləyir və bu dəstək təkcə bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış sənədlə məhdudlaşmır. 2009-cu ildə Avropa İttifaqı sammitində enerji ilə bağlı məsələlər müzakirə edilərkən Azərbaycan buna oxşar sənədi imzalamışdır. Biz istəyirik ki, qaz resurslarımızı dünya bazarlarına müxtəlif yollarla çıxaraq və hazırda Azərbaycan qazı istehlakçılara müxtəlif istiqamətlər üzrə çatdırılır. Gələcəkdə, böyük qaz mənbəyi işə düşəndən sonra bizə yeni bazarlar lazım olacaq. Mövcud bazarlara da daha böyük həcmdə qaz ixrac etmək fikrindəyik. Hər hansı bir layihənin iştirakçısı olmaq bir tərəfdən, böyük məsuliyyətdir, digər tərəfdən, böyük üstünlükdür. Əgər Azərbaycan və investorlar tərəfindən Nabukko layihəsinə üstünlük verilərsə, o zaman iştirakçı olmaq üçün konkret təkliflərə baxılacaqdır. Təkliflər təhlil ediləcəkdir ki, maliyyə öhdəliyimiz nədən ibarət olacaqdır?! SOCAR bu layihənin investoru olmaq istəyəcəkmi, yoxsa yox?! Yoxsa sadəcə olaraq, öz qazını o layihəyə təqdim edəcək. Bu məsələlər gərək müzakirə edilsin. Kommersiya

şərtləri dəqiq təhlil edilməlidir və bu cəhətdən ən əlverişli varianta gəlməliyik.

**A l b i n a A t l ı x a n o v a** *(Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc)*: **Mənim sualım Avstriya prezidentinədir. Cənab Prezident, Avstriya ilə Azərbaycan arasında qarşılıqlı investisiya imkanlarını necə qiymətləndirirsiniz?**

**H a y n z F i ş e r:** Son illərdə sübut etdik ki, biz aşağı səviyyədən başlayaraq yuxarıya doğru hərəkət edirik, iqtisadi-ticari münasibətlərimizi və investisiya münasibətlərimizi dərinləşdiririk. Bu hər iki tərəf üçün faydalıdır və biz bu yolu davam etdirəcəyik. Bu mübadilə siyasəti düzgündür, ölkələrimiz coğrafi baxımdan böyüklüyünə görə, əhali baxımından eyni ölçülərə malik olduğu üçün bir-birimizi gözəl başa düşürük. Cənab Prezident də buna işarə etdi ki, Avstriya şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərirlər. Biz bu barədə əməkdaşlıq memorandumu da imzalamışıq. Cənab Prezident Avstriyaya gələrsə – mən onu bu fürsətdən istifadə edərək ölkəmə dəvət edirəm – məlumat verə bilərik ki, bizdə bu investisiyalar üçün, bu ixrac-idxal sahəsində və qaz ilə bağlı hansı imkanlar vardır. Arzu edirəm ki, Siz səfərə Nabukko ilə bağlı xoş xəbərlə gələsiniz.

## AZƏRBAYCAN–AVSTRİYA BİZNES-FORUMU

*Prezident sarayı*

*12 oktyabr 2011-ci il*

*Oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avstriya Respublikasının Federal Prezidenti Haynz Fişerin iştirakı ilə Azərbaycan–Avstriya biznes-forumu keçirilmişdir.*

*Forum iştirakçıları Azərbaycan və Avstriya prezidentlərini hərarətlə qarşıladılar.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bir daha, hörmətli cənab Prezident, Sizi Azərbaycanda salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Bu, Avstriya–Azərbaycan əlaqələrinin tarixində Avstriya prezidentinin Azərbaycana birinci səfəridir və bu səfər tarixi xarakter daşıyır. Mən çox şadam ki, səfər çox uğurlu keçir. Əminəm ki, nəticələri də çox uğurlu olacaqdır.

Bizim aramızda çox sıx əməkdaşlıq var və biz çalışırıq ki, bütün sahələrdə əməkdaşlığı dərinləşdirək. Əlbəttə, bunu etmək üçün siyasi əlaqələrin çox böyük əhəmiyyəti vardır. Mən çox şadam ki, Avstriya–Azərbaycan əlaqələrində çox müsbət irəliləyiş vardır. Deyə bilərəm ki, bu əlaqələr hazırda ən yüksək səviyyədədir. Siyasi əməkdaşlıq və beynəlxalq təşkilatlarda əməkdaşlığımız, siyasi əlaqələrin güclü olması istər-istəməz bütün başqa sahələrə də müsbət təsir göstərir.

Bu gün başqa məsələlərlə bərabər, iqtisadi sahədə əməkdaşlıq haqqında geniş fikir mübadiləsi apardıq. Hesab edirəm ki, bu sahədə əldə edilmiş uğurlar və yaxşı nəticələr bizi ruhlandırır, gələcək əməkdaşlığa sövq edir. Avstriya şirkətləri Azərbaycanda müxtəlif sahələrdə uğurla fəaliyyət göstərirlər. Ölkələrimiz arasında ticarət dövriyyəsi çox böyük olmasa da,

Avstriya şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstərməsi çox müsbət haldır. Avstriya şirkətləri ölkəmiz üçün çox vacib olan infrastruktur və tikinti layihələrində çalışırlar. Onların fəaliyyəti təqdirəlayiqdir, onlar işləri yüksək keyfiyyətlə görürlər. Bütün kontrakt şərtlərinə əməl edilir və Azərbaycanda böyük quruculuq işlərinin aparılmasında bizə dəstək olurlar.

Bu gün biz bu barədə artıq danışdıq. Qeyd etmək istəyirəm ki, ölkəmiz üçün bir neçə vacib layihəni Avstriya şirkətləri icra edir. Onların arasında Bakıda beşulduzlu yeni otelin tikintisini «Strabag» şirkəti aparır. Bakıda yeni və bölgənin ən müasir aerovağzal kompleksini Avstriyanın «Waagner Biro» şirkəti həyata keçirir, «Şahdağ» Dağ Xizək Kurortunun inşası layihəsini Avstriyanın «Swiss Town Consult/ILF Consulting Engineers» və «Doppelmayr Seilbahnen GmbH» şirkətləri aparırlar. Yeni ofis binalarının layihələndirilməsi və dizayn işləri Avstriyanın «Coop Himmelbau» şirkətinə həvalə edilibdir. Ondan başqa, Bakının ən gözəl yerində, bulvarda, Milli Parkda Xalça Muzeyinin inşasını da Avstriyanın «Hoffmann - Janz ZT GmbH» şirkəti icra edir. «BHS İnternational» şirkəti isə Xalça Muzeyinin texniki təchizatı ilə məşğuldur.

Nəhayət, Bakının rəmzi olan Qız qalasının bərpasını da Avstriyanın «Atelier Erich Pummer GmbH» şirkəti icra edir. Bakıda və ölkəmizin müxtəlif yerlərində tarixi abidələr kifayət qədər çoxdur. Ancaq Qız qalası Bakının rəmzidir. Qız qalası bizim ürəyimizdir, canımızdır. Hər bir azərbaycanlı üçün doğma olan bu abidənin bərpasını Avstriya şirkətinə etibar etmək yəqin ki, özlüyündə bir göstəricidir.

Sadaladığım bu layihələr doğrudan da ölkəmiz üçün çox vacibdir və Avstriya–Azərbaycan iqtisadi əlaqələrinin inkişafı üçün də vacibdir. Ümid edirəm ki, hazırda əldə edilmiş yaxşı təcrübə və qarşılıqlı anlaşma gələcək layihələrin icrasına da təkan verəcəkdir.

Azərbaycanda hələ görüləsi işlər çoxdur. Bizim iqtisadi inkişafla bağlı konkret, düşünülmüş strategiyamız və konkret

proqramlarımız vardır. Ölkəmiz üçün lazım olan bütün infrastruktur layihələri Azərbaycanda yenilənir, yenidən tikilir, bərpa edilir və bu layihələr bütün sahələri əhatə edir. Beləliklə, gələcəkdə Avstriya şirkətlərinin Azərbaycanda podratçı kimi işləmək üçün yeni imkanları olacaqdır. Bizim yerli strukturların nümayəndələrindən də dəfələrlə maraqlanmışam və yerli qurumlar Avstriya şirkətlərinin fəaliyyətindən çox razıdırlar.

İqtisadi əlaqələrimiz təkcə şirkətlərin layihələrdə iştirakı ilə məhdudlaşmamalıdır. İndi qarşılıqlı investisiyaların qoyulması üçün yaxşı şərait var. Bu sahədə hələ əməkdaşlığın birinci mərhələsindəyik, ilk addımları atırıq. Azərbaycan şirkətləri indi xaricə böyük həcmdə sərmayə qoyuluşu ilə məşğuldur, həm Avropada, həm başqa ölkələrdə. Azərbaycanın həm dövlət, həm özəl şirkətləri Sizin ölkənizə investisiya qoymaq üçün maraqlı ola bilərlər və bugünkü biznes-forum hər iki ölkənin imkanlarını təqdim edəcəkdir və edir. Azərbaycan da xarici sərmayə üçün çox əlverişli bir yerdir. Bizdə çox gözəl investisiya mühiti hökm sürür. Xarici sərmayələr qoyulur və bu sərmayələrin həcminə görə Azərbaycan MDB məkanında birinci yerdədir. Deyə bilərəm ki, son 15 il ərzində ölkə iqtisadiyyatına 100 milyard dollar sərmayə qoyulmuşdur və onun böyük hissəsi daxili sərmayədir. Kifayət qədər böyük hissə də xarici sərmayələrdir.

Xarici sərmayələr Azərbaycanda lazımınca qorunur. Biz bütün kontraktlara böyük hörmətlə yanaşırıq və hesab edirik ki, etimadı qazanmaq üçün əldə edilmiş razılaşmalara hörmətlə yanaşılmalıdır. Ölkəmizin hərtərəfli inkişafı üçün xarici investisiyaların cəlb edilməsi vacibdir. Deyə bilərəm ki, əvvəlki dövrdən fərqli olaraq, indiki mərhələdə Azərbaycana qoyulan sərmayənin böyük hissəsi daxili mənbələr – həm dövlət, həm özəl sektor hesabına formalaşır.

Ölkəmizdə bazar iqtisadiyyatına keçid dövrü tamamilə başa çatmışdır. Biz bu il müstəqilliyimizin 20-ci ildönümünü qeyd edəcəyik. 20 il əvvəl Azərbaycanda özəl sektorda fəaliyyət

göstərən şirkətlər yox idi, ümumi daxili məhsulun 100 faizini dövlət qurumları təmin edirdi.

Hazırda ümumi daxili məhsulun 80 faizi özəl sektorda formalaşır, genişmiqyaslı özəlləşdirmə siyasəti aparılmışdır. Özəl sektorun inkişafı üçün dövlətimiz də çox böyük işlər görür, həm yardımlar edir, həm də yüksək səviyyədə siyasi dəstək göstərir. Azərbaycan iqtisadiyyatı bazar prinsipləri ilə tənzimlənir. Bu, azad iqtisadiyyatdır, dünyaya açıq iqtisadiyyatdır və deyə bilərəm ki, artıq güclü iqtisadiyyatdır.

Son 7 ildə Azərbaycanda ümumi daxili məhsul təxminən üç dəfə artmışdır. Sənaye istehsalı da təxminən üç dəfə artmışdır, yüz minlərlə yeni iş yeri açılmışdır və infrastruktur layihələrinə böyük sərmayə qoyulmuşdur. Təkcə keçən il ölkə iqtisadiyyatına 16 milyard dollar sərmayə qoyulmuşdur ki, bu da bizə imkan verir, ölkə qarşısında duran əsas vəzifələri uğurla icra edək. Hətta dünyanı bürümüş maliyyə və iqtisadi böhran Azərbaycana o qədər də böyük təsir göstərməmişdir. Ən çətin böhranlı illərdə – 2-3 il bundan əvvəl iqtisadiyyatımız artım templərini itirməmişdir. Biz indi iqtisadiyyatın qeyri-neft sektoruna daha çox üstünlük veririk. Prioritetimiz bundan ibarətdir və ölkə iqtisadiyyatının enerji amilindən asılılığını azaltmaq üçün konkret tədbirlər görülür. Qeyri-neft sektorunun inkişafı üçün Avstriya şirkətləri Azərbaycanda bizimlə bərabər yaxşı işləyirlər və gələcəkdə də işləyə bilərlər. Ölkə iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı konkret tədbirlər görülür.

Mənə verilən məlumata görə, bugünkü biznes-forum çox böyük maraq doğurur. Çox şadam ki, Avstriyadan bu forumda iştirak etmək üçün çoxsaylı iş adamları gəlmişlər və onlar yerli həmkarları ilə birgə işləyirlər. Mənə verilən məlumata görə, forum çərçivəsində üç sənəd imzalanmışdır. Bu da çox gözəl göstəricidir. Bu gün yaranan təmaslar, hər iki ölkə iqtisadiyyatı haqqında səslənən təqdimatlar və təkliflər bizə daha da yaxşı şəraitin yaradılmasına imkan verəcəkdir. Bəzi hallarda ticarət dövriyyəsinin o qədər də yüksək səviyyədə olmamasının səbəbi məlumat qıtlığı ilə bağlıdır. Avstriya şirkətləri Azərbaycanın

imkanlarını, Azərbaycan şirkətləri isə Avstriyanın imkanlarını bəlkə də yaxından bilmirlər. Belə forumların keçirilməsi bu boşluğu da dolduracaqdır.

Biz bu gün enerji əməkdaşlığı haqqında geniş danışdıq. Enerji siyasəti Azərbaycan üçün çox önəmlidir. İndiki mərhələdə enerji siyasətimiz və strategiyamız təkcə Azərbaycan üçün deyil, bölgə üçün, Avropa üçün də əhəmiyyət kəsb edir. Azərbaycan bu sahədə etibarlı tərəfdaş kimi, özünü artıq göstəribdir. Bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında «Cənub Qaz Dəhlizi» üzrə bəyannamə qəbul edilmişdir, işçi qrupu yaradılmışdır, işlər başlamışdır. Azərbaycan zəngin neft-qaz ehtiyatlarına malik olan ölkə kimi, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün öz rolunu oynayır və əminəm ki, gələcəkdə daha da fəal rol oynayacaqdır. Çünki biz bu gün cənab Prezidentlə görüş əsnasında belə bir fikir ifadə etdik ki, bu hər tərəfi gücləndirən və hər tərəfin maraqlarına cavab verən əməkdaşlıqdır.

Biz yeni, böyük qanunlarla tənzimlənən bazara çıxmış olacağıq, Avropa istehlakçıları isə yeni alternativ mənbədən – etibarlı tərəfdaşdan əlavə enerji resursları alacaqlar. Bu sahədə Avropa ölkələri ilə Azərbaycan arasında əməkdaşlığın artıq gözəl tarixi vardır. Bir neçə ildir ki, Azərbaycan Avropa ölkələrinə böyük həcmdə neft ixrac edir. Bir sıra Avropa ölkələrinin daxili enerji balansında Azərbaycan nefti bəzi hallarda 20, bəzi hallarda 30–40 faiz təşkil edir. Bu təcrübə və əməkdaşlıq vardır. İxracımızın 50 faizdən yuxarı hissəsi Avropa İttifaqı ölkələrinə nəql edilir. Ona görə də biz qaz sahəsində artıq yaradılmış çərçivələr daxilində uğurlu əməkdaşlıq edə bilərik. Şübhəsiz, bu mövzu da bu gün fikir mübadiləsi zamanı geniş işıqlandırılmışdır.

Bir daha demək istəyirəm ki, Avstriya–Azərbaycan əlaqələri son illər ərzində çox sürətlə inkişaf edir. Bu əlaqələr bütün sahələri əhatə edir. Bu gün forumda daha çox iqtisadi əlaqələrdən söhbət aparılıb və bu əlaqələr nə qədər güclü olsa, bizim siyasi münasibətlərimiz də o qədər güclü olacaqdır.

Mən bir daha, cənab Prezident, Sizi və forumun iştirakçılarını salamlayıram, forumun işinə uğurlar arzulayıram.

**H a y n z F i ş e r:** Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən də istəyirəm ki, bu səfəri həyata keçirməyə dəvətə görə və səfərimin çox əla təşkilinə görə təşəkkürümü bildirim. Bu onu göstərir ki, Siz bu gün qonaqlar üçün nə qədər vaxt ayırmısınız. Bu gün xeyli görüşlərimiz oldu. Bunların hamısı səfərin uğurlu keçməsinin göstəricisidir. Mən çox təşəkkür edirəm ki, Siz həm mətbuat konfransında, həm də indi bu biznes-forumda bizim apardığımız söhbətlərin məzmununu yüksək qiymətləndirirsiniz, buna müsbət münasibət bildirirsiniz.

Biz çox müxtəlif mövzular haqqında danışmışıq. Biz bunu hiss etmişik, duymuşuq ki, Siz bizim arqumentlərimiz, baxışlarımız üçün açıqsınız. Söhbət məhz qazla bağlı məsələlərdən gedir. Siz, eləcə də bizim Nabukkoya aid mövqemizə açıqsınız. Zənnimcə, biz növbəti mərhələdə atacağımız addımlara daha çox aydınlıq gətirməliyik ki, hər iki tərəf üçün sərfəli vəziyyət yaransın, bunun həm Azərbaycana, həm Avstriyaya, həm də Avropaya xeyri olsun. Bunun uğurla həyata keçirilməsi üçün hansı addımların atılmasının lazım olması barədə biz bu gün danışıqlar aparmışıq.

Siz həm də Avstriya şirkətləri haqqında çox müsbət fikir bildirdiniz. Bu həm özəl iqtisadiyyatlarımız, həm də ölkələrimizin siyasi rəhbərliyi üçün çox yaxşıdır. «Strabag» bütün Avropada çox tanınmış bir şirkətdir, məşhur bir brenddir. Ən azı Avropanın ikinci ən böyük şirkətidir. O, böyük bir alman şirkətini almışdır. Adətən, alman şirkətləri Avstriya şirkətlərini alır. Bu halda isə Avstriyanın «Strabag» şirkəti böyük bir alman şirkətini almış və bu işi çox uğurla həyata keçirmişdir. Mən Rusiyaya, yaxud başqa bir ölkəyə gedərkən görürəm ki, «Strabag» orada fəaliyyət göstərir. «Strabag» Soçidə tikinti işləri həyata keçirir, orada bəzi yubanma halları olsa da, işin sürəti artırılır ki, obyekt vaxtında hazır olsun. Yaxud da ki, Çinə

gedəndə orada da «Strabag»ın işini görürəm. Yaxın Şərqdə yenə «Strabag»ı görürəm. Təbii ki, bu şirkət Qərbi Avropada daha çox tanınır. Başqa şirkətləri, xüsusən Sizin adını çəkdiyiniz OMV şirkətinin fəaliyyətini də qeyd etmək istəyirəm. Hətta qısqanıram ki, OMV-nin baş direktoru Sizin yanınızda daha çox olub, nəinki mən. Bundan sonra çalışacağam ki, mən də Sizinlə onun qədər görüşüm. Biz paytaxtlarımızdan kənarda da görüşlər keçirə bilirik. Məsələn, başqa ölkələrdə də görüşməyə imkanımız vardır. Bununla da şansım artır.

Siz Qız qalasında işləyən Avstriya şirkətini xatırlatdınız. Qız qalası bənzəri olmayan milli abidədir. Həmin o Avstriya şirkətinin rəhbəri iki həftə Vyanada, iki həftə Qız qalasında işləyir. Orada – Vyanada Stephansdomda işləyir. O da Vyananın ən böyük kilsəsidir. Bizim məşhur tarixi abidəmizdir. Həmin abidə XIV əsrdə tikilmişdir. Biz də, siz də ürəyimiz hesab etdiyimiz abidələri o şirkətə etibar edirik.

Cənab Prezident, Siz həmçinin iqtisadi münasibətlərimizə aid rəqəmləri xatırlatdınız. Onlar çox müsbət rəqəmlərdir. Bu forumun çoxsaylı iştirakçıları da onun göstəricisidir, aydın bir siqnaldır ki, ötən illərdə qarşılıqlı maraq çox artıb. Azərbaycana Avstriya ixracı 70 faiz artıb. Bizim iqtisadiyyatla məşğul olan nümayəndələrimiz hər halda bunu belə qiymətləndirir. Azərbaycandan da Avstriyaya ixracda xeyli artım olub. Son illərdə ixrac iki dəfə artıb.

Azərbaycan bu gün Avstriyanın Cənubi Qafqazda ən vacib ticarət tərəfdaşıdır. Burada qaz da çox böyük əhəmiyyət kəsb edir. Qaz enerji daşıyıcısıdır və bu, növbəti onilliklərdə Avropa üçün daha da əhəmiyyətli olacaqdır. Avstriya atom enerjisindən könüllü olaraq imtina etmiş ölkələrdəndir. Almaniya da, İsveçrə də atom-elektrik stansiyalarından imtina edib. Atom enerjisi Avropada azalmağa doğru gedir. Deməli, Avropada nüvə enerjisindən istifadə azalacaq və təbii qazın istehlakı artacaqdır. Ona görə, bizə ədalətli müqavilələr lazımdır ki, gələcəkdə artan tələbatı ödəyə bilək.

Biz Nabukkonu da müzakirə etmişik. Biz danışıqlar zamanı bununla bağlı yaxşı xəbərlər aldığımızı bildirdik. İqtisadiyyatın bizi maraqlandıran başqa sahələri də vardır. Bu turizmdir. Turizm Avstriyada çox böyük rol oynayır. Bu gün mən Almaniya ilə Avstriya arasında iqtisadi mübadilə haqqında bir rəqəm dedim və bu Prezidenti təəccübləndirdi. Avstriyanın cəmi iki şəhərinə – Tirola və Salzburqa gələn alman turistlərin sayı Yunanıstana gedən bütün turistlərin sayından xeyli çoxdur. Avstriyanın iki şəhəri daha çox turist cəlb edir, nəinki Yunanıstan. Çünki Avstriya turizm baxımından çox cəlbedicidir.

Bununla əlaqədar Avstriyada otel tikintisi də çox sürətlə inkişaf edib. Avstriyanın iri metallurgiya müəssisələrindən biri ölkənin ən böyük xəstəxana binasını tikmişdir. Bu bir neçə yüz milyonluq layihədir. Həmin müəssisə bu sahədə çox böyük təcrübə qazanıb. Həmin şirkət Avropada xəstəxanaların texniki təchizatı üzrə çox geniş fəaliyyət göstərir. O həm müasir tibbi avadanlığın tədarükü, həm də işçi heyətin hazırlığı ilə məşğul olur.

Mən Avropanın bir çox ölkələrinin prezidentlərini tanıyıram ki, gəlib Avstriyada müalicə olunurlar. Şusteri tanıyırsınız, onunla görüşmüsünüz. Maraqlansanız, o, mütləq təsdiq edəcəkdir ki, Elsburqdakı xəstəxananın sayəsində sağlamlığını bərpa edib. Onun beynində cərrahiyyə əməliyyatı aparılmışdır. Başqa yerdə əməliyyat oluna bilmirdi. Bu əməliyyat yalnız Elsburqda həyata keçirilmişdir. Başqalarının adını çəkmirəm, onlar da Vyanada və ya bizim başqa şəhərlərimizdə müayinədən keçiblər.

Xanımlar və cənablar, deyəsən, mən çox danışdım, amma müsbət şeylərdən danışdım. Əlavə etməliyəm ki, bu heç də o demək deyildir ki, biz artıq razıyıq və bununla da kifayətlənmək istəyirik. Bu heç də belə deyildir. Daha yaxşı olan yaxşının düşmənidir. Yəni biz daha böyük potensial, artım üçün geniş imkanlar görürük və istəyirik ki, bunlarla da məşğul olaq.

Avstriya elə bir ölkədir ki, çox əla mövqeyi vardır. Əvvəllər, necə deyərlər, Berlin divarlarının mövcudluğu dövründə, yəni

Avropada «dəmir pərdə» olanda mövqemiz elə də yaxşı deyildi. Biz kənarda, çox pis vəziyyətdə idik. Vyanadan cəmi 50–60 kilometr məsafədə yerləşən Macarıstan Şərqlə Qərbi ayıran sərhəd idi. İndi isə bu maneələr yoxdur, Avstriya çox əlverişli mövqedədir. Biz indi Avropanın ürəyində yerləşirik. Bu bizim üçün, inkişafımız üçün çox yaxşıdır. Biz Vyanadan Bratislavaya maşınla 40 dəqiqəyə gedib çıxa bilirik, bu məsafə cəmi 50 kilometrdir. Vyanadan Çexiya sərhədinə bir saat, Budapeştə iki saatdır. Bizim yerimiz indi çox yaxşıdır. Şvexart aeroportundan bütün beynəlxalq aeroportlara birbaşa əlaqələr vardır. Bu da Vyananı, Avstriyanı cəlbedici edən əsas faktlardan biridir.

Avstriyada çox güclü sosial sabitlik vardır. Adambaşına düşən ümumi daxili məhsul 32 min avrodur. Bu, Almaniyada, Fransada, İsveçdə, İtaliyadakı müvafiq göstəricidən çoxdur. Bu çox yaxşı bir göstəricidir. Lüksemburq, Lixtenşteyn bizdən irəlidə olan ölkələrdir. Onların xüsusi imtiyazları vardır. Lixtenşteynin 30 min əhalisi vardır. Avstriyadan 50 min nəfər oraya gedib gəlir. Bankla bağlı orada xüsusi imtiyazlar vardır. Amma o ölkələrlə ki, biz daha yaxşı müqayisə oluna bilərik, orada birmənalı olaraq üstün mövqedəyik. Buna da diqqəti cəlb etmək istəyirəm.

Bizim dövlət idarəçiliyimiz də yaxşıdır. Yəni Avstriya yaxşı idarə olunan bir dövlətdir, cəlbedicidir, təhlükəsizdir. Bir çox beynəlxalq təşkilatlar öz mərkəzlərini və ofislərini bizim ölkədə qururlar. İqtisadi baxımdan da güclü bir dövlətik. Vyananın burqomistrinin vitse-spikeri iki həftə əvvəl Bakıda idi. Mən istərdim ki, belə əlaqələr, səfərlər qarşılıqlı olsun.

Avstriyanı reklam etmək çox uzun çəkər. Mən çox qısa bir hissəni – danışa biləcəklərimi söylədim. Bununla da yekunlaşdırıram.

Sağ olun.

# BAKIDA DAHİ BƏSTƏKAR VOLFQANQ MOTSARTIN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*12 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avstriya Respublikasının Federal Prezidenti Haynz Fişer oktyabrın 12-də Bakıda dahi Avstriya bəstəkarı, Avropa klassik musiqisinin ən nüfuzlu nümayəndələrindən olan Volfqanq Amadey Motsartın xatirəsinə ucaldılmış abidənin açılışı mərasimində iştirak etmişlər.*

*Məlumat verildi ki, müəllifləri Xalq rəssamı, heykəltəraş Natiq Əliyev və Əməkdar incəsənət xadimi, memar-rəssam Çingiz Fərzəliyev olan abidənin hündürlüyü 3,85 metrdir. Tuncdan tökülmüş abidənin ətrafındakı bağ tamamilə abadlaşdırılmış, yaşıllıq zolağı salınmışdır.*

*Avstriyanın dövlət başçısı Azərbaycanın tanınmış incəsənət xadimləri ilə görüşdü.*

*Prezident İlham Əliyev və prezident Haynz Fişer abidənin üzərindəki örtüyü götürdülər, önünə gül dəstəsi qoydular.*

*Dövlət başçıları mərasimdə çıxış etdilər.*

# HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*12 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasında rəsmi səfərdə olan Avstriya Respublikasının Federal Prezidenti Haynz Fişer və xanımı Margit Fişer oktyabrın 12-də Heydər Əliyev Fondunda olmuşlar.*

*Avstriyanın dövlət başçısını və xanımını Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.*

*Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verdi.*

*Bildirildi ki, Fond ulu öndərin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə köməklik göstərir.*

*Avstriya prezidenti ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldu.*

*Ali qonaq fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycanın qurucusu haqqında fikirləri ilə tanış oldu.*

*Prezident Haynz Fişer Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Avstriya prezidentinə Heydər Əliyev Fondunun hədiyyəsi təqdim olundu və ali qonaq Fonddan zəngin təəssüratla ayrıldı.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*12 oktyabr 2011-ci il*

*Oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından ölkəmizdə rəsmi səfərdə olan Avstriya Respublikasının Federal Prezidenti Haynz Fişerin və xanımı Margit Fişerin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Mərasimdə çıxış edən prezident İlham Əliyev Avstriyanın dövlət başçısının Azərbaycana ilk səfərinin tarixi xarakter daşıdığını və ölkələrimiz arasındakı münasibətlərin səviyyəsini əks etdirdiyini dedi. Dövlətimizin başçısı bildirdi ki, bu səfər münasibətlərin inkişaf perspektivlərini müəyyən etməyə imkan verəcəkdir.*

*«Biz Avstriyaya Avropa İttifaqı ilə Azərbaycan arasında inteqrasiya prosesinə verdiyi dəstəyə görə minnətdarıq» – deyən dövlətimizin başçısı danışıqlar zamanı enerji təhlükəsizliyi və enerji siyasətinin də müzakirə edildiyini diqqətə çatdırdı.*

*«Biz müzakirə etdiyimiz bütün məsələlər ətrafında qarşılıqlı anlaşma əldə etdik» – deyən prezident İlham Əliyev Avstriya–Azərbaycan biznes-forumunun əhəmiyyətindən də danışdı və bu forumun iqtisadi əməkdaşlığa töhfə verəcəyini vurğuladı.*

**İ l h a m Ə l i y e v:** Avstriya şirkətləri bir neçə ildir ki, Azərbaycanda uğurla fəaliyyət göstərir. İnfrastruktur, inşaat, mədəniyyət, yenidənqurma, bərpa və digər sahələrlə bağlı çox mühüm layihələr həyata keçirilir. Əminəm ki, Sizin səfəriniz nəticəsində bu siyahı daha da genişlənəcəkdir.

Buraya gəlməzdən əvvəl biz cənab Prezidentlə birlikdə Bakının mərkəzində dahi bəstəkar və dünyanın böyük şəxsiyyəti Motsartın möhtəşəm abidəsinin və gözəl parkın açılışında iştirak etdik. Bu, dahi Motsartın xatirəsinə ehtiramımızın əlamətidir. Açılış mərasimində dediyim kimi, bu, Azərbaycanda Avstriyanın bir parçası olacaqdır.

Cənab Prezident, mən çox şadam ki, bu qısa səfər çərçivəsində nələri edə bildiksə, onların güclü əsasları vardır. Bunlar münasibətlərimizin gələcək inkişafına öz təsirini göstərəcəkdir.

**H a y n z F i ş e r:** Cənab Prezident, xanım Əliyeva!

Zati-aliləri, hörmətli Baş nazir, spiker, hörmətli qonaqlar!

Bu həqiqətdir ki, çox maraqlı və olduqca məhsuldar səfər artıq sona çatır. Bu çox təqdirəlayiq bir səfər idi. Bu mənim səmimi arzumdur və cənab Prezident, Sizə minnətdarlıq etmək istərdim.

*Haynz Fişer danışıqlar zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, enerji məsələsinin, mədəniyyət sahəsində əlaqələrin müzakirə olunduğunu dedi. Dahi bəstəkar Motsartın Bakıda abidəsinin ucaldılmasına görə minnətdarlığını bildirən Avstriyanın dövlət başçısı qeyd etdi ki, bu, ölkələrimiz arasında formalaşan münasibətlərin bir rəmzidir.*

*Haynz Fişer göstərilən qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirdi.*

## TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ İSMƏT YILMAZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Türkiyə Respublikasının Milli Müdafiə naziri İsmət Yılmazın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Türkiyə Respublikasının Milli Müdafiə naziri İsmət Yılmazı yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Dövlətimizin başçısı prezidentlərin və baş nazirlərin ilk rəsmi səfərlərini qardaş ölkəyə etdiklərini vurğulayaraq, bu ənənənin nazirlər səviyyəsində də davam etməsindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlərdə, xüsusilə də müdafiə sahəsində uğurla inkişaf etdiyini qeyd etdi. Dövlətimizin başçısı İsmət Yılmazın Azərbaycana səfərinin ölkələrimizin müvafiq qurumları arasında əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyini vurğuladı.*

*Türkiyə Respublikasının Milli Müdafiə naziri İsmət Yılmaz prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın Azərbaycan prezidentinə və Azərbaycan xalqına salamlarını və ehtiramını çatdırdı. İsmət Yılmaz nazir təyin olunduqdan sonra ilk rəsmi səfərini qardaş Azərbaycana etməsindən məmnunluğunu bildirdi.*

*Dövlətimizin başçısı Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını qardaş ölkənin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## ABŞ ATLANTİK ŞURASININ PREZİDENTİ FREDERİK KEMPİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də ABŞ Atlantik Şurasının prezidenti Frederik Kempin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

XXI əsrin çağırışlarından hesab edilən narkotiklərin qanunsuz dövriyyəsi bəşəriyyətin gələcəyinə böyük təhlükə yaradır və terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biri kimi çıxış edir.

Müasir dünya hərbi münaqişə zonalarından narkotiklərin qanunsuz dövriyyəsi üçün istifadə olunmasından dərin narahatlıq hissi keçirir. Azərbaycan da 20 ildir ki, belə bir problemlə üzləşmişdir. Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərimizdən narkotik vasitələrin istehsalı və tranziti üçün istifadə edilməsi narkobiznesin və beynəlxalq terrorizmin genişlənməsinə şərait yaradır.

Azərbaycanda solsial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, mənəvi-əxlaqi dəyərlərinin qorunması məqsədilə narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir. Bu sahədə zəruri qanunvericilik bazası yaradılmış, institusional islahatlar həyata keçirilmiş, Azərbaycan müvafiq beynəlxalq sənədlərə və təşəbbüslərə qoşulmuşdur.

BMT-nin Narkotiklər və Sinayətkarlıq üzrə İdarəsi və Ümumdünya Gömrük Təşkilatı ilə əməkdaşlıqda belə bir konfransın Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq tərəfdaş kimi etibarlılığını göstərir.

Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Regional Ofisinin Bakıda açılması mühüm hadisə olmaqla yanaşı, bizim üçün önəmli bir tarixə, müstəqilliyimizin bərpasının 20-ci ildönümünə təsadüf edir.

Əminəm ki, konfransda hamımızı narahat edən məsələlərin müzakirəsi iştirakçılara beynəlxalq təcrübədən faydalanmaq imkanı verəcək, əməkdaşlığımızı daha da möhkəmləndirəcək və

narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə mübarizə işinə öz töhfəsini verəcəkdir. Konfransın iştirakçılarına uğurlar diləyir və ən xoş arzularımı bildirirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 oktyabr 2011-ci il*

# TÜRKİYƏNİN DİYANƏT İŞLƏRİ BAŞQANI MEHMET GÖRMEZİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Türkiyə Respublikasının Diyanət İşləri başqanı Mehmet Görmezin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Dini-mənəvi dəyərlərlə bağlı ölkəmizdə bir sıra beynəlxalq tədbirlərin, o cümlədən ötən il Dünya Dini Liderlərinin Bakı Sammitinin yüksək səviyyədə keçirildiyini qeyd edən dövlətimizin başçısı əməkdaşlığın genişlənməsində bu cür tədbirlərin önəmini vurğuladı. Prezident İlham Əliyev Türkiyə Respublikasının Diyanət İşləri başqanı Mehmet Görmezin Azərbaycana səfərinin bu sahədə əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyini dedi.*

*Diyanət İşləri başqanı Mehmet Görmez Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Sonuncu dəfə beş il əvvəl Bakıya səfər etdiyini deyən qonaq ötən dövr ərzində ölkəmizdə çox yüksək inkişafın şahidi olduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## İTALİYA–AZƏRBAYCAN PARLAMENTLƏR-ARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ, SENATOR XANIM ROSSANA BOLDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də İtaliya–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, senator xanım Rossana Boldinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini və bütün sahələrdə yaxşı nəticələrin olduğunu dedi. İtaliyaya səfərlərini məmnunluqla xatırladan prezident İlham Əliyev Azərbaycan ilə İtaliya arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu bildirdi. İqtisadi sahədə İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğunu deyən dövlətimizin başçısı İtaliya şirkətlərinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyini vurğuladı. Parlamentlərarası əlaqələrin yaxşı tarixə malik olduğunu deyən dövlətimizin başçısı İtaliya–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, senator xanım Rossana Boldinin ölkəmizə səfərinin bu əlaqələrin daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi.*

*İtaliya-–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, senator xanım Rossana Boldi başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin dövlət başçısı ilə görüşdən başlamasından məmnunluğunu bildirdi. Xanım Rossana Boldi Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü münasibətilə prezident İlham Əliyevi təbrik etdi. O, ikitərəfli münasibətlərimizin genişlənməsində parlamentlərarası əlaqələrin əhəmiyyətini vurğuladı.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Dost və qardaş Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün Türk xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Türkiyənin hərtərəfli inkişafı, iqtisadi yüksəlişi onun regionda cərəyan edən proseslərdə artan rolu ilə müşayiət olunur. Biz Türkiyənin uğurlarına ürəkdən sevinir və bundan qürur hissi keçiririk.

Tarixi birliyimizdən və ortaq mənəvi dəyərlərimizdən qaynaqlanan Azərbaycan–Türkiyə dövlətlərarası münasibətləri xalqlarımızın yekdil iradəsini əks etdirərək, özünün ən yüksək səviyyəsi ilə seçilir.

Əminəm ki, zamanın sınaqlarından çıxmış dostluq və qardaşlığımız ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətlərinin, müttəfiqliyimizin və həmrəyliyimizin əbədi mənbəyi olaraq daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bayram sevincinizə qoşulur, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türk xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 oktyabr 2011-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz qardaşım!

Qardaş Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə Sizi və bütün Türk xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Türkiyənin hərtərəfli yüksəlişindən, dünya miqyasında artan nüfuzundan, beynəlxalq məsələlərdə fəal iştirakından böyük məmnunluq duyuruq.

Azərbaycan–Türkiyə münasibətləri dərin tarixi köklərə, ortaq mənəvi dəyərlərə malik xalqlarımızın dostluq və qardaşlığından güc alır. Bu cür möhkəm təməllər üzərində yüksələn dövlətlərarası münasibətlərimiz xalqlarımızın sarsılmaz iradəsinin bariz ifadəsidir.

Əminəm ki, qarşılıqlı inam və dəstəyə əsaslanan ikitərəfli münasibətlərimiz regionumuzda sülhün və əmin-amanlığın bərqərar olmasında, ölkələrimizin iqtisadi qüdrətinin artmasında daim mühüm rol oynayacaqdır.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türk xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 oktyabr 2011-ci il*

## AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNZ FİŞERƏ

Hörmətli cənab Federal Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Biz Azərbaycan–Avstriya münasibətlərinə böyük əhəmiyyət veririk. Bu mənada siyasi, iqtisadi və mədəni əlaqələrimizin hazırkı inkişaf dinamikası xüsusi məmnunluq doğurur.

Əminəm ki, bu günlərdə ölkəmizə səfəriniz, Bakıda keçirdiyimiz görüşlər, ikitərəfli münasibətlərimizin gündəliyinə dair apardığımız dəyərli müzakirələr əlaqələrimizin daha da möhkəmlənməsinə, əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsinə mühüm töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstriya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 oktyabr 2011-ci il*

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VATSLAV KLAUSA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Çexiya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Bu ilin may ayında ölkəmizə səfəriniz dövlətlərarası münasibətlərimizin möhkəmlənməsinə, dostluq və əməkdaşlıq əlaqələrimizin genişlənməsinə yeni təkan vermişdir.

Əminəm ki, istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çexiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 oktyabr 2011-ci il*

**TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Dost Türkmənistanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Türkmənistan arasında dərin tarixi kökləri olan dostluq əlaqələrinin, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın inkişafı yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 oktyabr 2011-ci il*

## DÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYA VƏ BMT-nin VYANA OFİSİNİN RƏHBƏRİ, NARKOTİK VƏ CİNAYƏTKARLIQ ÜZRƏ İDARƏSİNİN İCRAÇI DİREKTORU YURİ FEDOTOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Dünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı və BMT-nin Vyana ofisinin rəhbəri, Narkotik və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuri Fedotovu qəbul etmişdir.*

*BMT-nin Vyana ofisinin rəhbəri, Narkotik və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuri Fedotov Bakıda «Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə» mövzusunda keçirilən beynəlxalq konfransın əhəmiyyətini qeyd etdi. O bu tədbirdə dünyanın 42 ölkəsindən yüksək səviyyəli agentliklərin rəhbərlərinin iştirakının önəmini vurğuladı.*

*Dövlətimizin başçısı Bakıda «Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə» mövzusunda keçirilən beynəlxalq konfransda dünyanın müxtəlif ölkələrindən olan nümayəndələrin iştirakını konfransa olan marağın göstəricisi kimi qiymətləndirdi. Prezident İlham Əliyev narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin daha da gücləndirilməsi üçün səyləri birləşdirməyin vacibliyini vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASININ 20-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*«Buta» sarayı*

*17 oktyabr 2011-ci il*

*Oktyabrın 17-də «Buta» sarayında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş rəsmi qəbul təşkil edilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak etmişdir.*

*Salona toplaşanlar prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi.*

* * *

– Hörmətli xanımlar və cənablar!

Mən Sizi və bütün Azərbaycan xalqını dövlət müstəqilliyimizin bərpasının 20-ci ildönümü münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

Biz bu gözəl hadisəni ilboyu qeyd edirik. Bu ilin əvvəlində – yanvar ayında dövlət müstəqilliyimizin bərpasının 20-ci ildönümünü qeyd etmək üçün mənim tərəfimdən müvafiq sərəncam imzalanmışdır və il ərzində həm Azərbaycanda, həm xaricdə müstəqilliyimizin ildönümünü qeyd etmək üçün müxtəlif tədbirlər keçirilmişdir. 20 il ərzində müstəqil Azərbaycan böyük və uğurlu yol keçmişdir.

Biz müstəqilliyimizin ilk illərini də yaxşı xatırlayırıq. Sovet İttifaqının dağılması nəticəsində digər sovet respublikaları ilə bərabər, Azərbaycan da müstəqilliyə qovuşdu. Bizim

müstəqillik təcrübəmiz XX əsrin əvvəlində də olmuşdur. O vaxt rus imperiyasının dağılması nəticəsində müstəqillik əldə edildi, Azərbaycanda demokratik respublika yaradıldı. Ancaq bu respublikanın ömrü uzun olmadı, iki ildən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. XX əsrin sonunda da buna oxşar proseslər baş vermişdir. Müstəqilliyimizin ilk illərində ölkədə xoşagəlməz meyillərin mövcud olduğu, anarxiya və özbaşınalığın hökm sürdüyü bir dövrdə müstəqilliyimiz yenə də təhlükə altında idi. 1991–93-cü illərdə ölkə idarəolunmaz vəziyyətdə idi. Total böhran hökm sürürdü. Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti nəticəsində torpaqlarımız əldən gedirdi. 1992-ci ilin mayında Şuşa və Laçının, 1993-cü ilin aprelində Kəlbəcərin işğalı nəticəsində, demək olar ki, Dağlıq Qarabağ ilə Ermənistan arasında bir bağlantı əldə edilmişdir.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində biz bu sınaqlardan şərəflə çıxa bilməmişdik. 1993-cü ildə ölkədə vəziyyət dözülməz həddə çatandan sonra Azərbaycan xalqı Heydər Əliyevə müraciət etmişdir. Xalq öz xilasını, gələcəyini Heydər Əliyevdə görürdü və bu münasibətin, bu fikirlərin çox böyük əsasları vardı. Çünki keçən əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində Azərbaycanda yaşanan inkişaf Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Azərbaycan üçün həlledici anlarda məhz onun qətiyyəti, sözü həlledici rol oynamışdır. Heydər Əliyev Sovet İttifaqının dağılmasının ərəfəsində də böyük siyasi cəsarət göstərərək daim öz xalqının yanında idi. Azərbaycanlılara qarşı təcavüzdən – Qanlı 20 Yanvar faciəsindən dərhal sonra o öz səsini ucaltmışdır.

Sovet İttifaqı Kommunist Partiyasını, onun siyasi rəhbərliyini bu vəhşilikdə ittiham etmişdir. Özü də rəsmən. Uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarını tərk etmişdir. 1990-cı ilin noyabr ayında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsində də Heydər Əliyevin müstəsna xidməti olmuş, «Sovet Sosialist» sözləri muxtar respublikanın adından çıxarılmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı 1990-cı ilin noyabr ayında Naxçıvanda rəsmi Dövlət bayrağı kimi Heydər Əliyevin təşəbbüsü ilə qaldırılmışdır. Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırılmışdır ki, bu bayraq Azərbaycanın Dövlət bayrağı kimi elan edilsin. 1991-ci ilin mart ayında Azərbaycanda Sovet İttifaqının saxlanılması haqqında referendum keçirildiyi zaman Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdi. Bu hadisələr Azərbaycan xalqının qəlbində çox böyük əks-səda doğurmuşdu. 1993-cü ildən başlayaraq Azərbaycanda böyük inkişaf və quruculuq işləri aparılmağa başlamışdır. İlk növbədə sabitlik bərpa olundu, qanunsuz silahlı birləşmələr tərksilah edildi. İqtisadi sahədə çox dəyərli təşəbbüslər irəli sürüldü və ölkənin strateji inkişafı haqqında düzgün seçim edildi. Azərbaycan müasir, dünya birliyinə inteqrasiya edən, bazar iqtisadiyyatı prinsiplərinə, demokratik əsaslara sadiq ölkə kimi inkişaf etməli idi. O strateji seçimi Azərbaycan xalqı Heydər Əliyevin rəhbərliyi ilə 1993-cü ildə etmişdir və o ildən bu günə qədər Azərbaycan inkişaf yolu ilə uğurla gedir.

1993–2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi tarixdə qalacaqdır. Məhz o illərdə dövlətçiliyin əsasları qoyuldu. 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edildi, dövlətçiliyin ideoloji əsasları qoyuldu və bu gün də ölkəmizin əsas ideoloji şüarı Azərbaycançılıq məfkurəsidir. Bu gün Azərbaycan iqtisadiyyatı tam bazar iqtisadiyyatı prinsipləri əsasında idarə olunur. Ancaq 1993-cü ildə bu seçim o qədər də dəqiq deyildi. Çünki o vaxt Azərbaycanda nə bazar iqtisadiyyatı meyilləri var idi, nə də ki, planlı iqtisadiyyatın qalıqları qalmışdı. Bütün iqtisadiyyat dağılmışdı, sənaye istehsalı iflic vəziyyətində idi. Neft istehsalı kəskin şəkildə aşağı düşmüşdü. Yeni strateji seçimlər etmək üçün böyük peşəkarlığa, müdrikliyə, dünyagörüşünə malik olmaq lazım idi. Azərbaycan xalqının xoşbəxtliyi ondan ibarətdir ki, ölkəmiz üçün ən çətin, həlledici anlarda ulu öndər Heydər Əliyev Azərbaycanın rəhbərliyinə gəlmiş və ölkəmizi bu ağır vəziyyətdən çıxara bilmişdir.

Ulu öndərin ölkəmizin demokratik inkişafı ilə bağlı verdiyi qərarlar bu gün də aktuallığını itirmir. Senzuranın ləğvi, Azərbaycanın beynəlxalq təşkilatlara inteqrasiya siyasəti və bu səpkidə digər addımlar bu gün də bizim inkişafımızın əsas istiqamətlərini müəyyən edir.

Ölkə iqtisadiyyatının canlandırılması üçün yollar axtarılırdı. Çünki ölkə iqtisadiyyatı tamamilə dağılmış vəziyyətdə idi və xarici investisiyalarsız Azərbaycanın gələcəyi mümkün deyildi. Ölkədə xaos, özbaşınalıq, anarxiya hökm sürürdüsə bu investisiyaları necə gətirmək olardı?! Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti davam edirdi. Azərbaycana vəsait qoymaq istəyənlərin sayı çox məhdud idi. Ona görə ölkənin milli maraqlarını təmin etmək şərtilə investorları cəlb etmək, onlar üçün məqbul şərait yaratmaq böyük peşəkarlıq və məharət tələb edirdi. Ölkə iqtisadiyyatı və bütövlükdə ölkənin gələcəyi üçün həlledici amil «Əsrin müqaviləsi»nin bağlanması idi. Keçmişə nəzər salaraq, tam əminliklə deyə bilərik ki, əgər o vaxt «Əsrin müqaviləsi» bağlanmasaydı, bugünkü Azərbaycanın vəziyyəti tam başqa ola bilərdi. Azərbaycanı dünyaya o müqavilə tanıtdı. O, Azərbaycana investisiyalar gətirdi, iş yerlərinin açılmasına gətirib çıxardı. Azərbaycanı dünya iqtisadiyyatının bir parçası kimi, dünyaya təqdim etdi. Azərbaycan bu gün enerji siyasəti ilə nəinki öz maraqlarını, tərəfdaşlarımızın maraqlarını da təmin edir. Bu gün Azərbaycan dünyada etibarlı tərəfdaş kimi qəbul edilir və bu siyasətin əvvəli məhz «Əsrin müqaviləsi»nin bağlanması ilə əlaqədar idi. Bu bizə imkan verdi ki, əldə edilən gəlirləri iqtisadiyyatın bütün sahələrinə yönəldək və beləliklə, iqtisadiyyatımızın şaxələndirilməsinə nail olaq.

Əlbəttə, o vaxt enerji sahəsində atılan addımlar həlledici rol oynayırdı. Heydər Əliyevin neft strategiyası icra edilməyə başlamışdır, «Şahdəniz» qaz yatağı üzrə kontrakt bağlanmışdır ki, bu gün o, Azərbaycanın qaz resurslarının əsas hissəsini təşkil edən layihədir. Əgər o layihələr olmasaydı, neft və qaz kəmərləri tikilməsəydi, bu gün bölgədə, ümumiyyətlə, enerji təhlükəsizliyindən söhbət aparmaq mümkün olmazdı. Bu bizə

iqtisadi müstəqillik verdi. İqtisadi müstəqillik isə siyasi müstəqilliyə gətirib çıxarmışdır. Nəyə görə bu gün Azərbaycan bölgədə və dünyada öz siyasətini inamla apara bilir? Azərbaycan bu gün özünə güvənir. Ona görə ki, güclü iqtisadi dayaqlarımız vardır. Güclü iqtisadi dayaqlar siyasi müstəqilliyə də təkan verir. Bu gün, sözün əsl mənasında, Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının maraqlarına xidmət edir, bu siyasət xoşniyyətlidir, heç kimə qarşı deyil. Bu siyasət əməkdaşlığı, o cümlədən regional əməkdaşlığı gücləndirən bir siyasətdir.

Bu gün Heydər Əliyev siyasəti bütövlükdə bütün sahələrdə davam etdirilir. 2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident vəzifəsinə seçdiyi gündən bu günə qədər bu siyasətə sadiqəm. Mən bu siyasətə sadiq qalacağam və 2003-cü ildən bu günə qədər Azərbaycanda gedən uğurlu inkişaf Heydər Əliyev siyasətinin təntənəsidir, müstəqil Azərbaycanın təntənəsidir. Biz istənilən sahədə böyük irəliləyiş və nəticələr görürük. Ölkə qarşısında duran problemlər hələ də vardır və bu da təbiidir. Ancaq bu problemlər həll olunur və ən önəmlisi, problemlərin həlli üçün bizdə düşünülmüş proqramlar vardır. Bu proqramlar bütün sahələri əhatə edir. Siyasi islahatlar, demokratikləşmə prosesi Azərbaycanda uğurla gedir. İqtisadi sahədə, regionların inkişafı, infrastruktur layihələrinin həyata keçirilməsi üzrə konkret proqramlar vardır. Xarici siyasətlə bağlı konseptual yanaşmalar və bizim siyasətimiz göstərir ki, bu çox uğurlu siyasətdir. Biz bu gün bütün sahələrdə fəaliyyətimizi konkret proqramlar əsasında qurmuşuq və ölkənin inkişafı çox uğurludur və sürətlidir. Gələcəkdə də Azərbaycanda siyasi islahatların dərinləşməsinə çalışacağıq.

Demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, qanunun aliliyinin bərqərar olunması sahəsində böyük işlər görülübdür və bundan sonra da görüləcəkdir. Biz etibarlı tərəfdaş kimi, beynəlxalq təşkilatlara üzv olmuşuq və üzərimizə götürdüyümüz bütün öhdəlikləri vaxtında və ləyaqətlə yerinə yetiririk. Siyasi islahatların aparılması üçün güclü iqtisadi

dayaqlar olmalıdır. Son 8 ildə Azərbaycan dünya miqyasında heç vaxt tarixdə bu günə qədər analoqu olmayan inkişaf templərini göstərir. Bunu bütün statistik göstəricilərdə də hər kəs görə bilər. 8 il ərzində ölkə iqtisadiyyatı 300 faiz, sənaye istehsalı 300 faiz artmışdır, 950 min yeni iş yeri açılmışdır, yoxsulluq 5 dəfə – 500 faiz azalmışdır, büdcə xərcləri təxminən 20 dəfə artmışdır. Ölkənin uğurlu, dayanıqlı və sürətli inkişafı təmin edilmişdir. Əgər biz bu göstəricilərin 30 faizinə nail olsaydıq, bunu da böyük uğur kimi qəbul edəcəydik. Ancaq əldə edilmiş uğurlar göstərir ki, biz düzgün yoldayıq.

Azərbaycanda sosial ədalət prinsipləri tam bərqərar edilmişdir. Bazar iqtisadiyyatı prinsiplərinə sadiqik. Həmçinin çox güclü sosial siyasət aparırıq. Belə olmasaydı, bu il pensiyaçıların pensiyası təxminən 40 faiz artmazdı. İqtisadi və sosial sahələrdə aparılan siyasət öz nəticəsini verib. Bu siyasət növbəti illərdə davam etdiriləcək və əminəm ki, bir neçə ildən sonra Azərbaycanda iqtisadi və infrastruktur sahələrində bütün məsələlər öz həllini tapacaqdır.

Fikirləşirəm ki, bu qədər inkişaf əldə edilib, əgər bizim torpaqlarımız işğal olunmasaydı, əgər bizə qarşı etnik təmizləmə siyasəti aparılmasaydı, bundan da böyük uğurlara nail ola bilərdik. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində buraxılmış səhvlər və qeyd etdiyim kimi, 1992-ci ildə və 1993-cü ilin əvvəlində Şuşa, Laçın və Kəlbəcərin zəbt olunması nəticəsində torpaqlarımız işğal altına düşdü.

Atəşkəs rejimi bağlanandan sonra danışıqlar nəticə vermir. Əgər Heydər Əliyev müstəqilliyimizin ilk illərində Azərbaycanın rəhbərliyində olsaydı, mən tam əminəm ki, bir qarış torpaq da düşmənin işğalı altında qalmazdı. Bizim xoşbəxtliyimiz ondadır ki, Azərbaycan xalqı Heydər Əliyevə müraciət edib və onu hakimiyyətə dəvət edib. Bədbəxtçiliyimiz isə onda idi ki, müstəqilliyimizin ilk illərində ölkənin taleyi ilə oynayan qüvvələr öz tarixi məsuliyyətini dərk edə, ölkəni layiqincə idarə edə bilməmişlər. Müstəqil Azərbaycana rəhbərlik etmək, ölkəni irəliyə aparmaq bütün əvvəlki nəsillər

qarşısında böyük məsuliyyətdir. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində buraxılmış səhvlər, səriştəsizlik, bəzi hallarda xəyanət nəticəsində torpaqlarımız işğal altındadır. Biz indi çalışırıq ki, bu ədalətsizliyi aradan qaldıraq, ərazi bütövlüyümüzü bərpa edək. Danışıqları aparırıq və aparacağıq. Əfsuslar olsun ki, danışıqların heç bir nəticəsi yoxdur. Danışıqların aparılması ilə bərabər, biz ölkəmizi gücləndiririk. Dağlıq Qarabağ münaqişəsini ədalətli və beynəlxalq hüquq normalarına uyğun şəkildə həll etmək üçün Azərbaycan daha da güclü olmalıdır.

Son illər Ermənistan ilə Azərbaycan arasında inkişafda mövcud olan fərq daha da böyüyür. Bu münaqişənin həllinin yolu ancaq beynəlxalq hüquq normalarının qəbul edilməsindən keçir. Azərbaycanın dünya birliyi tərəfindən, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınan ərazi bütövlüyü bərpa edilməlidir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi qeyd-şərtsiz icra edilməlidir. İşğalçı qüvvələr torpaqlarımızdan çıxarılmalıdır. Azərbaycan ərazi bütövlüyünü, suverenliyini bərpa etməlidir. Erməni vandalizmindən, vəhşiliyindən, etnik təmizləmə siyasətindən əziyyət çəkmiş vətəndaşlar ata-baba torpaqlarına qayıtmalıdırlar və qayıdacaqlar. Mən buna şübhə etmirəm. Bunu etmək üçün biz daha da güclü olmalıyıq və biz güclü oluruq. İqtisadi sahədə, hərbi sahədə və bütün sahələrdə Azərbaycanın potensialı Ermənistandan bir neçə dəfə üstündür, daha da üstün olmalıdır.

Diplomatik səylərimizi davam etdirəcəyik, bütün vasitələrdən istifadə edib ərazi bütövlüyümüzün bərpası üçün çalışacağıq. Haqq-ədalət bizim tərəfimizdədir, bunu hamı bilir. 20 il ərzində erməni lobbisi nə qədər çalışsa da, biz dünyaya bəyan edə bilmişik, göstərə bilmişik ki, Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır, həm tarix baxımından, həm beynəlxalq hüquq baxımından. Bu gün bizim hücum diplomatiyamız səmərəsini verməkdədir. Əminəm ki, bu məsələ ədalətli, beynəlxalq hüquq normalarına uyğun şəkildə həllini tapacaq və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Mən bu məsələ ilə

bağlı fikirlərimi vaxtaşırı Azərbaycan ictimaiyyəti ilə bölüşürəm. Kifayət qədər əsaslar vardır. Tarixi və hüquqi amillərdən başqa, real qüvvələr nisbəti artıq tamamilə Azərbaycanın üstünlüyünü göstərir. İqtisadi potensial müqayisəedilməz dərəcədədir. Azərbaycan iqtisadiyyatı 20 illik müstəqillik dövründən sonra bu gün Cənubi Qafqaz iqtisadiyyatının 83 faizini təşkil edir.

Bu gün hər bir ölkə, o cümlədən Azərbaycan iqtisadi amillərlə yanaşı, özünü qorumaq, müdafiə etmək üçün tədbirlər görür. Hərbi xərclərimizin böyüməsi təbii prosesdir. Bizim bütün xərclərimiz artır, o cümlədən hərbi xərclər. Nəzərə alsaq ki, Qarabağ kimi problemimiz vardır, hərbi xərclərimizin artması təbiidir. Artmasaydı, bu, qeyri-təbii olardı. Artır və artacaqdır. Bir neçə il əvvəl qarşıya qoyduğum vəzifə artıq keçmişdə qalıb. Demişdim ki, bizim hərbi xərclərimiz Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır. Bu gün hərbi xərclərimiz Ermənistanın büdcəsindən 500 milyon manat artıqdır. Gələcəkdə daha da artıq olacaqdır.

Mənim nikbinliyimin səbəblərindən biri də bölgədə mövcud olan demoqrafik vəziyyətlə bağlıdır. Azərbaycanın əhalisi ildən-ilə artır və 9 milyon 100 min nəfərdən artıq vətəndaşımız vardır. Ermənistanda əhali ildən-ilə azalır və azalacaqdır. Həm təbii proseslər nəticəsində, həm də orada mövcud olan, hökm sürən ümidsizlik, işsizlik və kütləvi apatiya nəticəsində. Bu və digər amillər – bu gün bu barədə bəlkə də danışmağa ehtiyac yoxdur – əminliyimizi daha da gücləndirir. Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaqdır, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi kimi yaşamasını təmin edəcəkdir.

Bu 20 il ərzində bütün sahələrdə böyük inkişaf və quruculuq işləri aparılmışdır. Görülən işlər haqqında bəlkə də saatlarla danışmaq olar. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycan bölgədə və dünyada özünü etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə, dost ölkə kimi tanıtdıra bilmişdir. Xoşniyyətli siyasətlə Azərbaycan bu gün dünyada özü üçün dostlar qazanıbdır. Tərəfdaşlarımızın, Azərbaycan ilə xoş münasibətlər qurmaq istəyənlərin sayı artır. Biz əməkdaşlığın tərəfdarıyıq. Əməkdaşlıq üçün təkliflərimizi irəli sürürük. Əməkdaşlıq üçün

lazım gələn vaxtda dəstəyimizi də əsirgəmirik. Dəfələrlə Azərbaycan tərəfdaşlarına lazım olan anda dostluq əlini uzatmışdır. Biz bu siyasəti davam etdirəcəyik.

Biz istəyirik ki, bütün bölgədə sülh, əmin-amanlıq olsun. Bütün xalqlar mehriban qonşuluq şəraitində yaşasınlar. Ölkə daxilində hökm sürən sabitlik, inkişaf, xoşniyyətli siyasət və xoş ovqat bizi daha da gücləndirir. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Bu bizim böyük üstünlüyümüzdür, xoşbəxtliyimizdir. Azərbaycanda yaşayan bütün xalqların, bütün dinlərin nümayəndələri bizim dəyərli vətəndaşlarımızdır. Biz bir ailəyik, hamımız Azərbaycan vətəndaşlarıyıq. Ölkəmizin hərtərəfli inkişafında hər bir Azərbaycan vətəndaşının rolu olmalıdır və vardır. Əminəm ki, ölkə qarşısında duran vəzifələr uğurla icra ediləcəkdir.

Biz 20 il ərzində böyük yol keçmişik – müstəqillik yolu, suverenlik yolu, azadlıq yolu. İyirmi il həm böyük bir müddətdir, həm də kiçik. Kiçikdir ona görə ki, tarix üçün 20 il heç nədir. Müstəqil bir ölkənin inkişafı üçün 20 il o qədər də böyük müddət deyildir. Lakin bu 20 il ərzində o qədər böyük işlər görülmüşdür ki, biz bu 20 ili böyük müddət kimi də qəbul edə bilərik və edirik. Biz hamımız bilirik ki, müstəqil Azərbaycan üçün bu birinci addımlardır. Bu 20 il 120 il, 220 il, 520 il olacaqdır. Müstəqil respublikamız əbədi yaşayacaqdır. Bizdən asılıdır ki, Azərbaycan hansı əsaslarla idarə olunacaqdır. Bu gün qoyulan əsaslar – müstəqillik, suverenlik, demokratiya, bazar iqtisadiyyatı, sosial ədalət prinsipləri dövlətçiliyin əsaslarıdır. Güclü milli ideologiya, milli ruh, milli ləyaqət bizə yol göstərən prinsiplərdir. Müstəqil olmaq, azad olmaq böyük xoşbəxtlikdir. Bizdən əvvəlki nəsillər əsrlər boyu müstəqillik eşqi, müstəqillik arzuları ilə yaşamışlar və həyatdan getmişlər. Bizim nəsil xoşbəxtdir ki, nəinki müstəqilliyi görürük, biz müstəqilliyi möhkəmləndiririk. Azərbaycanı, müstəqil dövləti irəliyə aparırıq. Azərbaycan xalqın iradəsi ilə idarə olunur. Bugünkü Azərbaycan xalqımızın zəhməti və istedadı hesabına formalaşıbdır. Hər şey bizdən asılıdır. 1991-ci ildə də bizdən

asılı idi. Əfsuslar olsun ki, o vaxt ölkəmiz lazımi səviyyədə olmadı. 1993-cü ildə də bizdən asılı idi, bu gün də bizdən asılıdır. Hər bir vətəndaş, vətənini sevən hər bir vətənpərvər insan çalışmalıdır ki, öz zəhməti, əməyi, peşəkarlığı ilə doğma dövlətini gücləndirsin.

Biz möhkəm ənənələr, möhkəm dəyərlər, milli-mənəvi dəyərlər üzərində müasir dövlət qururuq və uğurla qururuq. Bu gün Azərbaycanı artıq bəzi dairələrdə bir örnək ölkə kimi təqdim edirlər. Bu bizi sevindirir. Bu, Azərbaycanın əldə etdiyi uğurlara verilən qiymətdir, ancaq bu, məsuliyyətimizi də artırır. Biz istəyirik ki, ölkə daxilində işlər yaxşı getsin, qonşuluqda əmin-amanlıq, sülh olsun. Xarici siyasətdə istəyimiz ondan ibarətdir ki, dostlarımızın sayı artsın. Səylərimizi səfərbər etmişik ki, Azərbaycanı daha da inkişaf etdirək, insanlar üçün daha da yüksək şərait yaradaq, insanların maddi rifahını artıraq, ölkə iqtisadiyyatını gücləndirək. Artıq Azərbaycan regional müstəvidə güc mərkəzidir. Bunun səbəbi təkcə təbii ehtiyatlar deyil. Təbii ehtiyatlar sadəcə olaraq bizə ilkin təkan verdi ki, ondan səmərəli istifadə edək. Bizim uğurların təməlində gələcəyə olan baxışlarımızdır, strategiyamızdır, birliyimizdir. Azərbaycan xalqı bu illər ərzində nə qədər böyük xalq olduğunu göstəribdir. 20 ildə biz böyük nailiyyətlərə çatmışıq. Əminəm ki, bundan sonra da biz bu nailiyyətləri artıracağıq, ölkəmizin hərtərəfli inkişafı üçün çalışacağıq, daha qüdrətli, daha böyük ölkə yaradacağıq. Bu işdə hamımıza uğurlar arzulayıram. Sağ olun.

## ABŞ DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ UİLYAM BÖRNS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də ABŞ Dövlət katibinin birinci müavini Uilyam Börnsü qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, energetika sahəsində qlobal layihələr və təşəbbüslərlə bağlı birgə əməkdaşlıq məsələlərinə toxunuldu, Azərbaycan sülhməramlı qüvvələrinin Əfqanıstanda beynəlxalq sülhməramlı missiyanın tərkibində uğurlu fəaliyyəti qeyd edildi.*

## EKVADORUN XARİCİ İŞLƏR, TİCARƏT VƏ İNTEQRASİYA NAZİRİ RİKARDO ARMANDO PATİNYO AROKANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Ekvador Respublikasının Xarici İşlər, Ticarət və İnteqrasiya naziri Rikardo Armando Patinyo Arokanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ekvadordan ilk dəfə nazirlər səviyyəsində ölkəmizə nümayəndə heyətinin gəldiyini vurğulayan prezident İlham Əliyev bu cür səfərlərin sayının artacağına və bu səfərin ölkələrimiz arasında fəal münasibətlərin əsasının qoyulması işinə xidmət edəcəyinə ümidvar olduğunu dedi. Dövlətimizin başçısı ekvadorlu nazirin Azərbaycana səfərinin uğurlu olacağına əminliyini ifadə etdi.*

*Nazir Rikardo Armando Patinyo Arokan Ekvador Respublikasının Prezidenti Rafael Korreanın salamlarını dövlətimizin başçısına çatdırdı. Rikardo Armando Patinyo Arokan Azərbaycana ilk səfərindən məmnunluğunu bildirdi. Ölkəsinin Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu vurğulayan nazir bu səfərin Azərbaycan ilə Ekvador arasında müxtəlif sahələrdə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi baxımından geniş imkanlar açacağını dedi.*

*Dövlətimizin başçısı Ekvador Respublikasının Prezidenti Rafael Korreanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ekvadorun dövlət başçısına çatdırmağı xahiş etdi.*

## KLUBLARARASI DÜNYA ÇEMPİONATININ QALİBİ – QADINLARDAN İBARƏT «RABİTƏ» VOLEYBOL KLUBUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 oktyabr 2011-ci il*

*Oktyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qətərin paytaxtı Dohada keçirilmiş klublararası dünya çempionatının qalibi – qadınlardan ibarət «Rabitə» voleybol klubunun üzvlərini qəbul etmişdir.*

*Prezident İlham Əliyev qazanılmış qələbə münasibətilə voleybolçuları təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Mən sizi salamlayıram və böyük qələbə münasibətilə ürəkdən təbrik edirəm. «Rabitə» voleybol komandası dünya çempionatında böyük uğur əldə edərək çempion adını qazanmışdır. Bu, böyük qələbədir. Sizin qələbənizdir. Azərbaycan idmanının qələbəsidir. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm. Mən bilirəm ki, «Rabitə» dünya miqyasında çox güclü komanda kimi, özünü artıq təsdiq etmişdir. Keçən Avropa Çempionlar Liqasında final mərhələsinə gəlib çatmışdı. Bu qələbə isə bir daha komandanın gücünü göstərir və bizim hamımızı ürəkdən sevindirir.

Bütövlükdə Azərbaycanda idmanın voleybol növü çox uğurla və sürətlə inkişaf edir. Çox gözəl ənənələr vardır. Milli komandamız da yaxşı nəticələr göstərir və dünyanın ən güclü komandaları ilə bərabər səviyyədə oyun nümayiş etdirir. Qələbələr də var, məğlubiyyətlər də vardır. Klublar səviyyəsində isə vəziyyət daha da yaxşıdır. Bizim bir neçə gözəl klublarımız var və onların arasında, əlbəttə, «Rabitə» komandası ən yüksək zirvəni fəth etmişdir.

Bir daha sizi ürəkdən təbrik edirəm. Siz bütün idman azarkeşlərini, Azərbaycan xalqını sevindirmisiniz. Bizim idmanla bağlı bütün təşəbbüslərimizin ən gözəl nəticəsi, bax, bu

böyük qələbədir. Həm klubu, həm federasiyanı, idman mütəxəssislərini təbrik edirəm. Bu, ümumi qələbədir, ilk növbədə oyunçuları təbrik edirəm.

*«Rabitə» klubunun kapitanı Nataliya Məmmədova müxtəlif yarışlarda voleybolçulara verdiyi dəstəyə və bütövlükdə Azərbaycanda voleybolun inkişafına göstərdiyi diqqətə görə dövlətimizin başçısına idmançıların minnətdarlığını çatdırdı.*

*Komandanın kapitanı üzərində klub üzvlərinin imzası olan topu prezident İlham Əliyevə hədiyyə etdi.*

*Prezident İlham Əliyev Azərbaycanın voleybol ənənələrindən danışarkən bildirdi ki, 11 il bundan əvvəl ölkədə yalnız bir voleybol klubu vardı, indi isə ölkə çempionatında yeddi güclü komanda iştirak edir. «Rabitə» klubunun qazandığı qələbə isə beynəlxalq miqyaslı komanda yarışlarında əldə edilən ən böyük nəticədir. Bu onu göstərir ki, ölkəmizdə voleybol dünya səviyyəsindədir.*

*Voleybol üzrə milli komandanın baş məşqçisi Faiq Qarayev Azərbaycan voleybolunda uğurların təməlinin məhz dövlətimizin başçısı tərəfindən qoyulduğunu vurğuladı. O, prezident İlham Əliyevin idmançılarla daim təmasda olmasını, onlara verdiyi dəstək və tövsiyələrin qazanılan qələbələrə xüsusi stimul verdiyini söylədi.*

*Faiq Qarayev voleybol üzrə milli yığma komandanın planları barədə də dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyev bildirdi ki, idmanda əldə edilən uğurlar, həmçinin çoxlu sayda müasir olimpiya idman komplekslərinin istifadəyə verilməsi ölkəmizdə yüksək səviyyəli yarışların keçirilməsinə geniş imkanlar açmışdır. Bu yaxınlarda Bakıda keçirilən boks üzrə dünya çempionatından danışan dövlət başçısı bildirdi ki, yüzdən çox ölkənin təmsil olunduğu yarışların yüksək səviyyədə təşkili bunu sübut etdi.*

*Prezident İlham Əliyev klubun üzvlərini bir daha təbrik etdi.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Ölkənizin cənub-şərqində törədilmiş terror aktları nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi olduqca sarsıtdı.

Biz bəşəriyyət üçün dəhşətli bəlaya çevrilmiş terrorizmi qətiyyətlə pisləyir, ona qarşı mübarizəni hər cür dəstəkləyirik. Bu amansız hadisə terrorizmə qarşı hamılıqla mübarizənin zəruriliyini bir daha təsdiq edir.

Baş vermiş faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, qardaş Türk xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 oktyabr 2011-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz qardaşım!

Ölkənizdə terror aktlarının törədilməsindən və bunların çoxsaylı insan tələfatı ilə nəticələnməsindən son dərəcə kədərləndim.

Biz bu dəhşətli hadisədən hiddətlənir, terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı ən kəskin şəkildə mübarizə aparılmasını labüd hesab edirik.

Faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, qardaş Türk xalqına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 oktyabr 2011-ci il*

## QAZAXISTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*19 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazaxıstan Respublikasına rəsmi səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazaxıstan Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Qazaxıstanın dövlət bayraqlarının dalğalandığı Almatı Beynəlxalq Aeroportunda Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Qazaxıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Milli geyimli qız Azərbaycan prezidenti İlham Əliyevə gül dəstəsi təqdim etdi.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Almatı*

*20 oktyabr 2011-ci il*

*Qazaxıstan Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 20-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Qazaxıstan prezidentinin iqamətgahı qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Qazaxıstan prezidenti Nursultan Nazarbayev Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycanın və Qazaxıstanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Qazaxıstanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Nursultan Nazarbayevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

# QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Almatı*

*20 oktyabr 2011-ci il*

*Oktyabrın 20-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli siyasi, iqtisadi, humanitar və digər sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı.*

*Ölkələrimiz arasında əlaqələrin bundan sonra da möhkəmləndiriləcəyinə əminlik ifadə olundu, yüksək səviyyədə qarşılıqlı səfərlərin münasibətlərimizin genişləndirilməsində önəmli rol oynadığı qeyd edildi.*

*Görüşdə regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Almatı*

*20 oktyabr 2011-ci il*

*Oktyabrın 20-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Qazaxıstan dövlətinin başçısı Azərbaycan nümayəndə heyətinin üzvlərini salamladı.*

**Nursultan Nazarbayev:** İlham Heydər oğlu, Sizi və nümayəndə heyətinin üzvlərini Qazaxıstanda salamlamağa şadam. Siz mənim dəvətimlə rəsmi səfərə gəlmisiniz. Bu bizdə ənənədir. Siz hər il Qazaxıstanda olursunuz, mən də müntəzəm surətdə Sizin ölkədə oluram. Bu, iki dövlət arasında, prezidentlər arasında münasibətlərin göstəricisidir. Biz Sizinlə ölkələrimiz arasında qarşılıqlı münasibətlərin bütün spektrini müzakirə etdik, iqtisadiyyat, nəqliyyat, kənd təsərrüfatı, beynəlxalq əməkdaşlıq məsələlərimizə toxunduq.

Azərbaycan bu günlərdə öz müstəqilliyinin 20 illiyini qeyd etdi. Biz də bu ilin dekabrında oxşar tarixi qeyd etməyə hazırlaşırıq. Bu 20 il bir tərəfdən, hər iki ölkə üçün mürəkkəb dövr, digər tərəfdən, əcdadlarımızın arzularının həyata keçdiyi illər olmuşdur. Qazaxıstan və Azərbaycan bu zaman kəsiyini ləyaqətlə keçmişlər. Sizin ölkənizdə məlum çətinliklərə – Ermənistanla qarşılıqlı münasibətlərdə problemə – Qarabağ probleminə baxmayaraq, Azərbaycan bu illər ərzində sanballı uğurlara nail olmuşdur və biz bu münasibətlə Sizi təbrik edirik.

Bizim iqtisadiyyat 1994-cü ildən bəri 14 dəfə artmışdır. Mən Sizə demişdim, bizdə adambaşına artıq 10 min dollar vardır. Bu ili iqtisadiyyatda 7 faiz artımla başa vuracağımıza və

adambaşına 12 min dollara yaxınlaşacağımıza ümid edirik. 2015-ci ildə bizdə bu göstərici adambaşına 15 min dollar olacaqdır. Yəni biz Şərqi və Mərkəzi Avropanın orta inkişaf etmiş dövlətləri arasında olacağıq.

Biz Azərbaycanı qardaş, dost ölkə, Qafqaz regionunda əsas tərəfdaş hesab edirik. Güman edirəm ki, nümayəndə heyətinin üzvləri öz aralarında hazırlanmış sənədlərin bütün istiqamətləri üzrə iş aparmışlar.

**İ l h a m Ə l i y e v:** Hörmətli Nursultan Abişeviç! Müstəqilliyimizin 20 illiyi münasibətilə təbriklərinizə görə çox sağ olun. Həmçinin Sizi və bütün qardaş Qazaxıstan xalqını qarşıdan gələn bayram münasibətilə qabaqcadan təbrik etmək istəyirəm. Sizin rəhbərliyiniz altında Qazaxıstanın qazandığı sanballı uğurlar münasibətilə Sizi təbrik etmək istəyirəm. Bu uğurlar quruculuq işlərində, şəhərlərin yeni simasında, hamını heyran edən yeni paytaxtın – gözəl Astananın simasında görünür.

Bizə çox xoşdur ki, Sizin rəhbərliyiniz altında Qazaxıstan olduqca dinamik, səmərəli inkişaf edir. Ölkənin çox böyük potensialı vardır və Sizin apardığınız islahatlar gələcəyə istiqamətlənmişdir. Mövcud potensial artıq bu gün sosial məsələləri, habelə iqtisadi islahatlarla bağlı məsələləri səmərəli həll etməyə imkan verir.

Münasibətlərimizə gəldikdə isə, Qazaxıstan bizim üçün həmişə dost, qardaş dövlət olmuşdur. Bu gün iqtisadiyyat, nəqliyyat, kənd təsərrüfatı sahələrində müzakirə etdiyimiz layihələr ikitərəfli əməkdaşlığı möhkəmlətmək üçün potensialımızdan daha geniş istifadə etməyimizə imkan verəcəkdir.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Almatı*

*20 oktyabr 2011-ci il*

*Oktyabrın 20-də prezident İlham Əliyevin və prezident Nursultan Nazarbayevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Azərbaycan–Qazaxıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Prezidentinin və Qazaxıstan Respublikası Prezidentinin Birgə Bəyannaməsi»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında diplomatik nümayəndəliklərin yerləşdirilməsi üçün qarşılıqlı olaraq torpaq sahələrinin ayrılması haqqında Saziş»i Azərbaycanın Xarici İşlər nazirinin müavini Xələf Xələfov və Qazaxıstanın Xarici İşlər naziri Yerjan Kazıxanov imzaladılar.*

*«Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qazaxıstan Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol»u Azərbaycanın Xarici İşlər nazirinin müavini Xələf Xələfov və Qazaxıstanın Xarici İşlər naziri Yerjan Kazıxanov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Nəqliyyat naziri Ziya Məmmədov və Qazaxıstanın Nəqliyyat və Kommunikasiya naziri Berik Kamaliyev imzaladılar.*

# QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Almatı*

*20 oktyabr 2011-ci il*

*Oktyabrın 20-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev və Qazaxıstan prezidenti Nursultan Nazarbayev mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Qazaxıstan prezidenti Nursultan Nazarbayevin bəyanatı

İki ölkə arasında çox mehriban qardaşlıq münasibətləri yaranmışdır. Biz Azərbaycanı Qafqaz regionunda özümüzün əsas iqtisadi və siyasi tərəfdaşımız hesab edirik və müstəqilliyimizin bütün illərində bu münasibətlər qorunur. Azərbaycan özünün müstəqilliyinin 20 illiyini yenicə qeyd etmişdir. Xalqımız adından qardaş Azərbaycanı təbrik edirəm.

Ermənistan–Azərbaycan münaqişəsi, Qarabağ problemi, 1 milyondan çox qaçqın, ərazilərin işğal edilməsi ilə əlaqədar yaranmış bütün çətinliklərə baxmayaraq 20 il ərzində Azərbaycan görkəmli nailiyyətlər qazanmışdır. İqtisadi göstəricilər, xalqın rifahının artması, iqtisadiyyatda islahatlar onu göstərir ki, Azərbaycan qabaqcıl mövqelərdən birini tutur. Biz buna baxıb sevinirik.

Biz Xəzər dənizində də qonşularıq. Xəzər dənizinin problemləri bizim ümumi problemlərimizdir. Biz öz qonşularımız – sahilyanı dövlətlər ilə birlikdə Xəzər dənizinin statusu məsələlərini həll edirik. Energetika, neftin nəql edilməsi və Xəzərdən Qazaxıstanın Qafqaza, Qara dənizə və Avropaya çıxışı üçün nəqliyyat arteriyası kimi istifadə edilməsi məsələlərində

əlaqələr əməkdaşlığımızın ən mühüm bəndləridir. Azərbaycanın və azərbaycanlı mütəxəssislərin neft və qaz sahəsində çox böyük təcrübəsini nəzərə alaraq bizim mütəxəssislər bu təcrübədən istifadə etməlidirlər. Biz Azərbaycan tərəfi ilə həm də neft hasilatı, neft və qaz emalı üçün avadanlıqlar yaradılması məsələsində əməkdaşlıq edə bilərik.

Kənd təsərrüfatı sahəsində biz ölkəmizin Manqıstau və Atırau regionlarına tərəvəz, meyvə və digər kənd təsərrüfatı məhsullarının göndərilməsi barədə danışdıq. Buna görə Qazaxıstanın qərb vilayətlərinin Azərbaycan ilə sıx münasibətləri olmalı, qarşılıqlı faydalı şərtlər daxilində müvafiq sazişlər bağlamalıdırlar.

Keçən il bizdə əmtəə dövriyyəsinin 60 faizə yaxın artması, əlbəttə, sevindirici haldır. Lakin ümumi həcm –350 milyon bizim potensiala uyğun deyildir. Buna görə də perspektivdə gözləyirik ki, Azərbaycan, Bakı Qazaxıstanın nefti və digər məhsulları üçün ən mühüm nəqliyyat arteriyalarından birinə çevriləcəkdir. Türkiyə, Gürcüstan və Azərbaycandan Xəzər dənizinə yeni dəmir yolu tikintisi və Qafqaz yüklərinin Qazaxıstandan keçməklə Çinə və əks istiqamətdə daşınması imkanı çox böyük məsələ və gələcəkdə çox böyük səmərə deməkdir.

Ölkələrimizin eyni kökləri vardır. Biz türk dünyasına mənsubuq. Bizim eyni köklərimiz – dil, mədəniyyət əlaqələrimiz, eyni ənənələrimiz vardır. Biz daha sıx əməkdaşlıq üçün bütün bunlardan istifadə etməliyik.

Müxtəlif səbəblərə görə Qazaxıstana çoxlu azərbaycanlı gəlmişdir, diasporun 130 min üzvü vardır. Bu bizim əməkdaşlığımız üçün yaxşı körpüdür. Bizim Azərbaycan millətindən olan vətəndaşlarımız Qazaxıstan iqtisadiyyatının inkişafında, onun mədəni, siyasi həyatında iştirak edirlər.

Beynəlxalq planda – BMT, ATƏT, Asiyada qarşılıqlı fəaliyyət və etimad tədbirləri müşavirəsi (AQFETM) çərçivəsində biz eyni mövqelər tuturuq. Yəni biz dünyada müharibə və sülh məsələlərində Birləşmiş Millətlər Təşkilatının rolunun

möhkəmləndirilməsi barədə eyni cür düşünürük. Biz Avropa İttifaqı ilə əməkdaşlığı inkişaf etdirməyin tərəfdarıyıq. Mən İlham Heydər oğluna səfərinə görə, bizim danışıqlara görə təşəkkür edirəm. Hesab edirəm ki, bu danışıqlar münasibətlərimizin inkişafına yeni təkan verəcəkdir. Artıq müqavilə hüququnun əsasını təşkil edən 60 imzalanmış sənədimiz vardır. Bu gün qəbul edilmiş sənədlər onu göstərir ki, əməkdaşlığımız dinamik inkişaf edir.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Nursultan Abişeviç, ölkəmiz haqqında səmimi sözlərinizə, Azərbaycanın müstəqilliyinin 20 illiyi ilə əlaqədar təbriklərinizə görə sağ olun. Fürsətdən istifadə edib Sizi və bütün qardaş Qazaxıstan xalqını müstəqilliyinizin qarşıdan gələn yubileyi münasibətilə qabaqcadan təbrik etmək istərdim.

Bu illər ərzində Sizin rəhbərliyiniz altında Qazaxıstan çox böyük yol keçmişdir. 20 il ərzində Siz başqa ölkələrin bəlkə də 100 ildə edə bilməyəcəklərinə nail olmusunuz. Bu, Qazaxıstana gələndə, sizin şəhərlərə gələndə görünür. Biz sizin uğurlarınıza sevinirik, Qazaxıstanın nailiyyətlərinə heyranıq. Bu illər ərzində ölkəniz dinamik inkişaf edir, iqtisadi siyasət, sənayeləşmə məsələləri, sosial məsələlər uğurla həll edilir. Şəhərləriniz abadlaşır, paytaxtınız Astana çox qısa zaman kəsiyində gözəl şəhər yaradılmasının nadir təcrübəsinin nümunəsidir.

Məni qardaş Qazaxıstana yenidən səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür etmək istəyirəm. Son 7 ildə bu mənim təkcə rəsmi səfərlərimin üçüncüsüdür. Biz həm də çox şadıq ki, Nursultan Abişeviç müntəzəm olaraq Azərbaycana səfər edir. Bu cür qarşılıqlı əlaqələr bizim ikitərəfli münasibətlərin inkişafına verdiyimiz diqqət və əhəmiyyətin parlaq sübutudur.

Münasibətlərimiz möhkəm tarixi bazaya əsaslanır. Xalqlarımız arasında münasibətlər çoxəsrlik tarixə malikdir. Bu gün biz iki müstəqil qardaş dövlət kimi, Qazaxıstan və Azərbaycan arasında tərəfdaşlığa və dostluq əlaqələrinə əsaslanan

münasibətlər qururuq. Qarşılıqlı siyasi əlaqələrimiz çox səmərəlidir. Nursultan Abişeviçin qeyd etdiyi kimi, biz beynəlxalq təşkilatlarda da fəal əlaqə saxlayırıq.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində Qazaxıstanın mövqeyinə görə ona təşəkkür edirik. Mən bilirəm ki, Qazaxıstan prezidenti bu mövzunu daim diqqət mərkəzində saxlayır və dünya liderləri ilə mühüm görüşlərdə bu məsələni qaldırır. Münaqişəyə, işğala son qoymaq və nəhayət, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsini təmin etmək lazımdır. BMT Təhlükəsizlik Şurası ali beynəlxalq instansiyadır və bu təşkilatın qəbul etdiyi qərarlar yerinə yetirilməlidir. Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi üzrə 4 qətnaməsi qəbul edilmişdir. Onlar işğalçı erməni qüvvələrinin Azərbaycan ərazisindən dərhal və danışıqsız çıxarılmasını tələb edir. Təəssüf ki, onlar yerinə yetirilmir. Bizim ərazi bütövlüyümüz pozulmuşdur və əgər belə bir ağır problem olmasaydı, Azərbaycanın daha necə böyük uğurlar qazanacağını təsəvvür etmək mümkündür.

Biz bu məsələnin beynəlxalq hüquq çərçivəsində, Helsinki Yekun Aktı çərçivəsində həll edilməsinin tərəfdarıyıq. Həmin sənəddə məhz ölkələrin ərazi bütövlüyü prinsipinin prioritet olması müəyyən edilmişdir.

İkitərəfli iqtisadi əlaqələrə gəldikdə, Nursultan Abişeviç bu məsələ üzərində ətraflı dayandı, mən təkrarlamaq istəmirəm. Demək istəyirəm ki, biz bu münasibətlərin bütün istiqamətlər üzrə inkişafına çox böyük əhəmiyyət veririk. Bu gün həlli tələb olunan məsələləri fəal həll etmək üçün bizim nümayəndə heyətlərinə konkret tapşırıqlar verilmişdir. Əmtəə dövriyyəsinin faiz nisbəti ilə artması, əlbəttə, bizi sevindirir. Lakin onun həcmi, xüsusən ölkələrimizin bu cür böyük iqtisadi və sənaye potensialını nəzərə alsaq, əlbəttə, bizi qane edə bilməz. Hökumətlərarası komissiya işləyir. Nisbətən yaxın vaxtlarda bu komissiya toplaşmışdı. Mütəmadi olaraq biznes-forumlar keçirilir. Aktauda Azərbaycanın konsulluğu açılmışdır. Yəni biz

bütün istiqamətlər üzrə çoxşaxəli əməkdaşlığa böyük əhəmiyyət veririk.

Bu gün nəqliyyat məsələləri ətraflı müzakirə edildi. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi başa çatandan sonra biz Asiyanı Avropa ilə birləşdirəcək yeni Dəmir İpək yolu açırıq. Ölkələrimiz müxtəlif istiqamətlərə mallar göndərmək, habelə böyük yük axını üçün tranzit ölkələrə çevrilmək imkanı əldə edəcəklər.

Neft sahəsində ənənəvi əlaqələr möhkəmlənir, yeni ideyalar, kooperasiya, qarşılıqlı fəaliyyət barədə yeni təkliflər, müştərək təşəbbüslər vardır. Bu təbiidir, bizim məqsədlərimiz obyektiv olaraq üst-üstə düşür, ona görə ki, biz istehsalçılarıq. Təbii ki, bizim ümumi vəzifələrimiz, ümumi məqsədlərimiz vardır və gələcəkdə ölkələrimiz arasında bu istiqamətdə əməkdaşlıq genişlənəcəkdir. Bu gün bizim Qazaxıstan neftini qəbul etmək üçün kifayət qədər tranzit potensialımız və infrastrukturumuz vardır. Ümid edirik ki, Qazaxıstanda hasilatın həcmi artanda biz öz tranzit imkanlarımızı təqdim edəcəyik ki, bu da səmərəli ikitərəfli əməkdaşlıq çərçivəsində olsun.

Onu da qeyd etmək istəyirəm ki, bu yaxınlarda Bakı küçələrindən birinə qazax xalqının böyük oğlu, maarifçi, mütəfəkkir, ictimai xadim Abay Kunanbayevin adı verilmişdir. Bu da bizim dostluğun, xalqlarımızın tarixi şəxsiyyətlərinə münasibətimizin əlamətidir. Bu həm də humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi işinə daha bir töhfədir.

Bütövlükdə Qazaxıstan bizim üçün yaxın strateji tərəfdaş, dost, qardaşdır və əminəm ki, münasibətlərimizin gələcəyi də bugünkü kimi gözəl olacaqdır.

Səmimi qəbul, qonaqpərvərlik üçün bir daha təşəkkür edirəm və fürsətdən istifadə edib Sizi, Nursultan Abişeviç, Sizin üçün münasib olan istənilən vaxtda Azərbaycana rəsmi səfərə dəvət etmək istəyirəm.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ NAHARDA İŞTİRAK

*Almatı*

*20 oktyabr 2011-ci il*

*Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin adından oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.*

*Dövlət başçıları rəsmi naharda nitq söyləmişlər.*

### Qazaxıstan prezidenti Nursultan Nazarbayevin nitqi

1937-ci ilin may ayının təkcə bir günü ərzində Qazaxıstanın Taldı-Kurqan vilayətinə konvoy altında 600 azərbaycanlı ailə gətirildi. Xalqımız bu qanunsuzluğun bütün günahsız qurbanlarının dərdinə şərik oldu, onlarla ev-eşiyini, bir parça çörəyini bölüşdü. Azərbaycanlılar qazax xalqı ilə əl-ələ verib Qazaxıstanda yeni müəssisələr tikdilər, ölkəni inkişaf etdirdilər. Onların bir çoxu burada qalıb yaşadı və artıq dediyim kimi, bizdə 130 minlik Azərbaycan diasporu vardır. Onlar Qazaxıstan vətəndaşlarıdır, ölkəmizin rəngarəng palitrasının ən parlaq hissələrindən biridir.

Hörmətli dostlar!

Oktyabrın 18-də qardaş Azərbaycan müstəqilliyinin 20 illiyini qeyd etdi. Bunlar heç də asan illər deyildi. Azərbaycanın üzləşdiyi çətinliklərə baxmayaraq, ölkə elə sürətlə inkişaf etmişdir ki, həm iqtisadiyyatının artım sürətinə, həm də xalqın rifahına görə postsovet məkanında qabaqcıl mövqelərə çıxmış, bütün atributlara malik dinamik inkişaf edən müasir dövlət yaradılmışdır. Ölkəniz qətiyyətli addımlarla tərəqqiyə doğru irəliləyir. Biz buna ürəkdən şadıq. Azərbaycanın yüksək səviyyədə uğurlarında, Qazaxıstan–Azərbaycan əməkdaşlığında ölkənizin ümummilli lideri Heydər Əliyev xüsusi rol

oynamışdır. Mənə onunla çox yaxın münasibətlərdə olmaq xoşbəxtliyi nəsib olmuşdur. Onunla yaxşı əməkdaşlıq edir, bu çox müdrik, xeyirxah və uzaqgörən insanı tanıyırdım.

Hörmətli dostlar! Məşhur Azərbaycan atalar sözündə deyildiyi kimi, «ürəkdən ürəyə ən qısa yol var». Zənnimcə, münasibətlərimiz məhz belə qurulmalıdır: ümumi tarixi köklər, iki ölkənin strateji mənafelərinin ümumi anlaşılması əsasında. Biz bu barədə sabah keçiriləcək Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının iclasında danışacağıq.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli Nursultan Abişeviç! Əvvəla, ölkəmiz haqqında dediyiniz səmimi sözlərə, qardaş Qazaxıstana yenidən rəsmi səfərə dəvətə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Mənim üçün Sizin ölkəyə gəlmək həmişə çox fərəhli hadisədir. Elə alınmışdır ki, Azərbaycana rəhbərlik etdiyim bütün illər ərzində, demək olar, hər il Qazaxıstanda – ya Astanada, ya da Almatıda oluram.

Xalqlarımızı ümumi tarix, ümumi köklər birləşdirir. Xalqlarımızı yaxınlaşdıran amil Sizinlə mənim atam – prezident Heydər Əliyev arasındakı şəxsi dostluq olmuşdur. Bu dostluq zamanın – həm sovet dövrünün, həm də müstəqillik dövrünün sınağından çıxmışdır. Sizin dostluğunuz və münasibətləriniz azərbaycanlıların və qazaxların bütün nəsilləri üçün nümunədir – münasibətləri qardaşlıq, qarşılıqlı yardım və strateji maraqlar əsasında necə qurmaq nümunəsi! Xoşbəxtlikdən strateji mənafelərimiz də həm regionda, həm də dünyada üst-üstə düşür. Biz bütün işlərdə bir-birimizi dəstəkləyirik. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsinə daim diqqət yetirdiyinizə görə Sizə çox minnətdarıq. Siz bu məsələ ilə lap əvvəldə də, sonra da, ATƏT-in sədri kimi də, indi də məşğul olmusunuz. Biz bu gün bu mövzunu ətraflı müzakirə etdik. Mən danışıqlar prosesində baş verən son hadisələri Sizə çatdırdım. Ümidvaram ki, yaxın vaxtlarda ədalət

bərpa ediləcək, işğala son qoyulacaq, azərbaycanlılar doğma torpaqlarına qayıdacaq və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Bu gün biz iqtisadi gündəliyi ətraflı müzakirə etdik. O çox genişdir, buraya bir çox komponentlər – energetika, nəqliyyat, kənd təsərrüfatı, qarşılıqlı investisiyalar, tikinti, biznes daxildir. Bütün bu istiqamətlər üzrə münasibətlərin inkişafının dəqiq anlaşılması vardır. Komissiya müvəffəqiyyətlə işləyir, biznes-forumlar keçirilir. Başqa sözlə, bizim bu gün mənfi cəhət kimi qeyd etdiyimiz yeganə məsələ budur ki, əmtəə dövriyyəsi lazımi səviyyədə deyildir və ölkələrimizin potensialına cavab vermir. Amma bu, düzələn işdir.

Bu badəni Qazaxıstan prezidenti Nursultan Abişeviç Nazarbayevin sağlığına, qardaş qazax xalqının tərəqqisi və rifahı şərəfinə qaldırmaq istəyirəm.

# TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ I ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*Almatı*

*21 oktyabr 2011-ci il*

*Oktyabrın 21-də Almatıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) I Zirvə toplantısı keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev Zirvə toplantısında iştirak etmişdir.*

*Qazaxıstan prezidenti Nursultan Nazarbayev Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Qazaxıstan prezidenti Nursultan Nazarbayev türkdilli ölkələrin dövlət başçılarını və nümayəndə heyətlərini salamlayaraq 2009-cu il oktyabrın 3-də imzalanmış Naxçıvan Sazişinin əhəmiyyətindən danışdı. Türkdilli ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərin möhkəmləndirilməsinin vacibliyini vurğulayan Qazaxıstan prezidenti dedi ki, türk dünyası çərçivəsində əməkdaşlığın inkişafı üçün geniş imkanlar vardır. Bu baxımdan Türkdilli Dövlətlərin İşgüzar Şurasının yaradılması vacibdir.*

*Humanitar sahədə əməkdaşlığa da toxunan Nursultan Nazarbayev mədəni tədbirlərin, festivalların keçirilməsinin əhəmiyyətini vurğuladı, mədəni əlaqələrin möhkəmləndirilməsində TÜRKSOY təşkilatının rolundan danışdı. Qazaxıstan dövlətinin başçısı Azərbaycan prezidenti İlham Əliyevin Bakıda Türkdilli Dövlətlərin Mədəniyyət Fondunun yaradılması haqqında təklifini dəstəklədiyini dedi.*

*Azərbaycan prezidenti İlham Əliyev Zirvə toplantısında nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli Nursultan Abişeviç!

Hörmətli nümayəndə heyətlərinin başçıları, əziz dostlar!

İlk növbədə, Nursultan Abişeviç, bu zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyinizə və bizə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, mən artıq üçüncü gündür sizin gözəl ölkənizdəyəm. Dünən mənim Qazaxıstana növbəti rəsmi səfərim həyata keçirildi. Bir daha qeyd etmək istəyirəm ki, biz Qazaxıstan ilə ikitərəfli əlaqələrimizin inkişafı üçün gördüyümüz işlərə çox böyük əhəmiyyət veririk. İkitərəfli münasibətlərimiz çoxşaxəlidir və türkdilli dövlətlər arasındakı əlaqələrə də çox müsbət təsir göstərir.

Bizim xalqlarımızı ortaq tarix, ortaq köklər birləşdirir. Ancaq Nursultan Abişeviçin qeyd etdiyi kimi, müstəqilliyimizin cəmi 20 yaşı vardır. Bu 20 il ölkələrimiz üçün həlledici illər olmuşdur. Bu illər ərzində biz çox əsaslı, köklü iqtisadi və siyasi islahatlar apardıq. 20 il keçdikdən sonra görürük ki, ölkələrimiz dünya xəritəsində layiqli yerini tuta bilmişlər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının I Zirvə görüşünün Qazaxıstanda keçirilməsi də hesab edirəm ki, təbiidir. Çünki Qazaxıstan Avrasiya məkanında inteqrasiya proseslərinin inkişafı üçün çox böyük töhfə vermişdir. Bu zirvə görüşünün təşkili özlüyündə Qazaxıstanın rolunu bir daha vurğulayır.

Mən çox şadam ki, görüşlərimiz artıq gözəl ənənəyə çevrilmişdir. Bildiyiniz kimi, bir müddət türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşləri keçirilmirdi. Ancaq son 3 ildə bu görüşlər mütəmadi keçirilir. 2009-cu ildə Naxçıvanda, 2010-cu ildə İstanbulda və bu gün Almatıda bu görüşlər keçirilir. Əminəm ki, gələcək illərdə də bu ənənə davam edəcək və hər bir görüşün çox böyük mənası vardır. Bu görüşlər nəticəsində qəbul edilən qərarlar birliyimizi daha da gücləndirir. Biz istəyirik ki, bütün türkdilli dövlətlər arasında həm ikitərəfli, həm çoxtərəfli formatda əlaqələr daha da yüksək səviyyəyə qalxsın.

Azərbaycana gəldikdə, bizim bütün türkdilli dövlətlərlə çox gözəl, işgüzar və səmimi münasibətlərimiz vardır. Biz bu

münasibətləri yüksək qiymətləndiririk. Biz çoxtərəfli formatda da, müxtəlif təşkilatlar çərçivəsində və beynəlxalq təşkilatlarda da uğurlu əməkdaşlıq edirik. Beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək bizi daha da gücləndirir. Biz BMT, ATƏT, İslam Əməkdaşlığı Təşkilatı ( İƏT) və digər təşkilatlarda uğurla fəaliyyət göstəririk.

Azərbaycanın qarşısında duran əsas problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ problemidir. Münaqişə uzun illərdir ki, həll olunmamış qalır. Bu nəinki bizim üçün, bütün bölgə üçün ən böyük təhlükə mənbəyidir və ədalətsizlikdir. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü uzun illərdir ki, pozulubdur. Azərbaycanlılara qarşı Ermənistan tərəfindən etnik təmizləmə siyasəti aparılmışdır. Bu siyasət nəticəsində 1 milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın, köçkün vəziyyətinə düşmüşdür, torpaqlarımızın 20 faizi işğal altındadır. Dünyanın ən mötəbər beynəlxalq təşkilatı BMT və onun Təhlükəsizlik Şurası müvafiq qətnamələr qəbul etmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var ki, orada Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasına dair məsələlər vurğulanır.

ATƏT-in qərarları, İslam Əməkdaşlığı Təşkilatının çoxsaylı qətnamələri, Avropa Şurası, Avropa Parlamenti və digər təşkilatların qərarları münaqişənin həlli üçün çox güclü hüquqi zəmin yaradır. Ancaq əfsuslar olsun ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi və danışıqların süni şəkildə uzadılması cəhdləri imkan vermir ki, bu məsələ öz həllini tapa bilsin. Bu münaqişə zamanı Azərbaycan terrorizmə də məruz qalmışdır. Ölkəmizdə çoxsaylı terror aktları törədilmişdir və bu terror aktları nəticəsində iki mindən artıq dinc insan həlak olmuşdur.

Fürsətdən istifadə edərək bir daha qardaş Türkiyəyə, türk xalqına bu yaxınlarda törədilmiş terror aktı ilə əlaqədar dərin hüznlə başsağlığı veririk, həlak olanların ailələrinə səbir diləyirik. Biz həmişə olduğu kimi, bu gün də Türkiyənin

yanındayıq və Türkiyənin terrorizmə qarşı haqlı işində həmişə dəstəyimizi göstəririk və göstərəcəyik.

Ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı da çox böyük məna daşıyır. Hesab edirəm ki, biz bu potensialdan lazımi səviyyədə istifadə etmirik. Halbuki ikitərəfli əlaqələrdə ticarət dövriyyəsi artır, ancaq bu, real potensialımızı əks etdirmir. Hesab edirəm ki, növbəti illərdə biz qarşılıqlı investisiya layihələrinin icrasına daha çox diqqət yetirməliyik. O ölkələr ki, onlar investisiyaları xarici ölkələrə yatırırlar, əlbəttə, öz diqqətini ilk növbədə türkdilli dövlətlərə yönəltməlidirlər. Çünki bu bizim birliyimizi daha da gücləndirəcək və iqtisadi səmərə də verəcəkdir.

Hazırda Azərbaycan şirkətləri xarici dövlətlərə çox fəal şəkildə investisiyalar qoyurlar. Bu investisiyalar milyardlarla dollar həcmindədir. Biz istəyirik ki, bu siyasət davam etdirilsin. Qarşılıqlı investisiyaların qoyuluşu həm ölkələrin inkişafına xidmət göstərəcək, yeni iş yerlərinin açılışına gətirib çıxaracaq, həm də iqtisadi əlaqələrimizi də gücləndirəcəkdir. Bu yaxınlarda Azərbaycan şirkəti SOCAR tərəfindən Türkiyədə yeni böyük investisiya layihəsinin təməl daşı qoyulacaqdır. Bu investisiyaların həcmi bir neçə il ərzində 5-6 milyard dollar səviyyəsində olacaqdır. Bu ilk növbədə, iqtisadi və kommersiya layihəsidir. İnvestisiyalar dost ölkələrə qoyulur. O ölkələrə ki, orada sabitlik var və gözəl investisiya iqlimi mövcuddur. Ölkələrimiz bu məsələdə də, hesab edirəm ki, ön sıralardadır. Beynəlxalq maliyyə qurumları ölkələrimizdə iqtisadi islahatların aparılmasına da çox yüksək qiymət verirlər.

İqtisadi layihələrlə bərabər, mədəni əlaqələrin inkişafı da böyük məna daşıyır. Bu əlaqələr təşkilatımızın əsasını təşkil edir. Çünki bizi birləşdirən ortaq mədəniyyətdir, etnik köklərdir. Təbii ki, bu məsələyə xüsusi diqqət göstərilir.

Mən bütün türkdilli ölkələrə minnətdaram ki, bizim təşəbbüsü dəstəkləmişlər və TÜRKSOY Fondunun yaradılması haqqında konkret təkliflər vardır. Əminəm ki, bu fondun fəaliyyətə başlaması hər bir türkdilli diyarda öz izini buraxacaqdır. Çünki bu

fondun xətti ilə tarixi abidələrin bərpası, kitabların nəşri, mədəni tədbirlərin keçirilməsi mümkün olacaqdır. Hesab edirəm ki, Əməkdaşlıq Şurası formalaşdıqdan sonra diqqətimizi daha çox real layihələrə yönəltməliyik. Çünki bu günədək kifayət qədər ciddi bəyanatlar artıq verilmişdir, sənədlər imzalanmışdır. Zirvə görüşünün nəticəsində də çox sanballı sənəd qəbul ediləcəkdir. Ona görə, əgər biz növbəti illərdə daha çox konkret layihələrə diqqət yetirsək, bu, təşkilatımızın inkişafı və ölkələr arasındakı əlaqələrin möhkəmlənməsi üçün də müsbət rol oynayacaqdır. Biz buna hazırıq və konkret layihələrin icrası ilə bağlı təkliflərimizi də verəcəyik.

Azərbaycan son illər enerji təhlükəsizliyi məsələlərinə də öz töhfəsini verir. Hazırda enerji resurslarımız müxtəlif yollarla dünya bazarlarına çıxarılır. Vaxtilə Azərbaycan tərəfindən tikintisi başlanmış və uğurla başa çatmış Bakı–Tbilisi–Ceyhan neft kəmərinin önəmini xüsusilə vurğulamaq istəyirəm. Bu kəmər təkcə Xəzər dənizinin neftini dünya bazarlarına, Aralıq dənizinə çatdırmaq üçün tikilməmişdir. Bu əslində yeni bir enerji dəhlizidir. Ondan sonra qaz kəməri həmin dəhliz üzərində tikilibdir. İndi dəmir yolu dəhlizi tikilir və bütövlükdə bu, Şərqi Qərb ilə, Asiyanı Avropa ilə birləşdirən birinci ciddi təşəbbüs idi. Bu kəmər vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda, Xəzər dənizinin şərqində yerləşən yataqlardan çıxarılan neft də ötürülür.

Biz tranzit imkanlarımızı qardaş ölkələr üçün təqdim etmişik. Mən çox şadam ki, bizim tranzit imkanlarımızdan bu gün həm Qazaxıstan, həm Türkmənistan istifadə edir. Əminəm ki, gələcək illərdə tranzit imkanlarımız daha da genişlənəcəkdir. Bu məqsədlə Azərbaycan hazırda çox böyük investisiyalar qoyur, logistika mərkəzləri yaradılır, Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanı tikilir və 2-3 ildən sonra bu liman istifadəyə veriləcəkdir. Biz indi nəqliyyat infrastrukturunun yaradılmasına da çox böyük əhəmiyyət veririk. Yeni bərələr, tankerlər alınır, Bakıda yeni müasir gəmiqayırma zavodu tikilir. Aydındır ki, bütün investisiyalar və infrastruktura qoyulan sərmayə təkcə bizim üçün deyil, bütün Xəzəryanı ölkələr üçün

də lazım olacaqdır. Çünki Xəzər qapalı dənizdir və təbii ki, orada istehsal olunan gəmilər, tankerlər ancaq Xəzər dənizində çalışacaqdır. Biz bütün işləri görürük ki, gələcəkdə Xəzər dənizinin şərqindən əks tərəfə böyük yüklərin qəbuluna hazır olaq.

Nursultan Abişeviçin qeyd etdiyi kimi, gələn ilin sonunda Bakı–Tbilisi–Qars dəmir yolunun da tikintisi başa çatmalıdır və 2013-cü ildən başlayaraq bu dəmir yolu istismara verilməlidir. Bu əslində çox böyük iqtisadi və siyasi bir layihədir. Biz bu layihəyə başlayanda, ilk növbədə dəmir yolu ilə Azərbaycanı Türkiyəyə birləşdirmək istəyirdik. Çünki dəmir yolu bağlantısı yox idi. Ancaq layihənin icrası onu göstərdi ki, həm Avropada, həm Asiyada bu layihəyə çox böyük maraq vardır.

Əslində bu, yeni Dəmir İpək yolunun yaradılması deməkdir. Azərbaycanı Gürcüstan vasitəsilə Türkiyə və Avropa ilə, Avropanı Azərbaycan, Qazaxıstan, digər Orta Asiya ölkələri, Çin ilə birləşdirən bir yoldur. Mən əminəm ki, bu həm vaxt, həm də iqtisadi göstəricilər baxımından ən əlverişli nəqliyyat yolu olacaqdır. Bu yol istismara veriləndən sonra on milyon tonlarla ölçülən yüklər bizim ərazimizdən keçəcək və ölkələrimiz tranzit ölkələr kimi, bu nəqliyyat dəhlizinin fəaliyyətinə öz töhfəsini vermiş olacaqdır. Bu, konkret real layihələrdir. Bu layihələr həm iqtisadi cəhətdən səmərəlidir, həm də kommersiya baxımından əlverişlidir. Bu layihələr birliyimizi daha da gücləndirir.

Türk dünyası böyük dünyadır. Biz elə etməliyik ki, türk dünyası daha da sıx birləşsin. Bunu etmək üçün bütün imkanlar vardır. İlk növbədə güclü siyasi iradə vardır. Bu zirvə görüşlərinin mütəmadi keçirilməsi, bu gün Əməkdaşlıq Şurasının birinci iclasının keçirilməsi, qəbul ediləcək qərarlar çox ciddi siyasi iradənin mövcudluğunu göstərir. Digər tərəfdən, iqtisadi maraqlar da bizim iqtisadi maraqlarımızla üst-üstə düşür. Bizim – Qazaxıstanın, Azərbaycanın və digər türkdilli dövlətlərin zəngin təbii ehtiyatları vardır. Biz bu ehtiyatları dünya bazarlarına çatdırmaq üçün müxtəlif yollardan

istifadə edirik. Bizim Türkiyə kimi dostumuz vardır. Qeyd edildiyi kimi, müstəqilliyimizi ilk tanıyan Türkiyə olmuşdur. Türkiyə böyük ərazidir, böyük iqtisadiyyatdır, böyük nəqliyyat imkanlarına malikdir. Bütün bu səyləri biz birləşdiririk və artıq əməkdaşlığın çox gözəl nəticələri vardır. Yaradılmış bu möhkəm zəminin üzərində növbəti illərdə biz böyük, gözəl binalar tikəcəyik. Bu, dostluğumuzun, qaraşlığımızın binaları olacaqdır.

Mən bir daha, Nursultan Abişeviç, Sizə bu təşəbbüsü irəli sürdüyünüz üçün və bu zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyinizə görə minnətdarlığımızı bildirmək istəyirəm. Zirvə görüşünə uğurlar diləyirəm. Sağ olun!

* * *

*Sonra TDƏŞ-in I Zirvə toplantısının 49 bənddən ibarət yekun sənədi – Almatı Bəyannaməsi imzalandı.*

*Almatı Bəyannaməsini TDƏŞ-in I Zirvə toplantısının sədri, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Azərbaycan prezidenti İlham Əliyev, Qırğız prezidenti Roza Otunbayeva və Türkiyə Baş nazirinin müavini Bəkir Bozdağ imzaladılar.*

## Səfər başa çatdı

*Oktyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Qazaxıstanın dövlət bayraqlarının dalğalandığı Almatı Beynəlxalq Aeroportunda Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Qazaxıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

*Milli geyimli qız Azərbaycan prezidenti İlham Əliyevə gül dəstəsi təqdim etdi.*

* * *

*Dövlətimizin başçısı həmin gün Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi, görkəmli dövlət xadimi, qardaşınız Sultan bin Əbdüləziz Al Səudun vəfatı xəbərindən son dərəcə kədərləndim.

Bu ağır itki ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, ailənizin bütün üzvlərinə, qardaş Səudiyyə Ərəbistanı xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 oktyabr 2011-ci il*

## İRANIN MÜDAFİƏ NAZİRİ ƏHMƏD VƏHİDİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 oktyabr2011-ci il*

*Azərbaycan* Respublikasının Prezidenti *İlham Əliyev oktyabrın 22-də İran İslam* Respublikasının *Müdafiə* naziri *Əhməd Vəhidini qəbul etmişdir.*

*Müdafiə* naziri *Əhməd Vəhidi İran İslam* Respublikasının Prezidenti Mahmud *Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı,* prezident Mahmud *Əhmədinejadın məktu*bunu prezident *İlham Əliyevə təqdim* etdi.

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf* etdiyi qeyd olundu, *müxtəlif səviyyədə qarşılıqlı səfərlərin əməkdaşlığımızın* bundan sonra da *möhkəmlənməsi işinə xidmət edəcəyi* bildirildi.

*Dövlətimizin başçısı İran İslam* Respublikasının Prezidenti Mahmud *Əhmədinejadın salamlarına görə minnətdarlığını* bildirdi, onun da *salamlarını İran dövlətinin başçısına çatdır*mağı *xahiş* etdi.

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Ölkənizdə baş vermiş dəhşətli zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, qardaş Türk xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 oktyabr 2011-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz qardaşım!

Van vilayətində baş vermiş zəlzələnin doğurduğu çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbəri dərin kədər hissi ilə qarşıladım.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, qardaş Türk xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 oktyabr 2011-ci il*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Əlcəzairin milli bayramı – İnqilab Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Əlcəzair arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 oktyabr 2011-ci il*

## AZƏRBAYCAN GƏNCLƏRİNİN VI FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Əziz gənclər!

Sizi – Azərbaycan Gənclərinin VI Forumunun iştirakçılarını və bütün gənclərimizi səmimi-qəlbdən salamlayır, hər birinizə cansağlığı, xoşbəxtlik və ölkəmizin gələcəyi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Hamımız üçün əlamətdar olan 2011-ci ildə Azərbaycan öz dövlət müstəqilliyinin bərpasının 20 illik yubileyini qeyd edir. Gənclərimizin əksəriyyəti böyük qürur hissi ilə deyə bilərlər ki, onlar artıq müstəqillik illərində formalaşmış nəslə mənsubdurlar. Azərbaycançılıq məfkurəsi ruhunda tərbiyə almış bu nəsil dövlətimizin iqtisadi və mədəni inkişafında mühüm rol oynayaraq ildən-ilə potensialının gerçəkləşdirilməsi üçün daha geniş imkanlar əldə edir.

Bu ilin iyul ayında mənim sərəncamımla «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı təsdiq edilmişdir. Belə bir proqramın mövcudluğu dövlətin gənclərlə bağlı siyasətinin parlaq təzahürüdür. Proqramda əsas vəzifələr sırasında gənclərin ictimai həyatın ən müxtəlif sahələrində yaxından iştirakına, onların cəmiyyətimizdə layiqli yer tutması və beynəlxalq aləmdə tanınması məsələlərinə xüsusi diqqət yetirilir. Ümidvaram ki, bu forum proqramın uğurla həyata keçirilməsinə və yeni-yeni çalarlarla zənginləşməsinə zəmin yaradacaqdır.

İnformasiya cəmiyyətinin bərqərar olması ilə əlaqəli proseslər əyani surətdə nümayiş etdirir ki, müasirlik və kreativlik, yüksək keyfiyyətli təhsil və işgüzarlıq olan yerdə gəncliyə xas yenilikçi düşüncə sivilizasiyanın bütövlükdə simasını dəyişdirə bilər. İnanıram ki, hazırda müasir dünyada qarşılaşdığımız bir çox problemlərin həlli məhz gəncliyin tükənməz enerjisi və qətiyyəti sayəsində öz həllini tapacaqdır.

Forumunuzun işinə uğurlar diləyir və hər birinizə niyyətlərinizin çin olmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 oktyabr 2011-ci il*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ), Bernar Fasyeni (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olunmuşdur.*

# YUNANISTANIN ƏTRAF MÜHİT, ENERJİ VƏ İQLİM DƏYİŞİKLİYİ NAZİRİ CORC PAPAKONSTANTİNUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Yunanıstan Respublikasının Ətraf Mühit, Enerji və İqlim Dəyişikliyi naziri Corc Papakonstantinunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Corc Papakonstantinu Yunanıstan prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı, prezident Karolos Papulyasın məktubunu prezident İlham Əliyevə təqdim etdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə olundu, Yunanıstan prezidenti Karolos Papulyasın Azərbaycana səfərinin əlaqələrimizin möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişlənməsi işinə xidmət etdiyi bildirildi.*

*Dövlətimizin başçısı Yunanıstan prezidenti Karolos Papulyasın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Yunanıstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## NAZİRLƏR KABİNETİNİN 2011-ci İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA NİTQ*

*24 oktyabr 2011-ci il*

Nazirlər Kabinetinin bugünkü iclasında biz ilin 9 ayının sosial və iqtisadi yekunlarını müzakirə edəcəyik, ilin sonuna qədər görüləcək işlər haqqında danışacağıq.

İlin sonuna iki ay qalır. Demək olar ki, 2011-ci il də ölkə iqtisadiyyatının inkişafı üçün uğurlu il olmuşdur. Bu il ərzində ölkə qarşısında duran əsas sosial və iqtisadi məsələlər öz həllini tapmışdır, bütün proqramlarımız uğurla icra edilmişdir.

Statistik göstəricilərə gəldikdə deyə bilərik ki, dinamik inkişaf davam edibdir. Baxmayaraq ki, ümumi daxili məhsul o qədər də böyük templərlə artmadı. Bunun da müəyyən səbəbləri vardır. Sevindirici hal ondan ibarətdir ki, əvvəlki dövrdə gördüyümüz işlər və düzgün siyasət nəticəsində ölkə iqtisadiyyatının çoxşaxəli şəkildə inkişafına nail ola bilmişik.

Ümumi daxili məhsul cəmi 0,5 faiz artsa da, qeyri-neft iqtisadiyyatımız 8,2 faiz artmışdır. Yenə də deyirəm, bu artım əvvəlki dövrdə görülmüş işlərin nəticəsidir. O ki qaldı ümumi daxili məhsulun cəmi 0,5 faiz səviyyəsində artmasına, bunun da səbəbi ondan ibarətdir ki, bu il neftin hasilatında azalma olmuşdur. Bunun nəticəsində bu azalma, demək olar, imkan vermədi ki, ümumi göstərici də böyük olsun. Ancaq qarşıya belə məqsəd də qoyulmur. Artıq iqtisadiyyatımız, iqtisadiyyatımızın strukturu müsbətə doğru böyük dərəcədə dəyişmişdir. Əvvəlki dövrdə görülmüş və bundan sonra

---

* Назирляр Кабинетинин 2011-ъи илин доггуз айынын сосиал-игтисади инкишафынын йекунларына щяср олунмуш иъласында Малиййя nазири Самир Шярифов, Кянд Тясяррцфаты назири Исмят Абасов вя Няглиййат назири Зийа Мяммядов чыхыш етдиляр.

görüləcək işlər nəticəsində iqtisadiyyatımız tam şəkildə çoxşaxəli iqtisadiyyat kimi özünü göstərəcəkdir.

Əvvəlki dövrdə başlanmış və bu gün icra edilən layihələr, sözün əsl mənasında, Azərbaycan iqtisadiyyatına çox böyük töhfə vermişdir. Sənaye istehsalının inkişafına gəldikdə, yenə də neftin hasilatının aşağı düşməsi nəticəsində ümumi rəqəm mənfidir. Ancaq ölkə iqtisadiyyatının qeyri-neft sənayesində 9,2 faiz artım əldə edilmişdir. Bu artım iqtisadiyyatın real sektoruna qoyulmuş investisiyalar, sahibkarlığın inkişafı hesabına mümkün olmuşdur. Bu, verilən kreditlərin, sahibkarlığın inkişafı üçün qəbul edilmiş proqramların və dövlət siyasətinin çox uğurlu olmasının nəticəsidir.

Bir neçə il bundan əvvəl qarşıya qoyulan vəzifə, ölkədə güclü sənaye potensialının yaradılması üçün tədbirlərin görülməsi vəzifəsi uğurla icra edilir. Həm böyük müəssisələr yaradılır, böyük texnoparklar fəaliyyətə başlayır, həm də orta və kiçikhəcmli müəssisələr fəaliyyətini gücləndirir. Bu artımın səbəbi ondan ibarətdir ki, dövlət tərəfindən özəl sektora çox böyük dəstək göstərilir, kreditlər verilir, dövlət şirkətlərini beynəlxalq şirkətlərə çevirmək üçün konkret tədbirlər görülür. İndi dövlət şirkətlərimiz həm peşəkarlıq, həm maddi-texniki bazanın gücləndirilməsi, həm də texnika ilə təchizatı baxımından güclü şirkətlərə çevrilmişdir.

Doqquz ayda kənd təsərrüfatı da artmışdır. Çünki kənd təsərrüfatının inkişafı üçün konkret tədbirlər həyata keçirilir, proqramlar icra edilir və xüsusilə gələn il daha da böyük proqramlar icra ediləcəkdir. Bildiyiniz kimi, dövlət bu sektorun inkişafı üçün çox böyük vəsait ayırır, güzəştlər verilibdir. Texnikanın gətirilməsi, güzəştli şərtlərlə kreditlərin verilməsi, subsidiyalar – bütün bunlar kənd təsərrüfatının inkişafına xidmət göstərir. Bu ilin 9 ayında kənd təsərrüfatı 7,6 faiz artmışdır. Bu sahə böyük sosial məna daşıyır, çünki əhalinin təxminən yarısı aqrar bölgələrdə yaşayır. Kənd təsərrüfatının inkişafı nəticəsində məhsuldarlıq artır, əkin sahələri çoxalır. Meliorativ tədbirlərin görülməsi nəticəsində biz növbəti illərdə daha da böyük həcmdə

yeni torpaqların dövriyyəyə buraxılmasına nail olacağıq. Bundan sonra kənd təsərrüfatı ilə bağlı tədbirlər ardıcıllıqla aparılacaqdır. Bununla bərabər, biz gərək yeni bazarlara çıxış üçün indidən çox ciddi fikirləşək və işləyək. Bu işlər aparılır. Nəzərə alsaq ki, bizim üçün ənənəvi olmayan bazarlarda kənd təsərrüfatı məhsullarımızı, emal sənayemizin məhsullarını gözləyirlər, biz siyasətimizi düzgün şəkildə aparmalı, daxili istehsalla daxili istehlakı və xarici bazarlara çıxışımızı uzlaşdırmalıyıq ki, Azərbaycanda gələcəkdə daha da böyük həcmdə istehsal olunacaq kənd təsərrüfatı məhsulları müştərilərini tapa bilsin.

Deyə bilərəm ki, bu ilin 9 ayında maliyyə vəziyyətimiz də xeyli dərəcədə yaxşılaşıbdır. Baxmayaraq ki, böyük infrastruktur layihələrini icra edirik, bizim valyuta ehtiyatlarımız azalmır, əksinə, artır. Doqquz ayda ehtiyatlarımız təxminən 11 milyard dollar həcmində artmışdır. Hazırda Azərbaycanın valyuta ehtiyatları 40 milyard dolları ötübdür. Bu çox böyük bir göstəricidir. İnkişaf etmiş ölkələrin göstəricilərinə baxsaq görərik ki, Azərbaycan bu sahə üzrə heç kimdən geri qalmır, bir çox ölkələri qabaqlayır. Çünki düzgün neft-qaz siyasətimiz, strategiyamız vardır və investisiya qoyuluşunu gözlənilən gəlirlərlə daim uzlaşdırırıq, şübhə yoxdur ki, növbəti illərdə də investisiya və sosial xərcləri azaltmadan valyuta ehtiyatlarımızı daha da artıracağıq. Bu bizim böyük sərvətimizdir. Bu həm bizə iqtisadi güc verir, investisiya layihələrini icra etməyə imkan yaradır,  həm də bizi istənilən çətinliklərdən, böhranlardan qoruyur və qoruyacaqdır. Bu həcmdə valyuta ehtiyatlarının yığılmasının başlıca səbəbi 1999-cu ildə Azərbaycan Dövlət Neft Fondunun yaradılması və Fondun fəaliyyətinin şəffaflığı ilə bağlıdır.

Əldə olunan bütün gəlirlər şəffaf, etibarlı şəkildə qorunur, idarə olunur və indiki mərhələdə ölkəmizin inkişafı ilə bağlı olan layihələrə yönəldilir. Növbəti ildən başlayaraq maliyyə resurslarımızı şaxələndirmək üçün biz bu vəsaitdən müxtəlif ölkələrdə müxtəlif layihələrə investisiya şəklində də istifadə edəcəyik.

Bir sözlə, iqtisadi inkişafla bağlı məsələlər ölkəmizdə uğurla icra edilir. Təsadüfi deyil ki, beynəlxalq maliyyə qurumları Azərbaycanda iqtisadi və sosial sahələrdə aparılan islahatları çox yüksək qiymətləndirir, Azərbaycanın kredit reytinqləri artır. Böhranlı illərdə inkişaf etmiş ölkələrin kredit reytinqləri azaldığı vaxtda Azərbaycanın kredit reytinqləri artmaqdadır. Dünyanın nüfuzlu təşkilatı – Dünya İqtisadi Forumu ölkələrin rəqabətqabiliyyətliliyi ilə bağlı növbəti hesablamalarda Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirərək 55-ci yerə layiq görmüşdür. Bütün MDB məkanında iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə Azərbaycan birinci yerdədir, liderdir. Bu liderliyi saxlayır və əminəm ki, saxlayacaqdır. Çünki uğurlarımızın təməlində enerji amili artıq əsas rol oynamır. Bildiyiniz kimi, son illərdə enerji amilindən asılılığımızı azaltmaq üçün biz çox böyük işlər görmüşük. Baxmayaraq ki, bu gün də, gələcəkdə də neft-qaz potensialımız həm siyasi, həm iqtisadi maraqlarımızı təmin edəcəkdir.

2011-ci ildə sosial sahədə də çox yaddaqalan hadisələr baş vermişdir. Bu hadisələr onu göstərir ki, siyasətimiz sosialyönümlüdür. Biz bazar iqtisadiyyatı prinsiplərinə sadiqik və sadiq qalacağıq. Ancaq biz bununla bərabər, aztəminatlı təbəqəni sosial cəhətdən daha da yaxşı müdafiə etmək üçün konkret addımlar atırıq. Bu addımlar sadəcə olaraq, proqramların qəbulu, hansısa bəyanatların verilməsi ilə məhdudlaşmır, bu proqramlar konkret xarakter daşıyır.

Bu il 900 minə yaxın pensiyaçının pensiyası orta hesabla 40 faiz artmışdır. Bütövlükdə götürsək 9 ayda Azərbaycanda pensiyaların səviyyəsi 35 faiz artmışdır. Bu çox böyük göstəricidir, çox böyük nailiyyətdir, çox ciddi addımdır və yaşlı nəslin maddi cəhətdən daha da yaxşı təminatı üçün vaxtında atılmış çox düzgün və ədalətli bir addımdır.

Bununla bərabər, orta maaşın həcmi də artmışdır. Hazırda Azərbaycanda orta pensiyanın səviyyəsi 190, orta maaşın səviyyəsi isə 450 dollar həddindədir. Bu, yaxşı göstəricidir, ancaq bundan da çox olmalıdır. Biz çalışacağıq növbəti illərdə

sosial məsələlərin həlli üçün də əlavə tədbirlər görək ki, bundan sonra da pensiyalar, maaşlar daim artsın. İnsanların yaşayış səviyyəsi artsın və beləliklə, Azərbaycanda yoxsulluq kimi sosial bəla aradan qaldırılsın. Sosial cəhətdən ən az müdafiə olunan vətəndaşlara dövlət Ünvanlı Sosial Yardım Proqramını təşkil etmişdir. Hazırda bu proqram 113 min ailəni əhatə edir. 500 mindən bir qədər artıq insan dövlətdən hər ay vəsait alır. Orta hesabla hər bir ailə 102 manat, təqribən 130 dollar səviyyəsində dövlətdən bu yardımı alır.

Bu da çox düzgün addımdır. Bu çox ədalətli addımdır. Nə qədər ki, bu insanlar hələ də yoxsulluq şəraitində yaşayırlar, Azərbaycan dövləti öz yardımını onlardan əsirgəməyəcəkdir. Nə vaxt ki, onlar yoxsulluqdan çıxıb öz maddi vəziyyətini yaxşılaşdıracaqlar, təbii ki, o vaxt bu yardım da dayandırılacaqdır. Çünki əsas məsələ sosial ədalət prinsipidir. Biz 20 il ərzində bazar iqtisadiyyatı şəraitində yaşayırıq və iqtisadiyyatımız bu prinsiplər əsasında tənzimlənir. Yəni bazar tələbi də, təklifi də tənzimləyir. Ancaq elə hallar olur ki, insanların imkanı yoxdur, işsizdir, yaxud da ki, az təminat alırlar. Biz onların vəziyyətinə də gərək biganə qalmayaq. Ünvanlı Sosial Yardım Proqramının əsas vəzifəsi məhz ondan ibarətdir ki, yoxsul təbəqənin maddi vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər görülsün. İşsizliklə bağlı deyə bilərəm ki, bütövlükdə bu sahədə də Azərbaycanda çox böyük işlər görülmüşdür, hazırda işsizliyin səviyyəsi təqribən 5,5 faizdir. Əgər biz ətrafa, inkişaf etmiş ölkələrə baxsaq görərik ki, bu da çox gözəl göstəricidir. Bəzi inkişaf etmiş ölkələrdə işsizlik 20 faiz, 15 faiz səviyyəsindədir, 10 faiz səviyyəsindədir, bizdə isə 5,5 faizdir. Çox güman ki, bu da real vəziyyəti əks etdirmir. Əfsuslar olsun ki, hələ də bizdə bu sahədə müfəssəl və dəqiq mexanizm tam işə düşməyib. Bəzi hallarda qeydiyyata almamaq halları da olur. Bəzi hallarda rəsmi yox, zərfdə maaş alanlar da vardır. Biz dəfələrlə bu məsələni qaldırmışıq. Deyə bilərəm ki, son illər ərzində bu sahədə vəziyyəti normallaşdırmaq üçün yaxşı tədbirlər görülmüşdür və davam etdirilməlidir. Əgər biz bu

amili də nəzərə alsaq görərik ki, Azərbaycanda işsizliyin sayı da 5,5 faizdən aşağıdır. Çox güman ki, yoxsulluq şəraitində yaşayanların da sayı 9,1 faiz deyil, ondan aşağıdır. Ancaq növbəti illərdə həm konkret inzibati addımların və həm də institusional tədbirlərin nəticəsində iqtisadi vəziyyətin tam real mənzərəsini əldə edəcəyik. Hazırda tətbiq olunan yeniliklər, «elektron hökumət» prinsipləri və digər mütərəqqi təşəbbüslər imkan verəcək ki, real mənzərəni 100 faiz səviyyəsində əks etdirən vəziyyət ictimaiyyətə təqdim edilsin.

Bu il regionlarda da həmişə olduğu kimi, uğurlu investisiya layihələri icra edilmişdir və regionlarda iş yerlərinin açılması ilə bağlı əlavə tədbirlər görülmüşdür. İlin 9 ayında 74 min yeni iş yeri açılmışdır ki, onlardan 50 mini daimi iş yeridir. Beləliklə, son 8 il ərzində Azərbaycanda 950 minə yaxın yeni iş yeri açılmışdır.

Regional İnkişaf Proqramı uğurla icra edilir. Vaxtaşırı o proqrama əlavələr, dəyişikliklər edilir. Prezidentin ehtiyat fondundan bu il ərzində bölgələrə kifayət qədər vəsait ayrılmışdır, bu məbləğlər daha çox sosial-iqtisadi infrastruktur layihələrinin icrasına yönəldilmişdir. Xüsusilə kənd yollarının təmiri və tikintisi ilə çox ciddi məşğuluq. Böyük proqramlar artıq icra edilir. Növbəti illərdə bu sahəyə daha da böyük diqqət göstərilməlidir. Bir sözlə, Regional İnkişaf Proqramı icra edilir, burada heç bir narahatlıq yoxdur.

Bu il Bakının kənd və qəsəbələrinin inkişafı ilə bağlı çox geniş və konkret proqram qəbul edilmişdir. Deyə bilərəm ki, proqram çox qısa müddət ərzində icra edilməyə başlamışdır. Artıq biz o proqramın ilkin nəticələrini görürük. Bundan əvvəlki dövrdə də – 2005-ci ildə Bakı qəsəbələrinin inkişafına dair üçillik proqram qəbul edilmişdi, o, başa çatdı. İndi yeni proqramın qəbuluna ehtiyac var idi. Biz bunu etmişik və demək olar ki, bütün qəsəbələrdə çox böyük quruculuq, abadlıq, bərpa işləri aparılır. Bütün infrastruktur yenilənir, yeni qaz, su, kanalizasiya xətləri çəkilir, elektrik enerjisi ilə təminat yaxşılaşdırılır, məktəblər, xəstəxanalar, tibb ocaqları,

poliklinikalar tikilməkdədir. Yəni hər bir qəsəbə üzrə konkret təklif var və bu təkliflər proqramda öz əksini tapıbdır. Bu proqram mətbuatda dərc edilibdir. Proqramın formalaşmasında əsas məlumat mənbəyini yerlərdən almışıq, yəni qəsəbə sakinləri öz təkliflərini vermişlər, sonra onlar ümumiləşdirilib və nəticədə proqram qəbul edilmişdir. Orada qəsəbə sakinlərinin məşğulluğu ilə də bağlı konkret təkliflər vardır. Qəsəbələrə kreditlərin verilməsi də başlanmışdır və artıq bir neçə istiqamət üzrə konkret proqram və təkliflər vardır. Şadam ki, Bakı və ətraf qəsəbələrin inkişafı proqramı çox sürətlə icra edilməyə başlamışdır. Bu sürət deməyə əsas verir ki, qəsəbələrdə mövcud olan bütün sosial və iqtisadi məsələlər 2-3 il ərzində həllini tapacaqdır.

Bu ilin doqquz ayında biz bütün sahələr üzrə işimizi sistemli şəkildə qurmuşuq. Hər bir sahə üzrə konkret proqramlar vardır. Azərbaycanda məqsədyönlü proqramların sayı təqribən 50-yə yaxındır və onların hamısının konkret maliyyə mənbəyi, icra mexanizmi, icra müddəti göstərilmişdir. Bütün işlərimiz konkret xarakter daşıyır və uğurlarımızın da səbəbi məhz bundan ibarətdir.

Bizim üçün ən ağır olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində əfsuslar olsun ki, heç bir irəliləyiş yoxdur. Mən bu məsələ ilə bağlı ictimaiyyətə kifayət qədər geniş məlumatlar çatdırmışam. Müstəqilliyimizin 20 illik yubiley tədbirində də kifayət qədər geniş məlumat vermişəm, bəlkə də təkrara ehtiyac yoxdur. Demək istəyirəm ki, Azərbaycanın prinsipial mövqeyi var, bu mövqe həm tarixi həqiqətə, həm beynəlxalq hüquq normalarına əsaslanır. Biz bu mövqedən kənara bir addım atmayacağıq. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, olmayıb və olmayacaqdır. Çalışacağıq ki, bütün imkanlardan istifadə edib ərazi bütövlüyümüzü bərpa edək. Nəticə olmasa da son aylar ərzində beynəlxalq vasitəçilər tərəfindən səslənən fikirlər müəyyən ümidlər verir, xüsusilə status-kvonun qəbul edilməməsi ilə bağlı. Status-kvo qəbul edilə bilməz, dəyişdirilməlidir,

münaqişə dondurulmuş münaqişə deyil və status-kvonun dəyişdirilməsi təbii ki, işğal edilmiş torpaqlardan işğalçı qüvvələrin çıxarılmasını tələb edir və münaqişənin həlli yolları məhz bundan keçir. İşğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Beynəlxalq hüquq normaları hər bir məsələnin həlli üçün əsas olmalıdır, xüsusilə münaqişələrlə bağlı olan məsələlərdə. Biz çalışacağıq ki, bütün imkanlardan istifadə edib bu məsələni tezliklə, ədalətli, öz xeyrimizə – yəni beynəlxalq hüquq normaları əsasında həll edək. Təbii ki, bu gün dediyim bütün bu rəqəmlər – iqtisadi inkişaf, iqtisadi potensial, demoqrafik durum və əlbəttə, hərbi potensial məsələnin tezliklə ədalətli həll edilməsi üçün öz rolunu oynayır və oynayacaqdır.

Bu istiqamətdə də çox böyük tədbirlər görülmüşdür, dəqiq siyasət aparılır. Həm bu ilin, həm əvvəlki illərin iqtisadi göstəriciləri, həm hərbi imkanlarımız göstərir ki, Ermənistanla Azərbaycan arasındakı fərq böyüyür. Bu iki ölkə müqayisəedilməzdir, bizim aramızda yerlə göy qədər fərq vardır. Bunu hamı bilir – həm beynəlxalq ictimaiyyət, həm bu məsələ ilə birbaşa məşğul olan tərəflər və qurumlar. Çox güman ki, status-kvo ilə bağlı, status-kvonun dəyişdirilməsi ilə bağlı son bəyanatların təməlində də məhz bu reallıq dayanır. Hər bir qərəzsiz müşahidəçi bilir ki, Azərbaycan güclənir, Ermənistan zəifləyir, Azərbaycanın əhalisi artır, Ermənistanın əhalisi azalır.

O ki qaldı hərbi məsələlərə, iqtisadi sahədə bütün statistik göstəricilər əyani şəkildə kimin kim olduğunu göstərir. Sadəcə olaraq, şəhərlərə, necə deyərlər, qərəzsiz baxışlar zamanı reallığı hər kəs görə bilir ki, Azərbaycan nə qədər böyük yol keçmişdir və ölkəmiz gündən-günə güclənir. O ki qaldı hərbi balansa, deyə bilərəm ki, bu sahədə son vaxtlara qədər bəlkə də erməni təbliğatı nəticəsində bu fərq – yəni bizim xeyrimizə olan fərq – beynəlxalq qurumlar və müşahidəçilər tərəfindən o qədər də dərk edilmirdi. Ancaq son müddətdə həm Azərbaycanda, həm Ermənistanda keçirilən hərbi paradlar kimin kim olduğunu əyani şəkildə göstərdi. Hesab edirəm ki, Ermənistanda hərbi paradın keçirilməsi onların böyük səhvi idi. Əgər o vaxta qədər

onlar həmişə olduğu kimi, mifologiya hesabına, yaxud da ki, fantaziyalar hesabına kimi isə inandırmağa çalışırdılar ki, ən döyüşkən ordu Ermənistan ordusudur, onların keçirdiyi dırnaqarası «hərbi parad»dan sonra hamı bildi ki, Ermənistan ordusu necə acınacaqlı vəziyyətdədir. Mən də, siz də, bütün ictimaiyyət də ilk dəfə gördük ki, hərbi texnika özü yeriyə bilmir, onları qoşqular, yük maşınları üzərində paraddan keçirib nümayiş etdirirlər. Bunun bir neçə səbəbi ola bilər. Ya o texnika işləmir, nasaz vəziyyətdədir, ya orada yanacaq yoxdur, ya da ki, hər ikisi. Çox güman ki, hər iki amil burada rol oynamışdır. Bu parad onu göstərdi ki, Ermənistan müstəqil ölkə deyil, forpostdur. Əgər bu barədə əvvəlki dövrdə də kifayət qədər yüksək rütbəli, vəzifəli şəxslər bəyanatlar vermişdilərsə, bu paradda gördüyümüz mənzərə bir daha təsdiq edir ki, Ermənistan forpost olaraq qalır.

Bir də Ermənistanda keçirilmiş bu tədbir yəqin ki, tarixdə yeniliklə yadda qalacaqdır. Orada din xadimlərinin iştirakı da sadəcə olaraq, yumşaq desək, təəccüb doğurur. Özü də əsgər kimi addımlarla addımlayan keşişlər – buna söz tapmaq çətindir. Biz başa düşürük ki, Ermənistan işğalçı siyasəti nəticəsində demoqrafik fəlakətlə üzləşib. Amma bu dərəcədə təsəvvür etmirdik ki, artıq din xadimləri də orada həqiqi hərbi xidmətə cəlb edilirlər. Bu nə qədər gülməli səslənsə də, bir o qədər də faciəvidir. Onlar dərk etməlidirlər ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli onların da maraqlarına xidmət edəcəkdir.

Nəhayət, ölkəmizin imkanlarını, beynəlxalq müstəvidə artan nüfuzunu bu yaxınlarda BMT-də keçirilən səsvermə də əyani şəkildə təsdiqləyir.

Bildiyiniz kimi, Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv olmaq üçün müraciət etmişdir. Son aylar ərzində bu məqsədə çatmaq üçün diplomatiyamız böyük işlər görmüşdür. Bu səsvermənin tarixçəsi də maraqlıdır. Deyə bilərəm ki, ilkin mərhələdə Ermənistan da öz namizədliyini bizimlə bərabər vermişdi. Bir neçə ay bundan əvvəl yəqin ki, orada götür-qoy

etdilər və anladılar ki, Azərbaycan ilə diplomatik sahədə də onlar rəqabət aparmaq iqtidarında deyillər və çox sakitcə, səs salmadan öz namizədliyini geri götürdülər. Bu onu göstərirdi ki, Azərbaycan qarşısında onlar acizdirlər və bunu etiraf edirlər. Bilirlər ki, onların Azərbaycana qarşı aparılan işğalçı siyasəti, onların çirkin əməlləri, məkrli planları dünya ictimaiyyəti tərəfindən heç vaxt dəstəklənə bilməz. Əksinə, dünya ictimaiyyəti bunu pisləyir və pisləyəcəkdir. Nəticədə Ermənistan öz namizədliyini çox sakit şəkildə geri götürmüşdür ki, bu rüsvayçılığı çox adam, çox ölkə bilməsin.

Ümid edirəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də onlar eyni yanaşmanı göstərəcəklər, yenə də götür-qoy edəcəklər. Anlayacaqlar ki, Azərbaycanla heç bir sahədə onlar rəqabət apara bilmirlər və bilməyəcəklər. Nə qədər tez bunu anlasalar, onlar üçün bir o qədər yaxşı olacaqdır. Çünki onların BMT Təhlükəsizlik Şurasına seçkilərdə siyasi və diplomatik iflası, uğursuzluğu istisna etmir ki, təkcə diplomatik meydanla məhdudlaşmayacaqdır. Azərbaycan güclü dövlətdir və güclü dövlətlərlə qonşular, adətən, dost olmaq istəyirlər.

O ki qaldı seçkilərə, seçkilər hələ davam edir. Bir neçə tur artıq olmuşdur. Birinci turda Azərbaycan birinci yerdə idi. İkinci və ondan sonrakı turlarda da Azərbaycan böyük üstünlüklə irəlidədir. Bu gün, ayın 24-də növbəti turlar keçiriləcəkdir, demək olar ki, bu bizim böyük qələbəmizdir. Son nəticədən asılı olmayaraq tam qətiyyətlə deyə bilərəm və tam əminəm ki, tarixi nəticədir. 113 ölkə Azərbaycanı dəstəkləyir. Bu, tarixi nailiyyətdir. Bu, dünya ictimaiyyətinin Azərbaycana olan münasibətinin əlamətidir, ölkənin inkişafının təzahürüdür. Amma mən çıxışlarımda dəfələrlə demişəm ki, Azərbaycan etibarlı tərəfdaşdır. Etibarlı tərəfdaş olmaq çox böyük məsuliyyətdir və böyük nailiyyətdir. Biz doğrudan da etibarlı tərəfdaşıq. Siyasətimiz kiminsə xoşuna gələ də, gəlməyə də bilər. Çalışmırıq ki, hamının xoşuna gələk. Biz siyasətimizi aparırıq. Bizim sözümüzlə imzamız arasında heç bir fərq

yoxdur. Bu etibarı qazanmaq asan məsələ deyildir, xüsusilə gənc müstəqil dövlət üçün. Biz müstəqilliyimizin 20 illik yubileyini bu yaxınlarda qeyd etmişik, böyük uğurlar, gələcək planlar haqqında danışmışıq. Deyə bilərəm ki, 113 ölkənin Azərbaycana dəstək verməsi bu 20 ilin məntiqi nəticəsidir.

Bir sözlə, həm ölkə daxilindəki vəziyyətlə, daxildə aparılan islahatlarla, həm xarici siyasətimizin aparılması ilə bağlı konkret proqramlarımız, planlarımız, siyasətimiz vardır. Bu siyasət imkan verir ki, ölkəmiz sürətlə, uğurla inkişaf etsin.

## YEKUN NİTQİ

İlin sonuna qədər nəzərdə tutulmuş bütün proqramlar icra edilməlidir. İlin 9 ayı göstərir ki, proqramların icrası ilə bağlı heç bir problemimiz yoxdur. Hər bir proqram uğurla icra edilir. Hər bir istiqamət üzrə görülən işlər haqqında vaxtaşırı məlumatlar verilir, təhlillər aparılır və əlavə göstərişlər verilir. Əminəm ki, ilin sonuna qədər nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapacaq və biz artıq 2012-ci ildə görüləcək işlər haqqında da çox fikirləşməliyik.

Əminəm ki, ilin sonuna qədər makroiqtisadi vəziyyət də sabit olaraq qalacaqdır. Çünki ilin 9 ayında inflyasiya cəmi 8,4 faiz olmuşdur. İnflyasiya birrəqəmlidir. İlin əvvəlində də qarşıya belə vəzifə qoyulmuşdu ki, inflyasiya birrəqəmli olsun. Ümid edirəm ki, ilin sonuna qədər birrəqəmli inflyasiya qalacaqdır. Nəzərə alsaq ki, bu il əhalinin pul gəlirləri 19 faiz artmışdır, görərik ki, əhalinin pul gəlirləri inflyasiyanı iki dəfədən çox üstələyir. Bu da son illər müşahidə olunan bir mənzərədir. Hər il əhalinin pul gəlirləri inflyasiyanı iki dəfə, bəlkə ondan da çox həcmdə üstələyir. Bütövlükdə il ərzində əhalinin pul gəlirlərinin 19 faizdən çox artması özlüyündə gözəl bir göstəricidir. Gələn ilin dövlət büdcəsi yaxın zamanlarda Milli Məclisdə müzakirə ediləcəkdir. Həmişə olduğu kimi, büdcə həm investisiyayönümlü, həm də sosialyönümlüdür, konkret sosial proqramların icrası nəzərə alınmalıdır.

İldən-ilə büdcə xərclərimiz də artır. Gələn il dövlət büdcəmizin xərcləri təqribən 22 milyard dollar həcmində olmalıdır. İcmal büdcə isə 25 milyard dollar səviyyəsində olacaqdır. Bu çox böyük rəqəmdir, böyük məbləğdir. Adambaşına düşən büdcə xərclərini hesablasaq görərik ki, bu göstərici üzrə Azərbaycan dünya miqyasında ön sıralardadır. Növbəti aylarda, xüsusilə 2012–2013–cü illərdə çalışmalıyıq ki, ölkə qarşısında duran əsas infrastruktur layihələrini icra edək. Bu layihələrin sayı kifayət qədər çoxdur. Bugünkü müşavirədə onların sadəcə olaraq bəziləri qeyd edildi. Hər bir istiqamət üzrə nəhəng infrastruktur layihələri icra edilir. Bu layihələrin icrası ilə bağlı vaxtaşırı məlumatlar alıram, yerlərdə tanış oluram. Çox böyük meliorasiya layihələri icra edilir. Şəmkirçay Su Anbarı və orada elektrik stansiyası tikilir. Taxtakörpü Su Anbarının tikintisi ilə bu yaxınlarda tanış olmuşam, kanallar tikilir. Nadir infrastruktur layihəsidir ki, onilliklər bundan sonra Azərbaycanın inkişafını, xüsusilə kənd təsərrüfatının inkişafını təmin edəcəkdir. Suvarılan torpaqların həcmi artmaqdadır. Yeni torpaqların dövriyyəyə daxil edilməsi ilə bağlı konkret işlər aparılır və biz ilk növbədə burada suvarma məsələlərinə diqqət verməliyik. Konkret proqramlar icra edilməkdədir.

Növbəti 2 il ərzində elektroenergetika sahəsində görüləcək işlər, demək olar ki, bu istiqamətdə bütün planlarımızın reallaşmasına imkan verəcəkdir. Son illər bu sahədə çox ciddi tədbirlər görülmüşdür. 11 yeni elektrik stansiyası tikilmişdir. Son 5 il ərzində 1500 meqavat gücündə yeni elektrik stansiyaları tikilib və bərpa edilmişdir. Hazırda enerji gücümüz 6,5 min meqavat səviyyəsindədir ki, bugünkü Azərbaycanın tələbatını və bir neçə il sonrakı tələbatını tam şəkildə ödəyir. Biz qonşu ölkələrə elektrik enerjisini ixrac edirik və ixracın həcmini artırmaq fikrindəyik. Bu məqsədlə yüksəkgərginlikli yeni elektrik xətləri çəkilir. Gələn il bu layihə də başa çatacaqdır. Beləliklə, neftlə, qazla bərabər, Azərbaycan böyük həcmdə elektrik enerjisi də ixrac edəcəkdir. Hazırda bütün

qonşu ölkələrə bizdən elektrik enerjisi ixrac edilir. Biz çalışmalıyıq ki, həcmi artıraq.

Bu il bu sahədə yeni çox əhəmiyyətli və əlamətdar addım atılmışdır. «Şimal-2» elektrik stansiyasının tikintisinə başlamışıq. Bu stansiya 409 meqavat gücündə olacaqdır. Yaxın gələcəkdə istifadəyə veriləcəkdir. «Cənub» Elektrik Stansiyasının tikintisi uğurla davam edir. Ümid edirəm ki, gələn il biz bu böyük stansiyanı da açacağıq. Orada da 780 meqavat elektrik enerjisinin istehsalı gözlənilir. 2013-cü ilin sonuna qədər təxminən 1300, bəlkə də ondan da çox meqavat gücündə yeni enerji alacağıq. Növbəti illərdə bu məsələyə diqqət göstərilməlidir. Hazırda tikilməkdə olan stansiyalar bizə tam şəkildə imkan verəcək ki, enerji təhlükəsizliyimizi 5–10 il ərzində təmin edək. Bunu təmin edirik. 10 ildən sonra Azərbaycanda iqtisadi və sənaye potensialı xeyli dərəcədə artacaq və enerji gücləri də ümumi inkişafımızı daim qabaqlamalıdır.

Bərpa olunan enerji güclərinin yaradılması ilə bağlı konkret tədbirlər görülməyə başlanmışdır. Birinci pilot layihə icra edilmişdir. Qobustanda külək-günəş elektrik stansiyası artıq istismara verilmişdir. Mən açılışda iştirak etmişəm, bu gözəl təcrübə geniş şəkildə yayılmalıdır. Çox şadam ki, artıq Azərbaycanda günəş panelləri də istehsal olunmağa başlayır. Bu yönümlü bir neçə müəssisə işə başlayacaqdır. Bütövlükdə biz bərpa olunan enerji növlərinə indi çox böyük diqqət göstəririk. Günəş, külək enerjisi bizim üçün yenilikdir. Bu məsələyə çox ciddi yanaşırıq və artıq nəticələr vardır. Hidroenergetikanın inkişafı üçün konkret proqramlar icra edilir. Kiçik çaylarda bu il bir neçə elektrik stansiyasının təməli qoyuldu. Hər biri 1-2, bəlkə 3-4 meqavat və 20–25 meqavat gücündə hidroelektrik stansiyalarının tikintisi də gələn il gözlənilir. Gələn il Füzuli elektrik stansiyasının açılışını etməliyik. Orada 25 meqavat enerji istehsalı gözlənilir. Taxtakörpü, Şəmkirçay su anbarlarında da təxminən o həcmdə su elektrik stansiyalarının tikintisi gözlənilir. Qeyd olunduğu kimi, bütün su

resurslarımızın xəritəsi tərtib edilibdir. Hər bir mənbədə su elektrik stansiyasının tikintisi nəzərdə tutulur.

Ölkəmizin sənaye inkişafı ilə bağlı proqramlar icra edilir. Giriş sözümdə qeyd etdim ki, qeyri-neft sənayesi Azərbaycanda 9,2 faiz artmışdır. Ümid edirəm ki, gələn il də artacaqdır. Bu yaxınlarda ölkənin sənaye potensialını gücləndirən yeni alüminium zavodu fəaliyyətə başlayacaqdır. Alüminium sənayesinin inkişafı ilə bağlı əvvəlki dövrdə çox konkret və ciddi addımlar atmışıq. Kreditlər vermişik, Gəncədə böyük yarımstansiya tikilmişdir ki, bu, yeni sənaye kompleksinin işini təmin etsin. Metallurgiya sənayesinin inkişafı ilə bağlı konkret tədbirlər görülür və yəqin ki, yaxın zamanlarda böyük metallurgiya kompleksi də işə başlayacaqdır. Bu həm böyük sayda iş yerlərinin açılmasına gətirib çıxaracaq, həm də ixracyönümlü sənaye potensialımız artacaqdır. Beləliklə, növbəti illərdə, təqribən 10–15 ildən sonra biz elə etməliyik ki, qeyri-neft iqtisadiyyatımız qoyulan hədəflərə uyğun olsun. Hədəfimiz ondan ibarətdir ki, Azərbaycanda adambaşına düşən ümumi daxili məhsul inkişaf etmiş ölkələrin səviyyəsində olmalıdır. Hazırda Azərbaycanda adambaşına düşən ümumi daxili məhsul təxminən 6 min dollar səviyyəsindədir. Əvvəlki dövrlə müqayisədə bu çox böyük irəliləyişdir. MDB məkanında da bu ən yüksək göstəricilərdən biridir. Çalışmalıyıq ki, növbəti illərdə bu rəqəmi ən azı iki dəfə artıraq. Son 8 il ərzində Azərbaycanda ümumi daxili məhsul üç dəfə artmışdır. Dünya praktikasında bəlkə də görünməmiş bir hadisədir – 300 faiz artmışdır. Biz qarşıya hədəf qoyuruq – növbəti 10 il ərzində ümumi daxili məhsul ən azı iki dəfə artmalıdır. Biz bunu qeyri-neft sektorunun inkişafı hesabına təmin etməliyik. Çünki neft sənayesində hazırkı istehsal bizi qane edir. Giriş sözümdə qeyd etdiyim kimi, sənaye istehsalının bir qədər aşağı düşməsinin səbəbi də neft hasilatının azalmasıdır. Bu bizi narahat etmir, əksinə, hazırda Azərbaycanda neftin hasilatı optimal səviyyədədir. Biz bunu artırmamalıyıq, çünki ehtiyacımız yoxdur.

İl ərzində valyuta ehtiyatlarımız 11 milyard dollar artıbdır. Bir dənə də olsun sosial və infrastruktur layihəsində geriləmə yoxdur. Bütün layihələr icra edilir, büdcə artır. Əlavə neftin hasilatı, sadəcə olaraq, valyuta ehtiyatlarımızı kəskin şəkildə yenə də artıracaqdır. Biz maraqlıyıq ki, neft ehtiyatlarımız daha da uzun müddət ərzində Azərbaycan xalqına xidmət etsin, bundan sonra onilliklər ərzində Azərbaycanda neft hasilatı stabil olsun. Qaz hasilatına gəlincə, bu sahədə gələn illərdə qoyulacaq investisiyalar hesabına qazın hasilatını kəskin şəkildə artırmalıyıq.

Sənaye sahəsində işlər yaxşı gedir, sənayeləşmə siyasətimiz icra edilir. Burada vəzifə həm böyük müəssisələrin yaradılması və bəlkə də daha vacibi kiçik və orta müəssisələrin yaradılması olmalıdır. Alüminium zavodunun işə düşməsi, Azərbaycanda neft-kimya sənayesində yenidənqurma işləri nəticəsində bəlkə yüzlərlə, minlərlə kiçik və orta səviyyəli müəssisə yaradılmalıdır ki, onlar artıq hazır məhsul istehsal edəcəkdir. İqtisadi İnkişaf Nazirliyi bu məsələ ilə bağlı çox ciddi işləyir, yaxşı təkliflər vardır. Həm konseptual təkliflər, həm də ki, kiçik, orta sahibkarlığın inkişafı üçün konkret kredit mexanizmləri də hazırlanır.

Bu gün qeyd edildi ki, kənd təsərrüfatı sahəsində böyük uğurlar vardır. İstehsal artır, daha da artacaqdır. Ərzaq təhlükəsizliyimizi təmin etmək üçün konkret addımlar atırıq. Demək olar ki, ərzaq təhlükəsizliyinin təmin olunmasına nail olmuşuq. Bundan sonrakı dövrdə istehsalın artması nəticəsində daha da böyük uğurlar əldə ediləcəkdir.

Azərbaycanda yeni gübrə zavodunun tikintisi nəzərdə tutulur. Bu da bir yenilikdir. Bu da bizim təşəbbüsümüz idi ki, nə üçün biz gübrəni xaricdən alaq?! Nəzərə alsaq ki, kənd təsərrüfatının inkişafı ilə bağlı çox böyük planlarımız var və biz subsidiyaları bundan sonra da verəcəyik. İndi gətirilən gübrə fermerlərə güzəştli şərtlərlə verilir, xaricdən alırıq, pul ödəyirik. Azərbaycanda yaradılacaq yeni gübrə zavodu tələbatımızı tam ödəyəcək və ixrac potensialını da gücləndirəcəkdir.

Texnikanın, damazlıq mal-qaranın alınması prosesi də davam etdiriləcəkdir. Bu barədə Kənd Təsərrüfatı naziri həm görülən işlər,

həm də gələcək planlar haqqında məlumat vermişdir. 20 illik müstəqilliyimizə həsr edilmiş sərgidə Azərbaycanda son illər istehsal olunan mallar təqdim edilmişdir. Sözün əsl mənasında, indi Azərbaycanda böyük çeşiddə həm kənd təsərrüfatı, həm sənaye məhsulları istehsal edilir. Avtomobildən tutmuş yük maşınına qədər, demək olar ki, bütün kənd təsərrüfatyönümlü emal müəssisələri yaxşı məhsullar istehsal edir. Nəzərə alsaq ki, məhsullarımıza böyük tələbat vardır, yeni bazarlara çıxmalıyıq və çıxırıq. Çünki istehsal olunan məhsullarımız, hansılar ki, ixrac edilir, keyfiyyəti ilə artıq o bazarlarda öz yerini tuta bilmişdir. Bütün beynəlxalq standartlara uyğun şəkildə ixrac edilən kənd təsərrüfatı emalı mallarımız öz müştərilərini tapmışdır.

Biz mövcud bazarlara məhsullarımızı daha da böyük həcmdə ixrac etməliyik. Bayaq qeyd etdiyim kimi, yeni torpaqların dövriyyəyə verilməsi nəticəsində kənd təsərrüfatı istehsalımız xeyli dərəcədə artmalıdır. Meliorativ tədbirləri əlavə etsək görəcəyik ki, suvarılan torpaqların sahəsi və təbii olaraq, istehsal da artacaqdır. Ona görə yeni emal müəssisələrinin yaradılması üçün əlavə kreditlər verilməlidir. Bu mövsümdə bəzi hallarda kənd yerlərində fermerlər tərəfindən yığılmış məhsul bir müddət əllərdə qalmışdı, çünki emal müəssisələrimizin gücü çatmırdı. Ona görə çatmırdı ki, istehsalın bu qədər artacağını gözləmirdilər. İstehsal da artır, bu da çox yaxşıdır. Ona görə biz növbəti illərdə yeni emal müəssisələrinin yaradılması üçün kreditlər ayırmalıyıq ki, istehsal olunan bütün kənd təsərrüfatı məhsulları öz müəssisələrimizdə emal olunsun və hazır məhsul kimi ixrac edilsin.

Bu sahəyə daha da çox diqqət göstərilməlidir. Yeni bazarlara çıxmaq üçün konkret təkliflər və arzular var. Bu yaxınlarda mən Qazaxıstanda rəsmi səfərdə olarkən bu məsələ də müzakirə edildi. Azərbaycanın emal müəssisələrinin istehsal etdiyi məhsullar orada istehlak oluna bilər. Biz Xəzərin o tayında özümüz üçün yeni bazarlar aşkar edə bilərik. Bu, maraqlarımıza və Qazaxıstanın marağına xidmət edir. Bu məsələ müştərək

iqtisadi komissiyada müzakirə edilibdir. Sadəcə olaraq, bizdə bu sektor tam özəl əllərdə olduğu üçün fermerləri, yaxud da ki, iş adamlarını məcbur edə bilmərik ki, sən öz məhsulunu bu və ya digər ölkəyə satmalısan. Ancaq elə şərait yaratmalıyıq ki, onlar yeni bazarlara çıxa bilsinlər. İstehsalın artması üçün böyük investisiyalar qoyuruq və bilirik ki, bir neçə ildən sonra istehsal artacaqdır. Bizim meyvələrimiz, tərəvəz məhsulları həm keyfiyyətlidir, həm onların həcmi artır. Yeni bazarlara çıxmaq üçün hesab edirəm ki, gələn il biz konkret təklifləri eşidəcəyik.

Sahibkarlıqla bağlı ölkə daxilində aparılan siyasət özünü doğruldub, 900 minə yaxın iş yerinin açılması, o cümlədən sahibkarlığa göstərilən maddi yardımdan və siyasi dəstəkdən qaynaqlanır. Hesab edirəm ki, bu sahədə vəziyyət artıq oturuşub, verilən kreditlərin həcmi artır. İndi kreditlər daha çox əvvəlki dövrdə verilən və qaytarılan vəsait hesabına verilir. Bu da çox gözəl nəticədir. Mən bir neçə il əvvəl demişdim ki, vaxt gələcək biz bu kreditləri daha çox qaytarılan vəsait hesabına verəcəyik və bu vaxt gəldi. Növbəti illərdə yeni layihələr haqqında fikirləşməliyik. Bu yaxınlarda verilən kreditlərin yuxarı həddini də qaldırdıq ki, böyük müəssisələrə kreditlər daha da çox çatsın.

Sahibkarlıqla bağlı digər məsələ ondan ibarətdir ki, biz xarici bazarlara investisiyalarımızla çıxırıq, çıxmalıyıq və o investisiyaların coğrafiyası artmalıdır. İndi qonşu dövlətlərə investisiyalar qoyuruq – Türkiyə, Gürcüstan, Ukrayna. Balkan ölkələrində də bizim investisiyaları gözləyirlər. Balkan ölkələrinə nümayəndə heyəti göndərilmişdir, investisiya imkanları araşdırılmışdır, konkret təkliflər vardır. İndi həm özəl sektor investisiyalara başlayacaq, həm də dövlət tərəfindən bu məsələ müzakirə edilir.

Avropa İttifaqı məkanında investisiya imkanları araşdırılır və artıq ilkin addımlar atılır. Maliyyə resurslarımızın şaxələndirilməsi üçün gərək valyuta ehtiyatlarımızın bir hissəsini daşınmaz əmlaka yönəldək. Dünya miqyasında indi belə araşdırmalar aparılır, ilkin addımlar atılmışdır.

2012-ci ildə bu səpkidə daha da böyük həcmdə investisiyalar qoyulmalıdır. Rusiyanın Şimali Qafqaz respublikalarının iqtisadiyyatına investisiyalar qoyula bilər. Bu yaxınlarda Şimali Qafqaz respublikalarının rəhbərləri qonaqlarımız idi və hər iki tərəf maraqlıdır ki, Azərbaycan investisiyaları Şimali Qafqaz respublikalarına gəlsin. Bu məqsədlə yaxın zamanlarda İqtisadi İnkişaf naziri böyük heyətlə oraya ezam ediləcək, imkanlar araşdırılacaq. Biz bu məsələyə də çox müsbət baxırıq. Bu da Rusiya–Azərbaycan əlaqələrinin inkişafı üçün vacib olan məsələdir və münasibətlərdə bir yenilikdir. İqtisadi maraqlarımıza xidmət edir və təbii ki, Şimali Qafqazın iqtisadi inkişafına öz töhfəsini vermiş olacaqdır.

Bu il korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə çox ciddi addımlar atılmışdır, tədbirlər görülmüşdür. Bu mövzu daim diqqət mərkəzindədir. Ölkənin iqtisadi inkişafı ilə bağlı bu məsələyə daha da ciddi diqqət göstərilməlidir. Çünki iqtisadiyyat, dövlət xərcləri artır. Şəffaflığı tam şəkildə təmin etməliyik. Maliyyə sistemimiz, o cümlədən infrastruktur layihələri ilə bağlı bütün sistemimiz şəffaf olmalıdır. Elə etməliyik ki, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə daha da təsirli olsun. Bu il ərzində çox ciddi nailiyyətlər əldə edilmişdir. Bu sahədə çox ciddi irəliləyiş vardır. Ancaq bu irəliləyiş bizi tam qane edə bilməz, bu məsələ daim diqqət mərkəzində olmalıdır. Mən ilin əvvəlində bu məsələ ilə bağlı fikirlərimi bildirəndə demişəm ki, bu, kampaniya deyil, bu, şüurlu seçimimizdir. Bütün qurumlar bu məsələ ilə bağlı öz fəaliyyətində daim islahatlar aparmalıdırlar. Burada siyasətimizi bir neçə istiqamət üzrə aparmalıyıq. İnzibati tədbirlər, cəza tədbirləri görülür və görüləcəkdir. Əfsuslar olsun ki, cəza tədbirləri olmadan bu bəla ilə bağlı mübarizə yarımçıq qala bilər. İnstitusional tədbirlər də görülməlidir. Elektron hökumətə keçidimizin səbəblərindən biri də məhz rüşvətxorluq, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsidir.

Elektron hökumətin yaradılması ilə bağlı konkret təkliflər vardır. Azərbaycanda bütünlükdə informasiya-kommunikasiya

sektoru çox uğurla inkişaf edir. Beynəlxalq maliyyə qurumları da bu sahədə uğurlarımızı qeyd edirlər. Azərbaycanda indi genişzolaqlı internet geniş şəkildə tətbiq edilir. İnternet istifadəçilərinin sayı 50 faizdən yuxarıdır. Bu çox sevindirici haldır, nə qədər çox olsa, o qədər yaxşıdır. İKT ilə bağlı bütün başqa məsələlər həllini tapmaqdadır. Gələn il süni telekommunikasiya peykimiz orbitə çıxarılacaqdır. Bu sadəcə, birinci addım olacaqdır. Ondan sonra ikinci, bəlkə də üçüncü peykin buraxılması da olmalıdır. Yəni bu sahə inkişaf edir və ölkəmizin müasirləşməsinə xidmət göstərir. Sirr deyil ki, bundan sonrakı dövrdə dünyada elmi-texniki tərəqqi daha çox İKT sektoru ilə bağlı olacaqdır. Biz həm qabaqcıl texnologiyaları tətbiq etməliyik, həm də peşəkar kadrları hazırlamalıyıq.

Ölkə iqtisadiyyatının əsasını təşkil edən neft-qaz sektorunda da işlər yaxşı gedir. Bütün proqramlar icra edilir, genişmiqyaslı qazlaşdırma tədbirləri aparılır. 2013-cü ilin sonuna qədər qazlaşdırmanın səviyyəsi Azərbaycanda 95 faizə çatmalıdır, qarşıya bu vəzifə qoyulubdur. Əminəm ki, biz bu vəzifəni icra edəcəyik. İndi, demək olar ki, hər həftə, hər ay yeni yaşayış məntəqələrində yeni qaz xətlərinin açılışı baş verir. Bu da çox sevindirici haldır.

Azərbaycanda yeni neft-kimya kompleksinin yaradılması ilə bağlı konkret təkliflər vardır. Hökumətdə bu təkliflərə baxılıbdır. Bu da uzunmüddətli inkişafımız üçün çox lazımdır. İndi fəaliyyətdə olan neftayırma zavodlarımız əvvəlki dövrdə tikilmişdir. Düzdür, onlar təmir edilmişdir, müasirləşdirilmişdir. Ancaq biz yeni, ən son texnologiyalarla işləyən neft-kimya kompleksinin yaradılmasına başlamalıyıq.

Keçən rübdə Azərbaycanda çox əlamətdar hadisə baş vermişdir. «Abşeron» yatağında böyük qaz ehtiyatları aşkarlanmışdır. Təqribən 300–350 milyard kubmetr səviyyəsində yeni qaz ehtiyatları yaradılmışdır. Keçən ilin sonunda Dövlət Neft Şirkəti tərəfindən «Ümid» yatağı kəşf edilmişdir. Beləliklə, bizim təsdiq edilmiş qaz ehtiyatlarımız 2,6 trilyon

kubmetr səviyyəsindədir. Bu, dünya miqyasında çox böyük rəqəmdir. Coğrafi vəziyyətimizi nəzərə alaraq, deyə bilərəm ki, bu nəinki bizim üçün, tərəfdaşlarımız üçün, Avropa üçün yeni imkanlar açır.

Bildiyiniz kimi, Avropanın bəzi ölkələrində atom-elektrik stansiyalarından imtina edirlər. Xüsusilə böyük həcmdə elektrik enerjisini istehlak edən ölkələr artıq bu siyasəti aparırlar. Bu o deməkdir ki, gələcəkdə qaza olan tələbat daha da çox olacaqdır. Onsuz da biz indi dinamikanı, tələbatı bilirik. Bilirik ki, 5 ildən, 10 ildən sonra indiki təchizat kifayət etməyəcəkdir. Nəzərə alsaq ki, indi bəzi böyük Avropa ölkələrində atom stansiyalarının tikintisinə qadağa qoyulur, təbii ki, o enerjini əvəz edə biləcək ancaq qazdır. Beləliklə, biz də işimizi ümumi meyillərə uyğunlaşdırmalıyıq. Nəzərə almalıyıq ki, zəngin qaz ehtiyatlarımız dünya bazarlarına çıxmalıdır və müxtəlif yollarla çıxır. Bizim 4 qaz kəmərimiz var, 4-ü də işlək vəziyyətdədir, 4 istiqamətə də qazı ixrac edirik. Hər istiqamət üzrə qazın həcmini artırmaq üçün imkanlar vardır və biz bu məsələlərlə məşğul olacağıq.

2011-ci ildə sosial infrastrukturun yaradılması ilə bağlı Bakıda və bölgələrdə məktəb tikintisi ilə əlaqədar çox vacib hadisələr baş vermişdir. Ancaq xüsusilə Bakı şəhərində 3 ay ərzində 54 məktəb əsaslı şəkildə təmir edilibdir. Özü də mən onların, demək olar ki, əksəriyyətində olmuşam və özüm baxmışam, müəllimlərdən, məktəb direktorlarından soruşmuşam, özüm yoxlamışam və görmüşəm ki, Bakıda bu aylar ərzində təmir edilən məktəblər ən yüksək səviyyədədir. Elə etməliyik ki, bu səviyyə hər bir yerdə özünü göstərsin. Həm Bakıda, həm bölgələrdə. Gələn il və ondan sonrakı illərdə məktəblərin tikintisi və təmiri ilə bağlı işimizi yekunlaşdırmalıyıq.

Bu il, bildiyiniz kimi, Azərbaycanda «Turizm ili» elan edilmişdir. Bu sahədə inkişaf daha da sürətlə gedir və Azərbaycana gələn turistlərin sayı artır. Bu, gözəl göstəricidir.

Mən hesab edirəm ki, bu gün Azərbaycan və Bakı artıq dünyada sürətli inkişaf edən ölkə və şəhər kimi tanınır. Yüksək səviyyəli infrastrukturun mövcudluğu imkan verir ki, biz daha çox

yüksək səviyyəli turizm imkanlarımızı təqdim edək və edirik. Təsadüfi deyil ki, Bakıda və bölgələrdə bu il və yəqin ki, gələn il daha çox beşulduzlu otellər tikilir və tikiləcəkdir. Bəlkə də beşulduzlu otellərin sayına görə biz bölgədə indi birinci yerdə olacağıq. Təkcə Bakı şəhərində 6 beşulduzlu otel bu il və gələn il istifadəyə veriləcəkdir. Onlardan ikisi istifadəyə verilibdir. Dağ Xizək kurortunda da beşulduzlu otellər tikilir, digər bölgələrdə də. Hesab edirəm ki, dünya turizm xəritəsində biz daha çox yüksək səviyyəli turizm ilə fərqlənə bilərik. Bu o demək deyil ki, aşağı səviyyəli otellər tikilməsin, onlar da tikilməlidir və tikilir.

Həm coğrafi vəziyyətimizi, həm şəhərin gözəlliyini və təbii imkanlarımızı nəzərə alaraq istərdim ki, elitar turizmin mərkəzlərindən biri də Bakı və Azərbaycan olsun. Mən bu məsələ ilə bağlı Mədəniyyət və Turizm Nazirliyinə tövsiyələrimi vermişəm. Əlbəttə , bunu bazar, özəl sektor tənzimləyəcəkdir. Ancaq beşulduzlu 6 otelin Bakıda 1-2 ilə tikilməsi də onu göstərir ki, investorlar və dünya brendləri məhz Bakını elitar turizm mərkəzi kimi görürlər. Bu bizi çox sevindirir. Hesab edirəm ki, biz bu sahədə artıq dünya miqyasında özümüzə layiq yeri tutmağa başlamışıq. Sadəcə, bu il və gələn il Bakıda açılan və açılacaq otellərin adlarını sadalamaq kifayətdir ki, hamı görsün – Bakı, Azərbaycan elitar turizm mərkəzinə çevrilir. Bu il Bakıda «Kempinski» və «Hilton» otelləri açılmışdır. Yaxın aylarda təkcə Bakıda «Marriot», «Four Seasons», «Fairmont» və «Jumeirah» otelləri açılacaqdır. Bir şəhərdə bir il ərzində beşulduzlu 6 otelin açılışı olacaq. Eşitməmişəm ki, kimsə haradasa, bu ətrafda, bu bölgədə belə bir vəziyyətlə üzləşmiş olsun.

Bununla bərabər, bölgələrdə də müasir otellərin tikintisi prosesi gedir. Mən bu vəziyyətlə tanış oluram. Bu il Naftalanda ən yüksək səviyyədə iki gözəl otel tikilmişdir, Qəbələdə otellər tikilir. Bu yaxınlarda Qubada olarkən gördüm ki, orada beşulduzlu otelin tikintisi uğurla gedir. Şamaxıda, Lənkəranda, digər bölgələrdə, yəni hər bir bölgədə. Çünki xoşbəxtliyimiz ondan ibarətdir ki, biz çox gözəl ölkədə yaşayırıq. Təbiəti

zəngin, bütün iqlimlərin olduğu ölkədə yaşayırıq, bütün təbii şəraitimiz vardır.

Tarixi şəhərlərimizin inkişafı ilə bağlı bir neçə sərəncam verilmişdir və veriləcəkdir. Hər bir rayonun inkişafı ilə bağlı bizim konkret təkliflərimiz, planlarımız, proqramlarımız vardır. Hər bir rayona dövlət büdcəsindən abadlıq üçün vəsait ayrılır. Mən bölgələrdə olarkən Prezidentin ehtiyat fondundan hər bir rayona vəsait ayırıram ki, orada abadlıq işləri uğurla aparılsın. Çünki biz əsas infrastruktur layihələrini mərkəzləşdirilmiş qaydada icra edirik. Qazlaşdırma, kanalizasiya xətləri, içməli su, elektrik enerjisi – bütün bu işləri mərkəzi idarələr dövlət büdcəsi hesabına icra edirlər. Yerlərdə isə indi kənd yollarının tikintisi, şəhərlərin, rayonların abadlığı ilə yerli icra orqanları məşğuldurlar. Ona görə vəsait ayrılır. Azərbaycanın tarixi şəhərlərinin yüksək səviyyədə abadlaşdırılması üçün mənim tərəfimdən bu yaxınlarda sərəncamlar verilmişdir. Şəki və Şamaxı şəhərlərinin abadlaşdırılması ilə bağlı hər birinə 5 milyon manat vəsait ayrılmışdır. Bu, ilkin ödəmələrdir, sonra da olacaqdır. Gələcəkdə başqa tarixi şəhərlərin inkişafı ilə əlaqədar vəsait ayrılacaq və xüsusi sərəncamlar imzalanacaqdır. Hər bir rayon, hər bir kənd mənim üçün əzizdir, doğmadır. Ancaq ölkəmizdə elə şəhərlər var ki, onların adları qədim xəritələrdə də göstərilir. Bu şəhərlərə və orada olan tarixi abidələrə xüsusi diqqət göstərilməlidir. Bu proses də gedəcək və gedir. Mən hesab edirəm ki, bu çox ədalətli yanaşmadır və tarixi şəhərlərimizi biz elə bərpa etməliyik ki, qədimliyini də, simasını da saxlasın, müasirləşsin və gəncləşsin.

İnfrastruktur layihələri ilə bağlı mən artıq bildirdim ki, su, kanalizasiya, qazlaşdırma, kənd yolları – bütün bu proseslər gedir. Əminəm ki, növbəti illərdə də dövlət büdcəsində vəsait nəzərdə tutulacaq və əlbəttə, paytaxtımızla, Bakı şəhərinin inkişafı ilə bağlı abadlıq-quruculuq işləri aparılır. Həm infrastruktur – burada Nəqliyyat naziri bildirmişdir – Bakıda həm də nəqliyyatla bağlı nə qədər layihələr icra edilir. Bu doğrudan da inanılmaz bir nailiyyətdir. Hər bir yerdə yollar, qovşaqlar, tunellər, yolötürücülər

tikilir, yollar genişləndirilir. İntellektual İdarəetmə Mərkəzi yaradılır. Mən tikinti zamanı o Mərkəzlə tanış olmuşam, bəlkə də dünya miqyasında birincidir. Çünki mən başqa ölkələrdə olmuşam. Ən qabaqcıl texnologiyalar burada tətbiq olunub. Bəlkə şəhər əhalisi hələ tam bilmir ki, bu Mərkəzin xidməti və fəaliyyəti nədən ibarət olacaqdır?! Ancaq Mərkəz işə düşəndən sonra əminəm ki, hər bir vətəndaş, hər bir Bakı sakini görəcək ki, bu Mərkəzin fəaliyyəti bizim hamımıza rahatlıq və komfort gətirəcəkdir.

Bakının inkişafı ilə bağlı onu demək istəyirəm ki, bu gün paytaxtımıza gələn hər bir qərəzsiz və obyektiv qonaq şəhərimizə heyran qalır. Bakı elə gözəl şəhər olub ki, ona vurulmamaq mümkün deyildir. Bu çox qürurvericidir, çox sevindiricidir. Bakı öz nadirliyini saxlayır.

Bakı kimi ikinci şəhər yoxdur. Burada həm tarix, həm mədəniyyət, həm müasirlik, həm infrastruktur, həm zövq, həm yüksək stil, yəni bütün bu amillər cəmləşib. Ona görə, biz bu gözəl, doğma şəhərimizə çox böyük diqqətlə yanaşmalıyıq. Tarixi keçmişimizi, yaxud da ki, müasir meyilləri əks etdirməyən heç bir addım atılmamalıdır, zövqsüz bir dənə də iş görülməməlidir. Mən vaxtımın müəyyən hissəsini Bakının inkişafına həsr etmişəm və bundan zövq alıram. Ona görə Bakının inkişafı ilə məşğul olan hər bir vəzifəli şəxsdən tələb edirəm ki, biz bu məsələyə maksimum ehtiyatla yanaşmalıyıq.

Müasir infrastruktur yaradılır, yaradılmalıdır. Bu, keyfiyyətli və gözəl olmalıdır. Tarixi binalar bərpa edilir, onlara heç bir dəyişiklik edilməməlidir. Hansısa zövqsüz təşəbbüslər irəli sürülməməlidir. Mən harada ki, belə halları görürəm, dərhal dayandırıram, qoymuram. Amma mənim də imkanım yoxdur ki, hər gün gedib hər yerdə nəzarət edim. Bakı Şəhər İcra Hakimiyyəti bu sahədə yaxşı işləyir. Elə etməliyik ki, Bakı həmişə qədim və həmişə cavan şəhər kimi, qonaqları heyran etsin. Şəhərdə həm infrastruktur, həm abadlıq işləri bundan sonra da davam etdiriləcəkdir. Bakıda reallaşan layihələr o qədər çoxdur ki, onları sadalamaq üçün saatlarla vaxt lazım olardı. Xüsusilə bir layihə – Dövlət Bayrağı Meydanı ilə bağlı istəyirəm

fikrimi bildirim. Bayraq Meydanı keçən il açıldı. Milli bayrağımız ucaldıldı. Artıq bir ildən bir qədər çox vaxt keçir. Bayraq Meydanında indi çox böyük quruculuq işləri aparılır. Bakı sakinləri bəlkə də bunu kənardan müşahidə edə bilirlər. Bunun da səbəbi ondan ibarətdir ki, biz Bayraq Meydanını tam hazır olandan sonra vətəndaşların üzünə açacağıq. Hazırda Bayraq Meydanını Dənizkənarı bulvar ilə birləşdirən yeni bulvar tikilir. Bu da nadir layihədir. Beləliklə, bulvarımızın uzunluğu əgər indi 4 kilometrdisə, Bayraq Meydanı ilə birlikdə və onu birləşdirən sahə açılandan sonra 7 kilometr uzunluğunda bir gəzinti zolağı yaradılacaqdır. Sonra da biz o zolağı, o bulvarı uzadacağıq. Çox böyük planlarımız var ki, onlar şəhəri daha da gözəlləşdirəcəkdir. Milli dövlətçilik simvollarımızı daha da gözəl təqdim etməyə imkan verəcəkdir. Şəhər sakinləri və qonaqlar üçün yeni gözəl şəraitin yaradılmasına gətirib çıxaracaqdır.

Bir sözlə, planlarımız çoxdur. Hər bir sahə üzrə konkret işlər aparılır. Əminəm ki, ilin sonuna qədər bütün vəzifələr icra ediləcək və artıq gələn il bizi gözləyən işlərlə indidən məşğul olmağa başlamalıyıq.

Sağ olun.

## AZƏRBAYCANIN BMT TƏHLÜKƏSİZLİK ŞURASINA ÜZV SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ BƏYANAT

*25 oktyabr 2011-ci il*

Əziz dostlar, hörmətli xanımlar və cənablar!

Bir neçə saat bundan əvvəl ölkəmizin həyatında çox əlamətdar və tarixi hadisə baş vermişdir. BMT Təhlükəsizlik Şurasına seçkilərdə Azərbaycan bu mötəbər təşkilatın üzvü seçilmişdir. Bu böyük qələbə münasibətilə Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu həqiqətən də böyük qələbədir. BMT Təhlükəsizlik Şurası dünyanın ən mötəbər qurumudur və Azərbaycan müstəqil dövlət kimi, artıq bu qurumun üzvüdür.

Bildiyiniz kimi, iki gün ərzində keçirilən seçkilərdə Azərbaycan bütün turlarda, bütün mərhələlərdə üstünlük əldə etmişdir. Birinci turda 3 namizədin arasında 1-ci yeri Azərbaycan tutmuşdur. Ondan sonra keçirilən səsvermələrdə həmişə bizim ölkəmizə çox böyük dəstək verilmişdir. Nəticədə 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləyərək, etimad göstərərək bizi bu mötəbər təşkilata üzv seçdi. Mən fürsətdən istifadə edərək bizə inanan, güvənən, bizə böyük hörmət göstərmiş bütün ölkələrə minnətdarlığımı bildirmək istəyirəm. Demək istəyirəm ki, Azərbaycan bu təşkilatda sadiq olduğu ideallara, sülhə, təhlükəsizliyə, demokratiyaya, ədalətə xidmət edəcəkdir.

Uğurlarımız kifayət qədər çoxdur. Bu il biz müstəqilliyimizin 20 illiyini qeyd edirik. Biz bu böyük yubileyi böyük təntənə ilə və böyük uğurlarla qeyd edirik. Yubiley ərəfəsində keçirilmiş tədbirlər, verilmiş bəyanatlar ölkənin dinamik və uğurlu inkişafını əks etdirir. Ölkəmiz bütün sahələrdə inkişaf edir. Ölkə daxilində proseslər müsbət istiqamətdə gedir. Ölkəmizdə dünyada analoqu olmayan inkişaf yaşanır. Bu inkişaf bütün sahələrdə özünü göstərir. Azərbaycan həm sosial məsələlərin həllində, həm də iqtisadi inkişafda, infrastruktur layihələrinin icrasında uğurla

irəliyə gedir. Ölkə daxilində aparılan islahatlarla bərabər, bizim xarici siyasətimiz də çox çevik və uğurludur. Xarici siyasətimizin əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının maraqlarını təmin edir. Bu siyasət əməkdaşlığı genişləndirmək, artırmaq üçün aparılan siyasətdir.

Bizim dünyadakı dostlarımızın sayı artmaqdadır. Bu gün də demək istəyirəm ki, dünyada dostlarımız kifayət qədər çoxdur. Əgər əvvəlki dövrlərdə belə bəyanatlar konkret nəticələrlə təsdiqlənmirdisə, bu səsvermə verilən bütün bu bəyanatların əyani sübutudur. Dünya miqyasında 155 ölkə Azərbaycana inanır, Azərbaycana hörmət edir, Azərbaycana rəğbətlə yanaşır və Azərbaycanı dəstəkləyir.

Müstəqilliyimiz dövründə – 20 il ərzində belə böyük uğurun əldə edilməsi doğrudan da tarixi nailiyyətdir. Biz 20 il ərzində müstəqil ölkə kimi, özümüzü dünyada təsdiq edə bilmişik. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu səsvermə müstəqilliyimizin 20 illiyinə təsadüf edir. Bu çox rəmzi məna daşıyan bir hadisədir. Bu göstərir ki, 20 il ərzində Azərbaycan müstəqil dövlət, dünyada böyük şöhrətə malik olan ölkə kimi özünü göstərib.

Bu, Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir. Bu böyük qələbə münasibətilə mən öz sevincimi Azərbaycan vətəndaşları ilə bölüşmək istəyirəm. Bir daha Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da ölkəmiz uğurla inkişaf edəcək, bundan sonra da qələbələrimizin sayı çox olacaqdır. Əziz dostlar, bu tarixi hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına cansağlığı və xoşbəxtlik arzulayıram. Sağ olun.

## TÜRKİYƏ RESPUBLİKASINA SƏFƏR

*25 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Türkiyəyə səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

** * **

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Türkiyə Respublikasına səfərə gəlmişdir.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı İzmirin hərbi hava limanında Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## İZMİRDƏ AYPE-T ZAVODUNUN AÇILIŞI, HEYDƏR ƏLİYEV ADINA PEŞƏ TƏHSİLİ LİSEYİNİN VƏ «PETKİM» ŞİRKƏTİNİN «STAR» NEFT EMALI ZAVODUNUN TƏMƏLQOYMA MƏRASİMLƏRİ

*İzmir*

*25 oktyabr 2011-ci il*

*Oktyabrın 25-də Türkiyənin İzmir şəhərində AYPE-T zavodunun açılışı, Heydər Əliyev adına Peşə Təhsili Liseyinin və «Petkim» şirkətinin «Star» neft emalı zavodunun təməlqoyma mərasimləri olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan açılış mərasimlərində iştirak etmişlər.*

*Azərbaycan prezidentinə və Türkiyə hökumətinin başçısına məlumat verildi ki, qardaş ölkənin ilk və yeganə neft-kimya müəssisəsi olan «Petkim–Petrokimya Holdinq»in təməli 1965-ci ildə Yarımca şəhərində qoyulmuşdur. 1984-cü ildə bu qurum İzmir şəhərinin Əliağa qəsəbəsində ikinci kompleksini qurmuşdur. 2008-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Türkiyənin «TURKAS» şirkəti ilə birlikdə «Petkim-Petrokimya Holdinq»ə məxsus neft-kimya zavodunun 51 faizinə yiyələnmişdir. Keçən il «Petkim» ümumi məhsul istehsalı, gəlir, mənfəət və ixrac üzrə rekord göstəricilərə nail olmuşdur. İstehsal olunan məhsulların 50 faizi ixrac edilmişdir. Holdinqin 11 zavodunda 50 növdən çox neft-kimya xammalı hazırlanır.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan AYPE-T zavodunun açılışı, Heydər Əliyev adına Peşə Təhsili Liseyinin və «Petkim» şirkətinin «Star» neft emalı zavodunun təməlqoyma mərasimlərinə gəldilər.*

*Mərasim iştirakçıları əvvəlcə Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin və şəhidlərin xatirəsini yad etdilər.*

*Daha sonra Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Tədbir iştirakçılarına Türkiyənin Petkim yarımadasının gələcəyinə həsr olunmuş film təqdim edildi.*

*Mərasimdə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etdilər.*

## Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın çıxışı

Hörmətli prezident İlham Əliyev, çox dəyərli qardaşım!

Çox dəyərli qonaqlar!

Hörmətli tədbir iştirakçıları, xanımlar və cənablar!

Sizləri sevgi və hörmətlə salamlayıram!

Çox dəyərli qardaşım, Azərbaycan prezidenti hörmətli İlham Əliyevə və onun başçılıq etdiyi nümayəndə heyətinə İzmirə – Türkiyəyə «Xoş gəldiniz!» – deyirəm.

Çıxışımın əvvəlində hörmətli prezident İlham Əliyevin şəxsində bütün azərbaycanlı qardaşlarımıza Van vilayətində baş verən zəlzələ ilə bağlı ilk saatlardan qardaşlıq əllərini uzatdıqları üçün şəxsən özümün, ölkəmin və millətimin adından minnətdarlığımı bildirirəm.

Vanda baş verən zəlzələ ilə bağlı qonşularımız başda olmaqla, bir çox ölkə fəlakət bölgəsinə öz yardımlarını çox sürətlə çatdırdılar. Hamısına minnətdarıq. Buradan hamısına ayrı-ayrılıqda təşəkkürümü bildirirəm. Ancaq bizim Van vilayətinə çox yaxın olan Bakının yardım əli bu soyuq qış günündə daxilimizi bir başqa cür qızdırdı. Azərbaycanın xilasedici dəstələri zəlzələ bölgəsində sürətlə işə başlayaraq üç vətəndaşımızı dağıntılar altından sağ çıxarmışlar. Üç təyyarə ilə Vana yetişən Azərbaycan yardımları zəlzələdən zərər çəkən

vətəndaşlarımıza paylandı. Azərbaycanın Qızıl Aypara Cəmiyyətinin «Siz tək deyilsiniz» devizi ilə türk bacı və qardaşlara kömək məqsədi ilə kampaniyaya başladığını böyük məmnunluqla öyrəndim. Hörmətli dövlət başçımıza, onun şəxsində qardaş Azərbaycan xalqına bir daha çox təşəkkür edirəm.

Allah Azərbaycanı da, Türkiyəni də belə təbii fəlakətlərdən qorusun, qardaşlığımızı, həmrəyliyimizi daimi etsin – deyirəm.

Hörmətli dövlət başçısı, çox dəyərli qardaşlarım!

Bu gün İzmirdə həqiqətən böyük, möhtəşəm bir neft emalı zavodunun təməlqoyma mərasimini gerçəkləşdiririk. «SOCAR–TURKAS» birgə müəssisəsinin Petkim yarımadasında inşa edəcəyi «Star» neft emalı zavodu 5 milyard dollarlıq sərmayəsi ilə Türkiyədə və dünyada bir müəssisəyə qoyulan ən böyük sərmayə xüsusiyyətini daşıyır. İzmir üçün, Türkiyə üçün bir qürur abidəsi olacaq bu müəssisə inşaat mərhələsində 10 min nəfərə, 2015-ci ildə istifadəyə veriləndə min nəfərə daimi iş imkanı yaradacaq, İzmirin görkəmini dəyişdirəcəkdir. Türkiyənin enerjisinə enerji əlavə edəcək bu sərmayə bizim 2023-cü il hədəflərimizi dəstəkləyəcək şəkildə inkişaf olacaqdır.

Yenə bu gün «Star» neft emalı zavodu ilə birgə «Petkim» şirkətinin AYPE-T zavodunu da rəsmi olaraq açırıq. Bu gün, həmçinin burada 720 tələbənin təhsil alacağı, nəzəriyyə və təcrübəni eyni vaxtda öyrənəcəyi Heydər Əliyev adına Peşə Təhsili Liseyinin təməlini də qoyuruq.

Təməlqoyma mərasimi münasibətilə başda «SOCAR–TURKAS» birgə müəssisəsi olmaqla, «Petkim» şirkətinin rəhbərlərinə, azərbaycanlı və türkiyəli rəsmilərə, layihənin hazırlanmasında əməyi olanlara, inşaat müddətində çalışacaq insanlara indidən minnətdarlığımı bildirirəm.

Hörmətli dövlət başçısı İlham Əliyev qardaşıma bu böyük layihələrə verdiyi dəstəyə görə ayrıca təşəkkür edirəm. Bu il Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümüdür. Türkiyə və Azərbaycan bu xoşbəxtliyi eyni coşqu və

həyəcanla birlikdə yaşayır, qeyd edir. 20 il ərzində Azərbaycanın inkişafı, irəliyə doğru addımlaması, daha çox rifah, daha çox güvən qazanması üçün bir qardaş olaraq səmimi mübarizə aparmışıq. Aramızda çox böyük layihələrə, sərmayələrə imza atmışıq. Bakı–Tbilisi–Ceyhan ixrac neft kəməri ilə Azərbaycan neftini Ceyhandan bütün dünyaya ixrac edirik. Bakı–Tbilisi–Ərzurum təbii qaz kəməri ilə Azərbaycan qazını ölkəmizə gətirdik. Dəmir İpək yolu adlandırılan Bakı və Qarsı bir-birinə bağlayacaq dəmir yolunda isə son mərhələlərə gəlmişik.

Bu gün təməlini qoyduğumuz bu neft emalı zavodu ilə iki ölkə arasında başqa bir böyük layihəni, başqa bir ortaq sərmayəni ölkələrimizin xidmətinə təqdim edirik. Günortadan sonra keçiriləcək Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantısı ilə əlaqələrimizi, əməkdaşlığımızı daha da genişləndirəcəyik.

Hörmətli dostlarım, sevgili qardaşlarım! Buradan bunu açıq şəkildə söyləmək istəyirəm, Azərbaycanda, Türkiyədə, regionda sülhdən, əmin-amanlıqdan, sabitlikdən və rifahdan başqa heç bir şey istənilmir. Biz bölgədə düşmənliyin deyil, həmrəyliyin hakim olmasını istəyir və bunun üçün mübarizə aparırıq. Şimali Kipr, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsində, Qafqazda əmin-amanlığın bərqərar olmasında, terrorizmlə mübarizə məsələsində Azərbaycan ilə eyni tərəfə baxırıq, ortaq məqsəd və idealları paylaşırıq. Dağlıq Qarabağın işğalı azərbaycanlı qardaşlarımın ürəyini nə qədər ağrıdırsa, bilməlisiniz ki, Türkiyə Respublikasının hər bir vətəndaşının da ürəyini bir o qədər ağrıdır. Terror hücumları ilə şəhid olan hər bir gəncimizin acısı bizim ürəyimizə od saldığı kimi, inanıram ki, azərbaycanlı qardaşlarımızın ürəyinə də eyni dərəcədə od salır.

Biz «iki dövlət – bir millət» olduğumuz kimi, həm də tək ürəyik. Buna görə də, Dağlıq Qarabağda torpaqlar işğaldan azad edilənə qədər Azərbaycan ilə çiyin-çiyinə mübarizə aparmağa davam edəcəyik. Terrorizmlə mübarizəmizdə dost, qardaş ölkə Azərbaycanın səmimi dəstəyinə görə hər zaman minnətdar

olacağıq. Biz Azərbaycan ilə qurduğumuz bu qardaşlıq əlaqəsini əsasən regiondakı bütün ölkələrlə yaratmaq arzusundayıq. Azərbaycan və Türkiyə qardaşlıq şəraitində gələcəyə necə addım atır, necə inkişaf edirsə, istəyirik ki, regionun digər ölkələri ilə də bu şəkildə həmrəylik içində olaq. Dünya və regionumuzdakı bütün ölkələr anlamalıdır ki, terrorizm bizim mühafizə orqanlarımızı, mülki vətəndaşlarımızı vurduğu kimi, insanlığın ortaq vicdanını da vurur. Regionumuzdakı və dünyadakı hər bir ölkəni terrorizmə qarşı çox sərt etirazını bildirməyə, insanlığın ortaq problemi olan terrorizmlə ortaq mübarizəyə çağırırıq. Terrorizmə şərait yaradan hər bir ölkə göz yumduğu terrorizmin bir gün gəlib özünü də hədəfə alacağını artıq görməli və anlamalıdır.

Burada Azərbaycan və Türkiyə əl-ələ verir, qardaşlıq şəraitində çox böyük ortaq sərmayələr qoyurlar. İnşaat müddətində burada 10 min nəfər işlə təmin olunacaqdır. Neft emalı zavodu işə düşəndən sonra min nəfər buradan evinə çörək aparacaqdır. Aramızdakı bu həmrəyliyi, bu qardaşlığı dünyaya nümunə olaraq göstərməyə davam edəcəyik. Əl-ələ, çiyin-çiyinə, ən mühümü də, qəlb-qəlbə bu regionda sabitliyi və rifahı, inşallah, yaradacağıq.

Bildiyiniz kimi, Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Buradan Azərbaycanı təbrik edirəm, «Xeyirli olsun!» –deyirəm.

Bir müddət əvvəl biz də BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü idik. İndi qardaş Azərbaycan bu vəzifəni 2 il davam etdirəcəkdir. Birlikdə çox uğurlu işlər gördük və nəticə bu oldu. Onları təbrik edirəm, uğurlarının artaraq, davamının olmasını diləyirəm. Mən bu münasibətlə bir daha açılışını etdiyimiz, təməllərini qoyduğumuz bu müəssisələrin, bu sərmayələrin ölkələrimizə, xalqlarımıza xeyirli olmasını diləyirəm.

Başda hörmətli Azərbaycan prezidenti İlham Əliyev olmaqla, bütün azərbaycanlı qardaşlarımıza, «SOCAR–TURKAS» birgə müəssisəsi və «Petkim» şirkətlərinə bir daha minnətdarlığımı bildirirəm. Hamınızı sevgi və dərin hörmətlə salamlayıram.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz qardaşım, hörmətli cənab Baş nazir!

Əziz xanımlar və cənablar, əziz dostlar!

Bu gün Türkiyə–Azərbaycan əlaqələrində çox əlamətdar və tarixi bir gündür. Öncə iki gün əvvəl Türkiyəni sarsıtmış zəlzələ və böyük insan itkisi ilə əlaqədar bir daha bütün türk xalqına Azərbaycan xalqı adından başsağlığı verirəm, ölənlərə Allahdan rəhmət diləyirəm, yaralananlara Allahdan şəfa diləyirəm.

Hər zaman olduğu kimi, bu gün də Azərbaycan Türkiyənin və türk xalqının yanındadır. Biz yaxşı günlərdə də, pis günlərdə də daim bir yerdəyik. Birliyimiz həm bugünkü əlaqələrimizi gücləndirir, həm də tarixi əsaslara söykənir. Əsrlər boyu xalqlarımız bir yerdə olmuşlar. Biz bir dildə danışırıq. Biz bir millətə mənsubuq və bu gün Azərbaycan müstəqilliyinin 20 illiyini qeyd edərkən yenə də yanında Türkiyəni görür. Bəlkə də dünyada ikinci belə ölkələr yoxdur ki, bir-birinə bu qədər bağlı, bu qədər yaxın olsunlar. Xoşbəxtliyimiz ondan ibarətdir ki, biz tarixi ədalətə, keçmişimizə, əcdadlarımızın vəsiyyətlərinə sadiqik.

Bu gün Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir. Beynəlxalq məsələlərdə daim bir-birimizi dəstəkləyirik. Bütün sahələrdə çox uğurlu əməkdaşlıq edirik. Region üçün, dünya üçün böyük əhəmiyyət kəsb edən layihələri birgə icra edirik. Birgə təşəbbüslər irəli sürürük və əslində xarüqələr yaradırıq.

Bugünkü mərasim, təməlqoyma mərasimi əslində birliyimizi göstərir. Onu göstərir ki, biz çox işləri birlikdə görmüşük və görəcəyik. Mən çox şadam ki, Türkiyə və Azərbaycan türkdilli dövlətlərin əməkdaşlığı üçün dəyərli töhfələr verirlər. Bizim birliyimiz və əməkdaşlığımız bütün türk dünyası üçün vacibdir. Tam əminliklə deyə bilərəm ki, Türkiyə və Azərbaycan türkdilli dövlətlərin əməkdaşlığı üçün əvəzolunmaz töhfələr verirlər. Bütün türk dünyasının birləşməsi üçün bizim səylərimiz nəticə verir.

Bugünkü təməlqoyma mərasimi rəmzi xarakter daşıyır. Çünki cəmi 20 illik müstəqillikdən sonra Azərbaycan qardaş ölkəyə böyük həcmdə yatırımları qoymağa başlamışdır. Ancaq dost, qardaş ölkəyə bu qədər yatırımlar qoyula bilər. Mən çox şadam ki, Türkiyə şirkətləri Azərbaycana, Azərbaycan şirkətləri də Türkiyəyə investisiyalar qoyurlar. Bu bizim birgə layihələrimizdir. Petkimdə gələcəkdə yaradılacaq yeni müəssisələr xalqlarımıza xidmət göstərəcəkdir. Cəmi 5 il əvvəl əziz qardaşım, hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğanla bərabər Ceyhanda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsini qeyd etdik. Bu, böyük tarixi bir nailiyyət, böyük, gözəl bir mərasim idi. Aralıq dənizinin sahilində gözəl mərasim idi. Bu gün Bakı–Tbilisi–Ceyhan neft kəməri, demək olar ki, tam gücü ilə işləyir və xalqlarımızı daha da birləşdirir.

Ondan bir il sonra – 2007-ci ilin əvvəlində əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla bərabər Gürcüstanda Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi ilə bağlı sənədlərə qol çəkdik. O layihə də indi uğurla icra edilir və ümid edirəm ki, yaxın zamanlarda yeni bir mərasimdə iştirak edəcəyik.

2007-ci ildə əziz qardaşımın dediyi kimi, Bakı–Ərzurum qaz kəməri istismara verildi. Bu kəmərin istismara verilməsi ilə qardaş ölkədən – Azərbaycandan Türkiyəyə ilk dəfə olaraq təbii qazın nəqlinə nail olduq. Əminəm ki, növbəti illərdə biz bu qazın həcmini də böyük dərəcədə artıracağıq.

2008-ci ildə «SOCAR–TURKAS» ilə bərabər «Petkim»in alınması üçün müraciət etmişdir. Mən çox şadam və əziz qardaşıma minnətdaram ki, müraciətimizə çox müsbət reaksiya verildi, müsbət baxıldı və SOCAR-ın burada gələcək investisiyasının qoyuluşu üçün imkanlar yarandı. Bu gün – 2011-ci ildə biz yeni layihənin başlanğıcındayıq. Bu qısa tarixçə özlüyündə bir göstəricidir. Güclü siyasi iradə, ölkələrin arasında səmimi münasibətlər olduğu halda biz bütün məsələləri həll edə bilərik. Biz doğrudan da dünya çapında çox böyük və önəmli layihələri icra edirik. Bu layihələrin icrası ilk növbədə

dostluğumuza, qardaşlığımıza söykənir. Bizim bütün uğurlarımızın təməlində bu dayanır.

Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, biz bu yaxınlarda müstəqilliyimizin 20 illik yubileyini qeyd edirdik. Azərbaycanda bu bayram geniş şəkildə qeyd edilirdi. Bir daha keçmişə nəzər salaraq qeyd etdik ki, bizi müstəqil dövlət kimi tanıyan ilk ölkə Türkiyə olmuşdur. Bizim dünya birliyi tərəfindən tanınmağımızda əsas rolu qardaş ölkəmiz oynamışdır və Azərbaycan xalqı bunu heç vaxt unutmayacaqdır. Sonrakı dövrdə, Azərbaycanın ən çətin anlarında bizə ilk dəstək verən qardaş Türkiyə olmuşdur. Bu gün – 20 ildən sonra inkişaf edən Azərbaycan öz növbəsində Türkiyəyə öz dəstəyini verməyə hazırdır və lazım olan hallarda dəstək verir. Bu bizim qardaşlıq borcumuzdur. Türkiyə bizim doğma vətənimizdir. Biz özümüzü bir-birimizdən ayırmırıq. İki gün əvvəl baş vermiş faciəvi zəlzələ türk xalqını necə sarsıtmışdırsa, Azərbaycan xalqını da bir o qədər sarsıtdı. Nəinki hökumətimiz, adi vətəndaşlar, insanlar – onların hər biri çalışırdı nə isə kömək etsin, kömək əlini uzatsın. Biz bilirik ki, Türkiyə böyük dövlətdir və öz ərazisində istənilən məsələni həll edə bilər.

Bizim tərəfimizdən bu dostluq əlini uzatmaq sadəcə, ürəyimizdən gələn bir duyğu idi. Biz istəyirik ki, bu ağır gündə Türkiyənin yanında olaq, necə ki, bütün xoş günlərdə də biz bir-birimizin yanındayıq.

Bu gün dünya xəritəsində Türkiyə kimi böyük bir güc vardır. Bu bizi çox sevindirir. Bu bizim də gücümüzü artırır. Mən çox sevinirəm ki, əziz dostum Baş nazir Rəcəb Tayyib Ərdoğanın fəaliyyəti nəticəsində qısa müddətdə – 10 il ərzində Türkiyə böyük, uğurlu və şərəfli yol keçmişdir. Türkiyə nəinki bölgədə, dünya miqyasında güc mərkəzinə çevrilmişdir. O mərkəz ki, öz siyasətini, öz təşəbbüslərini əməkdaşlıq, dostluq əsasında irəli sürür. Beləliklə, həm bölgədə, həm dünyada Türkiyə ilə dost olmaq istəyən ölkələrin sayı artır. Həm iqtisadi sahədə, həm siyasi müstəvidə Türkiyənin son 10 ildəki uğurları tarixi xarakter daşıyır. Türk vətəndaşlar bunu yaxşı bilirlər. Biz də

daim Türkiyəni yaxından izləyən insanlar kimi, bunu bilirik, sevinirik və haqlı olaraq qürur hissi keçiririk.

Biz də son illər ərzində Azərbaycanda böyük inkişafa nail ola bildik. Sürətli inkişaf Azərbaycana xas olan bir məsələdir. Bizim Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına üzv seçilməyimiz də Azərbaycanın dünyadakı nüfuzunun artmasından qaynaqlanır. Mən fürsətdən istifadə edərək bu seçkilərdə yanımızda olan və bizə böyük dəstək verən Türkiyəyə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Tayyib bəy dediyi kimi, bu yaxınlarda Türkiyə Təhlükəsizlik Şurasında təmsil olunurdu, indi Azərbaycan təmsil olunur. Ancaq siz də, biz də bilirik ki, bu yer bizim müştərək yerimizdir.

Əziz dostlar, mən bir daha bugünkü gözəl mərasim münasibətilə sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm. Hörmətli Baş nazir, əziz qardaşım Rəcəb Tayyib Ərdoğana məni bu mərasimdə iştirak etmək üçün Türkiyəyə dəvət etdiyinə görə minnətdarlığımı bildirirəm. Bu gün qeyd edildiyi kimi, birinci Türkiyə–Azərbaycan Əməkdaşlıq Şurasının iclası da keçiriləcəkdir. Əminəm ki, iclasın, Şuranın çox gözəl nəticələri olacaqdır. Bu nəticələr dövlətlərimizi və xalqlarımızı daha da sıx birləşdirəcəkdir.

Bütün dostlarımıza Azərbaycandan səmimi salamlarımı çatdırıram. Türk xalqına xoşbəxtlik və cansağlığı arzulayıram.

* * *

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan AYPE-T zavodunun videogörüntü vasitəsilə açılışı mərasiminə qoşuldular.*

*Ədalət və İnkişaf Partiyasının parlamentdə İzmirdən olan deputatı Əli Aşlık videobağlantı vasitəsilə məlumat verdi ki, burada istehsal olunan aşağı sıxlıqlı polietilen məhsulu plastiklər sənayesinin dünyada geniş istifadə olunan ən əhəmiyyətli xammallarından biridir. İllik məhsuldarlığı 160 min ton olan zavodda müxtəlif sektorların ehtiyacını ödəməyə yönəlmiş 11 çeşiddə məhsul istehsal olunacaqdır.*

**İ l h a m Ə l i y e v:** Yeni zavodun açılışı münasibətilə sizi ürəkdən təbrik edirik. Arzu edirik ki, zavodun fəaliyyəti uğurlu olsun və siz bütün arzularınıza çatasınız.

Hər bir yeni zavodun açılması yeni iş yerlərinin açılması, yeni istehsalın yaradılması deməkdir. Bu gözəl hadisə münasibətilə biz sizi ürəkdən təbrik edirik.

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Başda dəyərli qardaşım İlham Əliyev olmaqla, Azərbaycan xalqını biz də bu açılış mərasimi münasibətilə təbrik edirik, «Xeyirli olsun!» – deyirik.

* * *

*Daha sonra prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan videobağlantı vasitəsilə Heydər Əliyev adına Texniki və Sənaye Peşə Liseyinin təməlqoyma mərasiminə də qoşuldular.*

*İzmirli deputat Aydın Şəngül məlumat verdi ki, Xəzər və Egey dənizləri arasında təhsil körpüsü funksiyasını daşıyacaq bu bilik ocağı Ceyhan və Qarsdan sonra «bir millət – iki dövlət» idealının Egey bölgəsinin təhsil sahəsində də rəmzi olacaqdır. Liseyin inşası ilə bağlı protokol ARDNŞ ilə İzmir valiliyi arasında imzalanmışdır*

**İ l h a m Ə l i y e v:** Mən Sizi ürəkdən təbrik edirəm. Çox şadam ki, SOCAR təkcə infrastruktur və iqtisadi layihələrə deyil, eyni zamanda, təhsillə bağlı olan layihələrə yatırım qoyur. Bu çox gözəl göstəricidir. Biz Azərbaycanda fəxr edirik ki, bu liseyin adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bütün türk xalqına ulu öndərin xatirəsinə göstərdiyi hörmətə görə minnətdarıq. Mən əziz qardaşım Tayyib bəylə bərabər Bakıda böyük öndər Mustafa Kamal Atatürkün abidəsi önündə səslənən fikirlərə bir daha qayıtmaq istəyirəm. O vaxt biz birlikdə demişik ki, iki dahi şəxsiyyət bizə yol göstərdi. Böyük Atatürk demişdir ki, Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir. Heydər Əliyev demişdir ki, Türkiyə–Azərbaycan «bir millət – iki dövlət»dir. Bu iki dahi kəlam həm Türkiyə,

həm Azərbaycan xalqlarına yol göstərir. Biz bu yolda daim və əbədi, bərabər irəliyə gedəcəyik. Bir daha təbrik edirəm.

**Rəcəb Tayyib Ərdoğan:** Həqiqətən iki liderin, iki böyük öndərin keçmiş olduqları yolda Türkiyə və Azərbaycan bu günlərə gəlmişdir. Azərbaycanın qurtuluş mübarizəsinin lideri Heydər Əliyevin adına inşa olunan Peşə Təhsili Liseyi həqiqətən nəzəriyyə və təcrübəni bir yerdə cəmləşdirən məktəb olacaqdır. Azərbaycandan gələn uşaqlarımızın da burada təhsil almaları bu işə fərqli bir məna qatacaqdır. Bütün əməyi keçənləri təbrik edirik. Xeyirli olsun deyirik.

*Sonra liseyin təməli qoyuldu.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan «Petkim» şirkətinin «Star» neft emalı zavodunun təməlqoyma mərasiminə gəldilər.*

*«SOCAR–TURKAS» qrupunun İzmirdə – Petkim yarımadasında reallaşdırdığı bu layihə ildə 10 milyon ton xam neft emal etməyə imkan verəcəkdir. Ekoloji cəhətdən ən qabaqcıl texnologiyalar əsasında qurulacaq zavod ölkənin neft-kimya sektorunu xarici asılılıqdan qurtaracaqdır. Təqribən 5 milyard dollara başa gələcək neft emalı zavodunun istehsala başlaması ilə bu ölkənin idxalatla təmin etdiyi məhsullarda milyardlarla dollarlıq valyutaya qənaət ediləcəkdir.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan gələcəklə bağlı ürək sözlərini yazdıqları məktubları imzaladılar. Məktublar gilizə qoyulub təmələ buraxıldı və beton qarışığı tökən qurğu işə salındı.*

## TÜRKİYƏ–AZƏRBAYCAN YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ BİRİNCİ İCLASI

*İzmir*

*25 oktyabr 2011-ci il*

*Oktyabrın 25-də İzmirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının birinci iclası olmuşdur.*

*İclasda Azərbaycan–Türkiyə ikitərəfli münasibətlərinin müxtəlif sahələrinin inkişafı ilə bağlı məsələlər müzakirə edilmişdir.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*İzmir*

*25 oktyabr 2011-ci il*

*Oktyabrın 25-də Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının birinci iclasından sonra prezident İlham Əliyevin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan–Türkiyə sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının birinci iclasının Protokolu»nu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında meteorologiya sahəsinə dair Anlaşma Memorandumu»nu Azərbaycan tərəfindən səfir Faiq Bağırov, Türkiyə tərəfindən Meteorologiya Baş İdarəsi baş direktorunun müavini Əli Karataş imzaladılar.*

*«Azərbaycan Dövlət Teleqraf Agentliyi və Türkiyənin Anadolu Agentliyi arasında Əməkdaşlıq Sazişi»ni Azərbaycan tərəfindən səfir Faiq Bağırov, Türkiyə tərəfindən Anadolu Agentliyinin baş direktoru Kamal Öztürk imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında meşə təsərrüfatı sahəsinə dair Anlaşma Memorandumu»nu Azərbaycan tərəfindən səfir Faiq Bağırov, Türkiyə tərəfindən Meşəçilik idarəsinin baş direktoru Mustafa Kurtulmuşlu imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında mətbuat və informasiya sahələrində əməkdaşlıq Protokolu»nu Azərbaycan tərəfindən səfir Faiq Ba-*

*ğırov, Türkiyə tərəfindən Mətbuat-Yayım və İnformasiya Baş İdarəsinin baş direktoru Murat Karakaya imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında polis təhsili sahəsində əməkdaşlıq haqqında Protokol»u Azərbaycan tərəfindən səfir Faiq Bağırov, Türkiyə tərəfindən Polis Akademiyasının rəisi Zühtü Arslan imzaladılar.*

*«Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə»nin ratifikasiya fərmanlarının mübadiləsi haqqında Protokol»u Azərbaycan tərəfindən Xarici İşlər nazirinin müavini Xələf Xələfov və Türkiyə tərəfindən Xarici İşlər nazirinin müavini Feridun Sinirlioğlu imzaladılar.*

*«Azərbaycan Diplomatik Akademiyası və Türkiyə Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan tərəfindən Xarici İşlər nazirinin müavini Xələf Xələfov və Türkiyə tərəfindən Xarici İşlər nazirinin müavini Feridun Sinirlioğlu imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında enerji sahəsində Əməkdaşlıq Protokolu»nu Azərbaycan tərəfindən Sənaye və Energetika naziri Natiq Əliyev, Türkiyə tərəfindən Enerji və Təbii Ehtiyatlar naziri Taner Yıldız imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında qaz alqı-satqısına dair Anlaşma Sazişi»ni Azərbaycan tərəfindən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, Türkiyə tərəfindən «BOTAŞ» şirkətinin icraçı direktoru Fazıl Şenel imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında qaz tranzitinə dair Anlaşma Sazişi»ni Azərbaycan tərəfindən «bp–Azərbaycan» şirkətinin prezidenti Rəşid Cavanşir, Türkiyə tərəfindən «BOTAŞ» şirkətinin icraçı direktoru Fazıl Şenel imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Çərçivə Anlaşması Sazişi»ni Azərbaycan tərəfindən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayev, «bp–Azərbaycan» şirkətinin prezidenti Rəşid Cavanşir, Türkiyə tərəfindən «BOTAŞ» şirkətinin icraçı direktoru Fazıl Şenel imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş»i Azərbaycan tərəfindən İqtisadi İnkişaf naziri Şahin Mustafayev, Türkiyə tərəfindən İqtisadiyyat naziri Zəfər Çağlayan imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında ailə və sosial siyasət sahəsində Əməkdaşlıq Protokolu»nu Azərbaycan tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Türkiyə tərəfindən Ailə və Sosial Siyasət naziri Fatma Şahin imzaladılar.*

## TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*İzmir*

*25 oktyabr 2011-ci il*

*Oktyabrın 25-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı olmuşdur.*

*Baş nazir Rəcəb Tayyib Ərdoğan və prezident İlham Əliyev bəyanatlarla çıxış etdilər.*

### Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Hörmətli prezident İlham Əliyev!

Dəyərli mətbuat nümayəndələri!

Xanımlar və cənablar!

Sizləri ən dərin hisslərimlə salamlayıram.

Çıxışımın əvvəlində Van vilayətində baş vermiş zəlzələ ilə bağlı 145 nəfərlik xilasetmə dəstəsi ilə burada yardım edən həm heyətin bütün üzvlərinə, həm də bununla bağlı göstəriş verən dəyərli qardaşım İlham Əliyevə öz adımdan və millətim adından ürəkdən təşəkkür edirəm. Hamımızın kədərinə səbəb olduğu, dərdlərimizin artdığı belə bir həssas vaxtda Azərbaycan tərəfinin uzatdığı dostluq əli, göstərilən qardaşlıq yardımı əziz millətimiz tərəfindən hər zaman minnətdarlıqla xatırlanacaqdır. Xüsusilə son bir həftədə millətimizi dərindən ağrıdan hadisələr yaşadıq. Bilirik ki, Azərbaycan xalqı türk xalqının yaşadığı bu

kədəri paylaşır, bizlər kimi, onlar da bu dərdləri ürəklərində hiss edirlər.

Dəyərli dostlar, bu gün hörmətli prezident, qardaşım İlham Əliyev ilə görüşümüzdə Türkiyə–Azərbaycan əlaqələrini, regional məsələləri müzakirə etdik. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olması bizdə dərin iftixar hissi doğurmuşdur. Biz bunları da aramızda müzakirə etdik.

Bu gün Əliağa qəsəbəsində mühüm tədbirlərin birlikdə şahidi olduq – həm açılış mərasimi, həm də təməlqoyma mərasimi. Türkiyənin 2015-ci ilə qədər ən yüksək texnologiyalar əsasında qurulacaq bu mühüm kompleksinin inşaatında 10 min nəfər işlə təmin olunacaqdır. Sonra burada 1000 nəfər daimi işlə təmin olunacaqdır. 5 milyard dollarlıq layihədir. İnanıram ki, belə bir investisiyanın İzmirə, Türkiyəyə qoyulması həm Türkiyə, həm də Azərbaycan iqtisadiyyatına – hər iki tərəfə çox böyük fayda verəcəkdir.

Sonra nazirliklərimizin gördükləri işlərlə bağlı hökumət üzvlərinin iştirakı ilə toplantı keçirdik.

Prezident İlham Əliyev, mən və nazirlərimiz gördüyümüz və görəcəyimiz işləri müzakirə etdik. Gələcəyə istiqamətlənmiş bütün vacib addımlarımız nazirlərimiz tərəfindən bir az əvvəl imzalanmış müqavilələrdə də öz əksini tapmışdır. Bu müqavilələrin, bu sənədlərin hər iki ölkə üçün xeyirli olmasını xüsusilə arzu edirəm. Təbii ki, bunlardan başqa, Türkiyə ilə Azərbaycan arasında Bakı–Tbilisi–Ceyhan çox vacib bir bağlantı idi. Bunun ardınca «Şahdəniz» layihəsi çox vacib bir addımdır. Dəmir İpək yolu adlandırdığımız Tarixi İpək yolu ilə bağlı sərmayənin qoyulması və bütün bunlarla bərabər, Naxçıvanla Qarsı, İğdırı birləşdirən avtomobil yolları aramızdakı könül bağlantılarından başqa, eyni zamanda, fiziki olaraq bu imkanları da yaradır. Hava yolu ilə daşımada çox fərqli bir mərhələyə qədəm qoyuruq. Müxtəlif vilayətlərimizin Azərbaycan ilə hava nəqliyyatını inkişaf etdiririk. Bunlar da

aramızdakı qardaşlıq əlaqələrinin inkişafı baxımından çox vacibdir.

Azərbaycan 1991-ci ildə müstəqilliyini yenidən bərpa etdi. Müstəqilliyinin bərpasının 20-ci ildönümünü qeyd etdiyimiz Azərbaycanın bu bayramını ilk təbrik edən bir ölkə olaraq Türkiyə bundan böyük məmnunluq keçirir.

Arzum budur ki, daha bir neçə 20 illəri daha təntənəli şəkildə qeyd etməyi Rəbbim bizlərə nəsib etsin. Azərbaycan xalqının bu müstəqilliyinin əbədi olmasını arzu edirik. Həqiqətən də dəyişən, yeniləşən Azərbaycan vardır. Hər səfərimizdə daha fərqli, dəyişilmiş bir Azərbaycanı görürəm. Bu da təbiidir. Azərbaycan hazırda modern ölkələr arasında sürətli inkişafın, bu 20 il ərzində qazanılmış böyük uğurların bariz nümunəsidir. Bu həm azərbaycanlı qardaşlarımıza, həm də bizlərə ayrı bir qürur verir. Bu, başda mərhum Heydər Əliyev olmaqla, prezident İlham Əliyevin və Azərbaycan hökumətinin uğurlu siyasətinin sübutudur. Qardaşım İlham Əliyevi bu xüsusda ayrıca təbrik edirik.

Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ilk toplantısını bu gün başa çatdırdıq. Bundan sonra bu toplantı Azərbaycanda keçiriləcəkdir. Amma bütün bunlarla bərabər, həsrətlə gözlədiyimiz məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunmasıdır. Bu münaqişənin həll olunması inanıram ki, bölgədə daha fərqli inkişafa imkan yaradacaqdır. Bu sadəcə, Azərbaycanın deyil, Türkiyə və bütün türk dünyasının ortaq sıxıntısı, ağrısıdır.

Mən hörmətli dövlət başçısına, bütün nümayəndə heyətinə, bugünkü görüşümüzdə əməyi olan dostlarımıza xüsusi təşəkkür edirəm. İkinci toplantını və vətəndaş cəmiyyəti forumunu gələn il, inşallah, Azərbaycanda keçirəcəyik. Azərbaycandakı toplantının gündəliyi inanıram ki, daha zəngin olacaq, fərqli bir təcrübəyə əsaslanacaqdır. Bu inamla Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantısının xeyirli olmasını arzu edirəm və sözü hörmətli prezident İlham Əliyevə verirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Sağ olun, əziz qardaşım!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə iki gün əvvəl Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində insan itkisi ilə əlaqədar Azərbaycan xalqı adından bütün türk xalqına başsağlığı vermək istəyirəm. Biz sizin dərdinizə şərikik. Hər zaman olduğu kimi, bu ağır gündə də Azərbaycan Türkiyənin yanındadır. Zəlzələ nəticəsində həyatını itirmiş insanlara Allahdan rəhmət diləyirik, yaralananlara şəfa diləyirik. Rəhmətə gedənlərin, yaralananların yaxınlarına səbir diləyirik.

Bu gün Türkiyə–Azərbaycan əlaqələrinin tarixində unudulmaz bir gündür. Bu gün biz Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının birinci toplantısını keçirdik. Bu toplantını Türkiyənin gözəl guşələrindən biri olan İzmir şəhərində keçirdik. Çox şadam ki, İzmirə də səfər etmək imkanım olmuşdur. Əvvəlki dövrdə Türkiyənin müxtəlif bölgələrində, müxtəlif şəhərlərində olmuşam, bu gün isə İzmirdəyəm. Mən deyə bilərəm ki, Türkiyənin hər bir yerində özümü doğma vətənimdəki kimi hiss edirəm. Əminəm ki, türk qardaşlarımız da Azərbaycana səfər etdikdə özlərini evdəki kimi hiss edirlər.

Hörmətli qardaşım Baş nazir qeyd etdi ki, bu gün doğrudan da Türkiyə–Azərbaycan əlaqələrində çox vacib bir gündür. Birgə yaşadığımız bu günlər Azərbaycanın müstəqilliyinin 20-ci ildönümünə təsadüf edir. Bu 20 illik müstəqillik 20 illik Türkiyə–Azərbaycan qardaşlığı illəri olmuşdur. Bizi ilk müstəqil dövlət kimi tanıyan Türkiyə olmuşdur. İlk dövrdə bizim ən ağır, ən çətin illərimizdə Türkiyə yanımızda olmuşdur, bu gün də belədir. Bu dostluq, qardaşlıq bundan sonra da əbədi yaşayacaqdır. Xalqlarımızı birləşdirən ortaq tarix, ortaq mədəniyyətdir. Bunlar çox güclü əsaslardır. Ölkələrimizi birləşdirən insanların bir-birinə olan məhəbbətidir, qəlbindəki sevgidir. Bizi birləşdirən strateji müttəfiqliyimizdir.

20 il ərzində Türkiyə və Azərbaycan dünya miqyasında nadir müttəfiqlik münasibətlərini qura bilmişlər. Biz bütün sahələrdə dost, qardaş kimi bərabər hərəkət edirik. Bu gün bu müttəfiqliyi artıq yeni formatda formalaşdırdıq. Strateji Əməkdaşlıq Şurasının iclası və iclasın nəticələri onu göstərir ki, bundan sonra da onilliklər ərzində Türkiyə və Azərbaycan daim bir yerdə olacaqlar.

Bu gün imzalanmış sənədlər və əldə edilmiş razılaşmalar bundan sonrakı dövr üçün bir tövsiyədir. Bu sənədlərin icrası nəticəsində ölkələrimiz daha da sıx birləşəcək, siyasi, iqtisadi və bütün başqa sahələrdə əməkdaşlıq daha da dərinləşəcəkdir. Biz siyasi sahədə bütün məsələləri bərabər müzakirə edirik və beynəlxalq məsələlərlə bağlı mövqemiz daim üst-üstə düşür. Türkiyənin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli və qardaşlıq mövqeyinə görə bir daha bütün türk xalqına, başda əziz qardaşım Baş nazir Rəcəb Tayyib Ərdoğan olmaqla, minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycan xalqı bu qardaşlıq münasibətini yüksək qiymətləndirir və haqlı işimizdə Türkiyənin dəstəyi bizim üçün çox önəmlidir. Azərbaycan da bütün məsələlərdə daim Türkiyənin yanında olmuşdur. Terrora, terroristlərə qarşı haqlı mübarizədə Azərbaycan hər zaman Türkiyənin yanındadır, Türkiyənin bütün hərəkətlərini dəstəkləyir və müdafiə edir. Bu belə də olmalıdır, çünki biz qardaşıq. Eyni zamanda, biz haqq-ədalətin tərəfindəyik. Biz istəyirik ki, bütün bölgədə sülh, əmin-amanlıq, təhlükəsizlik olsun, insanlar mehribanlıq şəraitində yaşasınlar. Bizim niyyətimiz bundan ibarətdir və addımlarımız bu siyasəti gücləndirir.

Bu gün Azərbaycanın tarixində ən böyük sərmayə qoyuluşu layihəsi «Petkim» layihəsidir. 20 il ərzində bu günə qədər bu dərəcədə önəmli və böyük maliyyə mənbəyi tələb edən layihə Azərbaycan tərəfindən həyata keçirilməmişdir. Türkiyədə həyata keçirilən bu layihə Azərbaycanı, Türkiyəni gücləndirəcək, bölgədəki, dünyadakı mövqelərimizi gücləndirəcəkdir.

Qeyd etməliyəm ki, Türkiyənin son illər əldə etdiyi uğurlar bizi çox sevindirir. Türkiyə bu gün dünya çapında güc mərkəzidir, güclü dövlətdir, çox güclü iqtidarı vardır. Qardaşım Tayyib Ərdoğanın rəhbərliyi altında 10 il ərzində Türkiyə böyük, uğurlu bir yol keçmişdir. Bu gün dünyada yaşanan böhranlara baxmayaraq, Türkiyə iqtisadiyyatı uğurla inkişaf edir. Burada gördüyüm nailiyyətlər məni çox sevindirir. Aramızda əlaqələr çoxşaxəlidir. Bu gün bu əlaqələrin bir hissəsi müzakirə edildi. Şuranın iclasında enerji, nəqliyyat, iqtisadiyyat və humanitar məsələlər müzakirə edildi. Bu birinci iclasdır və bundan sonra belə toplantılar mütəmadi qaydada keçiriləcək – ildə ən azı bir dəfə. Növbəti toplantı Azərbaycanda keçiriləcəkdir. Biz çalışmalıyıq ki, növbəti toplantılarda daha da geniş əməkdaşlıq formatını təşkil edək. Bizim nümayəndə heyətlərinin üzvləri də, hörmətli nazirlər də bir-biriləri ilə səmərəli əlaqələr qura bilmişlər. Bu bizə imkan verəcək ki, bu gün əldə edilmiş razılaşmalar uğurla icra edilsin.

Enerji məsələlərinə gəldikdə, bu gün enerji və qaz sahəsində imzalanmış sənədlər bizim üçün yeni imkanlar, yeni üfüqlər açır, uzunmüddətli uğurlu əməkdaşlığımız üçün şərait yaradır. Əminəm ki, bu əməkdaşlıqdan həm xalqlarımız, həm də bizim üçün dost olan ölkələr faydalanacaqlar.

Bir daha mənə və mənimlə bərabər Türkiyəyə gəlmiş nümayəndə heyətinin üzvlərinə göstərilmiş qonaqpərvərliyə və məhəbbətə görə əziz qardaşım Baş nazirə minnətdarlığımı bildirmək istəyirəm. Biz Azərbaycanda Türkiyə–Azərbaycan əlaqələrinin inkişafına müstəsna əhəmiyyət veririk. Bu əlaqələr güclənir, güclənməlidir. Qarşımızda böyük yol vardır. Biz artıq 20 il ərzində əsl müttəfiqlər kimi işləmişik. Bundan sonra da onilliklər ərzində Türkiyə–Azərbaycan iki qardaş xalq, iki qardaş ölkə kimi, ancaq və ancaq irəliyə gedəcəkdir. Sağ olun.

* * *

*Sonra jurnalistlərin sualları cavablandırıldı.*

**E l v i n  M ö v s ü m o v** (*Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc)*: **Sualım hörmətli Baş nazirədir. Azərbaycan ilə Türkiyə arasında qeyri-energetika sahəsində əməkdaşlığın, qarşılıqlı investisiyaların konkret gələcəyi ilə bağlı nə söyləyə bilərsiniz?**

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n**: Çox təşəkkür edirəm. Təbii ki, enerjidən başqa, bizim hazırda istər hərbi sahədə, istərsə də ticarət sahəsində, xüsusilə turizm sahəsində bir çox münasibətimiz vardır. Bu, 2008-ci ilin sonunda təxminən 2,5 milyard dollar həcmində idi. Bu təbii ki, bütöv bir ilin göstəricisidir. Bu ilin 10 ayı ərzində isə həmin rəqəm 2,4 milyard dollara çatıb. Bir arada qlobal iqtisadi böhran səbəbindən dövriyyənin aşağı düşməsi bizə bir az təsir göstərmişdi. Amma yenidən dirçəldi və hazırda görünən odur ki, bu ilin sonunda 2008-ci ilin nəticəsini keçəcəkdir.

Təbii ki, hədəfimiz bundan daha çox irəli getməkdir. Hələ enerji sahəsində, müdafiə sənayesi istiqamətində atacağımız addımları nəzərə alsaq, mən bu rəqəmin də iki ölkələrimizin hazırkı potensialını əks etdirmədiyinə inanıram. Bu potensialdan daha çox üstün olduğumuza inanıram. Düşünürəm ki, bunu 2012-ci ildə həyata keçirəcəyik. Əl-ələ verməklə bunu daha fərqli bir zəminə gətirəcəyik. Bu gün atdığımız addımlar sərmayələr ilə birlikdə çox ciddi bir sıçrayış gətirəcəkdir.

**N ə c ə f  H ə s ə n o v** (*Xəzər televiziyası*): **Əvvəlcə soruşmaq istərdim ki, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında müzakirə edilən məsələlər və ya qəbul edilən qərarlar Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nə kimi töhfələr verəcək? Digər sualım isə həm Azərbaycanı, həm Türkiyəni yaxından maraqlandıran bir məsələ – Nabukko layihəsi ilə bağlıdır. Avropa İttifaqı layihəni həyata keçirmək istəyir, amma bəzi ölkələr «öncə Xəzər dənizinin statusu olsun, sonra Nabukko layihəsinə baxılsın» deyir. Bu məsələyə sizin münasibətinizi bilmək istərdim. Təşəkkür edirəm.**

**İ l h a m  Ə l i y e v:** Bu gün gündəlikdə dayanan məsələlər kifayət qədər çoxdur. Əfsuslar olsun ki, vaxt imkan vermədi bütün məsələlər müzakirə edilsin. Əgər müzakirə edilmiş məsələləri sadalasam görərsiniz ki, kifayət qədər geniş gündəliyimiz vardır. Bu gün biz siyasi əlaqələrimizi müzakirə etdik, beynəlxalq məsələlərə münasibətimizi bildirdik və bir daha vurğuladıq ki, Türkiyə ilə Azərbaycan beynəlxalq məsələlərdə də vahid mövqedən çıxış etməlidir və edirlər. Hərbi sənaye kompleksinin inkişafı üçün birgə təşəbbüslərin irəli sürülməsi nəticəsində yeni bir vəziyyət yaranmaqdadır. Bu sahədə əməkdaşlığımız həm ticarət dövriyyəsinin artmasına, həm də Azərbaycanın ehtiyaclarının ödənilməsinə xidmət göstərəcəkdir.

Nazirlər bizə iqtisadi vəziyyətin son durumu ilə bağlı məlumatlar verdilər. Hətta qeyd etdilər ki, hansı şirkətlər hansı işləri görür. Çox şadıq ki, Türkiyə şirkətləri Azərbaycana həm yatırımlar edirlər, həm müxtəlif layihələrdə iştirak edirlər.

Enerji məsələləri, «Cənub Qaz Dəhlizi» də müzakirə mövzusu idi. Humanitar məsələlərə də diqqətimizi əsirgəmədik. Bu gün iki qadın nazirimiz bu məsələ ilə bağlı çox maraqlı məlumatlar verdilər. Şuranın gedişatı da, nəticələri də çox müsbət olmuşdur. Nəqliyyat məsələləri də diqqətdən yayınmadı. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi və hava nəqliyyatı, avtomobil nəqliyyatı ilə bağlı olan məsələlər də qeyd edildi.

Bu müzakirələrin Dağlıq Qarabağ məsələsinin həllinə birbaşa təsiri olmasa da, Türkiyə ilə Azərbaycanı daha da sıx birləşdirdi. Biz güclərimizi daha da sıx birləşdiririk. Gücümüz nə qədər artsa, qarşımızda duran məsələlər də bir o qədər asanlıqla həllini tapacaqdır.

O ki qaldı Nabukko və digər layihələrə, deyə bilərəm ki, Azərbaycan «Cənub Qaz Dəhlizi»nin reallaşmasına öz töhfəsini verməkdədir. Təşəbbüslərimiz, tikilmiş qaz kəmərləri, aşkar edilmiş yeni qaz mənbələri, Türkiyə ilə artıq gözəl əməkdaşlıq tariximiz və Avropa İttifaqı ilə imzalanmış sənədlər

Azərbaycanı çox etibarlı və potensial ixracatçı kimi dünyaya təqdim edir. Ümid edirəm ki, bu gün bu məsələ ilə bağlı imzalanmış sənədlər həyata keçiriləndən sonra Azərbaycan qazı həm Türkiyəyə, həm Türkiyə ərazisindən Avropaya daha da böyük həcmdə nəql ediləcəkdir.

**Deniz Kilisoğlu** *(CNN Türk televiziyası)*: **Hörmətli Baş nazir, zənnimcə, imzalanan sazişlər arasında Türkiyənin uzun müddətdir gözlədiyi bir saziş vardır – «Şahdəniz–2». Sazişin detalları ilə bağlı ətraflı məlumat verə bilərsinizmi? Nə qədər qaz alınması nəzərdə tutulur? Nə qədəri Avropaya transfer ediləcəkdir və Türkiyənin yenidən satış haqqı olacaqmı?**

**Rəcəb Tayyib Ərdoğan**: Təbii ki, «Şahdəniz» sazişi ilə əlaqədar olaraq, enerji nazirlərimiz öz aralarında bu müzakirələri davam etdirirlər. Həmçinin buradakı xəttin inşası ilə bağlı intensiv iş gedir. Xəttin inşası ilə bağlı layihə işlərini bir il müddətində başa çatdırmaq nəzərdə tutulur. Ondan sonra digər məsələlərlə bağlı addımlar atılacaqdır. Avropaya nə qədər qaz ixrac edilib edilməyəcəyi, tələb-təklif məsələləri Azərbaycan ilə keçiriləcək görüşlərdə müzakirə ediləcək və qərar veriləcəkdir.Bu məsələlər bizim gündəliyimizdə yer almadı. Bu məsələlər enerji nazirlərimiz arasında, həmçinin SOCAR ilə BOTAŞ arasında aparılacaq müzakirələrdən sonra bəlli olacaqdır.

**Arda Yavuz** *(«Star» qəzeti):* **Mən Azərbaycan ilə bağlı bir şey soruşmaq istəmirəm, amma hörmətli Prezidentimiz də bildirdi, Türkiyənin məlum bir terror problemi vardır və hər zaman dəstək olduqlarını ifadə etdi. Bu gün – təxminən bir saat yarım-iki saat əvvəl xəbər agentliklərinin saytlarında bir informasiya verilmişdir. BBC-nin İraq müxbiri təxminən 1300–1400 PKK terrorçusunun Türk Silahlı Qüvvələri tərəfindən zərərsizləşdirildiyi ilə bağlı xəbər yaymışdır. Bu, dünya qaynaqlarında da yer alıb. Siz bunu necə dəyərləndirirsiniz? Bu rəqəm doğrudurmu? Bir də Murad Karayılanın Şimali Kipr kürd rejiminə bir müraciəti vardır. Müraciətdə**

**Türkiyəni dəstəkləməmək təklif edilir. İran da PEJAK ilə mübarizə apardı. Bir neçə gün əvvəl də Xarici İşlər naziri Türkiyəyə gəldi. İran və Şimali İraq regional rejimlərinin Türkiyəyə terror ilə bağlı dəstəyi nədir? Təşəkkür edirəm.**

**Rəcəb Tayyib Ərdoğan:** Hörmətli dostlar, əvvəla BBC-nin və sairin açıqladığı rəqəmlər ciddi rəqəmlər deyil, bunlar qeyri-ciddidir. Hər hansı bir əsası yoxdur. Haradan tapmışlar, belə bir şeyi necə ortaya çıxarmışlar, məlum deyildir. Bilirsiniz ki, bizim bu mövzu ilə bağlı olaraq Baş Qərargahımızın bir açıqlaması vardır. Beş gün içərisində Çuxurcada 54 terrorçu zərərsizləşdirilmişdir. Bundan başqa, sərhəddən kənarda aparılan əməliyyatlarda isə 200–270 terrorçunun zərərsizləşdirildiyi təxmin edilir. Təbii ki, bunların içərisində Çuxurcadakılar göz qabağındadır. Amma digərləri hava əməliyyatı nəticəsində texniki imkanlar ilə müəyyən edilən təxminlərdir.

Bundan başqa, BBC-nin açıqladığı rəqəm Baş Qərargah tərəfindən qətiyyən təsdiqlənmir. Bunu xüsusi olaraq vurğulayıram ki, belə bir şey müzakirə mövzusu ola bilməz. Başqa bir mövzu – tankların sərhədi keçməsi iddiası da doğru deyildir. Belə bir şey də müzakirə oluna bilməz. Bu yenə də bizim mənbəmizin ifadəsidir. Sadəcə, sərhəddə normal bir əməliyyat aparılmışdır. Necə yəni dostlarımız bu əməliyyatı sərhəddən kənarda görürlər? Orada da belə bir şey yoxdur. Burada bir yanlış anlaşılma vardır. Biz daha əvvəl media nümayəndələri – istər redaktorları, istərsə də rəhbərləri ilə keçirdiyimiz toplantılarda bu mövzuda doğru xəbərə diqqət edin, Baş Qərargahın, Silahlı Qüvvələrin və Baş nazirin açıqlamalarına əgər diqqət yetirsəniz, yanlış xəbər vermərik, ictimaiyyətə yanlış məlumatlar vermərik – dedik. Biz də əlaqədar qurumlarımızı yanlış xəbər olmasın, dezinformasiya olmasın deyə tez-tez məlumatların verilməsi ilə bağlı təlimatlandırdıq. Həssas olsaq bunun çox müsbət nəticəsi olacaqdır. Bundan sonrakı prosesdə də bunu eyni həssaslıqla davam etdirəcəyik.

Amma terrorla mübarizəni və siyasətlə də müzakirəni davam etdirəcəyik. Bizim anlayışımız budur. Təşəkkür edirəm.

**Səfər başa çatdı**

*Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına səfəri başa çatmışdır.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı İzmirin Adnan Menderes Hava Limanında Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün axşam Bakıya qayıtmışdır..*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

# TÜRKDİLLİ ÖLKƏLƏRİN VƏ TOPLUMLARIN II MEDİA FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli Forum iştirakçıları!

Sizi Azərbaycanda səmimi salamlayır, Türkdilli Ölkələrin və Toplumların II Media Forumunun keçirilməsi münasibəti ilə təbrik edirəm.

Qloballaşma proseslərinin intensiv xarakter aldığı müasir dövrdə türkdilli xalqlar arasında əlaqələrin strateji əhəmiyyəti daha da artmış, münasibətlərimizin forma və məzmunu əsaslı şəkildə yenilənmişdir. Müştərək mənafelərin təzahürü olaraq yaranmış Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türkdilli Dövlətlərin Parlament Assambleyası, Türksoy və digər təşkilatlar çərçivəsindəki birgə fəaliyyət ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı gücləndirməklə yanaşı, dövlətlərimizin beynəlxalq aləmdə yerinin möhkəmlənməsinə və nüfuzunun artmasına da mühüm təsir göstərmişdir.

Xalqlarımız arasında münasibətlərin inkişafında rəsmi qurumlarla yanaşı, vətəndaş cəmiyyəti institutlarının, media orqanlarının, elm və mədəniyyət xadimlərinin rolu xüsusi əhəmiyyətə malikdir. İnteqrasiya meyillərinin dərinləşdiyi müasir dünyada informasiya istehsalı və ötürülməsi ilə məşğul olan qurumların dünyada cərəyan edən proseslərə təsiri durmadan artır. Hesab edirəm ki, türkdilli ölkələrin və toplumların kütləvi informasiya vasitələri dövlətlərimizin və xalqlarımızın bir-biri ilə daha da yaxınlaşmasına, ortaq mədəni-mənəvi dəyərlərin təbliğinə, habelə müasir inkişafın müxtəlif aspektləri barədə dünyada çevik və dolğun məlumatların yayılması işinə böyük töhfələr verə bilərlər.

Forum iştirakçılarını bir daha təbrik edir, toplantının işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 oktyabr 2011-ci il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ**

Hörmətli cənab Prezident!

Xanım Begum Nüsrət Bhuttonun vəfatı xəbərini kədər hissi ilə qarşıladım.

Bu ağır itki ilə əlaqədar Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 oktyabr 2011-ci il*

## ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

Hörmətli xanım Prezident!

Argentina Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Argentina dövlətlərarası münasibətləri, dostluq və əməkdaşlıq əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Argentina xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 oktyabr 2011-ci il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefort Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## GÜRCÜSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ QRİQOL VAŞADZE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Gürcüstanın Xarici İşlər naziri Qriqol Vaşadzeni qəbul etmişdir.*

*Gürcüstanın Xarici İşlər naziri Qriqol Vaşadze ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibətilə Azərbaycan hökumətini, Azərbaycan xalqını və şəxsən prezident İlham Əliyevi təbrik etdi. Qriqol Vaşadze ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini Azərbaycan diplomatiyasının uğuru kimi qiymətləndirdi.*

*Müstəqilliyimizin ildönümündə ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsinin önəmini qeyd edən dövlətimizin başçısı bunu Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun real göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildiyi zaman verdiyi dəstəyə görə Gürcüstan hökumətinə minnətdarlığını bildirdi.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən energetika sahəsində inkişafı məmnunluqla qeyd olundu, əməkdaşlığımızın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## BELARUSUN TƏHLÜKƏSİZLİK ŞURASININ DÖVLƏT KATİBİ LEONİD MALTSAV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Belarus Respublikasının Təhlükəsizlik Şurasının Dövlət katibi Leonid Maltsevi qəbul etmişdir.*

*Dövlət katibi Leonid Maltsev Belarus prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibətilə Belarus prezidentinin Azərbaycan prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubuna ürəkdən qoşulduğunu dedi.*

*Dövlətimizin başçısı Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini ölkəmizin həyatında mühüm tarixi hadisə kimi qiymətləndirdi.*

*Görüşdə Azərbaycan ilə Belarus arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Belarus prezidenti Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarusun dövlət başçısına çatdırmağı xahiş etdi.*

## MDB-nin ÜZVÜ OLAN DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK VƏ XÜSUSİ XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİ ŞURASININ BAKIDA KEÇİRİLƏN XXXI İCLASINDA İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 oktyabr 2011-ci il*

*Oktyabrın 27-də Azərbaycan prezidenti İlham Əliyev MDB-nin üzvü olan dövlətlərin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının Bakıda keçirilən XXXI iclasında iştirak edən nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Xoş gəlmisiniz! Sizi Azərbaycanda salamlamağa şadam. Ümid edirəm ki, MDB ölkələrinin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının iclası uğurla, əməkdaşlıq, qarşılıqlı fəaliyyət ruhunda keçəcəkdir.

Bildiyiniz kimi, bizim ölkə ilə sizin təmsil etdiyiniz ölkələr arasında olduqca mehriban dostluq münasibətləri yaranıb. Biz müntəzəm olaraq dövlət başçıları səviyyəsində görüşürük, qarşılıqlı səfərlər edirik, bir çox mühüm məsələləri həll edirik. Bütün bunlar isə postsovet məkanında çox yüksək səviyyədə qarşılıqlı fəaliyyətə və qarşılıqlı dəstəyə təkan verir. Sovet İttifaqı dağıldıqdan sonra keçən 20 il ərzində əldə etdiyimiz ən böyük nailiyyət odur ki, biz xalqlarımız və ölkələrimiz arasında dostluq münasibətlərini qoruyub saxlaya və möhkəmləndirə bilmişik.

İqtisadi strukturlar xətti üzrə də əlaqələrimiz inkişaf edir. Azərbaycanın MDB ölkələri ilə əmtəə dövriyyəsi, qarşılıqlı investisiyalar artımı mövcuddur. Biz iqtisadi sahədə mövcud münasibətlərdən razıyıq. Hüquq-mühafizə orqanları xətti üzrə

də, həmçinin bizim regionda ikitərəfli və çoxtərəfli səviyyədə sərhədlərin mühafizəsi, cinayətkarlıqla mübarizə və əlbəttə ki, xüsusi xidmət orqanları xətti ilə də ən böyük təhlükələrlə mübarizə istiqamətində sıx əməkdaşlıq edirik. Biz hamımız maraqlıyıq ki, ölkələrimizdə sülh, əmin-amanlıq, inkişaf hökm sürsün. Bu məqsədlərimizə çatmaq üçün bizə əngəl olan terrorizm və ekstremizmə qarşı birgə mübarizə aparmalıyıq.

Əminəm ki, Şuranın iclası uğurlu keçəcək, siz gündəlikdə duran bütün məsələləri müzakirə edəcəksiniz. Bakıda keçirəcəyiniz bu iki gün sizi daha da yaxınlaşdıracaq, birgə iş üçün daha yaxşı şərait yaradacaqdır. Sizi bir daha salamlayır və Şuranın işinə uğurlar arzulayıram.

*MDB-nin üzvü olan dövlətlərin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının sədri, Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikov Şuranın XXXI iclasının Bakıda yüksək səviyyədə keçirilməsinə yaradılan imkana və nümayəndə heyəti ilə görüşə görə Azərbaycan prezidenti İlham Əliyevə tədbir iştirakçıları adından minnətdarlığını bildirdi. Aleksandr Bortnikov bildirdi ki, məhz ötən 20 ildə MDB məkanında təhlükəsizlik və xüsusi xidmət orqanlarının uğurlu birgə fəaliyyəti nəticəsində belə təhlükələrin qarşısı vaxtında alınır və səmərəli qabaqlayıcı tədbirlər həyata keçirilir. O, MDB-nin üzvü olan dövlətlərin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının XXXI iclasının Bakıda yüksək səviyyədə təşkilinə yaratdığı imkana görə dövlətimizin başçısına bir daha minnətdarlığını bildirdi.*

*Qonaq nümayəndə heyətlərinin rəhbərləri adından prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

# DÜNYA ŞÖHRƏTLİ NORVEÇLİ SƏYYAH VƏ ALİM TUR HEYERDALIN AİLƏ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də dünya şöhrətli norveçli səyyah və alim Tur Heyerdalın ailə üzvlərini qəbul etmişdir.*

*Dünya şöhrətli səyyahın oğlu Tur Heyerdalın ailə üzvləri adından çıxış edərək, atasının xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini məmnunluqla xatırlatdı. O, atasından Azərbaycanla bağlı daim xoş sözlər eşitdiyini vurğuladı.*

*Dövlətimizin başçısı Tur Heyerdalın Azərbaycana böyük maraq göstərməsinin və ölkəmizlə bağlı söylədiyi fikirlərin önəmini qeyd etdi. Prezident İlham Əliyev Tur Heyerdalın ailəsinin ölkəmizə səfərinin Azərbaycanla daha yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını dedi.*

## AĞDAŞ RAYONUNA SƏFƏR

*30 oktyabr 2011-ci il*

*Oktyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdaş rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Ağdaş şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Azərbaycan prezidentinə Heydər Əliyev abidə kompleksində aparılan yenidənqurma işləri barədə məlumat verildi. Qeyd olundu ki, 7 hektar ərazini əhatə edən kompleksdə əsaslı abadlıq və yaşıllaşdırma işləri görülmüşdür. Kompleksdə 30 metr hündürlüyündə Dövlət bayrağı ucaldılmış, mərmər lövhələrdə dövlət atributları, tarixi keçmişimizi əks etdirən memarlıq elementləri yaradılmışdır. Kompleksin ərazisindəki Heydər Əliyev Mərkəzi əsaslı yenidənqurmadan sonra xüsusi görkəm almışdır. Mərkəzdəki muzeyin 9 bölməsində ulu öndərin çoxşaxəli fəaliyyətini əks etdirən 200-dən çox eksponat nümayiş etdirilir.*

### Ağdaş–Ləki avtomobil yolunun 12 kilometrlik hissəsinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev Ağdaş rayonuna səfəri çərçivəsində oktyabrın 30-da Ağdaş–Ləki avtomobil yolunun 12 kilometrlik hissəsinin açılışında iştirak etmişdir.*

*Nəqliyyat naziri Ziya Məmmədov prezident İlham Əliyevə Ağdaş–Ləki avtomobil yolunun 12 kilometrlik hissəsində görülmüş işlər barədə məlumat verdi. Bildirdi ki, yol «Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na uyğun olaraq dövlətimizin başçısının 2009-cu il 14 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş Tədbirlər Planı çərçivəsində inşa olunmuşdur.*

*Qeyd edilmişdi ki, əsaslı şəkildə bərpa olunmuş Ağdaş–Ləki avtomobil yolu Bakı–Ələt–Qazax–Gürcüstan dövlət sərhədi avtomobil yolunun 267-ci kilometrini Bakı–Şamaxı–Yevlax avtomobil yolunun 238-ci kilometri ilə birləşdirir. Tamamilə yeniləşən, müasir görkəm alan və keyfiyyəti ilə seçilən bu yol respublikamızın şimal-qərb bölgəsi ilə cənub və cənub-qərb bölgələri arasında nəqliyyat əlaqəsinin yaxşılaşması baxımından mühüm əhəmiyyətə malikdir.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.*

**Mərkəzi Rayon Xəstəxanasının açılışı mərasimi**

*Oktyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdaşa səfəri çərçivəsində Mərkəzi Rayon Xəstəxanasının açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, xəstəxana binasının təməli ötən il fevralın 12-də prezident İlham Əliyevin Ağdaş rayonuna səfəri zamanı qoyulmuşdur. 100 çarpayılıq xəstəxana kompleksində tikintinin ümumi sahəsi 22 min 500 kvadratmetrdir. Altı korpusdan ibarət üçmərtəbəli səhiyyə ocağında 100 nəfərədək tibb heyəti çalışır.*

*Səhiyyə ocağında yaradılmış şəraitlə tanış olan prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri və xəstəxananın kollektivi ilə görüşdü, onları təbrik etdi.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*30 oktyabr 2011-ci il*

Sizi Ağdaş rayon xəstəxanasının açılışı münasibətilə ürəkdən təbrik edirəm. Gözəl hadisədir. Xəstəxananın tikintisinə bir il bundan əvvəl başlanılmışdı. Mən çox şadam ki, qısa müddət ərzində Ağdaşda çox gözəl, müasir xəstəxana tikilib istifadəyə verilmişdir.

Bildiyiniz kimi, ölkəmizin hər bir yerində yeni tibb ocaqları yaradılır, xəstəxanalar, poliklinikalar tikilir. İndi Ağdaşda da dünya səviyyəsinə uyğun, gözəl xəstəxana yaradılmışdır. Xəstəxana ilə tanış olarkən gördüm ki, həm gözəl, keyfiyyətlə, zövqlə tikilib, həm də burada dünyanın ən müasir avadanlıqları quraşdırılıb, bir sözlə, çox gözəl şərait yaradılıb.

Ölkəmizdə səhiyyə sisteminin təkmilləşdirilməsi istiqamətində böyük islahatlar aparılır, böyük işlər görülür. Hər bir bölgədə yeni, müasir xəstəxanalar tikilməkdədir. Bakının özündə əvvəlki dövrdə tikilmiş xəstəxanalar əsaslı təmir edilir, yeni xəstəxanalar tikilir və kadr hazırlığı ilə bağlı yeni təkliflər irəli sürülür. Burada işləyən həkimlər treninq keçmişlər, təcrübələrini artırmışlar. Elə etməliyik ki, burada göstərilən tibbi xidmət yüksək səviyyədə olsun.

Bu xəstəxananın açılışı onu göstərir ki, ölkəmizin inkişafı hərtərəflidir. Hər bir bölgə inkişaf edir, hər bir bölgədə insanların yaşayışı üçün lazım olan bütün məsələlər həllini tapır. Mən keçən il burada olarkən sizinlə bərabər Olimpiya İdman Kompleksinin açılışını qeyd etdik. Ağdaş rayonunun su təchizatının birinci mərhələsini qeyd etdik. İndi Ağdaşda bu layihə davam edir, digər layihələr icra olunur və bütövlükdə rayonun siması dəyişilir. Ağdaş indi müasir, gözəl rayona çevrilməkdədir. İstirahət etmək, yaşamaq, işləmək üçün bütün şərait vardır.

Qazlaşdırılma sürətlə gedir. Mənə verilən məlumata görə, son vaxtlar yeni qəsəbələr, yeni yaşayış məntəqələri qazlaşdırılıbdır. Elə etməliyik ki, yaxın iki il ərzində rayonun bütün kəndləri qazlaşdırılsın. Elektrik enerjisi ilə təchizatda problemlər çoxdan aradan qaldırılmışdır. İndi içməli su, kanalizasiya layihələri icra edilir. Bu layihələr də əminəm ki, yaxın zamanlarda başa çatacaqdır. Yollar çəkilir, buraya gəlməzdən əvvəl Ağdaş–Ləki avtomobil yolunun açılışını qeyd etdik. Bu da çox gözəl yoldur. Həm bir neçə kəndi birləşdirir, eyni zamanda, rayon mərkəzinə də rahat gəlmək mümkündür.

Növbəti illərdə rayonun inkişafı ilə bağlı əlavə tədbirlər görüləcək, əlavə vəsait ayrılacaqdır. Həm dövlət büdcəsində vəsait nəzərdə tutulur, həm də Prezidentin ehtiyat fondundan bölgələrin inkişafı üçün vəsait ayrılır ki, hər bir rayon, hər bir şəhər, hər bir kənd abadlaşsın və yaşamaq üçün şərait daha da yaxşı olsun.

Ümid edirəm ki, yaxın zamanlarda ölkə qarşısında duran vəzifələr, xüsusilə bölgələrin inkişafı ilə bağlı olan bütün vəzifələr icra ediləcəkdir. Bu günə qədər görülmüş işlər deməyə əsas verir ki, biz hədəfimizə çatacağıq. Bu, gördüyümüz işlərin, qəbul edilmiş proqramların nəticəsidir. Bu işlərin təməlində insan amili dayanır və buna görə səhiyyə məsələlərinin həllinə çox böyük diqqət göstərilir. Hər bir sahəyə diqqət göstərilir. İndi məktəblər tikilir, yollar çəkilir, yeni müəssisələr işə salınır. Ancaq insanların sağlamlığı birinci dərəcəli məsələdir. Çox şadam ki, son illər Azərbaycanda bu sahədə aparılan işlər müsbətdir, yeni xəstəxanalar, tibb məntəqələri açılır. İnsanların sağlamlığı üçün lazımi tədbirlər görülür. Növbəti mərhələlərdə biz diaqnostika məsələlərinə daha çox diqqət verməliyik, xəstəliklərin profilaktikası ilə məşğul olmalıyıq və beynəlxalq təcrübəni maksimum dərəcədə tətbiq etməliyik.

O ki qaldı xəstəxanaların tikintisinə, mən hesab edirəm ki, biz indi ən inkişaf etmiş ölkələrdən geri qalmırıq. Bizdə yaradılan gözəl şərait inkişaf etmiş ölkələrdəki şəraitə

uyğundur, bəzi hallarda onları üstələyir. Avadanlıqla təchizat məsələlərinə də böyük diqqət göstərilir. Ən müasir avadanlıq – diaqnostika cihazları gətirilir. Ümid edirəm ki, biz növbəti illərdə daha çox həkimlərin peşəkarlığına diqqət göstərməliyik. Bu məqsədlə həkimlər daim öz təcrübələrini genişləndirməlidirlər. Bu məqsədlə, əlbəttə ki, beynəlxalq əlaqələr də vacib məsələdir.

Beynəlxalq səhiyyə təşkilatları Azərbaycanda gedən islahatlara çox yüksək qiymət verirlər. Bir neçə ay əvvəl Bakıda keçirilmiş Ümumdünya Səhiyyə Təşkilatı Avropa Komitəsinin iclasında Azərbaycanda bu məsələlərə göstərilən diqqət yüksək qiymətləndirilmişdir. Əlbəttə, bu, gördüyümüz işlərin nəticəsidir və bu qiymət bizi daha da ruhlandırır. Çünki Ümumdünya Səhiyyə Təşkilatı dünya miqyasında bütün səhiyyə məsələləri ilə məşğul olur. İnsanların sağlamlığı üçün bütün lazımi amillər – əlbəttə, tibbi xidmət və bununla bərabər qeyd etdiyim kimi, diaqnostika, profilaktika, maarifləndirmə diqqət mərkəzində olmalıdır.

İnsanların sağlamlığı üçün lazım olan digər məsələlər də həll olunur. İçməli su insan sağlamlığı üçün bir nömrəli məsələdir, indi həll olunur. Ekologiya ilə bağlı olan vəziyyət, təmiz hava, keyfiyyətli qida. Biz bütün bu məsələlərə diqqət veririk, dünya miqyasında inkişaf etmiş ölkələrin təcrübəsini də öyrənirik və tətbiq edirik. Bu xəstəxana Dünya Bankı ilə birgə icra edilmiş layihədir və burada bütün standartlar dünya səviyyəsindədir.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Mən çox şadam ki, Ağdaşda belə gözəl xəstəxana artıq istismara verilir. Bu, Ağdaşa mənim Prezident kimi üçüncü səfərimdir. Mən rayonda gedən dəyişiklikləri görürəm, qiymətləndirirəm. Ağdaşın gələcək inkişafı üçün də əlavə tədbirlər görüləcək, əlavə vəsait ayrılacaq ki, rayon daha da gözəl, daha da yaxşı olsun. Bir daha sizi təbrik edirəm.

## UCAR RAYONUNA SƏFƏR

*30 oktyabr 2011-ci il*

*Oktyabrın 30-da Azərbaycan prezidenti İlham Əliyev Ucar rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Ucar şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin ətrafında aparılmış abadlıq-quruculuq işləri barədə məlumat verildi. Bildirildi ki, ərazi əsaslı surətdə yenidən qurulmuş, geniş yaşıllaşdırma və abadlıq işləri aparılmış, müasir park salınmışdır. Üç hektara yaxın sahəsi olan parkda dörd müasir fəvvarə, işıqlandırma sistemi quraşdırılmış, dekorativ ağac və gül kolları əkilmişdir. Müasir görkəm almış park ucarlılarla yanaşı, rayona gələn qonaqların da sevimli istirahət guşəsinə çevrilmişdir.*

*Prezident İlham Əliyev Heydər Əliyev abidəsinin müəllifi, Xalq rəssamı Ömər Eldarov ilə görüşdü.*

*Sonra dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə milli memarlıq üslubunda inşa olunmuş Mərkəzdə ümummilli liderin zəngin irsinə həsr olunmuş ekspozisiya zalı vardır. Burada ulu öndərin həyat və fəaliyyətinin bütün dövrlərini, eləcə də onun müxtəlif illərdə respublikamızın bölgələrinə səfərlərini əks etdirən fotoguşələr yaradılmışdır.*

*Mərkəzlə yaxından tanış olan prezident İlham Əliyev sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*30 oktyabr 2011-ci il*

Əziz dostlar! Bu gün çox gözəl bir gündür. Ucarda möhtəşəm Heydər Əliyev Mərkəzinin açılışına toplaşmışıq. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Bu doğrudan da möhtəşəm Mərkəzdir, saraydır. İndi Azərbaycanın bölgələrində, rayonlarında Heydər Əliyev mərkəzləri tikilibdir, fəaliyyət göstərir, tikilməkdədir. Deyə bilərəm ki, onların içində öz gözəlliyi və əzəməti ilə seçilən Ucardakı Heydər Əliyev Mərkəzidir. Həm xarici görünüşü, həm daxili tərtibatı, dizaynı, həmçinin Mərkəzin funksional cəhətləri də çox gözəldir. Belə mərkəzlərin tikintisi ulu öndərin xatirəsinə Azərbaycan xalqının hörmətinin təzahürüdür. Bu mərkəzlərdə ulu öndərin siyasi irsi öyrənilir, müxtəlif tədbirlər də keçirilməlidir və keçirilir. Mən çox şadam ki, bu Mərkəzdə müxtəlif tədbirlərin keçirilməsi üçün çox gözəl şərait vardır. Rayonun bütün vacib tədbirləri burada keçiriləcəkdir. İnternet imkanları vardır, dərnəklər fəaliyyət göstərəcəkdir. Bir sözlə, bu Mərkəz yaşayacaq və Ucara əlavə yaraşıq verməklə bərabər, Mərkəzin ətrafında insanlar istirahət edəcəklər, gözəl meydan yaradılıbdır, böyük abadlıq işləri aparılıbdır.

Ucarda son illər ərzində abadlıq, quruculuq işləri uğurla gedir. Əminəm ki, gələcək illərdə bu meyillər daha da güclənəcəkdir. Elə etməliyik ki, hər bir bölgə, hər bir rayon mərkəzi, hər bir kənd abadlaşsın, gözəlləşsin. Bunu etmək üçün imkanlarımız vardır. Belə gözəl mərkəzlərin yaradılması, gözəl meydanların salınması göstərir ki, Azərbaycan uğurla inkişaf edir, ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir. Bütün uğurlarımızın təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Bu il biz müstəqilliyimizin bərpasının 20 illik yubileyini qeyd edərkən bir daha tarixə nəzər salaraq görürük ki, ulu öndərin Azərbaycan xalqı, dövləti qarşısında müstəsna xidmətləri olmuşdur. Ölkəmiz üçün ən ağır zamanlarda xalqın tələbi ilə rəhbərliyə gəlmiş Heydər Əliyev vəziyyəti sabitləşdirdi və Azərbaycanı inkişaf yoluna çıxardı. Ölkəmizdə bütün bölgələrdə müstəqilliyin bərpası ilə bağlı müxtəlif tədbirlər keçirilmişdir. Azərbaycanda dövlətçilik əsaslarının qoyulması, hüquqi dövlətin qurulması, demokratik prinsiplərin bərqərar olması və islahatların aparılması işində Heydər Əliyev müstəsna xidmətlər göstərmişdir. Bu gün bu siyasət davam etdirilir. Biz bu siyasətə sadiqik. Azərbaycan xalqı Heydər Əliyev siyasətinə sadiqdir, onun xatirəsinə daim hörmət və ehtiramını bildirir. Bu siyasət Azərbaycanda yeni imkanlar açır. Son illər ərzində ölkəmizin bütün bölgələrində geniş quruculuq, abadlıq işləri aparılır. Hər bir rayonda işlər görülür, binalar, məktəblər tikilir, qazlaşdırma gedir, kommunal infrastruktur layihələri icra edilir və ölkəmizin hərtərəfli inkişafı məhz bu amillərdən asılıdır.

Bizim güclü iqtisadi potensialımız var, artıq bu reallıqdır. Dünyada mövqelərimiz möhkəmlənir və bu reallıqlarla da hesablaşırlar. Azərbaycan bu gün regional işlərdə lider dövlətdir, Cənubi Qafqazda lider dövlətdir. Cənubi Qafqaz iqtisadiyyatının 83 faizi Azərbaycan iqtisadiyyatıdır. Siyasi sahədə təşəbbüslərimiz bölgədə, regionda əməkdaşlığın dərinləşməsi üçün mühüm rol oynayır. Dünyada mövqelərimiz möhkəmlənir.

Bu yaxınlarda Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi bir daha ölkəmizin qüdrətini göstərir. Bir daha Azərbaycan siyasətinin nə qədər düzgün olduğunu göstərir. Ölkə daxilində gedən proseslər, iqtisadiyyatla bağlı olan məsələlər statistik göstəricilərdə özünü əks etdirir. Bu məsələlərlə məşğul olan qurumlar, insanlar, ekspertlər Azərbaycanın uğurlu inkişafını görürlər və qiymətləndirirlər.

BMT Təhlükəsizlik Şurasına böyük üstünlüklə seçilməyimiz isə bütün dünyaya Azərbaycanı müasir, qüdrətli, böyük nüfuza

malik ölkə kimi təqdim etdi. Beynəlxalq birlik tərəfindən Azərbaycana böyük hörmət, etimad, inam göstərilir. 155 ölkə bizi dəstəklədi. 155 ölkə bizi müdafiə etdi, bizə inandı və ümid etdi. Biz bu ümidləri doğruldacağıq. İlk növbədə biz Azərbaycan xalqının ümidlərini doğrulduruq və doğruldacağıq. Ölkəmizdə aparılan islahatlar və görülmüş işlər bunun əyani sübutudur. Bizə inanan tərəfdaşlarımızın, dost olan ölkələrin ümidlərini də doğruldacağıq. Biz dünyanın ən ali orqanı olan BMT Təhlükəsizlik Şurasında sadiq olduğumuz prinsipləri müdafiə edəcəyik. İlk növbədə ədaləti müdafiə edəcəyik. Biz bütün işlərə ədalət nöqteyi-nəzərindən yanaşırıq.

Biz Təhlükəsizlik Şurasında beynəlxalq hüququn keşiyində duracağıq. Biz bütün məsələlərin beynəlxalq hüquq əsasında həll olunmasının tərəfdarıyıq. Dünyada ikinci mexanizm yoxdur, ola da bilməz. Beynəlxalq hüquq prinsipləri ona görə dünya ictimaiyyəti tərəfindən qəbul edilir ki, bunlar ədalətli prinsiplərdir. Bizim ədalətli işimiz, Qarabağ münaqişəsi, torpaqlarımızın işğaldan azad olunması məsələsi də yalnız beynəlxalq hüquq prinsipləri əsasında öz həllini tapmalıdır. Bu yaxınlarda üzv olduğumuz BMT Təhlükəsizlik Şurası Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı 4 qətnamə qəbul etmişdir. Ədalətli qərarlar qəbul etmişdir. Ancaq əfsuslar olsun ki, bu qərarlar icra edilmir.

Artıq dünya miqyasında seçilmiş ölkələrin sırasındayıq. Azərbaycanla, bölgə ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə daha da geniş şəkildə çatdıracağıq. Bu səsvermə bizim üçün nə qədər sevindirici və qürurverici olsa da, məsuliyyətimizi də bir o qədər artırır. Biz bu məsuliyyəti üzərimizə götürməyə hazırıq. Əks təqdirdə namizədliyimizi irəli sürməzdik. Bu səsvermə onu göstərir ki, Azərbaycan haqqında dünyada kifayət qədər məlumatlar vardır. Bəzi hallarda müxtəlif məsələlərdə dünya birliyinin fikrinə, rəyinə istinad edilir. Dünya birliyi bütün ölkələrdir. Onların mütləq əksəriyyəti Azərbaycanın yanındadır. Gələcəkdə dünya birliyinə istinad edərkən hər hansı bir fikri, yaxud da ideyanı irəli sürmək istəyəndə bəzi dairələr

bilməlidirlər ki, dünya birliyinin rəyi, bax, bu səsvermədə öz əksini tapıbdır. Azərbaycan dünya birliyi tərəfindən təqdirlə qeyd edilən ölkədir. Bu, böyük uğurdur. Bu bir də onu göstərir ki, son illər ərzində, Azərbaycan düzgün yol seçmişdir.

Xarici siyasətimizlə bağlı ölkə daxilində fikir ayrılığı yoxdur. Ancaq özlərini ekspert adlandıran insanlar bəzi hallarda həm ölkə daxilində, həm də xaricdə bizim xarici siyasətimizlə bağlı müxtəlif fikirlər səsləndirirdilər. Bəzi hallarda tənqidi xarakterli fikirlər səsləndirirdilər ki, Azərbaycanın tarazlaşdırılmış siyasəti yanlış siyasətdir. Azərbaycan hansısa bir qüvvəyə yaxın olmalıdır, hansısa qüvvənin qanadı altına keçməlidir. Bax, bu səsvermə bütün bu yanlış və zərərli fikirləri bir daha alt-üst etdi. Bu səsvermə göstərdi ki, yeganə düzgün siyasət Azərbaycan siyasətidir. Bu, balanslaşdırılmış siyasət deyil, müstəqil siyasətdir. Biz müstəqil ölkə kimi, özümüzə hörmət edirik, xalqımıza, dövlətimizə hörmət edirik. Siyasətimizi yalnız Azərbaycan xalqının maraqları üzərində qururuq. Bütün ölkələrlə onların ölçülərindən, qüdrətindən asılı olmayaraq bərabərhüquqlu münasibətlər qurmuşuq. Azərbaycanı dünyada etibarlı tərəfdaş və ləyaqətli ölkə kimi tanıyırlar. Ona görə xarici siyasətlə bağlı bundan sonra əminəm ki, fikir ayrılığı olmayacaqdır. Siyasətimizin uğurlu olmasını ən yaxşı şəkildə göstərən bu səsvermədir. Nə üçün mən bu məsələyə bu qədər diqqət verirəm?! Təkcə ona görə yox ki, bu bizim böyük qələbəmizdir və haqlı olaraq fəxr edirik ki, bu qələbəni biz qazanmışıq. Ona görə ki, artıq bu qələbə 20 illik müstəqillik dövrünə yekun vurur. Bu, ən yüksək səviyyədir ki, biz çatmışıq.

Bir daha demək istəyirəm ki, bugünkü tədbir də, bu möhtəşəm Heydər Əliyev Mərkəzi də, bu gözəl meydan da əslində Azərbaycanın inkişafını təcəssüm etdirir. Bu gün inkişaf edən, çiçəklənən Azərbaycan üçün belə binalar lazımdır. Məktəblər, binalar, xəstəxanalar, yollar, abadlıq-quruculuq göz oxşayır. Bu binalar yaraşıq verir. Bu binalar Azərbaycanın uğurlu inkişafını əks etdirir.

Əziz dostlar, mən sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm. Bütün ucarlılara cansağlığı və yeni uğurlar arzu edirəm.

## Şahmat məktəbinin açılışı mərasimi

*Oktyabrın 30-da prezident İlham Əliyev Ucar rayonuna səfəri çərçivəsində şahmat məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, şahmat kompozisiyası formasında tikilmiş bu tədris ocağının ümumi sahəsi 820 kvadratmetrdir. Şahmat məktəbinin ərazisində yaşıllıqlar salınmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Birmərtəbəli məktəbdə beş tədris, bir kompüter otağı və xidməti otaqlar vardır. Məktəbin oyun zalının sahəsi 210 kvadratmetrdir.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə müasir üslubda inşa olunan bu tədris binası bir növ fiqurlar düzülmüş şahmat taxtasına bənzədilmişdir. Binanın girişi piyada, ətrafı top, mərkəzi hissəsi isə şah fiqurları formasındadır. Buradakı tədris otaqları məktəblilərin şahmatın sirlərinə yiyələnmələri üçün lazımi avadanlıqla təchiz olunmuşdur. Qeyd edildi ki, müasir havalandırma sistemi ilə təchiz olunmuş şahmat məktəbinin oyun zalında ulu öndər Heydər Əliyev və prezident İlham Əliyevin şahmata və şahmatçılara diqqət və qayğılarını əks etdirən fotoguşələr yaradılmışdır. Bildirildi ki, Ucar şahmatçıları Azərbaycan şahmatının inkişafına töhfələrini verirlər. Yeni şahmat məktəbi ucarlı şahmatçıların daha böyük nailiyyətlər əldə etmələrinə imkan yaradacaqdır.*

*Dövlətimizin başçısı şahmat üzrə Avropa çempionu, bu ilin aprelində Polşada keçirilən dünya çempionatında 14 yaşlılar arasında ən yüksək nəticə göstərərək dünya çempionu adını qazanmış ucarlı Xatın Bağırova ilə söhbət etdi.*

*Prezident İlham Əliyev məktəbin kollektivinə uğurlar arzuladı.*

**Su-kanalizasiya sistemləri kompleksinin təməlqoyma mərasimi**

*Oktyabrın 30-da Azərbaycan prezidenti İlham Əliyev Ucar şəhərinin su-kanalizasiya sistemləri kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Ucar şəhərində mərkəzləşdirilmiş içməli su sistemi keçən əsrin 70-ci illərində tikilmiş, Göyçay rayonunun Potu kəndi ərazisində qazılmış subartezian quyularından və suvarma kanallarından mənbə kimi istifadə olunmuşdur. Yeni layihəyə əsasən, Ağsu rayonu ərazisində yerləşən Külüllü su mənbəyi seçilmişdir. Külüllüdə drenaj tipli suqəbuledici qurğunun tikintisi, buradan Ucar şəhərinədək 400 millimetr diametrli 60 kilometr uzunluğunda özüaxımlı magistral su kəmərinin çəkilməsi planlaşdırılır.*

*Bildirildi ki, şəhərdə ümumi uzunluğu 108 kilometr olan yeni supaylayıcı şəbəkənin, iki min kubmetr həcmində yeni su anbarının tikilməsi nəzərdə tutulur. Çirkab sularının təmizlənməsi üçün məhsuldarlığı sutkada dörd min kubmetr olan müasir qurğu inşa ediləcəkdir. Layihənin yerinə yetirilməsi ilə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla Ucar şəhərində 20 min, 15 kənddə isə 32 min nəfərin su təchizatı və kanalizasiya xətlərindən istifadəsi əsaslı şəkildə yaxşılaşdırılacaqdır. Dövlət büdcəsi vəsaiti hesabına həyata keçiriləcək «Ucar şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi»nin 20 aya başa çatdırılması nəzərdə tutulmuşdur.*

*Sonra Ucar şəhərinin yeni su-kanalizasiya sistemləri kompleksinin təməli qoyuldu.*

*Dövlətimizin başçısı metal gilizi bünövrəyə buraxdı, beton qarışığı tökən qurğunun düyməsini basdı.*

## Uşaq xəstəxanasının əsaslı yenidənqurmadan sonra açılışı mərasimi

*Oktyabrın 30-da Azərbaycan prezidenti İlham Əliyev Ucar Şəhər Uşaq Xəstəxanasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, 44 çarpayılıq uşaq xəstəxanasında 90 nəfərədək tibbi heyətin işləməsi nəzərdə tutulmuşdur. Xəstəxananın birinci mərtəbəsində yerləşən 40 nəfərlik konfrans zalında rayon və respublika əhəmiyyətli tədbirlərin keçirilməsi üçün lazımi şərait yaradılmışdır.*

*Qeyd edildi ki, xəstəxananın ikinci mərtəbəsində 10 çarpayılıq cərrahiyyə şöbəsi, bir, iki və üç nəfərlik palatalar və bir əməliyyat otağı vardır. Üçüncü mərtəbədə isə 4 çarpayılıq reanimasiya və 20 çarpayılıq pediatriya şöbələri fəaliyyət göstərəcəkdir. Xəstəxana müasir standartlara cavab verən müayinə və müalicə avadanlıqları ilə təchiz olunmuşdur.*

*Sonra prezident İlham Əliyev Ucar Mərkəzi Rayon Xəstəxanasının yenidənqurmadan sonra istifadəyə verilmiş poliklinikasında oldu.*

*Məlumat verildi ki, ikimərtəbəli poliklinika binası hazırda inşası davam etdirilən Ucar Mərkəzi Rayon Xəstəxanasının bir hissəsi olmaqla, tam şəkildə yenidən qurulmuşdur.*

*Daha sonra prezident İlham Əliyev tikintisi davam etdirilən xəstəxananın baş planı ilə tanış oldu. Xəstəxananın əvvəlki binasının fotoşəkillərinə baxan prezident İlham Əliyevə məlumat verildi ki, 1970-ci ildə inşa olunmuş köhnə bina indiyədək təmir olunmadığından yararsız hala düşmüşdü. Yeni xəstəxana üçün 4,4 hektar torpaq sahəsi ayrılmışdır. Bu ərazinin 1,2 hektarında ikimərtəbəli 4 korpusdan ibarət kompleks tikiləcəkdir.*

*Prezident İlham Əliyev tövsiyə və tapşırıqlarını verdi.*

## AĞSU RAYONUNA SƏFƏR

*30 oktyabr 2011-ci il*

*Oktyabrın 30-da Azərbaycan prezidenti İlham Əliyev Ağsu rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Ağsu şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Azərbaycan prezidentinə abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verildi.*

### Regional Qaz İstismar sahəsinin açılışı mərasimi

*Prezident İlham Əliyev oktyabrın 30-da Ağsu Regional Qaz İstismar sahəsinin açılışında iştirak etmişdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Ağsuda Regional Qaz İstismar Sahəsi üçün yeni inzibati binanın tikintisi ətraf rayonların da qazlaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir.*

*Binanın birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ictimai-siyasi fəaliyyətlərinə həsr olunmuş fotoguşə yaradılmışdır. Binanın bütün otaqlarında müasir mebel və kompüter avadanlığı quraşdırılmışdır.*

*Azərbaycan prezidentinə Ağsu rayonunun qazlaşdırılması sxemi təqdim olundu. Bildirildi ki, rayonun yaşayış məntəqələrinə bir-birinin ardınca təbii qazın verilməsi bərpa olunur və yaxud da yeni xətlər çəkilir. İndiyədək rayon üzrə 1847 abonentin mexaniki sayğacı «smart kart» tipli sayğacla əvəz olunmuşdur.*

*Prezident İlham Əliyev bu prosesin daha sürətlə davam etdirilməsi ilə bağlı tapşırıqlarını verdi.*

## Mədəniyyət və istirahət parkının əsaslı bərpa və yenidənqurmadan sonra açılışı mərasimi

*Oktyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağsuda Mədəniyyət və istirahət parkının əsaslı bərpa və yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, parkın 9 metr hündürlüyündə 4 sütunlu giriş qapısı milli Azərbaycan memarlığı üslubunda inşa olunmuşdur. İl yarım ərzində başdan-başa yenidən qurulmuş parkın ərazisi 1,6 hektardır. Burada yeni quraşdırılmış fəvvarə parka xüsusi yaraşıq verir. Sakinlər üstüörtülü 6 istirahət guşəsindən istifadə edə biləcəklər. Mədəniyyət və istirahət parkında uşaqlar üçün maraqlı attraksionlar quraşdırılmış, xalq nağıllarının motivlərini əks etdirən guşə və səhnə yaradılmışdır. Parkda yaşıllaşdırma işləri zamanı əvvəldən mövcud olan həmişəyaşıl bitkiləri saxlamaqla yanaşı, 7,5 min kvadratmetr ərazidə yeni ağaclar və gül kolları əkilmişdir.*

## Şəhər stadionunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 30-da Ağsu şəhər stadionunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı stadionun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bu müasir idman qurğusunun təməli 2009-cu il oktyabrın 29-da prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın Ağsu rayonuna səfəri çərçivəsində qoyulmuşdur.*

*Stadionla tanışlıq zamanı Azərbaycan prezidentinə məlumat verildi ki, dörd sektorda üç min tamaşaçı yeri olan stadionun süni örtük döşənmiş meydançası müasir standartlara cavab verir. Burada yüksək səviyyəli yarışların keçirilməsi mümkündür. Tribunaların üstünə metal konstruksiyalardan ibarət örtük quraşdırılmışdır. Bundan əlavə, burada daha iki mini stadion idmançıların ixtiyarına verilmişdir. Kompleksə 4*

*işıqlandırma lövhəsi, elektron tablo, kafe, inzibati bina və digər yardımçı obyektlər daxildir.*

*İnzibati binada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdikləri qayğının müxtəlif məqamlarını əks etdirən fotoguşə yaradılmışdır.*

*Stadionda yaradılmış şəraiti yüksək qiymətləndirən prezident İlham Əliyev təbriklərini çatdırdı, tapşırıqlarını verdi.*

## Uşaq-Gənclər Bədii Yaradıcılıq Mərkəzinin açılışı mərasimi

*Oktyabrın 30-da Azərbaycan prezidenti İlham Əliyev Ağsuda Uşaq-Gənclər Bədii Yaradıcılıq Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bildirildi ki, Mərkəzin təməli 2009-cu il oktyabrın 29-da prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakı ilə qoyulmuşdur. Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilmiş Mərkəzin həyatında Ağsudan olan tanınmış incəsənət xadimləri Mikayıl Mirzə, Səməndər Rzayev və Rasim Balayevə həsr olunmuş guşədə onların həyatına və sənət fəaliyyətinə aid eksponatlar vardır.*

*Mərkəzin yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq işləri görülmüş, çoxlu sayda ağac və gül kolları əkilmiş, bütün lazımi infrastruktur yaradılmışdır.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətlərinə həsr olunmuş fotoguşələr yaradılmışdır.*

*Prezident İlham Əliyev Ağsu Uşaq musiqi məktəbinin şagirdlərinin ifasında Rauf Hacıyevin «Azərbaycan» mahnısını dinlədi.*

## «Az-Granata» MMC-nin şirə və şərab emalı zavodunun açılışı mərasimi

*Prezident İlham Əliyev oktyabrın 30-da Ağsuda «Az-Granata» MMC-nin şirə və şərab emalı zavodunun açılışında iştirak etmişdir.*

*Bildirildi ki, zavodun fəaliyyətə başlaması «Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın uğurla həyata keçirilməsinin bariz nümunəsidir. 12 hektardan çox ərazini əhatə edən müəssisə beşmərtəbəli inzibati binadan, üçmərtəbəli oteldən, 20 min kvadratmetr istehsal sahəsindən və digər yardımçı sahələrdən ibarətdir. Bundan əlavə, ərazidə 6 artezian quyusunun qazılması və saatda 40 ton su təmizləyən qurğunun tikilməsi müəssisənin fasiləsiz təmiz su ilə təchizatını təmin edəcəkdir. Burada bütün infrastruktur, mühəndis qurğuları ən müasir səviyyədə qurulmuşdur. Zavodda il ərzində 50 min ton meyvə şirəsi və 12 min ton şərab hazırlanacaqdır. Hazır məhsulun satışını təmin etmək məqsədi ilə Bakıda iki min tonluq anbar tikilmiş, satış mərkəzi və regional satış nümayəndəlikləri yaradılmışdır.*

*Prezident İlham Əliyev zavodun maketi ilə tanış olduqdan sonra müəssisəni işə salan düyməni basdı, meyvələrin qəbulu və emalı prosesini izlədi.*

*Bildirildi ki, saatda 9–15 ton meyvə qəbul etmək gücünə malik olan müəssisədə ulu öndər Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq ümummilli liderin ölkəmizdə kənd təsərrüfatının inkişafındakı xidmətlərini əks etdirən fotoguşə yaradılmışdır. Burada ölkəmizdə şərab istehsalının tarixini əks etdirən fotolar da yer almışdır.*

*Dövlətimizin başçısı hazır məhsulun təqdimatı otağında oldu. Bildirildi ki, zavodun 700 hektar bağ sahəsinə 4 illik yoxlamadan sonra «BİO» sertifikat verilmişdir.*

*Zavodla tanışlıqdan sonra dövlətimizin başçısı müəssisənin kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*30 oktyabr 2011-ci il*

Sizi ürəkdən salamlayıram. Yenidən Ağsuda olmağımdan çox məmnunam. Mən çox şadam ki, Ağsu rayonunda işlər yaxşı gedir, rayon gözəlləşir, abadlaşır. 2 il bundan əvvəl gəlmişdim, o vaxtdan bu günə qədər görülən işlər məni çox sevindirir. Deyə bilərəm ki, Ağsu indi Azərbaycanın ən qabaqcıl rayonlarından biridir və bu məni çox sevindirir. Çünki son illər ərzində Ağsuda gedən quruculuq-abadlıq işləri rayonun potensialını böyük dərəcədə gücləndirə bilmişdir. Mən bu gün yeni müəssisələrin açılışında iştirak etmişəm. Yeni gözəl, böyük futbol stadionu açılıbdır, uşaqlar artıq orada məşq edirlər. Yadımdadır, 2 il əvvəl stadionun tikintisi ilə bağlı məlumatı dinləyərkən demişdim ki, Ağsuda futbol komandası yoxdur. Stadion tikiləcəksə, gərək mütləq futbol komandası olsun. Bu gün mənə verilən məlumata görə, komanda yaranıb, uşaqlar da cəlb olunub. Artıq məşq edirlər və bu çox sevindirici haldır.

Digər məsələlər də həll olunur. Siz, burada yaşayanlar yaxşı bilirsiniz ki, küçələr salınır, su xətləri çəkilibdir. Keçən dəfə burada olarkən mənə müraciət olundu ki, Ağsunun su problemi var və suyun tərkibi lazımi səviyyədə deyildir. Vəsait ayrıldı və qısa müddət ərzində su problemləri həll olundu. İndi də bütövlükdə rayonun su-kanalizasiya problemlərinin həlli üçün konkret layihələr icra edilir.

Bu gün yeni müəssisələrin açılışında iştirak etmişəm. Yeni iş yerləri açılır. Əlbəttə ki, bu gün görülən bütün işlərin arasında bu zavodun fəaliyyətə başlaması xüsusi məna daşıyır. Bu zavod nəinki Ağsuda, bəlkə də Azərbaycanda emal sənayesində ən böyük müəssisələrdən biridir. Bütün bölgədə, bütün Cənubi Qafqazda bu sahədə ən böyük müəssisələrdən biridir. Buraya çox böyük investisiyalar qoyulub. Yeni, müasir avadanlıq quraşdırılıb və

texnoloji proses tətbiq edilib. Mənə verilən məlumata görə, dünya standartları səviyyəsindədir və istehsal olunan məhsullar da keyfiyyəti ilə seçilir. Bu məhsullar dünyanın istənilən nöqtəsində satıla bilər və satılır. Zavodun direktoru mənə məlumat verdi ki, biz artıq Avropa ölkələrinə də məhsul ixrac edirik.

Hesab edirəm ki, hər bir müəssisənin işinin keyfiyyətini göstərən məhz bu amildir. Bu həmişə diqqət mərkəzində olmalıdır. Əgər biz inkişaf etmiş ölkələrin bazarlarına məhsullarımızla, hazır məhsullarla çıxa biliriksə, deməli, bu məhsullar lazımi səviyyədədir. Mən çox şadam ki, bu böyük müəssisə artıq fəaliyyətdədir. Bu müəssisənin həm rayonun, həm bölgənin inkişafına çox böyük təsiri olacaqdır. Burada artıq minə yaxın insan işləyir. Gələcəkdə onların sayı daha da artacaqdır. Kəndlilər və fermerlər öz məhsullarını bu zavoda məqbul qiymətlərlə satırlar, təhvil verirlər. Bu, istər-istəməz və bilavasitə kənd təsərrüfatının inkişafına xidmət göstərəcəkdir. Çünki artıq bu zavod fəaliyyət göstərir, məhsulları qəbul edir. Beləliklə, fermerlər maraqlı olacaqlar ki, daha da çox məhsul istehsal etsinlər, daha da çox pul qazansınlar. Zavodun fəaliyyətə başlaması bu məqsədləri təmin edir – kənd təsərrüfatının inkişafı, emal müəssisələrinin, yerli istehsalın yaradılması və ixracyönümlü məhsulların istehsalı. Buna görə də zavodun fəaliyyətə başlaması çox böyük məna daşıyır. Bu sadəcə olaraq, yeni bir obyektin işə düşməsi deyildir. Bu zavodun fəaliyyəti həm Ağsunun, həm qonşu bölgələrin, rayonların inkişafına çox ciddi təsir göstərəcəkdir. Bu zavodun fəaliyyətə başlaması bizim uğurlu iqtisadi siyasətimizin də bariz nümunəsidir. Çünki 2004-cü ildə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının başlaması bugünkü reallıqları təmin edir. Əgər o vaxt proqram qəbul edilməsəydi və biz 2009-cu ildə proqramın ikinci mərhələsinə başlamasaydıq, yəqin ki, bu zavoddan heç söhbət aparmaq da mümkün olmazdı.

Mən bu zavodun fəaliyyətə başlamasına xüsusi diqqət göstərirəm və xüsusi qiymət verirəm. Həm yeni istehsalat sahələri yaradılır, iş yerləri təmin edilir, həm də ölkəyə, ölkə

iqtisadiyyatına şöhrət gətirən keyfiyyətli məhsullar istehsal olunur və dünya bazarlarına çatdırılır. Biz növbəti illərdə çalışmalıyıq ki, ixracımızın coğrafiyasını genişləndirək. Bunu etmək üçün yeni bazarlara çıxırıq. Mən Nazirlər Kabinetinin sonuncu toplantısında bu məsələ ilə bağlı xüsusi tapşırıqlar vermişəm ki, həm bizim üçün ənənəvi olan bazarlara daha da geniş şəkildə çıxmalıyıq, həm də yeni bazarları aşkar etməliyik. Xüsusilə nəzərə almalıyıq ki, bizim üçün dost olan ölkələrdə məhsullarımıza ehtiyac vardır.

Beləliklə, qeyri-neft iqtisadiyyatımızı daha da sürətlə inkişaf etdirəcəyik. Bu ilin 9 ayının yekunları onu göstərir ki, qeyri-neft iqtisadiyyatı uğurla inkişaf edir, 8 faizdən çox artıbdır. Növbəti illərdə də artacaq və Azərbaycan iqtisadiyyatı gələcəkdə daha çox qeyri-neft sektorunun hesabına artmalıdır. O ki qaldı neft-qaz sektoruna, bu sahədə işlər yaxşıdır. Hazırda bu sahədə əldə olunmuş uğurlar bizi qane edir. Növbəti illərdə çalışmalıyıq ki, kənd təsərrüfatı, emal, qeyri-neft sənayesinin inkişafına yeni töhfələr verək, ölkə iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf etsin.

Azərbaycanın bütün bölgələri inkişaf edir, bölgələrdə canlanma vardır. Mən mütəmadi şəkildə bütün bölgələrdə oluram. Vəziyyətlə tanış oluram, tapşırıqlarımı verirəm, yerlərdən də təklifləri alıram.

Bütün bölgələrdə yeni xəstəxanalar açılır. Bu gün Ağdaşda Mərkəzi Rayon Xəstəxanasının açılışında iştirak etmişəm. Ucarda yeni xəstəxana tikilir. Poliklinika, uşaq xəstəxanası açılıbdır. Əlbəttə, Ağsuda da tibbi xidmət olmalıdır, olacaqdır. Mən göstəriş verəcəyəm. Burada da gözəl xəstəxana tikilməlidir.

Hər bir rayonda mütləq xəstəxana olmalıdır. Ən azı bir rayon xəstəxanası yüksək səviyyədə olmalıdır. İndi bu proses geniş vüsət alıbdır. Azərbaycanın müxtəlif bölgələrində bu işlər görülür. Əgər bir qədər tez müraciət etsəydiniz, bəlkə də bu gün xəstəxananın da açılışında iştirak edərdik.

Mən sizi bir daha bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Bütün ağsululara yeni uğurlar arzulayıram.

## Yeni çörək zavodunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 30-da Ağsuda çörək zavodunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı zavodu işə saldı.*

*İstehsal prosesi ilə tanışlıq zamanı Azərbaycan prezidentinə məlumat verildi ki, müəssisə əsas sexdən və yardımçı sahələrdən ibarətdir. Burada Rusiya və Ukraynanın bu sahə üzrə ixtisaslaşmış zavodlarında buraxılan ən müasir çörəkbişirmə sobasının, qıcqırtma avadanlığının və digər qurğuların quraşdırılması yüksək keyfiyyətli məhsul hazırlamağa imkan verir. Zavod mühəndis kommunikasiyaları ilə tam təmin olunmuşdur. Sutka ərzində əhalini 5 ton çörəklə təmin edəcək müəssisədə 12 nəfər işləyəcəkdir.*

*Çörək məhsulları satış şəbəkəsinə xüsusi ixtisaslaşmış avtomaşınlarla daşınacaqdır. Zavodun ərazisi yüksək səviyyədə abadlaşdırılmışdır.*

*Dövlətimizin başçısı zavodun açılışı münasibətilə təbriklərini çatdırdı, kollektivə uğurlar arzuladı.*

## Bakı–Şamaxı–Yevlax avtomobil yolunun Muğanlı–Yevlax hissəsinin əsaslı şəkildə yenidən qurulması ilə bağlı görülmüş işlərlə tanışlıq

*Oktyabrın 30-da Azərbaycan prezidenti İlham Əliyev Ağsu rayonundan qayıdarkən Bakı–Şamaxı–Yevlax avtomobil yolunun Muğanlı–Yevlax hissəsinin əsaslı şəkildə yenidən qurulması ilə bağlı görülmüş işlərlə tanış olmuşdur.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, hazırda ölkəmizdə icra olunan çoxsaylı yol-nəqliyyat infrastrukturu layihələrindən biri dövlətimizin başçısının tapşırığı ilə Bakı–Şamaxı–Yevlax avtomobil yolunun Muğanlı–Yevlax hissəsinin əsaslı şəkildə yenidən qurulmasıdır. Ölkəmizin mühüm regionlarını birləşdirməsi baxımından əhəmiyyət daşıyan bu yol*

*uzun müddət əsaslı təmir edilmədən istismarda olmuşdur. Buna görə də prezident İlham Əliyevin tapşırığı ilə 2010-cu ilin martından yolun əsaslı şəkildə yenidən qurulmasına başlanılmışdır.*

*Prezident İlham Əliyev burada görülən işləri əks etdirən stendlərə baxdı, yolun vaxtında və yüksək səviyyədə yenidən qurulması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## «Şərədil» İstirahət Mərkəzi ilə tanışlıq

*Oktyabrın 30-da prezident İlham Əliyev Ağsu rayonundan qayıdarkən Şamaxıdakı «Şərədil» İstirahət Mərkəzi ilə tanış olmuşdur.*

*Bildirildi ki, son illərdə Azərbaycanda turizm infrastrukturunun yaradılması istiqamətində dövlətimiz tərəfindən ardıcıl addımlar atılır. Bu baxımdan «Azərbaycan Respublikasında 2007–2016-cı illər üçün turizmin inkişafına dair Dövlət Proqramı»nın qəbul edilməsi, 2011-ci ilin «Turizm ili» elan olunması ölkəmizin tezliklə dünyanın turizm mərkəzlərindən birinə çevrilməsi üçün geniş imkanlar açmışdır.*

*Prezident İlham Əliyev inşa ediləcək «Şamaxı-Qrand» otelinin layihəsi ilə də tanış oldu. Tikintisinə 2010-cu ildə başlanılan otelin gələn il istifadəyə verilməsi nəzərdə tutulur. Oteldə 95-i standart, 19-u isə lüks olmaqla, ümumilikdə 114 nömrə turistlərin istifadəsinə veriləcəkdir. Oteldə hər biri 500 nəfərlik üç konfrans zalı yaradılacaqdır. Burada müxtəlif idman meydançalarının tikintisi də nəzərdə tutulmuşdur.*

*Dövlətimizin başçısı istirahət mərkəzində yaradılmış şəraiti yüksək qiymətləndirdi, «Şamaxı-Qrand» otelinin tikintisi ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.*

## KOREYANIN SK ŞİRKƏTLƏR QRUPUNUN SƏDRİ GEY TAE-VONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 oktyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Koreyanın SK şirkətlər qrupunun sədri Çey Tae-vonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Çey Tae-von rəhbərlik etdiyi şirkətlər qrupunun Azərbaycanda gördüyü işlər barədə dövlətimizin başçısına məlumat verdi. Qonaq şirkətlər qrupunun Azərbaycanın sürətli iqtisadi inkişafını nəzərə alaraq nəqliyyat sektorunda, o cümlədən avtomobil və dəmir yollarının salınmasında, metro tikintisində, eləcə də informasiya texnologiyaları və qeyri-neft sektorunda həyata keçirilən layihələrdə iştirak etməkdə maraqlı olduğunu dedi.*

*Dövlətimizin başçısı Koreyanın SK şirkətlər qrupunun Bakıda Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin inşası ilə bağlı fəaliyyətinin önəmini qeyd etdi. Prezident İlham Əliyev SK şirkətlər qrupunun sədri Çey Tae-vonun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi.*

*Görüşdə SK şirkətlər qrupunun ölkəmizdəki fəaliyyətinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

# TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRİ SADULLAH ERGİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Türkiyə Respublikasının Ədliyyə naziri Sadullah Erginin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ədliyyə naziri Sadullah Ergin Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, nazir kimi ilk rəsmi səfərini Azərbaycana etməsindən məmnunluğunu bildirdi. Ölkələrimizin ədliyyə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayan Sadullah Ergin bu əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında əlaqələrin bütün istiqamətlərdə, o cümlədən ədliyyə sahəsində uğurla inkişaf etdiyini vurğuladı. Sadullah Erginin Ədliyyə naziri vəzifəsinə təyin olunduqdan sonra ilk rəsmi səfərini qardaş ölkəyə etməsinə toxunan prezident İlham Əliyev bunun ölkələrimiz arasında artıq gözəl bir ənənəyə çevrildiyini dedi. Bu yaxınlarda Türkiyənin İzmir şəhərində keçirilən Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasını xatırladan dövlətimizin başçısı əlaqələrimizin daha da genişləndirilməsi baxımından toplantının böyük önəm daşıdığını qeyd etdi.*

*Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını qardaş ölkənin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERASİYASININ HESABLAMA PALATASININ SƏDRİ SERGEY STEPAŞİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Rusiya Federasiyasının Hesablama Palatasının sədri Sergey Stepaşini qəbul etmişdir.*

*Rusiya Federasiyasının Hesablama Palatasının sədri Sergey Stepaşin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 20 illiyi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşlərini böyük məmnunluq hissi ilə xatırladı. Sergey Stepaşin Rusiya Federasiyasının Hesablama Palatası ilə Azərbaycan Respublikasının Hesablama Palatası arasında əməkdaşlığın yaxşı perspektivləri olduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Rusiya Federasiyasının Hesablama Palatasının sədri Sergey Stepaşinin Azərbaycana səfərinin ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

# RESPUBLİKA UŞAQ KLİNİK XƏSTƏXANASINDA ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*1 noyabr 2011-ci il*

*Noyabrın 1-də Respublika Uşaq Klinik Xəstəxanası əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müalicə ocağında görülmüş işlərlə tanış olmuşdur.*

*Xəstəxananın foyesində ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkəmizdə səhiyyənin inkişafı, xüsusilə də uşaqların sağlamlığı ilə bağlı həyata keçirdikləri tədbirlərin əks olunduğu fotolardan ibarət stend yaradılmışdır.*

*Dövlətimizin başçısı xəstəxananın təmirdən əvvəlki vəziyyətini əks etdirən fotolara baxdı.*

*Səhiyyə naziri Oqtay Şirəliyev görülmüş işlər barədə məlumat verdi ki, 1986-cı ilədək Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirilmə İnstitutunun yataqxanası kimi fəaliyyət göstərmiş binada heç vaxt əsaslı təmir işləri aparılmamışdır. Ərazisi 5500 kvadratmetr olan dördmərtəbəli binada yenidənqurma işlərinə ötən il başlanılmış və bu məqsədlə Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır. Təmir-bərpa işlərinin yüksək səviyyədə aparıldığı xəstəxanada reanimasiya, kardiologiya, pediatriya və konsultativ-poliklinika şöbələri fəaliyyət göstərir. Cərrah, pediatr və digər həkim otaqlarında tibb işçilərinin nümunəvi xidmət göstərmələri üçün hərtərəfli şərait yaradılmışdır.*

*Səhiyyə ocağında yaradılan şəraitlə yaxından tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## AZƏRBAYCAN DÖVLƏT MAHNI TEATRININ BİNASININ ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*1 noyabr 2011-ci il*

*Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Dövlət Mahnı Teatrının binasının əsaslı bərpa və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına məlumat verdi ki, teatrın binasında bərpa və yenidənqurma işlərinə 2010-cu ilin sentyabrından başlanılmışdır. Bu, 1988-ci ildən bəri aparılan ilk əsaslı təmirdir. Yenidənqurma zamanı binanın memarlıq üslubu qorunub saxlanılmışdır.*

*Prezident İlham Əliyev teatr binasının tamaşa zalı ilə tanış oldu. Bildirildi ki, 214 yerlik zalda ən müasir havalandırma sistemi qurulmuşdur. Ötən müddətdə binanın fasadı, foyesi əsaslı təmir olunmuş, qapı-pəncərələr, oturacaqlar yenilənmiş, xidməti otaqlar, zal, səhnə yenidən qurulmuşdur. Teatrın işıq qurğuları İtaliya, səs avadanlığı isə ABŞ istehsalıdır.*

*Bildirildi ki, Dövlət Mahnı Teatrının binası yeni mövsümdə qapılarını tamamilə müasir görkəmdə tamaşaçıların üzünə açacaqdır.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## DƏNİZKƏNARI MİLLİ PARKIN ƏRAZİSİNDƏ APARILMIŞ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*1 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dənizkənarı Milli Parkda «Kiçik Venesiya şəhərciyi» adlanan ərazidə həyata keçirilən əsaslı yenidənqurma, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin yeni binasının inşası və Yeni Bulvar ərazisində aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, burada əsaslı yenidənqurma və bərpa işlərinə bu ilin iyununda başlanılmışdır. Ümumi sahəsi 9740 kvadratmetr olan şəhərcikdə işlərin böyük əksəriyyəti artıq başa çatdırılmışdır.*

*Prezident İlham Əliyev şəhərciyin yenidənqurmadan sonrakı görüntülərini əks etdirən stendlərə baxdı. Bildirildi ki, ərazidə bütövlükdə tikinti və yenidənqurma işləri gələn ilin fevralında yekunlaşdırılacaqdır. Burada yaradılan ümumi uzunluğu 1350, dərinliyi isə 1,3 metr olan kanalda 10 qayığın üzməsi nəzərdə tutulmuşdur. İstirahətə gələn vətəndaşların və qonaqların şəhərciyin ərazisində həm qayıqda, həm də piyada sərbəst hərəkəti üçün altı körpü və bir tunel tikilmişdir. Kanalların doldurulması üçün min kubmetr həcmində su anbarı, 600 kubmetr həcmində isə sutəmizləyici sahə yaradılmışdır. Kanalların doldurulması üçün 7 min kubmetr su sərf olunacaqdır.*

*Şəhərciyin ərazisində iki restoran da inşa edilir. Restoranlarda müştərilərə Azərbaycan, Şərq və Avropa mətbəxinin nümunələri təqdim olunacaqdır. Əsl Venesiyanı xatırladacaq «Kiçik Venesiya şəhərciyi» öz gözəlliyi ilə paytaxta xüsusi yaraşıq verəcəkdir.*

*Sonra prezident İlham Əliyev Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün Dənizkənarı Milli Parkın*

*ərazisində inşa edilən yeni binada tikinti işlərinin gedişi ilə maraqlandı.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin və YUNESKO-nun birgə layihəsi əsasında inşa edilən binanın tikintisinə 2008-ci ilin mayında başlanılmışdır. Milli memarlıq ənənələrinə daha çox üstünlük verilən Xalça Muzeyinin dördmərtəbəli yeni binasının tikintisi başa çatmaq üzrədir. Ümumi sahəsi 18 min kvadratmetrdən çox olan binanın birinci mərtəbəsində muzeyə gələn qonaqlar üçün guşələr, inzibati və elmi zona, eksponatlar saxlanılan xüsusi yerlər, ikinci mərtəbədə kitabxana, xalçatoxuma və tikmə elmi mərkəzi, suvenir və kitab köşkü, üçüncü mərtəbədə danışıqlar və audio-vizual təqdimat otaqları yaradılacaqdır. Dördüncü mərtəbədə isə sərgi salonları və görüş otaqları yerləşəcəkdir. Binanın zirzəmisində ən müasir avadanlıqlarla təchiz olunan arxiv, anbar, laboratoriya, bərpa və konservasiya şöbələri fəaliyyət göstərəcəkdir. Burada, həmçinin açıq havada heykəllərin və xalçaların nümayişi üçün də sahə nəzərdə tutulmuşdur. Binanın ətrafında yaşıllaşdırma işləri aparılacaq, muzey kompleksi yaradılacaqdır.*

*Muzeyin yeni binası istifadəyə verildikdən sonra burada 200 nəfərin çalışacağı nəzərdə tutulmuşdur. Yeni bina Bakının memarlıq ansamblına xüsusi gözəllik gətirəcəkdir.*

*Azərbaycan prezidenti daha sonra Dənizkənarı Milli Parkın Yeni Bulvar adlanan hissəsinə gəldi.*

*Bakı bulvarının Dövlət Bayrağı Meydanı ilə birləşdirilməsi istiqamətində aparılan tikinti işlərinin gedişi ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, Yeni Bulvarın uzunluğu 1800 metrədəkdir. Burada 25 metr enində hərəkət və gəzinti zolağı inşa olunur. Bu hissədə işlər artıq başa çatmaq üzrədir. Burada Dənizkənarı Milli Parka aid avtomobillərin hərəkəti üçün yol da inşa olunacaqdır.*

*Prezident İlham Əliyev Yeni Bulvarın planının əks olunduğu stendə baxdı. Bildirildi ki, gəzinti zolağı boyunca yaşıllıqlar salınacaq, istirahət guşələri yaradılacaq, uşaqlar üçün*

*attraksionlar quraşdırılacaqdır. Dənizkənarı Milli Parkın mövcud hissəsinə birləşərək Dövlət Bayrağı Meydanına qədər uzanan Yeni Bulvarda əhalinin istirahəti üçün bütün şərait yaradılacaqdır. Burada inşaat işlərinin gələn ilin aprelində başa çatdırılması nəzərdə tutulmuşdur.*

*Qeyd olundu ki, köhnə gəmi təmiri zavodunun yerləşdiyi ərazidə təmizləmə işləri daha da sürətləndirilmişdir. Ümumi sahəsi 43 min kvadratmetr olan Yeni Bulvarın ərazisində 34 min kvadratmetr sahədə betonlanma işləri həyata keçirilmişdir.*

*Dövlətimizin başçısı paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının asudə vaxtlarını səmərəli keçirmələri üçün burada ən müasir əyləncə və yeni xidmət növlərinin yaradılması ilə bağlı tapşırıqlarını verdi.*

## BOLQARISTAN RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİYEVƏ

Hörmətli cənab Plevneliyev!

Bolqarıstan Respublikasının Prezidenti vəzifəsinə seçkilərdə qələbə qazanmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan və Bolqarıstanı ənənəvi dostluq və əməkdaşlıq əlaqələri birləşdirir. Ümidvaram ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişafı istiqamətində səylərimiz daim xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Bolqarıstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 noyabr 2011-ci il*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ANDRİS BERZİNŞƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Latviya Respublikasının Elan Edilməsi Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–Latviya münasibətləri hərtərəfli inkişaf etməkdədir. Əminəm ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, ölkələrimizi birləşdirən ənənəvi dostluq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində bundan sonra da səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Latviya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 noyabr 2011-ci il*

**OMANIN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ**

Əlahəzrət!

Omanın milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Oman arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin inkişafı daim xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Oman xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 noyabr 2011-ci il*

**LİVAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİŞEL SÜLEYMANA**

Hörmətli cənab Prezident!

Livan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Livan münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Livan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 noyabr 2011-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**DÖVLƏT KATİBİ**
**XANIM HİLLARİ KLİNTONA**

Hörmətli xanım Klinton!

Ananız xanım Doroti Rodemin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 noyabr 2011-ci il*

## ARGENTİNANIN ELM, TEXNOLOGİYA VƏ PRODUKTİV İNNOVASİYA NAZİRİ LİNO BARANAO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Argentina Respublikasının Elm, Texnologiya və Produktiv İnnovasiya naziri Lino Baranaonu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Argentina arasında fəal əməkdaşlığın yaradıldığını vurğuladı. Latın Amerikası ölkələrindən ilk dəfə Argentina Respublikasında Azərbaycan Respublikası səfirliyinin açıldığını qeyd edən prezident İlham Əliyev bildirdi ki, regional əməkdaşlığın inkişaf etdirilməsi üçün ölkələrimiz bir-birilərinin imkanlarından istifadə etməlidir. Lino Baranaonun Argentina Respublikasından Azərbaycana səfər edən ilk nazir olduğunu vurğulayan dövlətimizin başçısı əlaqələrimizin genişləndirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd etdi.*

*Nazir Lino Baranao Azərbaycana ilk dəfə səfər etdiyini və ölkəmizdə böyük iqtisadi inkişafın şahidi olduğunu dedi. Azərbaycanın strateji bir mövqedə yerləşdiyini vurğulayan nazir ölkəsinin Azərbaycan ilə tərəfdaşlıq əlaqələri qurmağa böyük önəm verdiyini bildirdi.*

**QIRĞIZ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALMAZBEK ATAMBAYEVƏ**

Hörmətli Almazbek Şerşenoviç!

Qırğız Respublikasının Prezidenti vəzifəsinə seçkilərdə qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Qırğızıstan arasındakı mövcud dostluq və əməkdaşlıq münasibətlərinin tarixi ənənələri xalqlarımızın yekdil iradəsinə uyğun olaraq bundan sonra da yaşayacaq və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Qırğız xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 noyabr 2011-ci il*

# DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU ƏSƏD ALAM İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Əsəd Alamı qəbul etmişdir.*

*Əsəd Alam Dünya Bankının vitse-prezidenti Filip Le Uerunun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan Respublikasının müstəqilliyinin 20 illiyi və ötən dövr ərzində ölkəmizin əldə etdiyi iqtisadi uğurlar münasibətilə dövlətimizin başçısını təbrik etdi. Əsəd Alam təmsil etdiyi qurumun Azərbaycan ilə uğurlu əməkdaşlığından məmnunluğunu bildirdi.*

*Dünya Bankının Azərbaycan ilə əməkdaşlığını yüksək qiymətləndirən prezident İlham Əliyev gələcəkdə də ümumi maraq doğuran layihələrə dəstək veriləcəyini bildirdi.*

*Görüşdə 2011-ci ildə ölkəmizin qeyri-neft sektorunun sürətlə inkişaf etdiyi vurğulandı, Azərbaycanda həyata keçirilən birgə layihələrin önəmi qeyd olundu, sosial infrastruktur layihələri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Dünya Bankının vitse-prezidenti Filip Le Uerunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Dünya Bankının vitse-prezidentinə çatdırmağı xahiş etdi.*

## MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSININ SƏDRİ VOLFQANQ İŞİNGER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Münhen Təhlükəsizlik Konfransının sədri Volfqanq İşingeri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Avropa İttifaqı əlaqələri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, enerji sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Müqəddəs Qurban bayramı münasibətilə sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İslamın bir din kimi tamamlanmasını və hidayət yolu olaraq bəşəriyyətə göndərilməsini özündə ehtiva edən Qurban mərasimləri müsəlmanlara xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olmanın və Uca Yaradana yaxınlığın fərəhini yaşatmaqla, insanları sülhə, əmin-amanlığa və qardaşlıq yoluna dəvət edir.

Azərbaycan xalqının mənəvi-əxlaqi dəyərlər sistemində Qurban bayramının xüsusi yeri vardır. Xalqımız yüz illərdir ki, Allah və din yolunda mənəvi borcunu böyük təntənə ilə yerinə yetirir. Bu günlər ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, dövlətimizin firavanlığı və tərəqqisi üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Humanizm, xeyirxahlıq və bərabərlik rəmzi olan Qurban bayramı cəmiyyətimizdə milli-mənəvi həmrəyliyi və dözümlülük ovqatını daha da gücləndirir, insanlar arasında şəfqət və mərhəmət duyğularının təntənəsini nümayiş etdirir. Bu mübarək gündə bir daha hamınıza Ulu Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 noyabr 2011-ci il*

## İSRAİLİN MİLLİ İNFRASTRUKTUR NAZİRİ UZİ LANDAU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da İsrail dövlətinin Milli İnfrastruktur naziri Uzi Landaunu qəbul etmişdir.*

*Nazir Uzi Landau İsrail dövlətinin Prezidenti Şimon Peresin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə İsrail arasında iqtisadi, sənaye, infrastruktur sahələri ilə bağlı əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Şimon Peresin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İsrail dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## NORVEÇİN «STATOYL» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU HELGE LUND İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Norveçin «Statoyl» şirkətinin baş icraçı direktoru Helge Lundu qəbul etmişdir.*

*«Statoyl» şirkətinin baş icraçı direktoru Helge Lund Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv qəbul olunması münasibətilə prezident İlham Əliyevi təbrik etdi. O, dövlətimizin başçısı ilə Davosda keçirdiyi görüşü məmnunluqla xatırlatdı. Helge Lund təmsil etdiyi «Statoyl» şirkətinin Azərbaycandakı fəaliyyətinə yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıq etdi.*

*Azərbaycan prezidenti «Statoyl» şirkətinin ölkəmizdəki uğurlu fəaliyyətini yüksək qiymətləndirdi.*

*Görüşdə «Statoyl» şirkətinin Azərbaycandakı birgə layihələrdə iştirakı və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ PAL ŞMİTTİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 noyabr 2011-ci il*

*Noyabrın 11-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Macarıstan Respublikasının Prezidenti Pal Şmittin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstan Respublikasının Prezidenti Pal Şmitti qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Macarıstan Respublikasının Prezidentinə raport verdi.*

*Macarıstanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Macarıstan Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Pal Şmittə, Macarıstan nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ PAL ŞMİTT İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*11 noyabr 2011-ci il*

*Noyabrın 11-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstan Respublikasının Prezidenti Pal Şmittin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.*

*Macarıstan Respublikasının Prezidenti Pal Şmittin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd edildi.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 noyabr 2011-ci il*

*Noyabrın 11-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstan Respublikasının Prezidenti Pal Şmittin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar! Sizin hamınızı bir daha ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Bu, Macarıstan prezidentinin Azərbaycana ilk səfəridir. Əminəm ki, səfərin çox yaxşı nəticələri olacaqdır.

İkitərəfli əlaqələrimiz uğurla inkişaf edir. Biz artıq Sizinlə bu barədə fikir mübadiləsi apardıq. Mən tam əminəm ki, Sizin səfəriniz bu əlaqələrin inkişafına dəyərli töhfə verəcəkdir.

Siyasi əlaqələr iqtisadi sahədə əlaqələrin inkişafına da güclü təkan verir. Mən inanıram ki, bu gün keçiriləcək biznes-forum da iqtisadi sahədə əlaqələrin inkişafı üçün çox əhəmiyyətli olacaq, Macarıstan–Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyacaqdır.

Bir daha Sizi salamlayıram, xoş gəlmisiniz!

**P a l Ş m i t t:** Hörmətli cənab Prezident!

Mən həm Sizin qarşınızda, həm Azərbaycan hökumətinin üzvləri qarşısında Azərbaycana Macarıstan prezidenti kimi, ilk səfərimdən böyük məmnunluq duyduğumu bildirmək istəyirəm.

Biz Azərbaycanın müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümü ilə əlaqədar Sizi təbrik edirik. Qısa müddət ərzində çox yüksək nəticələr əldə etmisiniz. Avropada bu nəticələr haqqında deyirlər ki, Avropadakı ölkələrə bu nəticələri əldə etmək üçün bəlkə də 100 il lazım olardı.

Çox şadam ki, Siz Macarıstanı Azərbaycanın strateji tərəfdaşı hesab edirsiniz. Avropada Macarıstanın mövqeyini

nəzərə alaraq biz Sizin yaxın tərəfdaşınız da ola bilərik və əslində tərəfdaşınızıq. Eyni zamanda, ölkələrimiz bir-birinə dostcasına, mehribancasına yanaşır.

Hesab edirəm ki, bütövlükdə ölkələrimiz qarşısında istifadə olunmalı bir çox imkanlar vardır.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*11 noyabr 2011-ci il*

*Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstan Respublikasının Prezidenti Pal Şmittin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Macarıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Macarıstan Respublikasının Milli İqtisadiyyat Nazirliyi arasında vergi inzibatçılığı sahəsində əməkdaşlığa dair Memorandum»u Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı səfiri Vilayət Quliyev və Macarıstan Respublikasının Vergilər Agentliyinin müdirinin müavini Arnold Mixay imzaladılar.*

*«Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Macarıstan Respublikasının Müdafiə Nazirliyi arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyev və Macarıstanın Azərbaycandakı səfiri Jolt Çutora imzaladılar.*

*«Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Macarıstan Respublikasının Dövlət İdarəçiliyi və Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov və Macarıstan Respublikasının Dövlət İdarəçiliyi və Ədliyyə Nazirliyinin Dövlət katibi Robert Repassi imzaladılar.*

*«Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Macarıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Daxili İşlər naziri Ramil Usubov və Macarıstan*

*Respublikası Daxili İşlər Nazirliyinin Dövlət katibi Andras Tallai imzaladılar.*

*«Azərbaycan Respublikasının Hökuməti və Macarıstan Respublikasının Hökuməti arasında fövqəladə hallar zamanı əməkdaşlıq və qarşılıqlı yardım sahəsində Saziş»i Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Macarıstan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət katibi Andras Tallai imzaladılar.*

# MACARISTAN PREZİDENTİ PAL ŞMİTT İLƏ BİRGƏ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLAR

*11 noyabr 2011-ci il*

*Noyabrın 11-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstan Respublikasının Prezidenti Pal Şmitt mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Cənab Prezident, Sizi və nümayəndə heyətinizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır. Bu, Macarıstan prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Ona görə bu səfər tarixi xarakter daşıyır və şadam ki, səfər çox uğurlu keçir.

Bu gün keçirdiyimiz danışıqlar, apardığımız müzakirələr Macarıstan–Azərbaycan əlaqələrinin yüksək səviyyədə olduğunu bir daha təsdiq edir. Doğrudan da aramızda çox gözəl siyasi əlaqələr vardır. Bu əlaqələr artıq sınaqdan keçibdir. Biz beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq edirik və Sizin səfəriniz, əlbəttə ki, siyasi əlaqələrə yeni təkan verəcəkdir. Bilirəm ki, Sizinlə birlikdə Azərbaycana biznes dairələrini təmsil edən böyük heyət gəlmişdir. Bu gün Macarıstan–Azərbaycan biznes-forumu da keçirilir və əminəm ki, biznes dairələri arasında olan əlaqələr iqtisadi əməkdaşlığımıza da güclü təkan verəcəkdir. Biz bu sahədə hələ işləməliyik. İqtisadi əməkdaşlıq siyasi əməkdaşlığın səviyyəsinə çatmalıdır.

Əminəm ki, biznes-forumun keçirilməsi bu işdə bizə kömək göstərəcəkdir.

İqtisadi sahədə uğurlu əməkdaşlıq aparmaq üçün çox yaxşı imkanlar, perspektivlər vardır, ölkələrin potensialı da kifayət qədər güclüdür. Sadəcə, biznes strukturları bir-biri ilə daha da sıx əlaqədə olmalıdırlar. Bu gün müzakirə etdiyimiz məsələlərin arasında regional təhlükəsizlik məsələlərinə də toxunduq. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini mən Sizə ifadə etdim. Bizim mövqemiz beynəlxalq hüquq normalarına əsaslanır. Beynəlxalq təşkilatların qəbul etdiyi qətnamə və qərarlar əsasında formalaşmışdır. Bu münaqişənin həlli beynəlxalq hüquq normaları əsasında olmalıdır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra edilməlidir. Ermənistanın işğalçı qüvvələri Azərbaycanın torpaqlarından çıxarılmalıdır. Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar. Məsələ ilə bağlı kifayət qədər böyük sayda qərarlar verilmişdir. Beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz ədalətli mövqeyini bildirmişdir. Ümid edirik ki, tezliklə bu məsələ beynəlxalq normalar əsasında, Azərbaycanın ərazi bütövlüyü şərti ilə həllini tapacaqdır.

Bu gün energetika sahəsində əməkdaşlığa da öz münasibətimizi bildirdik. Bu sahədə Macarıstan ilə Azərbaycan arasında əlaqələrin çox gözəl perspektivləri vardır. Mən ümid edirəm ki, yaxın illərdə bu sahədə, xüsusilə qaz sahəsində ölkələrimiz arasında əməkdaşlığın yeni formaları yaranacaqdır. Azərbaycan zəngin təbii ehtiyatlara malik olan ölkədir. Təşəbbüsümüzlə həyata keçirilən enerji layihələri nəinki bizim, region ölkələrin enerji təhlükəsizliyini də təmin edir. Avropa ölkələri ilə enerji sahəsində əməkdaşlığımız çox uğurludur. Azərbaycan nefti artıq bir neçə il ərzində Avropa bazarlarına çıxarılır və əminəm ki, qazla bağlı təşəbbüslərimiz də bizə eyni səviyyədə uğur gətirəcəkdir. Əlbəttə ki, enerji sahəsindəki əməkdaşlıq iki ölkə arasındakı əlaqələrə yeni təkan verəcəkdir. Mən çox şadam ki, ölkələrimizin enerji şirkətləri də çox sıx əməkdaşlıq edirlər. Bu

əməkdaşlıq Macarıstan–Azərbaycan əlaqələrinin inkişafına müsbət təsir göstərməkdədir.

Azərbaycan Avropa İttifaqı ilə enerji sahəsində, xüsusilə «Cənub Qaz Dəhlizi» ilə bağlı uğurlu əməkdaşlıq edir. Bu məsələ ilə bağlı bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında Bəyannamə imzalanmış, işçi qrupu yaradılmışdır. Hazırda işçi qrupunun nümayəndələri «Cənub Qaz Dəhlizi»nin reallaşması üçün səylərini göstərməkdədirlər. Enerji sahəsindəki əməkdaşlıq Avropa İttifaqı–Azərbaycan əlaqələrinin inkişafına müsbət təsir göstərəcəkdir. Bu əməkdaşlıq qarşılıqlı maraqlar üzərində qurulubdur. Bütövlükdə Avropa İttifaqı–Azərbaycan əlaqələri uğurla inkişaf edir. Macarıstan bütün dövrlərdə bu əməkdaşlığa öz dəstəyini vermişdir. Biz bu dəstəyi bu gün də hiss edirik və buna görə Sizə minnətdarıq.

Bu yaxınlarda «Şərq Tərəfdaşlığı» sammiti keçirilmişdir və Azərbaycan sammitdə iştirak etmişdir. Əldə edilmiş nəticələr imkan verəcək ki, növbəti illərdə Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr yeni mərhələyə qədəm qoysun.

Bu gün biz Sizinlə mədəniyyət, humanitar sahədə əməkdaşlığa da toxunduq. Bu sahədə əməkdaşlığın qədim tarixi kökləri vardır. Bizim ölkələrin vətəndaşları bir-birini daha da yaxından tanımalıdırlar, daha da sıx təmasda olmalıdırlar. Əminəm ki, Sizin səfəriniz və bizim cəmiyyətlərə göndərilən çox gözəl və müsbət siqnal, əlbəttə, insanlar arasındakı əlaqələrə də müsbət təsir göstərəcəkdir.

Bütövlükdə, cənab Prezident, qeyd etməliyəm ki, biz Macarıstan ilə əməkdaşlığa çox böyük əhəmiyyət veririk. Bir daha demək istəyirəm ki, bu əməkdaşlığın artıq gözəl tarixi vardır. Gələn il biz diplomatik münasibətlərimizin qurulmasının 20 illiyini qeyd edəcəyik. Münasibətlərimizin mahiyyəti və məzmunu da çox dəyərlidir. Ən önəmlisi ondan ibarətdir ki, perspektivlər də çox ümidvericidir.

Mən Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, bir daha Sizə «Xoş gəlmisiniz!» – deyirəm.

## Macarıstan prezidenti Pal Şmittin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli media nümayəndələri, xanımlar və cənablar!

Mən bir daha bəyan etmək istəyirəm ki, bu dəvətə görə prezident İlham Əliyevə dərin təşəkkürümü bildirirəm. Əslində bu elə bir fürsətdir ki, xalqlarımız bir-birinə daha da yaxınlaşır və öz aralarında daha sıx əlaqələr qururlar.

Cənab Prezident artıq Macarıstana səfər etmişdir. Bir il öncə Baş nazir Orban Azərbaycana səfər etmiş və bu səfərlər zamanı çox mühüm danışıqlar aparılmışdır.

Mən Macarıstan prezidenti kimi, Azərbaycana, müstəqil ölkənizə ilk səfərimi edirəm və mən burada tək deyiləm. Mühüm hökumət üzvləri, ölkəmizin işgüzar dairələrinin təmsilçiləri məni müşayiət edirlər. Mən dərin təşəkkürümü bildirirəm ki, burada biznes-forum təşkil olunacaqdır. Mən şəxsən öz mövqemi bildirmək istəyirəm ki, biz münasibətlərimizin inkişafına çox ciddi şəkildə yanaşırıq.

Fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, biz Birləşmiş Millətlər Təşkilatı çərçivəsində çox dostcasına, mehribancasına bir mübarizə apardıq. Biz də istərdik ki, qeyri-daimi üzvlüyə seçilək. Lakin Azərbaycanın qələbəsi, həmçinin bizim də ürəyimizcə oldu. Biz Azərbaycana sıx, yaxın tərəfdaş kimi yanaşırıq. Bizim mədəni köklərimiz vardır. Biz burada bir çox sözləri məhz bu sahəyə aid söylədik. Həmçinin ikitərəfli münasibətlər çərçivəsində, Macarıstan ilə Azərbaycan arasındakı əlaqələr sahəsində və eyni zamanda, Avropa İttifaqı ilə münasibətlər sahəsində bir çox addımları atırıq. Biz bundan sonra da əlimizdən gələni edəcəyik ki, Azərbaycan xalqı mümkün qədər qısa müddət ərzində asanlıqla vizalar ala bilsin və səfərlər etsin. Mən çox şadam ki, bu danışıqlar sürətləndiriləcəkdir.

Biz bu gün çox mühüm danışıqlar apardıq. Əslində bizim görə biləcəyimiz işlər, xalqlarımız, azərbaycanlı dostlarımız

üçün görəcəyimiz işlər, əsasən kənd təsərrüfatı, suvarma, suyun təmizlənməsi sahələrindəki işlərə aid olan məsələlərdir ki, Macarıstanın bu sahədə böyük təcrübəsi vardır. Macarıstanda əczaçılıq sənayesi inkişaf etmişdir və biz çox istərdik ki, siz də müxtəlif tenderlərdə iştirak edəsiniz.

Mən xüsusilə qeyd etmək istəyirəm ki, hazırda, demək olar, bütün Avropanın diqqəti Bakıya yönəlib. Çünki hamı o ümidlə yaşayır ki, məhz bu marşrutda, buradan Avropaya çatdırılacaq enerji resurslarının marşrutlarında şaxələndirmə təmin olunacaqdır.

Mən mədəniyyət, idman, təhsil, elm sahələrindəki əməkdaşlığımızı da qeyd etmək istərdim. Mən cənab Prezidentin diqqətini bir fakta yönəltdim ki, biz hər il böyük, mühüm tədbirlər keçiririk. Onlardan biri qurultay adlanır və həmin tədbirdə dörddəbir milyon şəxs iştirak edir. Əslində həmin tədbirlər çərçivəsində biz öz ümumi köklərimizi müzakirə edirik. Hesab edirəm ki, ölkələrimiz arasında münasibətlər dostluğa əsaslanır.

Biznes sahəsində də əlaqələrimiz genişlənir və bizim üçün olduqca vacibdir ki, həmçinin insanlar arasında da yaxınlaşma olsun. Biz çox mühüm sazişlərin imzalanmasında iştirak etdik. İki ölkənin əməkdaşlığı bir sıra qanunverici sənədlərlə tənzimlənir. Bu gün imzalanmış sənədlər mühüm əhəmiyyət kəsb edir. Hesab edirik ki, bu, aramızda olan etimadı daha da gücləndirəcək və müvafiq qurumlar arasında əməkdaşlıq genişlənəcəkdir. Mən bundan sonra da qurumlarımızdan təkliflər gözləyirəm. Bu gün bizim növbəti danışıqlarımız olacaq. Mən parlamentin spikeri ilə, Baş nazir ilə görüşlər keçirəcəyəm.

Cənab Prezident, Sizə olduqca minnətdaram, Siz gözəl bir sürpriz hazırlamısınız. Bəstəkar Listin əsərlərinə həsr olunmuş konsert təşkil olunacaqdır. Biz Sizə çox minnətdarıq ki, Avropa musiqisinin təmsilçisinə bu qədər diqqətlə yanaşırsınız.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*11 noyabr 2011-ci il*

*Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Macarıstan Respublikasının Prezidenti Pal Şmittin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Prezident İlham Əliyev Macarıstan dövlətinin başçısını və nümayəndə heyətini Azərbaycanda bir daha salamladı. Bildirdi ki, bu səfər ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafında yeni mərhələ olacaqdır.*

*Səfər çərçivəsində aparılan müzakirələrin faydalı olduğunu deyən Azərbaycan prezidenti bildirdi ki, 2008-ci ildə Macarıstana etdiyi dövlət səfərindən keçən dövr ərzində əlaqələr daha da inkişaf edib, qarşılıqlı səfərlər ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynayıb.*

**İ l h a m  Ə l i y e v:** Macar və Azərbaycan xalqları arasında münasibətlərin qədim tarixi vardır. Hələ XV–XVII əsrlərdə Ağqoyunlu və Səfəvi dövlətləri ilə macar krallıqları arasında diplomatik əlaqələr və ticarət münasibətləri mövcud olmuşdur. Müxtəlif dövrlərdə Azərbaycan ədəbiyyatının görkəmli simalarının əsərləri macar dilinə, macar ədiblərinin əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir. Dünyada məşhur olan Azərbaycan muğamı və simfonik musiqisi Macarıstanda maraqla dinlənilir.

Mən Macarıstan ilə Azərbaycan arasında münasibətlərin inkişafına xüsusi əhəmiyyət verirəm. Macarıstan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Növbəti il isə biz diplomatik münasibətlərimizin qurulmasının 20 illiyini qeyd edəcəyik. Ölkəmizin xarici siyasətində Avropa İttifaqı və Avoatlantik strukturları ilə əməkdaşlıq mühüm yer tutur. Bu gün Azərbaycan regionun əsas iqtisadi mərkəzlərindən biridir və Avropa ölkələrinin enerji təhlükəsizliyinə mühüm töhfə

verir. Bununla yanaşı, Azərbaycan regionda sülhün, sabitliyin tərəfdarıdır.

Tarixi torpağımız olan Dağlıq Qarabağ və ətrafındakı digər 7 rayon 20 ildən artıqdır ki, Ermənistan tərəfindən zəbt olunub. İşğal olunmuş ərazilərdə Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi, ATƏT, Avropa Şurası, NATO, Avropa Parlamenti, İslam Əməkdaşlığı Təşkilatı və digər beynəlxalq təşkilatların qərar və qətnamələri vardır. Bizim qəti mövqemiz bundan ibarətdir ki, münaqişə ancaq beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

**P a l  Ş m i t t:** Azərbaycan və macar xalqları arasında münasibətlərin tarixi uzaq keçmişə təsadüf edir və həmin vaxtlardan etibarən hər iki millət hunlar, skiflər, xəzərlər kimi eyni toplumun bir hissəsi olaraq ümumi qədim irsə malikdirlər və qan qohumluğu, mədəniyyət və dil sahələrində oxşarlıqlar bizi bir-birimizə bağlayır. Gələn ilin avqust ayında Macarıstanda keçiriləcək Millətlər Məclisinin IV qurultayı həmin qan qohumluğunun mühüm təzahürü olacaq və biz həmin tədbirdə Azərbaycan xalqının da nümayəndələrini gözləyirik.

Sizi əmin edirəm ki, Macarıstan Azərbaycanın Avroatlantik inteqrasiyasına yönəlmiş səylərinə böyük dəstək verir. Biz Sizin adət-ənənələrinizə və dəyərlərinizə hörmətlə yanaşırıq. Regionda ən inkişaf etmiş dövlət hesab edirik. Bizim üçün Azərbaycan regionda yaxın dost və mühüm tərəfdaşdır.

Bu səfər mədəniyyət, təhsil və elm sahələrində mövcud münasibətləri daha da dərinləşdirmək üçün yaxşı fürsətdir. Ölkələrimiz iqtisadiyyat, ticarət və enerji sahələrində əlaqələri dinamik şəkildə inkişaf etdirmək üçün yaxşı potensiala malikdir. Mən Azərbaycan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

## AZƏRBAYCAN–MACARISTAN BİZNES-FORUMU

*11 noyabr 2011-ci il*

*Noyabrın 11-də Bakıda Azərbaycan–Macarıstan biznes-forumu keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və Macarıstan prezidenti Pal Şmitt biznes-forumda iştirak etmişlər.*

*Forum iştirakçıları dövlət başçılarını hərarətlə qarşıladılar.*

*Azərbaycan və Macarıstan prezidentləri forumda çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, mən Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Bu gün Macarıstan–Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar bir gündür – Macarıstan prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Bu səfər əlaqələrimizin tarixində xüsusi yer tutacaqdır, çünki bu birinci rəsmi səfərdir.

Mən 3 il əvvəl Macarıstana rəsmi səfər etmişəm və səfərin nəticələri çox uğurlu olmuşdur. O səfərdən sonra ikitərəfli əlaqələrimizin inkişafında yeni mərhələ başlanmışdır. Cənab Prezident, əminəm ki, Sizin səfəriniz də münasibətlərimizin inkişafı üçün çox əhəmiyyətli olacaqdır.

Bu gün keçirdiyimiz görüş və apardığımız danışıqlar, fikir mübadiləsi onu göstərir ki, aramızda çox səmimi münasibətlər mövcuddur. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Biz münasibətlərimizi dostluq, tərəfdaşlıq prinsipləri üzərində qurmuşuq. Əminəm ki, növbəti illərdə bu əlaqələr ancaq güclənəcəkdir. Bunu deməyə əsas verən amillər kifayət qədər

çoxdur. Sizin böyük heyətlə Azərbaycana səfər etməyinizdir. Şübhə etmirəm ki, bu səfər əlaqələrimizin inkişafına yeni və güclü təkan verəcəkdir.

Əlaqələrimiz çoxşaxəlidir, bütün sahələri əhatə edir. Bu əlaqələr tarixi köklər üzərində qurulmuşdur. Bu gün cənab Prezidentlə fikir mübadiləsi əsnasında bu tarixə də nəzər yetirdik. Xalqlarımız arasındakı dostluq əlaqələri böyük tarixə malikdir. Bu çox güclü tarixi zəmin ikitərəfli əlaqələrin inkişafı üçün də əhəmiyyətlidir.

Biz Avropa İttifaqı ilə Azərbaycan arasında olan əlaqələrin inkişafına töhfələrimizi veririk. Macarıstan bütün dövrlərdə Azərbaycanın Avroatlantik strukturlara inteqrasiya siyasətini dəstəkləmişdir. Bu yaxınlarda keçirilmiş «Şərq Tərəfdaşlığı» zirvə görüşü bir daha Avropa İttifaqı–Azərbaycan əlaqələrinin inkişafı üçün önəmli addım olmuşdur, bu əlaqələrin çox gözəl gələcəyi vardır.

Bu gün forumda daha çox iqtisadi sahədəki əməkdaşlıq haqqında söhbət açılacaqdır. Biznes-forum hər iki tərəfin, hər iki ölkənin iqtisadi imkanlarını bir-birinə təqdim edəcəkdir. Buna böyük ehtiyac vardır. İqtisadi əlaqələrimiz güclənərsə, digər sahələrdəki əlaqələrə də çox müsbət təsiri olacaqdır. Biz statistik rəqəmlərə baxanda bəzən təəssüflənirik ki, nə üçün Macarıstan ilə Azərbaycan arasında iqtisadi əlaqələr, ticarət dövriyyəsi istədiyimiz səviyyədə deyildir?! Hesab edirəm, ən başlıca səbəb ondan ibarətdir ki, biznes dairələri bir-birini yaxşı tanımırlar. Hər iki ölkənin iqtisadi potensialı haqqında kifayət qədər məlumat yoxdur. Bu məlumatsızlıq istər-istəməz iqtisadi sahədəki əməkdaşlığı əngəlləyir. Bugünkü biznes-forumun başlıca məqsədi ondan ibarət olmalıdır ki, hər iki ölkənin və bir halda ki, bu forum Azərbaycanda keçirilir, ilk növbədə Azərbaycanın iqtisadi imkanları təqdim edilsin, reallaşan infrastruktur və sənaye layihələri haqqında məlumat verilsin. Azərbaycanda mövcud olan qanunvericilik bazası, vergilərlə bağlı vəziyyət geniş şəkildə təqdim edilsin.

Azərbaycanın iqtisadi inkişafı planlı şəkildə həyata keçirilir. Özəl sektorun bu işlərdə çox böyük rolu vardır. Ölkəmizin ümumi daxili məhsulunda özəl sektorun payı 80 faizdən yuxarıdır. Demək olar ki, bu sahədə çox köklü iqtisadi islahatları artıq başa çatdırmışıq. Müxtəlif dövlət proqramlarımız, konkret icra mexanizmlərimiz vardır. Azərbaycanda, misal üçün, gələn il və ondan sonrakı illərdə görüləcək işlər haqqında konkret sənədlər və layihələr mövcuddur. Əminəm ki, Macarıstanın iş adamları əgər planlarımızla tanış olsalar, Azərbaycanda daha da səmərəli şəkildə fəaliyyət göstərə bilərlər.

Təkcə keçən il iqtisadiyyata 16 milyard dollardan çox sərmayə qoyulmuşdur. Əsas hissəsi yerli – Azərbaycan sərmayəsidir. Xarici investisiyaların cəlb edilməsi üçün ölkədə ardıcıl siyasət aparılır və deyə bilərəm ki, MDB məkanında birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan qabaqcıl yerlərdədir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatına 100 milyard dollardan çox sərmayə qoyulmuşdur ki, bu da hərtərəfli iqtisadi inkişafımıza güclü təkan vermişdir.

Hazırda iqtisadi siyasətlə bağlı əsas prioritet məsələlərimiz ölkə iqtisadiyyatının şaxələndirilməsidir. Energetika amilindən asılılığımızı azaltmaq, özəl sektoru inkişaf etdirmək üçün, həmçinin kiçik və orta sahibkarlığın inkişafı və stimullaşdırılması üçün də konkret proqramlar icra edilir.

Macarıstan şirkətləri Azərbaycanda müxtəlif layihələrdə investorlar kimi iştirak edə bilərlər. Biz bunu alqışlayırıq. Azərbaycanda Macarıstan kapitalı ilə təmin edilmiş müəssisələr yaradıla bilər. Qonşu ölkələrlə iqtisadi sahədə əməkdaşlığımız çox uğurludur, bu müəssisələr həm Azərbaycanın artan bazarını təmin edə, qonşu ölkələrə də Azərbaycanda istehsal olunan məhsul ixrac edilə bilər. Həm Azərbaycan bazarı, həm qonşu ölkələrin böyük bazarları burada yaradılacaq birgə müəssisələrin işləməsi üçün yaxşı şərait yarada bilər. Qeyd etdiyim kimi, Azərbaycanda reallaşan müxtəlif infrastruktur layihələrində Macarıstan şirkətləri iştirak etməlidirlər və biz

bunu alqışlayırıq. Əminəm ki, bu gün burada veriləcək məlumatlar, təqdimatlar kifayət qədər dolğun olacaqdır. Bu da Macarıstan şirkətlərinə köməklik göstərə bilər.

Azərbaycan şirkətləri də indi xaricə sərmayələrin qoyuluşu ilə bağlı öz təşəbbüslərini irəli sürür, müxtəlif ölkələrdə uğurla fəaliyyət göstərir, Avropa qitəsində böyük investisiyaları reallaşdırırlar. İlk növbədə, energetika, turizm, infrastruktur sahələrində. Bütövlükdə iqtisadi siyasətimizin indiki mərhələdəki prioritetləri ondan ibarətdir ki, biz daha çox xarici bazarlara investisiya qoyuluşu ilə məşğul olmalıyıq. Ölkə daxilində təbii ki, inkişafımız üçün lazım olan investisiya layihələri, bütün infrastruktur layihələri icra edilir. Hazırda biz siyasətimizi elə qururuq ki, həm məhsullarımızla, həm maliyyə kapitalımızla xarici ölkələrin bazarlarına çıxa bilək. Burada dövlət və özəl sektor arasındakı tərəfdaşlıq mühüm rol oynaya bilər. Bu imkanları da nəzərdən keçirməliyik.

Azərbaycan iqtisadiyyatı öz dayanıqlığını göstərmişdir. Hətta ən ağır böhranlı illərdə – 2–3 il əvvəl Azərbaycanda iqtisadi artım böyük rəqəmlərlə ölçülürdü. Bütövlükdə son 7-8 il ərzində Azərbaycanda ümumi daxili məhsul 3 dəfə, yəni 300 faiz artmışdır. Sənaye istehsalı da 3 dəfə artmışdır. 900 mindən artıq yeni iş yerləri açılmışdır. Yoxsulluğun səviyyəsi 5 dəfə azalmışdır, dövlət büdcəsinin xərcləri 20 dəfə artmışdır. Bu il də iqtisadi sahədə artım müşahidə olunur və bu artım indi daha çox qeyri-neft sektorunda özünü göstərir. Qeyri-neft sektorundakı artım təxminən 9 faiz səviyyəsindədir. Kənd təsərrüfatında da artım 7 faizdən çoxdur.

Kənd təsərrüfatı məsələlərinə gəldikdə, bu barədə də biz bu gün fikir mübadiləsi apardıq. Macarıstanın bu sahədə çox zəngin təcrübəsi vardır və bu təcrübə bizim üçün də böyük maraq kəsb edir. Bu gün kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, əczaçılıq sahələri üzrə də məlumatlar veriləcəkdir.

Enerji sektoru haqqında danışmamaq mümkün deyildir. Dünyada sənaye üsulu ilə ilk neft Azərbaycanda hasil

edilmişdir. Dəniz yataqlarından da dünya miqyasında ilk neft burada hasil edilmişdir. İkinci dünya müharibəsində Azərbaycan Sovet İttifaqının yanacağının 70–80 faizini vermişdir və faşizm üzərində qələbədə Azərbaycan neftçilərinin müstəsna rolu olmuşdur. Hazırda neftimiz dünya və Avropa bazarlarına ixrac edilir. Bəzi Avropa ölkələrinin enerji balansında Azərbaycan nefti 25–30 faiz təşkil edir.

Azərbaycan dünyada qaz ölkəsi kimi də özünü təqdim etməyə başlamışdır və bu sahədə potensial kifayət qədər böyükdür. Aşkar edilmiş nəhəng qaz yataqları imkan verəcəkdir ki, ən azı 100 il özümüzü və tərəfdaşlarımızı qazla təmin edə bilək. Geniş nəqliyyat şəbəkəmiz vardır. 7 neft-qaz kəmərimiz fəaliyyət göstərir ki, resurslarımızı müxtəlif istiqamətlər üzrə dünya bazarlarına çıxarır. Bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında «Cənub Qaz Dəhlizi» üzrə imzalanmış Bəyannamə əlaqələrin inkişafına da çox müsbət təsir göstərmişdir. Növbəti illərdə Azərbaycan qaz sahəsində Macarıstanla və digər Avropa ölkələri ilə də səmərəli əməkdaşlıq qura biləcəkdir.

Bir daha, cənab Prezident, Sizi salamlayıram, forum iştirakçılarını salamlayıram. Əminəm ki, forumun çox gözəl nəticələri olacaqdır və Macarıstan–Azərbaycan əlaqələrinin inkişafına da töhfəsini verəcəkdir. Diqqətinizə görə sağ olun!

## Macarıstan prezidenti Pal Şmittin çıxışı

Möhtərəm cənab Prezident!

Xanımlar və cənablar, hörmətli dostlar!

Burada biznes-forumun iştirakçılarını salamlamaqdan şərəf hissi duyuram. Mən xüsusi məmnunluqla qeyd edirəm ki, biz bu tədbiri cənab prezident Əliyev ilə birgə açırıq. Bu bir daha iqtisadiyyata, iqtisadi sahədə çalışan müxtəlif müəssisələrə verilən xüsusi diqqətin təzahürüdür. Mən səfərim zamanı Azərbaycanı daha yaxşı tanımaq, Azərbaycan prezidenti ilə fikir

mübadiləsi aparmaq imkanı qazandım. Burada gördüyüm bütün işlərdən, aparılan bütün tikinti işlərindən çox məmnun oldum.

Hamımıza məlumdur ki, Azərbaycan Qafqaz regionunun mühüm ölkəsidir. Bizim üçün də strateji tərəfdaşdır, münasibətlərimizi, əlaqələrimizi əngəlləyən hər hansı bir meyar mövcud deyildir. Məqsədimiz müxtəlif sahələrdə əməkdaşlıq etməkdir. Biz maraqlıyıq ki, iki tərəf arasında birbaşa əməkdaşlıq aparılsın, ticarət palatalarımız əməkdaşlıq etsin və hər iki tərəfin birbaşa imkanları olsun. Biz mütləq buna şərait yaratmalıyıq.

Bu yaxınlarda Azərbaycan–Macarıstan iqtisadi münasibətlərində müəyyən tənəzzül müşahidə olunurdu. Biz bunu dəyişməliyik. Azərbaycanın müvafiq nazirlikləri və Macarıstanın dövlət qurumları iqtisadi sahədə lazımi qanunverici bazanı yaradıblar və bu bizim bu sahədəki münasibətlərimizi daha da gücləndirməlidir. Sərmayələrin qorunması və ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı sazişlər artıq qüvvəyə minir. Dövlətlərimizin hökumətlərarası sazişləri də artıq işləyir. Bu səfər çərçivəsində Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi və vergilər sahəsində sazişlər imzalanmışdır.

Qeyd etmək istərdim ki, əvvəlcə hər hansı bir razılaşma üçün bir-birimizi salamlamaq lazım idi. İndi isə müqavilə üçün əlavə əsaslar tələb olunur – bank razılaşmaları və s. Qeyd etmək istəyirəm ki, iradə olan yerdə aramızda birbaşa əlaqələrin qurulması üçün daha yaxşı şəraitlər yaranır.

Əgər 2010-cu ildə bizdə 10 milyon dollar həcmində ticarət dövriyyəsi var idisə, 2011-ci ildə bu rəqəm 78 milyona çatmışdır. Bu da böyük bir tərəqqidir. Hesab edirəm ki, bu sahədə münasibətlərimizin gücləndirilməsi üçün imkanlar vardır. Məhz bu məqsədlə biz bugünkü tədbiri təşkil etmişik. Hesab edirik ki, hər iki ölkənin işgüzar dairələri arasında birbaşa təmaslar olacaqdır. Burada əyləşən şəxslərlə birbaşa təmas o deməkdir ki, hər iki tərəfin maraqlarına cavab verən sazişlər imzalanacaqdır.

Mən bəyan edirəm ki, Azərbaycanda infrastruktur sahəsində aparılan böyük işlər bizdə dərin iftixar hissi yaradır və bu bizim Azərbaycana, Sizin ölkənizə xüsusi münasibətimizin mənbəyidir. Biz bilirik ki, Azərbaycan beynəlxalq sahədə özünəməxsus yer tutur. Macarıstan Respublikası bu yaxınlarda Ticarət evi yaratmaq fikrindədir. Hesab edirəm ki, bu da ikitərəfli münasibətlərin sonrakı inkişafı üçün yaxşı zəmin yaradacaqdır. Arzu edərdik ki, gələcəkdə Budapeştdə Azərbaycanın da Ticarət evi açılsın.

Hörmətli xanımlar və cənablar, biz Azərbaycanın məhz qeyri-neft sektorunda həyata keçirdiyi layihələrə xüsusi diqqətlə yanaşırıq. Biz bilirik ki, enerji mənbələrinin işlənilməsi, onların hasilatı daimi deyildir və Azərbaycanın rəhbərliyi bunu anlayır və görür. Bizim üçün həmin perspektiv məqsədlərə yönəlmiş layihələrin həyata keçirilməsində iştirak etmək çox vacib olardı. Macarıstanın şirkətləri nou-hau hesabına böyük dəyişikliklərə nail olmuşdur. Gələn illər ərzində bizdə maşınqayırma, elektronika, biotexnologiyalar, informasiya texnologiyaları, logistika məsələlərinə xüsusi diqqət yetiriləcəkdir və xidmət sahəsi də diqqət mərkəzində olacaqdır. Bu forumdan sonra Azərbaycan tərəfdaşları macar firmalarının konkret təklifləri ilə tanış olacaqlar. Ola bilsin ki, öz aralarında müəyyən sazişlərə də nail olacaqlar.

Hörmətli cənab Prezident, icazə verin, bir məsələni qeyd edim. Biz bu gün artıq bir sazişə nail olduq. Nahar zamanı mən 27 il Beynəlxalq Olimpiya Komitəsində işlədiyimi söylədim. Mən bilirəm ki, Siz də öz ölkənizin Olimpiya Komitəsinin rəhbərisiniz. Mən artıq öz istəyimə nail oldum. Biz bu sahədə əməkdaşlıq barədə razılaşma əldə etdik.

Hörmətli dostlar, icazə verin, sizə uğurlu iş arzulayım. Diqqətinizə görə minnətdaram.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*11 noyabr 2011-ci il*

*Noyabrın 11-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Macarıstan prezidenti Pal Şmitt Heydər Əliyev Fondunu ziyarət etmişdir.*

*Macarıstanın dövlət başçısını Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.*

*Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verdi.*

*Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə köməklik göstərir.Ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.*

*Ali qonaq fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxşiş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.*

*Prezident Pal Şmitt Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Macarıstan prezidentinə xatirə hədiyyəsi təqdim etdi.*

*Ali qonaq Heydər Əliyev Fondundan zəngin təəssüratla ayrıldı.*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BAMİR TOPİYƏ**

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı – Bayraq Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Albaniya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Albaniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 noyabr 2011-ci il*

**MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mavritaniya arasındakı dostluq və əməkdaşlıq münasibətləri daim öz inkişafını davam etdirərək xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mavritaniya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 noyabr 2011-ci il*

**BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB JELKO KOMŞİÇƏ**

Hörmətli cənab Sədr!

Bosniya və Herseqovinanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında təşəkkül tapan dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Bosniya və Herseqovinanın dost xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 noyabr 2011-ci il*

# İSVEÇRƏ KONFEDERASİYASININ ENERJİ, ƏTRAF MÜHİT, RABİTƏ VƏ NƏQLİYYAT NAZİRİ XANIM DORİS LOYTARD İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də İsveçrə Konfederasiyasının Enerji, Ətraf Mühit, Rabitə və Nəqliyyat naziri xanım Doris Loytardı qəbul etmişdir.*

*Dövlətimizin başçısı İsveçrə Konfederasiyasının Enerji, Ətraf Mühit, Rabitə və Nəqliyyat nazirinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi ilə bağlı məsələlərin müzakirəsi baxımından yaxşı imkan yaradacağını dedi.*

*İsveçrəli nazir Azərbaycana ilk səfərindən məmnunluğunu bildirdi. Ölkəmizdə infrastruktur layihələrinə böyük həcmdə sərmayə qoyulması ilə bağlı məlumatlı olduğunu deyən qonaq iqtisadiyyatın inkişaf etdirilməsi üçün bunun əsas amil olduğunu vurğuladı.*

*Görüşdə Azərbaycan ilə İsveçrə Konfederasiyası arasında iqtisadi, nəqliyyat, energetika və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## LATVİYANIN İQTİSADİYYAT NAZİRİ DANİELS PAVLUTS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Latviya Respublikasının İqtisadiyyat naziri Daniels Pavlutsu qəbul etmişdir.*

*Nazir Daniels Pavluts Latviyanın yeni hökumətinin ilk nümayəndəsi kimi, Azərbaycana səfərindən məmnunluğunu bildirdi. O, təmsil etdiyi yeni hökumətin Azərbaycan ilə əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsində maraqlı olduğunu dedi. Son illər ölkələrimiz arasında əlaqələrin çox yaxşı səviyyədə olduğunu vurğulayan latviyalı nazir əməkdaşlığımızın genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycanın Latviya ilə əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsi işində maraqlı olduğunu dedi. Dövlət başçılarının uğurlu qarşılıqlı səfərlərinin yaxşı nəticələr verdiyini vurğulayan prezident İlham Əliyev son illər münasibətlərimizin dinamik şəkildə inkişaf etdiyini bildirdi. Əməkdaşlığın genişləndirilməsi ilə bağlı müəyyən olunmuş istiqamətlər üzrə, xüsusilə ticarət sahəsində bir çox investisiya layihələrinin müzakirə edildiyini deyən dövlətimizin başçısı Latviyanın yeni hökuməti ilə də ölkəmizin uğurlu əməkdaşlıq edəcəyinə ümidvar olduğunu bildirdi.*

# BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PIRVANOVUN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

*14 noyabr 2011-ci il*

*Noyabrın 14-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Bolqarıstan Respublikasının Prezidentinə raport verdi.*

*Bolqarıstanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Bolqarıstan Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Georgi Pırvanova, Bolqarıstan nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

# BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*14 noyabr 2011-ci il*

*Noyabrın 14-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun təkbətək görüşü olmuşdur.*

*Görüşdə son illərdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Siyasi, iqtisadi, energetika və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivin olduğu vurğulandı. Əlaqələrimizin bundan sonra da möhkəmləndiriləcəyinə əminlik bildirildi və Bolqarıstan prezidenti Georgi Pırvanovun Azərbaycana rəsmi səfərinin bu baxımdan önəmi qeyd edildi.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 noyabr 2011-ci il*

*Noyabrın 14-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi bir daha Azərbaycanda salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk və əminəm ki, səfərin çox gözəl nəticələri olacaqdır. Ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir. Biz Sizinlə mütəmadi qaydada görüşürük, bütün məsələləri müzakirə edirik. Əminəm ki, bütün sahələr üzrə əlaqələrimiz daha da möhkəmlənəcəkdir.

İlk növbədə, siyasi əlaqələr yüksək səviyyədədir və qarşılıqlı səfərlərin həyata keçirilməsi bunun bariz nümunəsidir. İqtisadi sahədə ticarət dövriyyəsi artır. Əlaqələrimizdə enerji amili də mühüm rol oynayır və bu sahədə də şirkətlər arasında danışıqlar aparılır. Biz bütün sahələrdə uğurlu inkişafı görürük və əminəm ki, Sizin səfərinizdən sonra da bu müsbət dinamika davam etdiriləcəkdir.

Bir daha «Xoş gəlmisiniz!» – deyirəm.

**Georgi Pırvanov:** Cənab Prezident, Sizə minnətdarlığımızı bildiririk. İlk öncə, Sizə olduqca minnətdarıq ki, bu səfərin həyata keçirilməsi üçün bizi buraya dəvət etdiniz. Mən aramızda mövcud olan şəxsi münasibətləri çox yüksək dəyərləndirirəm. Tam aydın şəkildə qeyd etmək olar ki, aramızda mövcud olan dost münasibətləri ölkələrimiz arasındakı münasibətlərin inkişafına da öz təsirini göstərir. Hesab

edirəm ki, ölkələrimiz arasında olan münasibətlərin inkişaf modeli bir çox digər ölkələrin münasibətlərinə də şamil edilə bilər. Ən vacibi isə odur ki, dost münasibətlərimiz, həmçinin işgüzar münasibətlərə də çevrilibdir. Bu baxımdan əməkdaşlığımız məhz real məzmunla zəngindir və bu bizim hər iki tərəfin arasında olan münasibətlərin inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

Bizim üçün çox vacibdir ki, bu münasibətlər yeni səviyyəyə qalxsın. Bu baxımdan biz iki ölkə arasında qarşılıqlı sərmayələrin qoyulmasını çox vacib hesab edirik. Biz istərdik ki, Bolqarıstanın kapitalı, Bolqarıstanın sərmayələri, həmçinin Azərbaycanda mövcud olsun.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*14 noyabr 2011-ci il*

*Noyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Azərbaycan–Bolqarıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Dövlət İqtisad Universiteti və Sofiya Milli və Dünya Təsərrüfatı Universiteti arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Şəmsəddin Hacıyev və Bolqarıstan prezidentinin təhsil, elm və iqtisadi inkişaf məsələləri üzrə müşaviri, Sofiya Milli və Dünya Təsərrüfatı Universitetinin rektoru Borislav Borisov imzaladılar.*

*«Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Bolqarıstan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik İnstitutu arasında əməkdaşlıq haqqında Memorandum»u Azərbaycanın Xarici İşlər Nazirinin müavini, Azərbaycan Diplomatik Akademiyasının rektoru Hafiz Paşayev və Bolqarıstanın Xarici İşlər nazirinin müavini Konstantin Dimitrov imzaladılar.*

*«Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Bolqarıstan Respublikasının Əmək və Sosial Siyasət Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum»u Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov və Bolqarıstanın Əmək və Sosial Siyasət naziri Totyu Mladenov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı*

*mühafizəsi və mübadiləsi haqqında Saziş»i Azərbaycanın Milli Təhlükəsizlik naziri Eldar Mahmudov və Bolqarıstanın İnformasiya Təhlükəsizliyi üzrə Dövlət Komissiyasının sədri xanım Tsveta Markova imzaladılar.*

## ALİ ORDENLƏRLƏ TƏLTİFOLUNMA MƏRASİMİ

*14 noyabr 2011-ci il*

*Noyabrın 14-də Azərbaycan–Bolqarıstan sənədlərinin imzalanması mərasimindən sonra Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ali ordenlərlə təltifolunma mərasimi keçirilmişdir.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident!

Mən bir daha Sizi səmimiyyətlə salamlayıram.

Bu gün Bolqarıstan–Azərbaycan münasibətlərinin tarixində çox əlamətdar bir gündür. Siz ölkəmizdə rəsmi səfərdəsiniz və çox vacib sənədlər imzalanmışdır. Bir dost kimi, bu əlamətdar gündə Sizin Bolqarıstana rəhbərlik etdiyiniz dövrdə gördüyünüz işlərlə bağlı bir neçə kəlmə demək istərdim. Siz 10 ildir ki, Bolqarıstana rəhbərlik edirsiniz. Sizin rəhbərliyiniz altında ölkəniz böyük və uğurlu yol keçmişdir. Ölkənizdə aparılan siyasi və iqtisadi islahatlar Bolqarıstanın inkişafını şərtləndirən amillər olmuşdur.

Bu illər ərzində sizin ölkəniz həm NATO-ya, həm Avropa İttifaqına üzv olmuşdur. Hesab edirəm ki, ölkəniz üçün bu, tarixi nailiyyətlərdir. Bolqarıstan dünyada çox etibarlı dost və tərəfdaş ölkə kimi tanınır. Siz də dövlət xadimi kimi, dünyada çox böyük nüfuza maliksiniz.

Qeyd etməliyəm ki, bu illər ərzində bizim ikitərəfli münasibətlərimiz də çox uğurla inkişaf etmişdir. Biz Sizinlə, demək olar ki, hər il görüşürük və şəxsi dostluq əlaqələrimiz ikitərəfli əlaqələrin inkişafına da müsbət təsir göstərir. Son illər ərzində münasibətlərimiz, yəni Bolqarıstan–Azərbaycan münasibətləri çox yüksək səviyyəyə qalxmışdır. Bolqarıstan–Azərbaycan əlaqələrinin inkişafında göstərdiyiniz xidmətlərə və verdiyiniz töhfəyə görə Siz Azərbaycan dövlətinin ən ali mükafatı olan «Heydər Əliyev» ordeni ilə təltif edilirsiniz.

İcazə verin, bu yüksək mükafatı Sizə təqdim edim.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Heydər Əliyev» ordenini Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanova təqdim etdi.*

**G e o r g i  P ı r v a n o v:** Hörmətli cənab Prezident!

Hörmətli nazirlər, xanımlar və cənablar! Apardığım fəaliyyətə və göstərdiyim xidmətlərə verdiyiniz belə bir yüksək qiymətə görə Sizə təşəkkürümü bildirirəm.

Mən bu ali mükafatı böyük minnətdarlıq hissi ilə qəbul edirəm. Bu ordeni mən, həmçinin Bolqarıstan Respublikasının, bolqar xalqının keçdiyi şanlı yola və bizim son illər ərzində apardığımız gərgin fəaliyyətin nəticəsinə verilən qiymət kimi qəbul edirəm.

Hörmətli cənab Prezident, biz Sizin də bu istiqamətdə göstərdiyiniz səyləri, Azərbaycanın rəhbəri kimi, apardığınız fəaliyyəti yüksək dəyərləndiririk. Mən Azərbaycana tez-tez səfər edirəm, Siz də Bolqarıstana dəfələrlə səfər etmisiniz. Hər dəfə gələndə görürəm ki, ölkənizdə dəyişikliklər baş verib. Mən görürəm ki, müasir Azərbaycan necə inkişaf edir. Burada şəxsən Sizin qarşınızda bəyan etmək istəyirəm ki, Bolqarıstanda mövcud olan bütün təsisatlar, Bolqarıstan cəmiyyəti Sizi bolqar xalqının ən yaxın dostu hesab edir.

İndi isə mən Sizin apardığınız fəaliyyətə minnətdarlıq əlaməti olaraq Bolqarıstanın ali mükafatını – «Stara Planina» ordenini Sizə təqdim edirəm.

*Prezident Georgi Pırvanov Bolqarıstan Respublikasının ən ali mükafatını – «Stara Planina» ordenini dövlətimizin başçısına təqdim etdi.*

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, hörmətli cənab Prezident! Bu yüksək mükafata görə Sizə minnətdaram. Bolqarıstan dövlətinin yüksək mükafatını almaq mənim üçün böyük şərəfdir. Biz Bolqarıstana, bolqar xalqına böyük rəğbətlə yanaşırıq. Bolqarıstan bizim üçün dost ölkədir, yaxın ölkədir. Çalışacağam ki, bundan sonra da Bolqarıstan–Azərbaycan əlaqələrinin inkişafı üçün öz səylərimi əsirgəməyim. Bir daha Sizə minnətdaram.

# BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOV İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*14 noyabr 2011-ci il*

*Noyabrın 14-də təltifolunma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov mətbuat konfransında iştirak etmişlər.*

*Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram! Siz Azərbaycanın yaxın dostusunuz. Ölkəmizdə dəfələrlə olmusunuz və hər dəfə biz görüşəndə aramızda olan dostluq əlaqələri ikitərəfli münasibətlərə də müsbət təsir göstərir. Biz bu gün Sizinlə həm təkbətək formatda, həm nümayəndə heyətlərinin iştirakı ilə geniş fikir mübadiləsi apardıq, mühüm məsələləri müzakirə etdik və bir daha gördük ki, Bolqarıstan–Azərbaycan əlaqələri çox sürətlə və uğurla inkişaf edir.

Biz Sizinlə, demək olar ki, hər il görüşürük. Təmaslarımız mütəmadi xarakter daşıyır və Bolqarıstan–Azərbaycan əməkdaşlığının inkişafı üçün bu əlaqələr çox vacibdir. Müzakirə etdiyimiz məsələlər sonradan qərarlara çevrilir və əməkdaşlığımızın inkişafı üçün müsbət rol oynayır. Son illər ikitərəfli münasibətlərimiz yeni pilləyə qalxmışdır, siyasi əlaqələr çox yüksək səviyyədədir. Bütün beynəlxalq təşkilatlarda da uğurlu əməkdaşlıq edirik. Siyasi əlaqələrimizin inkişafı

sahəsində və digər sahələrdə də inamlı inkişafa nail ola bilmişik.

Bu ilin statistikasına baxanda görürük ki, ticarət dövriyyəsi də artmaqdadır. Böyük artım müşahidə olunur. Əminəm ki, növbəti illərdə daha da artacaq və ticarət dövriyyəsinin strukturu da təkmilləşdiriləcək. Beləliklə, siyasi əlaqələr iqtisadi sahədəki əlaqələrə də müsbət təsir göstərir.

Bu gün müzakirə etdiyimiz məsələlərdən biri də energetika sahəsindəki əməkdaşlıqdır. Bu mövzu daim gündəliyimizdədir. Çox şadam ki, indi bu məsələ ilə bağlı aparılan fikir mübadiləsi keyfiyyətcə yeni məzmun daşıyır. Artıq Azərbaycanın enerji resursları Avropaya ixrac edilir. Azərbaycan nefti Avropa ölkələrinə, o cümlədən Bolqarıstana daha da böyük miqdarda ixrac edilir. Azərbaycan qazını Avropa bazarına çatdırmaq üçün də yeni imkanlar yaradılmışdır. Bu yaxınlarda Türkiyə ilə Azərbaycan arasında imzalanmış tranzit sənədləri bu imkanları reallaşdırır.

Əminəm ki, növbəti illərdə qaz sahəsində Bolqarıstan–Azərbaycan əlaqələri daha da intensiv olacaq və bu əlaqələr getdikcə daha da dərinləşəcəkdir. Əminəm ki, növbəti mərhələlərdə qarşılıqlı investisiya qoyuluşu məsələləri, birgə müəssisələrin yaradılması istiqamətində də inamlı və təsirli addımlar atılacaqdır. Biz bu barədə də fikir mübadiləsi apardıq. Aramızda bu barədə fikir ayrılığı yoxdur.

Enerji sahəsinə gəldikdə, biz burada ikitərəfli formatda əməkdaşlıq edirik və müvafiq şirkətlərimiz də bir-biri ilə danışıqlar prosesindədir. Avropa İttifaqı–Azərbaycan əlaqələri də bu məsələ ilə bağlı müsbət rol oynayır. Bildiyiniz kimi, bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında «Cənub Qaz Dəhlizi» üzrə Bəyannamə imzalanmışdır. Ondan sonra işçi qrupu yaradılmışdır. İşçi qrupu fəaliyyət göstərir və əminəm ki, növbəti mərhələlərdə bu əməkdaşlıq daha da genişmiqyaslı olacaqdır. Azərbaycan «Cənub Qaz Dəhlizi»nin reallaşması üçün səylərini göstərir. Bizim zəngin qaz yataqlarımız həm Azərbaycanın enerji təhlükəsizliyini təmin edir və edəcək, həm

də tərəfdaşlarımızın enerji təhlükəsizliyinin təmin edilməsində də öz rolunu oynamaqdadır. Əminəm ki, növbəti illərdə bu sahədə və digər sahələrdə əməkdaşlıq daha da uğurlu olacaqdır.

Avropa İttifaqı–Azərbaycan əlaqələrinin inkişafı üçün Bolqarıstan da öz səylərini göstərir. Bolqarıstan bütün dövrlərdə bizim bu mövzu ilə bağlı təşəbbüslərimizə çox müsbət yanaşmışdır. Hesab edirəm ki, hazırda biz Avropa İttifaqı–Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı çox vacib mərhələdəyik. İndi uzunmüddətli əlaqələrin formalaşması prosesi getməkdədir. Əminəm ki, bu əlaqələr çox möhkəm, sağlam zəmin üzərində qurulacaqdır, qarşılıqlı maraqlar təmin ediləcəkdir. Qarşılıqlı maraqların təmin edilməsi üçün, əlbəttə ki, biz bu məsələdə çox dəqiq olmalıyıq. Uzunmüddətli, bundan sonra bəlkə də onilliklər ərzindəki əməkdaşlığın təməli məhz bu dövrdə qoyulur. Deyə bilərəm ki, biz bu məsələyə çox böyük ümidlərlə və nikbinliklə yanaşırıq. Hazırda Azərbaycanın bütün Avropa İttifaqına üzv ölkələrlə ikitərəfli müstəvidə çox işgüzar və səmimi münasibətləri mövcuddur. Bu münasibətlər bütövlükdə Avropa İttifaqı–Azərbaycan əlaqələrinin inkişafına da müsbət təsir göstərir.

Bu gün müzakirə etdiyimiz məsələlərin arasında, əlbəttə ki, regional təhlükəsizlik məsələləri də kifayət qədər böyük yer tutmuşdur. Mən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vəziyyətin son mərhələsi haqqında Sizə məlumat verdim. Bu məsələ dəfələrlə müzakirələrimizin mövzusu olub. Azərbaycan məsələnin tezliklə həlli üçün səylərini göstərir və ancaq beynəlxalq hüquq normaları əsasında həll olunmasını məqbul hesab edir. Beynəlxalq təşkilatların qərar və qətnamələri qeyd-şərtsiz icra edilməlidir. BMT Təhlükəsizlik Şurası bu məsələ ilə bağlı dörd qətnamə qəbul etmişdir ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb olunur. Avropa Parlamenti, o cümlədən Bolqarıstan tərəfinin dəstəyi ilə buna bənzər qətnamə qəbul etmişdir. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Azərbaycanın ərazi bütövlüyü

danışıqlar mövzusu deyil, ola da bilməz. Məsələ beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü əsasında həllini tapmalıdır. Biz ümid edirik ki, danışıqlar nəticəsini verməlidir. Bu vəziyyətlə barışmaq mümkün deyildir. Bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupu və onun həmsədr ölkələri status-kvonun qəbuledilməz olması ilə əlaqədar kifayət qədər ciddi bəyanatlar vermişlər. Bu bəyanatlar bizi daha da ruhlandırır. Əminəm ki, məsələnin tezliklə həlli bütün ölkələrin marağına cavab verəcəkdir.

Cənab Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Sizi Azərbaycanın yaxın dostu kimi tanıyırıq və bu dostluğun artıq böyük tarixi vardır. Əminəm ki, bundan sonrakı dövrdə də Bolqarıstan–Azərbaycan əlaqələri yalnız və yalnız yüksələn xətlə inkişaf edəcəkdir.

## Bolqarıstan prezidenti Georgi Pırvanovun bəyanatı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Aparılmış danışıqlardan məmnunluğumu bildirmək istərdim. Əminəm ki, bu danışıqlar gələcəkdə münasibətlərimizin inkişafına müsbət töhfə verəcəkdir. Mən cənab prezident Əliyevlə tam razıyam ki, ölkələrimiz arasında münasibətlərin yaxşı ənənələri vardır. Bu münasibətlər əvvəlki vaxtlardan inkişaf etmişdir. Son illər biz bu siyasəti davam etdirmişik. Bu siyasət yaxşı nəticələr vermişdir.

Aramızda mövcud olan siyasi dialoq, fikrimcə, digər münasibətlərə də şamil edilə bilər. Çünki nazirliklərimiz, parlamentlərimiz arasında fəal təmaslar mövcuddur. Münasibətlərimiz get-gedə inkişaf edir, yeni sənədlər imzalanır. Bu, xalqlarımız qarşısında görülən işdir və cəmiyyətlərimizə yönəlmiş bir siqnaldır. Mühüm amil ondan ibarətdir ki, hər iki ölkənin işgüzar dairələri ticarət dövriyyəsinin artmasına hazırdır, baxmayaraq ki, hələ bu həcm istədiyimiz səviyyədə deyildir. Ümidvarıq ki, apardığımız danışıqlar birgə müəs-

sisələrin yaradılmasına zəmin olacaq və bu müəssisələr gələcəkdə üçüncü ölkələrin bazarlarına çıxacaqdır. Biz müxtəlif nazirliklərlə məsləhətləşmələrin aparılmasından sonra buna nail ola bilərik. Buna müxtəlif iqtisadi subyektlər də qoşula bilər.

Enerji sahəsi münasibətlərimizin çox mühüm sahəsi olaraq qalır. Bu həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlərə də aiddir. Son illər ərzində Azərbaycanın apardığı iş «Cənub Qaz Dəhlizi» üçün yeni imkanlar və perspektivlər açır. Bolqarıstan isə öz növbəsində özünəməxsus mövqe tutur və bu münasibətlər çərçivəsində müsbət amil rolunu oynayır. Biz çalışırıq ki, hətta əlaqələrimizi Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərdən də daha çox inkişaf etdirək. Bu sahədə biz gərgin iş aparırıq. Mətbuat konfransları zamanı biz bir milyard kubmetr qaz həcmi haqqında razılaşmamızı xatırlayırıq. Biz istəyirik ki, bu layihə həyata keçirilsin – Bolqarıstan və Yunanıstan arasında bağlayıcı layihə baş tutsun. Danışıqlar zamanı qeyd etdik ki, Azərbaycan Dövlət Neft Şirkəti kimi iri şirkət Bolqarıstanın ərazisində bu layihədən sonra fəaliyyət göstərə biləcəkdir. Zənnimcə, əməkdaşlığımız üçün yaxşı imkanlar mövcuddur. Bu, böyük şaxələndirmə işinin bir hissəsidir. Biz uğur qazanmalıyıq ki, Avropaya nümayiş etdirək ki, nəyə nail ola bilərik. Bundan sonra daha genişmiqyaslı nəticələr əldə edə, «Cənub Qaz Dəhlizi» ilə bağlı yeni ideyalar irəli sürə bilərik.

Məmnunam ki, dialoqun, həmçinin mədəniyyətlərarası mübadilələr sahəsində əlaqələrin genişləndirilməsi üçün iradə və istək vardır. Bolqarıstan öz regionunda, Azərbaycan da öz regionunda mədəniyyətlərarası dialoq sahəsində vacib rol, hətta deyərdim ki, lider rolu oynayır. Balkan regionunda bu qarşılıqlı mədəni fəaliyyət dəhlizi nəinki Qara dəniz regionu ölkələri, o cümlədən Xəzər dənizi regionu ölkələri ilə aparıla bilər. Mən çox şad olardım ki, cənab Prezident, bu regionda olan digər ölkələr də bu ideyaya qoşulsun, bunun üzərində işləsin. Biz nümayiş etdirə bilərik ki, burada tarix mövcuddur və bu,

regionlarımızın gələcəyi üçün vacibdir. Biz bu işi birgə apara bilərik.

Avropaya gəldikdə, mən Azərbaycan ilə Avropa İttifaqı arasında daha da fəallaşan dialoqu yüksək dəyərləndirirəm. Bu dialoq «Şərq Tərəfdaşlığı» çərçivəsində aparılır. Belə bir ideya vardır ki, mən Avropa İttifaqında həmkarlarımın bəziləri ilə bunu bölüşmüşəm, Avropa liderlərinə bu haqda məlumat vermişəm. Mən bunu da burada qeyd etmişəm. Mənim prezidentlik mandatım artıq başa çatmaq üzrədir. Mən qeyd etmişəm ki, Avropa təsisatlarında və Avropa İttifaqına üzv olan dövlətlərdə Azərbaycana güzəştli tərəfdaş statusunun verilməsi çox yaxşı olardı. Çünki bu elə bir çərçivədir ki, bu çərçivədə nəinki enerji təhlükəsizliyi sahəsində dialoq aparmaq olar, o cümlədən bu dialoq genişləndirilə bilər və digər sahələrdə – nəqliyyat, iqtisadiyyat sahələrində, daha geniş mənada təhlükəsizlik məsələləri sahəsində aparıla bilər. Çünki Azərbaycan çox mühüm bir elementdir və bu bizim formalaşdırdığımız demokratik dövlətlər və xalqlar arasında olan mühüm bir element və təhlükəsizliyin qlobal şəkildə təmin edilməsində mühüm amildir. Çünki qarşımızda duran çağırışlar eynidir. Bu həm Avropa İttifaqı, həm də ona qonşu, tərəfdaş olan ölkələr üçün vacibdir. Ona görə, biz çalışmalıyıq ki, daha müasir üsullarla birgə fəaliyyət göstərək. Mən tam əminəm ki, yaxın perspektivdə Avropa İttifaqı daxili problemlərini həll etdikdən sonra daha düzgün və qəbul edilə biləcək həll variantlarını tapacaqdır.

Mən təbii ki, apardığımız danışıqların bütün gündəliyini burada təsvir edə bilməyəcəyəm. Lakin qeyd etmək istəyirəm ki, bu danışıqlar, razılaşmalar, imzaladığımız sənədlər və gələcəkdə əldə ediləcək razılaşmalar və imzalanacaq sənədlər münasibətlərimizin inkişafına töhfə verəcəkdir.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**Dimitar Anestev** (*Bolqarıstan TV*): **Cənab Prezident, Siz burada Azərbaycan qazının Bolqarıstana çatdırıl-**

**ması məsələsini müzakirə etdiniz. Bu hansı həcmdə və hansı marşrutla baş tuta bilər?**

**Növbəti sualım cənab prezident Pırvanovadır. Çatdırılma nəticəsində belə bir qənaətə gəlmək olarmı ki, Rusiyadan asılılıq azalacaqdır?**

**İ l h a m Ə l i y e v:** Bu məsələ ilə bağlı biz dəfələrlə cənab prezident Pırvanovla fikir mübadiləsi aparmışıq. Bu məsələ daim gündəlikdədir. Hazırda Azərbaycanı xarici bazarlarla birləşdirən dörd qaz kəməri vardır ki, dördü də işlək vəziyyətdədir. Avropa İttifaqı ölkələri ilə qaz sahəsində əməkdaşlığımız üçün çox gözəl perspektivlər vardır. Coğrafiyaya nəzər salsanız görərsiniz ki, bizim qaz mənbələrimizə ən yaxın ölkələrdən biri Bolqarıstandır. Bolqarıstan bizim qazımızı qəbul edən ilk ölkələrdən biri ola bilər. Buna nail olmaq üçün biz konkret danışıqlar aparırıq.

Azərbaycanın zəngin qaz ehtiyatlarını böyük həcmdə Avropa bazarlarına çıxarmaq üçün mövcud olan qaz infrastrukturu genişləndirilməli, yeni qaz infrastrukturu yaradılmalı və tikilməlidir. Bu məsələlərlə bağlı indi ciddi işlər gedir. Əminəm ki, Azərbaycan Bolqarıstanın qaza olan tələbatını Bolqarıstanın istədiyi qədər təmin edə bilər. Bu il Azərbaycanda qazın hasilatı təqribən 27-28 milyard kubmetr səviyyəsindədir. Bu özlüyündə çox böyük bir rəqəmdir. «Şahdəniz» yatağının ikinci fazasının işlənilməsi nəticəsində əlavə 17 milyard kubmetr qazın hasilatı gözlənilir. Əgər Azərbaycanın son bir il ərzində aşkar etdiyi yataqları da buraya əlavə etsək, görərik ki, Azərbaycanda qazın hasilatı daha da böyük rəqəmlərlə ölçülə bilər. Bu bizə imkan verəcək ki, bundan sonra uzun illər ərzində tərəfdaşlarımızın enerji təhlükəsizliyini təmin edə bilək.

**G e o r g i P ı r v a n o v**: Hörmətli xanımlar və cənablar, qeyd etmək istəyirəm ki, Azərbaycan ilə Türkiyə arasında əldə edilmiş razılaşmalar qazın alınması prosesinin sürətləndirilməsinə əsas yaradır. Nə qədər, hansı həcmdə? Bu, İqtisadiyyat Nazirliyində, ümumiyyətlə, hökumətimizdə hesablanacaqdır. Çünki özümüz hesablamaları aparmalıyıq ki, bizə hansı həcmdə

təbii qaz lazımdır. Bu, sırf dövlət başçısının ofisində aparılan bir hesablama deyildir. O ki qaldı qiymətlərə, mən sadəcə belə deyərdim ki, hətta bütün qaydalardan da kənara çıxaraq deyərdim ki, bu, konkret şirkətlərin və firmaların işidir. Mən sadəcə, bildirmək istəyirəm ki, kiçik uğur da nəinki bizim region üçün, bütün Avropa üçün rəmzi xarakter daşıyacaqdır. Bu, məhz bizdən asılı olacaqdır ki, biz bu əməkdaşlığın tempini və dinamikasını saxlayacağıq.

**Yunis Oruc** (*Azərbaycan Televiziyası*): **Sualım Bolqarıstan prezidentinədir. Cənab Prezident, bir qədər əvvəl də qeyd etdiniz ki, Azərbaycan–Bolqarıstan əməkdaşlığı dinamik inkişafı ilə diqqət çəkir. Siz bu əməkdaşlığın perspektivlərini necə görürsünüz? Azərbaycan–Bolqarıstan iqtisadi əməkdaşlığının gələcək formatı haqqında nə deyə bilərsiniz? Bununla bağlı Bolqarıstan tərəfinin hansısa konkret planları varmı?**

**Georgi Pırvanov:** Əslində bu münasibətlərin inkişafı ölkələrimizin maraqlarına cavab verir. Bolqarıstanın İqtisadiyyat naziri artıq ikinci dəfədir ki, bu yaxınlarda Azərbaycana səfər edir və aparılan müzakirələr artıq real çərçivəyə, real layihələrə, real addımlara əsaslanır. Mən nikbin baxıram. Çünki biz bu əməkdaşlığı şirkətlər səviyyəsinə qaldırırıq. Bu dinamika Bolqarıstan prezidentinin rəhbərlik etdiyi qurumlar tərəfindən də saxlanıla bilər. Gələcək Prezident də vəd vermişdir ki, əldə edilmiş nailiyyətləri və Azərbaycan ilə münasibətləri daha da inkişaf etdirsin. Mənim buna heç bir şübhəm yoxdur və hətta tam şad olardım ki, bizim münasibətlər bundan sonra da, yəni mənim prezidentlik dövrümdən fərqli olaraq daha da inkişaf etsin.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*14 noyabr 2011-ci il*

*Noyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Cənab Prezident, gələn il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 20 ili tamam olur. Bu dövrdə Azərbaycan–Bolqarıstan münasibətlərində mühüm nəticələr əldə olunmuş, indiyədək ölkələrimiz arasında əməkdaşlığa dair 40-a yaxın sənəd imzalanmışdır.

Bizim aramızda qarşılıqlı səfərlərin yaxşı ənənəsi yaranıb və bu səfərlər ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə səbəb olub. Azərbaycan–Bolqarıstan əlaqələri yüksək səviyyədədir. Bu əlaqələr bütün sahələri əhatə edir. Bolqarıstan–Azərbaycan mədəni əlaqələrinin inkişafı da genişlənir. Elm, təhsil və digər sahələrdə uğurlu əməkdaşlıq qurulub.

Azərbaycanın xarici siyasətində Avropa İttifaqı və Avroatlantik strukturlarla əlaqələr mühüm yer tutur. Münasibətlərimiz Xəzər dənizi, Qara dəniz regional əməkdaşlığının inkişafı üçün də çox vacib rol oynayır. Biz Azərbaycan ilə Avropanı birləşdirən enerji və nəqliyyat layihələrinin reallaşdırılmasında maraqlıyıq. Azərbaycan etibarlı tərəfdaş ölkə olduğunu həmişə nümayiş etdirmişdir və ölkəmiz bundan sonra da Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına töhfəsini verməyə hazırdır.

Ölkəmiz enerji resurslarının ixracının şaxələndirilməsində və enerji təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol

oynayır. Bizim enerji siyasətimiz bölgədə sülhün, təhlükəsizliyin, əmin-amanlığın və dostluğun möhkəmlənməsinə yönəlibdir.

Lakin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması təəssüf doğurur. Bir sıra nüfuzlu təşkilatların qərar və qətnamələrinə baxmayaraq, münaqişə həll olunmamış qalır. Dövlətimizin mövqeyi isə ondan ibarətdir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüquq normalarına uyğun şəkildə ədalətlə həll olunmalıdır.

## Bolqarıstan prezidenti Georgi Pırvanovun çıxışı

Biz cənab prezident İlham Əliyevlə qısa müddət ərzində rəsmi təmaslardan səmimi qarşılıqlı etimad və dostluq münasibətlərinə qədər yol keçmişik.

Biz bu yaxınlarda Azərbaycan ilə Türkiyə arasında qaz sahəsində imzalanan sazişi, eləcə də Azərbaycan, Türkmənistan və Avropa İttifaqı arasında gələcək Transxəzər boru kəmərinin tikintisi üzrə danışıqların başlanmasını alqışlayırıq. Lakin bu bizim yeganə prioritetimiz deyil. Kənd təsərrüfatı və fermerlərimizin gündəlik işində yüksək texnologiyaların tətbiqi sahəsində də birgə fəaliyyəti inkişaf etdirmək istərdik. Çünki ərzaq məhsullarının istehsalı istənilən dövlətin suverenliyinin əsas strateji amilinə çevrilməkdədir. Su resurslarının idarə edilməsi və elektrik enerjisi istehsalı, neft-kimya və telekommunikasiya sahələrində də bir çox imkanlar vardır. Təhsil və mədəniyyət sahəsində, o cümlədən beynəlxalq əhəmiyyətli birgə layihələrin həyata keçirilməsində apardığımız əməkdaşlıq xüsusi diqqətə layiqdir. Bu baxımdan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təcrübəsi və fəaliyyəti olduqca vacibdir.

Əminəm ki, səfər çərçivəsində əldə edilən razılaşmalar və imzalanan sənədlər ikitərəfli münasibətlərimizin bütün sahələrində yeni dinamikaya səbəb olacaqdır.

## BELARUS PARLAMENTİNİN NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ VLADİMİR ANDREYÇENKO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Belarus Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenkonu qəbul etmişdir.*

Belarus parlamentinin Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenko ölkələrimizin etibarlı və səmimi dostluq münasibətlərindən məmnunluğunu bildirdi. Azərbaycana səfəri zamanı paytaxtımızda həyata keçirilən genişmiqyaslı tikinti və quruculuq işlərinin şahidi olduğunu deyən qonaq ölkəmizin əldə etdiyi uğurların onda böyük təəssürat yaratdığını dedi.

Ölkələrimizin siyasi sahədə uğurlu əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı əlaqələrimizin genişləndirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Prezident İlham Əliyev Belarus Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenkonun Azərbaycana səfərinin parlamentlərarası əlaqələrin möhkəmlənməsi işinə xidmət edəcəyini bildirdi.

# ABŞ DÖVLƏT KATİBİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTAR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyev noyabrın 15-də ABŞ Dövlət* katibinin Avrasiya Enerji *Məsələləri üzrə Xüsusi nümayəndəsi Riçard Morninqstarı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin və eləcə də* enerji *sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə* olundu, enerji *sahəsində əməkdaşlığın perspektivlərinə* dair *fikir mübadiləsi aparıldı.*

*ABŞ Dövlət* katibinin Avrasiya enerji *məsələləri üzrə xüsusi nümayəndəsi Riçard* Morninqstar *ölkəsinin Azərbaycan ilə Türkiyə arasında* enerji *sahəsində əməkdaşlığa* dair *əldə* olunan son *razılaşmanı alqışladığını* bildirdi.

## DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ TALEB RİFAİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Dünya Turizm Təşkilatının Baş katibi Taleb Rifaini qəbul etmişdir.*

*Dünya Turizm Təşkilatının Baş katibi Taleb Rifai ölkəmizdə turizm sektorunun inkişafına yaradılan yüksək şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, BMT-nin Dünya Turizm Təşkilatının Baş Assambleyasının Koreyada keçirilən iclasında Azərbaycanın Avropa regionu üzrə təşkilatın vitse-prezidenti seçilməsinin önəmini qeyd etdi. Taleb Rifai Azərbaycanın Dünya Turizm Təşkilatının «Qızıl kitab» hərəkatına qoşulması barədə təşkilatın dəvət məktubunu dövlətimizin başçısına təqdim etdi.*

*Ölkəmizdə 2011-ci ilin «Turizm ili» elan olunduğunu vurğulayan prezident İlham Əliyev Azərbaycanda turizm sektorunun dövlətin əsas prioritet sahələrindən biri olduğunu qeyd etdi. Dövlətimizin başçısı gözəl təbiətə və müxtəlif iqlim qurşağına malik olan ölkəmizdə ən müasir və cəlbedici turizm infrastrukturunun yaradılması üçün səylərin daha da artırılacağını dedi.*

## AVROPA KOMİSSİYASI SƏDRİNİN MÜAVİNİ, AVROPA İTTİFAQININ XARİCİ ƏLAQƏLƏR VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ XANIM KETRİN EŞTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Avropa Komissiyası sədrinin müavini, Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi xanım Ketrin Eştonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın geniş formata malik olduğunu və uğurla inkişaf etdiyini vurğuladı. Xanım Ketrin Eşton ilə Varşavada keçirdiyi görüşü xatırladan prezident İlham Əliyev həmin görüşdən qısa müddət sonra onun bölgəyə səfər etməsinin region və Azərbaycan üçün önəmini qeyd etdi. Bu səfərin Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*Avropa Komissiyası sədrinin müavini, Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi xanım Ketrin Eşton Azərbaycana səfərindən məmnunluğunu bildirdi.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında energetika sahəsində əməkdaşlığın perspektivləri müzakirə edildi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## UŞAQLARIN II ÜMUMRESPUBLİKA FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli Forum iştirakçıları!

Əziz uşaqlar!

Sizi – Uşaqların II Ümumrespublika Forumunun iştirakçılarını və bütün uşaqları səmimi-qəlbdən salamlayır, hamınıza cansağlığı, xoşbəxtlik və həyatınızda nailiyyətlər arzulayıram.

Bu il Azərbaycanın öz dövlət müstəqilliyinin bərpasının 20 illik yubileyini qeyd etməsi ilə əlamətdardır. Forumunuzun iştirakçısı olan uşaqlar da məhz müstəqillik illərində dünyaya göz açmışlar. İnanıram ki, azərbaycançılıq ruhunda tərbiyə almaqla siz mənən zəngin bir nəsil kimi yetişəcək, respublikamızın gələcək illərdə də inkişafı və uğurlar qazanması naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi və istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir.

Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları haqqında Konvensiyasının başlıca müddəalarını özündə ehtiva edən Azərbaycan Respublikasının Uşaq Hüquqları haqqında Qanunu 1998-ci ildə qəbul olunmuşdur. Həmin vaxtdan etibarən ötən müddət ərzində bununla əlaqədar milli qanunvericilik və normativ-hüquqi aktlar mütəmadi təkmilləşdirilmiş, uşaqların hüquqlarının müdafiəsinə, onların geniş dünyagörüşü və sağlam ruhda böyüməsinə yönəlmiş bir çox dövlət proqramları həyata keçirilmişdir. Ümidvaram ki, bu forum ölkəmizdə uşaqlarla bağlı ardıcıl aparılan dövlət siyasətinin həqiqi davamına və tərkib hissəsinə çevriləcəkdir.

Forumunuzun işinə uğurlar diləyir, hər birinizə müvəffəqiyyətlər arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2011-ci il*

# «EURONEWS» KANALININ MÜŞAHİDƏ ŞURASININ SƏDRİ PİTER LUİS MALESANİ VƏ İCRAEDİCİ ŞURANIN BAŞ DİREKTORU MAYKL RİTERS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da «Euronews» kanalının Müşahidə Şurasının sədri Piter Luis Malesanini və İcraedici Şuranın baş direktoru Maykl Pitersi qəbul etmişdir.*

*«Euronews» kanalının Müşahidə Şurasının sədri Piter Luis Malesani ölkəmizin BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi və Azərbaycanın «Eurovision» mahnı müsabiqəsində qalib gəlməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. Ölkəmizə bundan əvvəlki səfərini xatırladan qonaq ötən dövr ərzində əməkdaşlığın genişləndirilməsi istiqamətində böyük işlərin görüldüyünü vurğuladı.*

*Ötən dövrü «Euronews» kanalı ilə Azərbaycanın fəal əməkdaşlıq mərhələsi kimi xarakterizə edən prezident İlham Əliyev bu əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirdi.*

## OĞUZ RAYONUNA SƏFƏR

*Oğuz*

*16 noyabr 2011-ci il*

*Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Oğuz rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Oğuz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin yerləşdiyi ərazidə və rayonda görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verildi. Bildirildi ki, abidənin ətrafında yaşıllıq zolağı salınmış, ağac və bəzək kolları əkilmiş, müasir işıqlandırma sistemi quraşdırılmışdır.*

### Mədəniyyət və istirahət parkının açılışı mərasimi

*Noyabrın 16-da Azərbaycan prezidenti İlham Əliyev Oğuz şəhər Mədəniyyət və istirahət parkının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, son illər Oğuzda sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri, onların istirahəti üçün mühüm işlər görülmüşdür.*

*Bildirildi ki, parkda geniş abadlıq-quruculuq işləri həyata keçirilmiş, səkilər salınmış, yaşıllaşdırma işləri görülmüş, dekorativ gül kolları və ağaclar əkilmişdir.*

*Prezident İlham Əliyevə parkın yaxınlığında, Heydər Əliyev prospektinin başlanğıcında yaradılmış Bayraq Meydanı haqqında da məlumat verildi.*

*Dövlət başçısı parkda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 noyabr 2011-ci il*

Xoş gördük, çox gözəl parkdır. Keçən dəfə Oğuzda olarkən parkın layihəsi ilə tanış olmuşdum. İndi isə park hazırdır, gözəl şərait yaradılıb, Oğuza gözəllik verir. Rayonun bu hissəsi son illər ərzində böyük dərəcədə abadlaşıbdır. Yadınızdadır ki, burada bir dənə də olsun bina yox idi. Birinci xəstəxana, sonra Olimpiya İdman Kompleksi, sonra park tikildi. Beləliklə, Oğuzun giriş hissəsi tamamilə dəyişdi, abadlaşdı, gözəlləşdi.

Bu gün parkın açılışı ilə bərabər, burada tikilmiş böyük sənaye müəssisəsinin açılışını da qeyd edəcəyik. Onlardan biri nəinki Azərbaycanda, bütün bölgədə yeganə qlükoza zavodudur. Bu zavodun fəaliyyətə başlaması ölkədə iş yerlərinin açılmasına xidmət göstərəcək və kənd təsərrüfatının inkişafına təkan verəcəkdir. Çünki bu zavodun xammalı kənd təsərrüfatı məhsullarıdır. Bütövlükdə Oğuz rayonunun gələcəkdə inkişafı kənd təsərrüfatı və turizmin inkişafı ilə bağlı olacaqdır.

Turizmə gəldikdə, ilkin addımlar atılmaqdadır. Keçən dəfə burada olarkən yeni otelin açılışını qeyd etmişik. İndi otel işləyir. Turistlərin sayı artmalıdır. Həm daxili turizm inkişaf etməlidir, həm xaricdən turistlər daha da çox gəlməlidirlər. Bunu etmək üçün imkanlar vardır. Dünən Dünya Turizm Təşkilatının baş direktoru Bakıda idi. Biz onunla görüşdük və Azərbaycanın turizm potensialı dünyada artıq tanınır. Müxtəlif bölgələrdə müxtəlif turizm imkanlarımız vardır. Bu bölgənin özünə xas gözəl imkanları, təbiəti, havası, iqlimi var ki, biz bu nemətlərdən istifadə etməliyik. Ümid edirəm ki, gələcəkdə Oğuz Azərbaycanın turizm mərkəzlərindən birinə çevriləcəkdir. İndi bütün bu zonada abadlıq, quruculuq, infrastruktur layihələri icra edilir, yol çəkilir. Bakıdan

Oğuza çəkilən yolun böyük hissəsi indi hazırdır. Sonra bu yol Balakənə qədər davam edəcəkdir.

Qəbələdə beynəlxalq aeroportun açılışı gözlənilir. Bu da başqa ölkələrdən bu bölgəyə turistlərin birbaşa gəlişi üçün şərait yaradacaqdır, dəmir yolu işləyir. Bildiyiniz kimi, Oğuz rayonu əhali nöqteyi-nəzərdən böyük deyildir. Ancaq potensialı kifayət qədər böyükdür. Biz rayonun potensialından maksimum dərəcədə istifadə etməliyik.

Sosial məsələlərin həllinə gəldikdə, bir neçə il əvvəl burada gözəl xəstəxana tikilmişdir. İndi mən maraqlandım – işləyir, gözəl xidmət göstərir. İdmanla məşğul olmaq üçün yüksək səviyyədə imkanlar vardır. Məktəblər tikilir və bu proses hələ davam etdirilməlidir. Bir neçə il sonra da məktəb tikintisi ilə ciddi məşğul olacağıq. Hələ ki, qəzalı vəziyyətdə məktəblər vardır. Düzdür, onların sayı azalır, ancaq var, olmamalıdır və olmayacaqdır.

Qazlaşdırma hələ ki, istədiyimiz səviyyədə deyil. Mənə verilən arayışa görə, Oğuzda bu təqribən 35 faiz səviyyəsindədir. Qarşıya məqsəd qoyulub ki, bu səviyyəni təqribən 90 faizə çatdırmalıyıq. Növbəti 2 ildə Oğuz rayonunun qazlaşdırılması ilə bağlı bütün əsas problemlər öz həllini tapmalıdır. İçməli su və kanalizasiya layihələri icra edilir. Yəqin ki, bu layihə də təxminən 1-2 il çəkə bilər. Ondan sonra içməli su ilə bağlı heç bir problem qalmayacaq. Kənd yollarının tikintisi də gündəlikdədir, körpülər tikilir. Bildiyiniz kimi, hər bir bölgə üçün xüsusi proqram hazırlanıb və icra edilir. Rayonların inkişafı üçün vaxtaşırı əlavə vəsait ayrılır. Oğuz rayonuna da son 3 il ərzində vəsait ayrılmışdır, yenə də ayrılacaq ki, burada bütün abadlıq-quruculuq işləri daha da sürətlə getsin.

Bu mənim Prezident kimi, Oğuza dördüncü səfərimdir. Əlbəttə, Oğuza olan diqqətim buraya etdiyim səfərlərlə ölçülmür. Mən bütün bölgələrdə olarkən vəziyyətlə tanış oluram və görürəm ki, biz əlavə nə etməliyik, daha hansı addımlar atılmalıdır və vaxtilə atılmış addımlar və açdığımız müəssisələr, binalar, obyektlər necə işləyir.

Bizim görüşlərimiz bundan sonra çox olacaqdır. Bütün oğuzlulara uğurlar arzulayıram. 20 illik dövr hər bir dövlət üçün bir mərhələdir. Azərbaycan da başqa müttəfiq respublikalar kimi, 20 il bundan əvvəl müstəqilliyə qovuşdu. Bu 20 il ərzində görülən işlər bir də onu göstərir ki, biz tarixi imkandan, tarixi şansdan çox böyük uğurla, böyük məharətlə istifadə etdik. Xalqımız əsrlər boyu müstəqillik arzusu ilə yaşamışdır. Ancaq müstəqil dövlət deyildik. 20 il ərzində bütün dünyaya sübut etdik ki, müstəqil dövlət kimi yaşaya, inkişaf edə və dünyada böyük hörmətə layiq ola bilərik.

Azərbaycanın xarici siyasəti daxili siyasətin davamıdır. Bu siyasət Azərbaycan xalqının maraqlarını təmin etmək üçün aparılır. Biz sübut edə bilmişik ki, müstəqil dövlət kimi, öz siyasətimizi aparacağıq. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına seçkilər dünya birliyinin Azərbaycana olan hörmətini və inamını göstərdi. 155 ölkə Azərbaycanı dəstəkləyib. Bu, böyük amildir. BMT-də 200-dən bir qədər az ölkə vardır və onların 155-i bizimlədir, bizə inanır. Özü də bilirsiniz ki, bu səsvermə o qədər də rahat getmirdi, rəqabət çox güclü idi. 17 turdan sonra Azərbaycan qələbə qazandı. Özü də birinci turdan sonuncu turlara qədər daim biz böyük fərqlə qabaqdaydıq. Bu doğrudan da 20 ilin məntiqi nəticəsidir, yekunudur və görünən nəticəsidir. İyirmi il böyük dövrdür. Bu dövr ərzində böyük yol keçmişik. Növbəti 20 il ərzində Azərbaycan dünya miqyasında inkişaf etmiş ölkələrin sırasında olmalıdır.

Növbəti illər üçün bizim artıq proqramlarımız hazırlanır. 2013–2018-ci illəri əhatə edəcək yeni Dövlət Proqramı hazırlanır. Onun konsepsiyası indi hazırlanır. Bu məsələ ilə bağlı mənim bir çox fikirlərim, planlarım vardır. Əminəm ki, Azərbaycan bu illər ərzində necə inkişaf edib, bundan sonra daha da sürətlə inkişaf edəcəkdir.

Mən sizi bir daha salamlayıram, cansağlığı arzulayıram. Xahiş edirəm ki, mənim salamlarımı bütün oğuzlulara çatdırasınız. Sağ olun.

## Qəhrəmanlar parkının açılışı mərasimi

*Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Oğuz rayonuna səfəri çərçivəsində Qəhrəmanlar parkının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı parkda ucaldılmış abidənin önünə gül dəstəsi qoydu.*

*Məlumat verildi ki, tikintisinə 2011-ci ilin iyulunda başlanılan Qəhrəmanlar parkı 8,4 min kvadratmetr ərazini əhatə edir. Burada sakinlərin istirahəti üçün hər cür şərait yaradılmışdır.*

*Bildirildi ki, parkda geniş abadlıq işləri görülmüş, 5 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Burada «Veteran» kafesi də yaradılmışdır. Qəhrəmanlar parkında quraşdırılan fəvvarələrin kənarları təbii qranitlə üzlənmişdir.*

*Parkda 600 kvadratmetr ərazi təbii qranitlə üzlənmiş, ümumi sahəsi 2 min kvadratmetr olan iki kiçik meydança və parkdaxili gəzinti səkiləri tikilmişdir.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tövsiyələrini verdi.*

## Rayon məhkəməsinin inzibati binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 16-da Oğuz rayonuna səfəri çərçivəsində rayon məhkəməsinin inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Oğuz Rayon Məhkəməsinin köhnə və yeni binalarının görüntülərini əks etdirən fotostendə baxdı.*

*Məlumat verildi ki, Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi «Ədliyyə sisteminin müasirləşdirilməsi» layihəsi çərçivəsində ilk məhkəmə binası Oğuz rayonunda inşa olunmuşdur. İkimərtəbəli binanın tikintialtı sahəsi 840, ümumi ərazisi isə 1500 kvadratmetrdir. İnşasına 2010-cu ildə başlanılmış binanın ətrafında geniş abadlıq işləri aparılmışdır.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşə yaradılmışdır. Müasir səviyyədə inşa edilən bina bütün zəruri avadanlıqlarla təchiz edilmişdir.*

*BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq Oğuz Rayon Məhkəməsinin binasında əlillərin sərbəst hərəkəti üçün bütün şərait yaradılmışdır. Girişlərdə metal aşkarlayıcı elektron qurğu və turniketlər quraşdırılmışdır ki, bu da ilk növbədə məhkəmə proseslərində təhlükəsizliyi təmin etmək baxımından xüsusi rol oynayır. Vətəndaşlar başqa yerə getmədən binada lazım olan bank, tibb və poçt xidmətlərindən də istifadə edə bilərlər. Burada, həmçinin təlim otağı və elektron kitabxana da fəaliyyət göstərir.*

*İnzibati binada Respublika Ali Məhkəməsi ilə videobağlantı yaradıldı.*

**İlham Əliyev:** Ramiz, eşidirsən bizi?

**Ramiz Rzayev (***Ali Məhkəmənin sədri***):** Bəli, cənab Prezident, Sizi eşidirəm. İcazə verin, göstərdiyiniz diqqətə, bu gözəl binalara görə Sizə bütün hakimlər adından təşəkkürümüzü bildirim. Sizi əmin edirəm ki, etimadınızı ən yüksək səviyyədə doğruldacağıq.

**İlham Əliyev:** Sağ ol. Görürsən, indi nəinki Bakıda, bölgələrdə də gözəl məhkəmə binaları tikilir. Əlbəttə, Ali Məhkəmənin binası öz gözəlliyi və əzəməti ilə seçilir. Bu binalar da kifayət qədər gözəldir və müasir tələblərə cavab verir. Bütün məhkəmə işçilərini bu gözəl hadisə münasibətilə təbrik edirəm.

*Dövlətimizin başçısına məlumat verildi ki, buradakı şərait hakimlərə və məhkəmə işçilərinə Ədliyyə Nazirliyinin iclaslarına, müşavirələrinə, toplantılarına, həmçinin Ali Məhkəmənin Plenumuna birbaşa qoşulmaq imkanı verir. Binada hakimlər, məhkəmə aparatı işçiləri və icra məmurlarının ən yüksək səviyyədə fəaliyyət göstərmələri üçün geniş imkanlar vardır.*

*Burada vəkillər, dövlət ittihamçıları, şahidlər üçün də xüsusi otaqlar yaradılmışdır.*

*Oğuz Rayon Məhkəməsinin yeni binası ilə tanış olan prezident İlham Əliyev görülmüş işləri yüksək qiymətləndirdi, kollektivə uğurlar arzuladı.*

## Qarğıdalı emalı və qlükoza istehsalı müəssisəsinin açılışı mərasimi

*Prezident İlham Əliyev noyabrın 16-da Oğuz şəhərində qarğıdalı emalı və qlükoza istehsalı müəssisəsinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu müəssisə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarına uyğun olaraq «CPC» (Corn Processing Company) Məhdud Məsuliyyətli Cəmiyyət tərəfindən inşa edilmişdir. Müəssisənin yaradılmasına 18 milyon manat sərmayə qoyulmuşdur.*

*Prezident İlham Əliyev qlükoza, özək, kəpək, qlüten və digər hazır məhsulların, eləcə də qlükozanın istehsal prosesinin nümayiş etdirildiyi stendə baxdı.*

*Sonra dövlətimizin başçısı müəssisəni işə saldı.*

*Bildirildi ki, müəssisədə əsasən Türkiyə, ABŞ, Almaniya və İtaliya istehsalı olan avadanlıqlar quraşdırılmışdır. Müəssisənin istehsalat korpusu ilə yanaşı, hər birinin tutumu 500 ton olan iki taxıl anbarı və digər köməkçi binalar inşa edilmişdir. Hər birinin tutumu 5 min ton olan daha iki taxıl anbarının tikintisinə başlanılıb. Müəssisə gündəlik 80 ton qarğıdalı emalından 55 ton yüksək keyfiyyətli qida qlükozası və 20 tonadək müxtəlif növ yem məhsulları istehsal etmək gücünə malikdir. Burada 153 nəfər işlə təmin edilmişdir.*

*Qeyd edildi ki, bu cür müəssisə Cənubi Qafqazda ilk olaraq Azərbaycanda inşa edilmişdir.*

*Müəssisə ilə yaxından tanış olan prezident İlham Əliyev kollektivə uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.*

## QAX RAYONUNA SƏFƏR

*16 noyabr 2011-ci il*

*Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qax rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Qax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin yerləşdiyi ərazidə, ümumiyyətlə, rayonda görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verildi.*

### İlisu–Sarıbaş yolunda Hamamçay çayı üzərində salınmış tağvarı metal körpünün açılışı mərasimi

*Noyabrın 16-da Azərbaycan prezidenti İlham Əliyev Qax rayonuna səfəri çərçivəsində İlisu–Sarıbaş yolunda Hamamçay çayı üzərində salınmış tağvarı metal körpünün açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı «Qax şəhərinin və Əlibəyli kəndinin sel sularından mühafizəsinin baş planı»na baxdı.*

*Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə prezident İlham Əliyevə məlumat verdi ki, Qax şəhərinin çay daşqınlarından mühafizəsi məqsədi ilə 2009–2011-ci illərdə 1622 metr uzunluğunda dəmir-beton üzlüklü bənd vurulmuşdur. Hazırda 186 metr məsafədə işlər davam etdirilir. Rayonun Əlibəyli kəndinin sel sularından qorunması üçün isə 670 metr uzunluğunda dəmir-beton üzlüklü bənd tikilmişdir.*

*Dövlətimizin başçısı, həmçinin İlisu kəndinin daşqınlardan mühafizəsinə dair işçi layihə ilə də tanış oldu. Layihəyə Kürmükçay və Hamamçay çaylarının sol sahillərində yerləşən İlisu kəndinin sel və daşqın sularından mühafizəsi, çayların*

*yataqlarının sağ və sol yamaclarında baş verən təhlükələrin, geoloji çökmə proseslərinin qarşısının alınması daxildir.*

*Prezident İlham Əliyev körpünün rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bildirildi ki, XVII–XVIII əsrlərə aid Qala məhəllə kompleksinin ətəyindəki bu körpünün tikintisinə 2009-cu ilin avqust ayında başlanılmışdır. Milli memarlıq ənənələrinə uyğun inşa edilən körpü rayonun Sarıbaş kəndinə avtomobillərin və piyadaların rahat və maneəsiz hərəkətini təmin etməklə yanaşı, gözəl görünüşü və möhkəmliyi ilə diqqəti cəlb edir. Körpünün metal aşırım qurğusu tağvarı quruluşda, hərəkət hissəsi isə kəsilən tir sistemli olmaqla, uzununa metal tirlərlə birləşdirilmişdir. Qurğunun hər iki tərəfində piyada keçidi inşa olunmuşdur. İnşaat işləri zamanı yüksək keyfiyyətli tikinti materiallarından istifadə edilmişdir.*

*Qeyd edildi ki, bütün layihələr yalnız yerli şirkətlər və qurumlar tərəfindən icra olunur. Rayonun bir çox yaşayış məntəqələrini birləşdirən yolları qısaldan bu körpü ölkənin yol-nəqliyyat strukturunun təkmilləşdirilməsi və xüsusilə də regionların sosial-iqtisadi inkişafına dövlətimizin başçısının göstərdiyi qayğının daha bir göstəricisidir.*

*Prezident İlham Əliyev körpünün açılışı münasibətilə təbriklərini çatdırdı.*

## «El Resort» mehmanxanasının açılışı mərasimi

*Noyabrın 16-da Azərbaycan prezidenti İlham Əliyev Qaxda «El Resort» mehmanxanasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, paytaxt Bakı ilə yanaşı, respublikamızın regionlarında da müasir turizm obyektlərinin inşası Azərbaycana yüksək maraqdan, həmçinin ölkəmizdə istər yerli, istərsə də xarici iqtisadi qurumlar üçün yaradılmış əlverişli investisiya mühitindən irəli gəlir. Turizmin inkişafı ölkəmizdə*

*otel biznesinin genişləndirilməsini və keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını zəruri edir. Qax rayonunda da turizm potensialının inkişaf etdirilməsi diqqət mərkəzindədir. Bu baxımdan yeni tikilmiş «El Resort» otel kompleksi də mühüm əhəmiyyət daşıyır.*

*Mehmanxanada yaradılmış şəraitlə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, üçmərtəbəli kompleks 2,7 hektar ərazini əhatə edir. Ümumi sahəsi 3 min 660 kvadratmetr olan mehmanxana lüks və VİP otaqlardan, 120 yerlik yeməkxanadan, 60 yerlik kafe-bar, oyun və kino zallarından ibarətdir. Qonaqlar burada türk və Çin hamamlarının, nəhəng hovuzun, yaz-yay terrasının, universal idman meydançasının xidmətlərindən istifadə edə biləcəklər.*

*Dövlətimizin başçısı sonra mehmanxananın tikilməkdə olan konfrans zalının layihəsini əks etdirən stendə baxdı. Üç zaldan ibarət olacaq ikimərtəbəli konfrans zalında eyni vaxtda bir neçə tədbirin keçirilməsi mümkün olacaqdır.*

*Mehmanxanada yaradılmış şəraiti yüksək qiymətləndirən prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.*

## Qax şəhərində Qaxingiloy və Qaxbaş kəndlərində yenidən qurulan su-kanalizasiya sisteminin təməlqoyma mərasimi

*Noyabrın 16-da Azərbaycan prezidenti İlham Əliyev Qax şəhərində, Qaxingiloy və Qaxbaş kəndlərində yenidən qurulan su-kanalizasiya sisteminin təməlqoyma mərasimində iştirak etmişdir.*

*İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Azərbaycan prezidenti Qax şəhərinin su təchizatı və kanalizasiya sistemləri kompleksinin planına baxdı. «Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov məlumat verdi ki, Qax şəhəri, Qaxingiloy və Qaxbaş kəndlərinin su-kanalizasiya sisteminin yenidən qurulması layihəsinə əsasən, burada ilkin mərhələdə tutumu 100 kubmetr olan su anbarı inşa ediləcəkdir.*

*Sonrakı mərhələlərdə isə 1000 kubmetrlik dörd su anbarı tikiləcək, kanalizasiya xətləri çəkiləcəkdir. Qaxbaş su anbarına Hamamçay körpüsünün yaxınlığındakı üç bulaqdan 8 min 300 metr uzunluğunda polietilen borularla su xətti çəkiləcəkdir. 5 hektar ərazidə sutəmizləyici qurğu inşa olunacaqdır. Sonuncu mərhələdə isə Qax şəhərinin mövcud yaşayış sahələrində, o cümlədən Qaxbaş və Qaxingiloy kəndlərində su və kanalizasiya xətləri yenidən qurulacaqdır. Sistemin inşası 2013-cü ildə yekunlaşdırılacaqdır.*

*Sonra Qax şəhərində, Qaxingiloy və Qaxbaş kəndlərində yenidən qurulan su-kanalizasiya sisteminin təməli qoyuldu.*

*Prezident İlham Əliyev metal gilizi bünövrəyə buraxdı, beton qarışığı tökən qurğunun düyməsini basdı.*

*Dövlətimizin başçısı inşaatçılarla görüşdü, onlara uğurlar arzuladı.*

**İ l h a m Ə l i y e v:** Qax rayonunda yeni su layihəsi başlayır. Siz bu layihəni icra edəcəksiniz. Çalışmalısınız ki, bu layihə maksimum keyfiyyətlə və vaxtında icra edilsin. Qax şəhərinin və ətraf kəndlərin su-kanalizasiya problemləri birdəfəlik öz həllini tapacaqdır. Bu layihə iki ilə yaxın vaxt ərzində icra olunmalıdır. Azərbaycanda su təchizatı ilə bağlı problemlərin həlli üçün növbəti addım atılıb. Növbəti rayonda biz bu layihəni başlayırıq.

Bütün bölgələrdə hər bir rayon üzrə proqramlar, konkret layihələr vardır. İndi bölgələrə səfərlərim çərçivəsində də, demək olar ki, hər dəfə su layihəsinin təməl daşını qoyuruq. Sizə uğurlar arzulayıram.

## Yeni Azərbaycan Partiyası Qax rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 17-də Yeni Azərbaycan Partiyası Qax rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdi.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, inzibati bina Qax şəhərinin Heydər Əliyev prospektində yerləşir. Binanın tikintisinə 2010-cu ilin yanvar ayında başlanılmışdır. Ətrafda əsaslı abadlıq işləri görülmüş, yaşıllıqlar salınmışdır. Ümumi sahəsi 512 kvadrat-metr olan ikimərtəbəli binanın girişində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin fəaliyyətləri ilə bağlı gördükləri işləri əks etdirən fotoguşə də vardır. İnformasiya-kommunikasiya texnologiyalarının da tətbiq edildiyi yeni binanın bütün otaqlarında səmərəli fəaliyyət üçün hər cür şərait yaradılmışdır. Binada müasir havalandırma sistemi quraşdırılmışdır.*

*Bildirildi ki, 1993-cu il sentyabrın 19-da 128 nümayəndənin iştirakı ilə YAP Qax rayon təşkilatının ilk təsis konfransı keçirilmişdir. Qax rayon təşkilatı YAP-ın rayon və şəhər təşkilatlarının yaranma tarixinə görə yeddinci qurumdur. Hazırda rayon təşkilatının 3 min 415 üzvü vardır. Onların 51 faizini qadınlar, 41 faizini isə gənclər təşkil edir. YAP Qax rayon təşkilatı 70 ərazi ilk partiya təşkilatını özündə birləşdirir.*

*Dövlətimizin başçısı konfrans zalına baxdı.*

*Sonra Azərbaycan prezidenti binanın balkonundan ətrafı seyr etdi. Dövlətimizin başçısına binanın ətrafında salınan Gənclik parkında görülmüş işlər barədə məlumat verildi. Bildirildi ki, ətraf ərazidə gənclər üçün yaşayış massivi də yaradılacaqdır.*

*Prezident İlham Əliyev yeni inzibati binanın açılışı münasibətilə təbriklərini çatdırdı.*

## Heydər Əliyev Mərkəzinin təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 17-də Qax rayonunda Heydər Əliyev Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Mərkəzin eskiz layihələri ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Mərkəzi bir hektara yaxın ərazidə inşa olunacaqdır. Tikinti işlərinin 2012-ci ildə başa çatdırılması nəzərdə tutulmuşdur. Sahəsi 2 min kvadratmetrə qədər olacaq əsas binada bir böyük konfrans zalı, eksplikasiya salonları, sinif otaqları və mini konfrans zalı da fəaliyyət göstərəcəkdir. Layihəyə əsasən Mərkəzin mühəndis-kommunikasiya sistemi də ən müasir standartlara cavab verəcəkdir. Mərkəzin ətrafında abadlıq və yaşıllaşdırma işləri aparılacaqdır.*

*Qeyd olundu ki, Mərkəzdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, xarici ölkələrə və respublikamızın regionlarına səfərlərini əks etdirən fotoguşə yaradılacaqdır. Burada xarici dil, rəsm dərnəkləri və ən müasir avadanlıqla təchiz edilən xidmət otaqları fəaliyyət göstərəcəkdir. Mərkəzdə şagirdlər Azərbaycan ədəbiyyatını və tarixini dərindən öyrənəcəklər.*

*Sonra Heydər Əliyev Mərkəzinin təməli qoyuldu.*

*Prezident İlham Əliyev metal gilizi bünövrəyə buraxdı, beton qarışığı tökən qurğunun düyməsini basdı. Mərkəzin tikintisinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Avtovağzal kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 17-də «Qax-Avto» MMC-nin avtovağzal kompleksinin açılışında iştirak etmişdir.*

*Azərbaycan prezidenti avtovağzalın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı köhnə və yeni avtovağzalın görüntülərini, eləcə də kompleksə daxil olan yardımçı binaları əks etdirən stendlərə baxdı.*

*Məlumat verildi ki, müasir memarlıq üslubunda inşa olunmuş avtovağzalın tikinti sahəsi 522 kvadratmetrdir. Əra-*

zidə yaşıllıq salınmış və dekorativ ağaclar əkilmişdir. Binada sərnişinlərin istirahəti üçün lazımi şərait yaradılmış, müasir havalandırma sistemi quraşdırılmışdır.

Qeyd edildi ki, ikimərtəbəli avtovağzal kompleksinə avtomobillər üçün texniki müayinə, anbar-qazanxana və mağaza binaları daxildir. Binanın birinci mərtəbəsindəki gözləmə salonunda sərnişinlər üçün hər cür rahatlıq yaradılmışdır. Burada ana və uşaq otağı da vardır. Kompleksdə sərnişinlərin əşyalarının saxlanması üçün kameralar yaradılmışdır. Dispetçer otağı da yüksək səviyyədə xidmət üçün müvafiq şəraitə malikdir. Tibbi xidmətə ehtiyacı olanlar isə həkim otağına müraciət edə biləcəklər. Avtovağzalda restoran da fəaliyyət göstərəcəkdir. İnzibati otaqlar, iclas salonu, dörd qonaq otağı kompleksin ikinci mərtəbəsində yerləşir. Bir sözlə, yeni avtovağzal kompleksində sərnişinlərə yüksək səviyyədə xidmət göstəriləcəkdir.

Dövlətimizin başçısı perronda müxtəlif istiqamətlərdə hərəkət edəcək avtobuslara baxdı.

Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi.

## «İçəribazar» qala kompleksində tikinti və yenidənqurma işlərindən sonra yaradılmış şəraitlə tanışlıq

Noyabrın 17-də prezident İlham Əliyev Qax şəhərinəki «İçəribazar» qala kompleksində tikinti və yenidənqurma işlərindən sonra yaradılmış şəraitlə tanış olmuşdur.

Bildirildi ki, Qaxda XVI əsrdən mövcud olan «İçəribazar» qala qapıları və divarları maddi-mədəniyyət abidəsinin yenidən qurulması tarixi irsimizin qorunması istiqamətində hazırda ölkəmizin bütün bölgələrində həyata keçirilən tədbirlərin bariz nümunəsidir. Aparılan tikinti və yenidənqurma işlərindən sonra «İçəribazar» qala kompleksi müasir və füsunkar görkəm almışdır. Burada əsrlərdən bəri qorunub saxlanılan bir çox maddi-mədəniyyət abidələri müasir Qax şəhərinin bir hissəsi olmaqla yanaşı, onun tarixinə verilən dəyəri də nümayiş etdirir.

*Dövlətimizin başçısı kompleksin əvvəlki və yeni görüntülərini əks etdirən fotolara baxdı.*

*Kompleksin ərazisini gəzən prezident İlham Əliyevə məlumat verildi ki, burada tikinti və yenidənqurma işlərinə 2010-cu ilin aprel ayında başlanılmış və qısa müddətdə yüksək keyfiyyətlə başa çatdırılmışdır. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, kompleksin ətrafla ümumi ansambl təşkil etməsi və uzlaşdırılması diqqət mərkəzində saxlanılmışdır. İçəribazar küçəsindəki fərdi evlərin dam örtükləri yenilənmiş, darvaza, pəncərə, tavan, sütun, balkonlarda sürahilər və digər hissələr taxta materialdan yüksək zövqlə yenidən işlənmişdir.*

*Bildirildi ki, görkəmli bəstəkar, ictimai xadim Müslüm Maqomayevin atası usta Məhəmməd kişinin dəmirçi emalatxanası XIX əsrin 80-ci illərində burada yerləşmişdir. 1902-ci ildə Qori seminariyasında təhsil alarkən Müslüm Maqomayev atasının vəsiyyətinə əsasən, dahi bəstəkar Üzeyir Hacıbəyli ilə burada olmuşdur. Milli memarlıq üslubunda çapma daş və qırmızı kərpiclə nəfis şəkildə işlənilən, dekorativ suvaq vurulan küçə divarları da insanda xoş ovqat yaradır.*

*Azərbaycan prezidenti Qaxın baş planını, şəhərin qədim hissəsinin bərpasını, perspektiv planını və yeni küçələrin abadlaşdırılmasını əks etdirən stendlərə baxdı.*

*«İçəribazar» qala kompleksində fəaliyyət göstərən tətbiqi sənət, ağacoyma, toxuculuq, Şərq şirniyyatı və təndirxana otaqları ilə tanış olan dövlətimizin başçısı Qax rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 noyabr 2011-ci il*

Sizi ürəkdən salamlayıram. Qaxda yenidən olmağımdan çox şadam, çox məmnunam. Bu, Qaxa mənim birinci səfərim deyil. Hər dəfə Qaxda olanda, yenilikləri görəndə çox sevinirəm. Rayon inkişaf edir, gözəlləşir, belə gözəl memarlıq əsərləri yaradılır. Deyə bilərəm ki, müasir Azərbaycanda belə gözəl guşələrin yaradılması yəqin ki, Qaxdan başlayıb.

Bizim tarixi bölgələrimiz çoxdur, bu cür gözəl tarixi binalarımız da, abidələrimiz də vardır. Ancaq tarixi binaları bu səviyyədə bərpa etmək üçün, əlbəttə ki, böyük səylər göstərilmişdir. Bu kiçik qəsəbə böyük məhəbbətlə, zövqlə və tarixi həqiqəti saxlamaq şərti ilə yaradılmışdır. Əslində burada gördüklərimiz qədim tarixdən bizə miras qalan əsərlərdir. Ancaq, bax, bu gözəl binaları bu səviyyədə bərpa etmək, burada, sözün əsl mənasında, turizm mərkəzini yaratmaq böyük peşəkarlıq və məharət tələb edirdi. Mən çox şadam ki, Qaxın tarixi simasını əks etdirən bu kiçik guşə artıq fəaliyyətə başlayır. Burada sənətkarlar öz sənətlərini təqdim edirlər, açıq səma altında gözəl səhnə yaradılıbdır. Bir sözlə, belə guşələr Azərbaycanda daha da çox olmalıdır.

Azərbaycanın bölgələri öz müxtəlifliyi ilə fərqlənir, seçilir. Hər bir bölgə, hər bir rayon üçün ayrıca bir şəhərsalma inkişaf planı hazırlanmalıdır. Bəzi yerlərdə artıq işlər başlamışdır, bəzi yerlərdə yaxın zamanlarda başlanacaqdır. Bu bölgənin inkişafı daha çox turizmlə bağlı olacaq və Azərbaycan bu məsələlərlə çox ciddi məşğuldur. Bu il Azərbaycanda «Turizm ili» elan edilmişdir. Paytaxtda, bölgələrdə gözəl mehmanxanalar açılıb. O cümlədən Qaxda yeni mehmanxananın açılışında da iştirak etmişəm. Deyə bilərəm ki, ən inkişaf etmiş ölkələrdə olan şəraitlə bu mehmanxanadakı şərait arasında heç bir fərq yoxdur.

Bu onu göstərir ki, investorlar Azərbaycanın gələcəyinə inanırlar. Baxmayaraq ki, Qax paytaxtdan uzaqda yerləşir, indi tikilən və gələcəkdə tikiləcək yollar, aeroportlar Qaxı paytaxt ilə birləşdirir.

Turizm obyektləri ilə bərabər, rayonun gündəlik problemləri də həllini tapır. İndi bütün infrastruktur layihələrinin icrası üçün konkret işlər görülür. Biz Qaxın su təchizatı ilə bağlı böyük layihəni başlamışıq. 2 il ərzində şəhərin və bəzi ətraf kəndlərin su problemi 100 faiz həll olunacaqdır, kanalizasiya da həmçinin. Bu təkcə Qax üçün deyil, bütün bölgələr üçün ciddi problemdir. Hər bir bölgədə bu layihələr icra olunur və indiki vəziyyət bizi qane edə bilməz. Su fasilələrlə, qrafiklə verilir. İndi Bakının bəzi bölgələrində də su fasilələrlə verilir və bu vəziyyəti dəyişmək üçün biz ciddi tədbirlər görürük. Hər bir bölgədə, hər bir rayonda bu işlər, o cümlədən qazlaşdırma aparılır, yollar, həmçinin kənd yolları çəkilir və rayonun inkişafı ilə bağlı bütün məsələlər öz həllini tapacaqdır. Dövlət öz üzərinə düşən vəzifəni icra edir. Dövlət vəsaiti ayrılır. Özəl sektor da bu işlərə qoşulur, investorlar, iş adamları da qoşulmalıdırlar ki, ölkəmizin iqtisadiyyatı hərtərəfli inkişaf etsin.

Qaxın inkişafı üçün regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında konkret tapşırıqlar verilmişdir. Onlar icra edilir. Proqram 2013-cü ildə başa çatacaqdır. Əminəm ki, o vaxta qədər rayonun əsas infrastruktur, sosial və iqtisadi problemləri öz həllini tapacaq. Bütün infrastruktur yenidən qurulacaq və ondan sonrakı dövr üçün biz yeni proqram hazırlayacağıq. Bu proqram artıq sürətli inkişaf proqramı olacaqdır. Çünki 2003–2013-cü illərdə diqqətimizi daha çox infrastruktur layihələri cəlb etmişdir – yollar, elektrik enerjisi təchizatı, qazlaşdırma, su-kanalizasiya layihələri, məktəblərin tikintisi, xəstəxanalar, idman qurğuları. Növbəti 2 il ərzində ölkə miqyasında bu məsələlər öz həllini tam şəkildə tapmalıdır. Ondan sonrakı dövrdə də həyat yeni tələblər qoyacaq qarşımızda. Həyat yerində durmur. Azərbaycan inkişaf edir və çox uğurla inkişaf edir.

Mən bir daha sizi ürəkdən salamlayıram, sizi alqışlayıram. Burada gördüyüm mənzərə, əlbəttə ki, rayon rəhbərliyi tərəfindən icra edilir. Bu təşəbbüsü rəhbərlik irəli sürmüşdür, ancaq bilirəm ki, qaxlılar bu işlərdə böyük fəallıqla iştirak etmişlər. Mən, əlbəttə, əminəm ki, biz hamımız indi sevinirik, fəxr edirik ki, belə gözəl tarixi diyarda belə gözəl əsərlər yaradılıb.

Bu gün tarixi bir gündür. Düz 21 il bundan əvvəl, hələ Sovet İttifaqı dönəmində ulu öndər Azərbaycanın milli bayrağını Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi elan etmişdir. O bayrağı dövlət rəmzi kimi Naxçıvanın Ali Məclisi qəbul etmişdir və Azərbaycan Ali Sovetinin qarşısında vəsatət qaldırılmışdır ki, bu bayraq Azərbaycan dövlətinin rəsmi bayrağı kimi elan edilsin. Əfsuslar olsun ki, bu təşəbbüsə dərhal reaksiya verilməmişdir. Halbuki verilməli idi.

Bu addım və ondan sonrakı addımlar müstəqilliyimizi yaxınlaşdırdı. Müstəqilliyimiz labüd idi, yəni bu qaçılmaz idi. Aydın idi ki, Sovet İttifaqı dağılmaq ərəfəsində idi. Ancaq bu müstəqilliyi yaxınlaşdırmaq və tezliklə əldə etmək üçün hər halda, Azərbaycanda ilk addımlar məhz ulu öndər tərəfindən Naxçıvanda atılmışdır. Həm milli bayrağın dalğalanması, həm Yeni Azərbaycan Partiyasının yaradılması, Sovet İttifaqının saxlanılması haqqında referendumun Naxçıvanda keçirilməməsi – bütün bu addımlar çox böyük siyasi iradə və cəsarət tələb edirdi. Çünki o zaman hələ Sovet İttifaqının nə vaxt dağılması haqqında qəti fikir yox idi və bugünkü Azərbaycan, bax, o çətin anlarda atılmış addımların nəticəsində həm formalaşmış, həm özünü qoruya bilmişdir. Xüsusilə 1993-cü ildə ölkəmiz üçün ən ağır vəziyyətdə yenə Heydər Əliyev artıq respublika miqyasında bütün məsuliyyəti öz üzərinə götürərək Azərbaycanı böyük bəlalardan xilas edə bilmişdir. Bu il biz müstəqilliyimizin 20 illiyini böyük sevinclə, böyük qürur hissi ilə, gözəl nəticələrlə qeyd edirik. Bundan sonra daha da yaxşı olacaqdır. Beynəlxalq səviyyədə uğurlarımızın bariz nümunəsi dünya birliyinin bizimlə olması nəticəsində özünü göstərmişdir.

Oktyabrın 24-də Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Bu, böyük tarixi qələbədir, gördüyümüz işlərin nəticəsidir. Bu hadisə Azərbaycanın dünyadakı imicinin nə qədər yüksək səviyyədə olmasını göstərir.

Mən tam əminəm ki, ölkə qarşısında duran bütün vəzifələr icra ediləcəkdir. Daxili və xarici siyasətlə bağlı artıq bunu tam qətiyyətlə demək mümkündür. Daxili siyasət, iqtisadi inkişaf sürəti Azərbaycanda ən yüksək səviyyədədir. Bütün mötəbər beynəlxalq təşkilatlar da bunu qeyd edirlər. Azərbaycanda son illər ərzində yaşanan bu sürətli inkişaf tarixdə heç bir ölkədə olmamışdır, bəlkə də olmayacaqdır. Xarici siyasətlə bağlı dostlarımızın sayı artır, dünya birliyi Azərbaycanın yanındadır və bizə inanır. Bizim ən ağır problemimiz torpaqlarımızın hələ də işğal altında qalmasıdır. Biz çalışırıq ki, bu problemi danışıqlar yolu ilə həll edək. Ancaq hələ ki, bu mümkün deyildir. Danışıqları aparmaqla yanaşı, ölkəmizi gücləndiririk. Ölkənin gücü təkcə maliyyə və iqtisadi meyarlarla ölçülmür. Hər bir bölgənin gücü, hər bir rayonun potensialının artırılması bizi gücləndirir. Gücümüz ondadır ki, bizdə iqtidarla xalq arasında birlik, inam, həmrəylik və əlbəttə ki, güclü ordumuz var. Biz ordumuzu böyük dərəcədə gücləndirə bilmişik və bu gün bizim ordu istənilən anda torpaqları hərbi yolla azad edə bilər. Biz bunu bilirik, düşmənlərimiz də və bu məsələ ilə məşğul olan vasitəçilər də bunu bilirlər. Çünki müasir dünyada nəyi isə gizlətmək mümkün deyildir. Biz heç qarşıya belə məqsəd də qoymamışıq ki, nəyi isə gizlədək.

Əksinə, biz Azərbaycanda keçirilən hərbi paradda ordu quruculuğunda əldə edilmiş nailiyyətləri xalqa nümayiş etdirdik. Bu həm nümayiş, eyni zamanda, xalq qarşısında hərbi sahədə görülmüş işlərlə bağlı hesabat idi. İndi Ermənistanla Azərbaycan arasında fərq elədir ki, bu, böyük bir uçurumdur və getdikcə daha da genişlənəcəkdir. Vasitəçilər də bunu bilirlər. Son zamanlar vasitəçilər fəallaşmışlar və əlbəttə ki, biz bunu alqışlayırıq. Beynəlxalq təşkilatların rəhbərləri ilə apardığım

danışıqlar da bunu bir daha göstərir. Beynəlxalq vasitəçilər çox çalışırlar ki, məsələ tezliklə öz həllini tapsın, müharibə, münaqişə olmasın. Çünki hamı yaxşı başa düşür ki, bu dırnaqarası dondurulmuş vəziyyət çox çəkə bilməz. Həm Azərbaycanın iqtisadi gücü, həm Azərbaycan xalqının səbrinin tükənməsi, həm bizim hərbi potensialımız, demoqrafik üstünlüyümüz – hara baxsan, hansı sahəyə baxsan, hər yerdə Azərbaycan bir neçə pillə üstündür. Gələcəkdə bu fərq yalnız artacaqdır, azalmayacaqdır. Çünki biz bilirik ki, gələcəyimiz necə olacaqdır. İqtisadiyyatımız güclüdür, bizim təbii resurslarımız, insan potensialımız var, Azərbaycan xalqı gənc xalqdır. Ölkə əhalisinin əksəriyyətini gənclər təşkil edir. Bu da çox vacibdir. İndi bəzi ölkələrdə, xüsusilə Avropa ölkələrində xalqların yaşlanması ilə bağlı çox böyük müzakirələr aparılır, narahatlıq ifadə edilir. Azərbaycanın çox böyük insan resursları vardır. Ölkəmizdə təhsilə, elmə göstərilən diqqət Azərbaycan gənclərinin peşəkarlığını artırır. Gənclərimiz peşəkar, bilikli, vətənpərvər olmalıdırlar. Peşəkar, bilikli olmaq üçün dövlət şərait yaratmalıdır, vətənpərvər olmaq üçün, əlbəttə ki, dövlət təbliğatı aparılmalıdır. Ancaq ölkədə elə vəziyyət yaradılmalıdır ki, hər bir vətəndaş qürur hissi ilə deyə bilsin ki, o bu ölkənin vətəndaşıdır. Bu gün biz bunu görürük. Vətəndaşlarımız, gənclərimiz fəxr edirlər ki, Azərbaycan vətəndaşıdırlar.

Hər bir xarici qonaq Bakıya və bölgələrə gələndə əgər qərəzsizdirsə görür və etiraf edir ki, Azərbaycan dünya miqyasında ən yüksək sürətlə inkişaf edən ölkələr sırasındadır. Bakı şəhəri dünya miqyasında ən gözəl şəhərlərdən biridir, vaxt gələcək ən gözəl şəhər olacaqdır. Yəqin siz bilirsiniz ki, Bakı ilə bağlı böyük planlarımız vardır. Planlarımız təkcə Bakı ilə bağlı deyildir. Çünki bizim işimiz nəyi isə kiməsə göstərməkdən ibarət deyildir. Yəni bir vitrin yaratmaq deyildir. Biz ən ucqar bölgələrdə, ən ucqar kəndlərdə müasir infrastruktur yaradırıq, yollar çəkirik, abadlıq işlərini aparırıq ki, hər bir yerdə yaşayan vətəndaş özünü yaxşı, rahat hiss etsin və fəxr etsin ki, Azərbaycan vətəndaşıdır.

Mən əminəm ki, qaxlılar və bütün başqa bölgələrdə yaşayan insanlar fəxr edirlər ki, Azərbaycan vətəndaşlarıdırlar. Biz hər birimiz ölkəmizi öz işimizlə, öz addımlarımızla, ümumi işə verdiyimiz töhfələrlə gücləndirməliyik.

Sizi bir daha salamlayıram, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Hələ görüşlərimiz çox olacaqdır. Çünki Qaxda gələcəkdə açılışlar çox olacaqdır. Yeni binaların, yeni obyektlərin tikintisi nəzərdə tutulur. Ona görə də açılışlar çox olacaq və biz sizinlə görüşəcəyik. Sağ olun.

## ŞƏKİ RAYONUNA SƏFƏR

*17 noyabr 2011-ci il*

*Noyabrın 17-də Azərbaycan prezidenti İlham Əliyev Şəki rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Şəki şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin ətrafında görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verildi. Bildirildi ki, ərazidə yaşıllıq zolağı daha da genişləndirilmişdir.*

### Olimpiya İdman Kompleksinin yenidənqurmadan sonrakı vəziyyəti ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 17-də Şəki Olimpiya İdman Kompleksinin yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı kompleksin yenidənqurmadan əvvəlki və sonrakı vəziyyətini əks etdirən stendlərə baxdı.*

*Məlumat verildi ki, regionun ən böyük olimpiya idman komplekslərindən biri olan bu idman mərkəzi 2002-ci ilin noyabrında ulu öndər Heydər Əliyevin iştirakı ilə açılmışdır. O vaxtdan başlayaraq bu kompleksdə bir çox idman yarışları, təlim məşqləri və digər ictimai-sosial tədbirlər keçirilmişdir. Son dövrlərdə isə ərazisi bir qədər də genişləndirilmiş kompleks aparılan yenidənqurma işləri nəticəsində müasir standartlar səviyyəsinə çatdırılmışdır. Buradan aydın görünür ki, ölkəmizdə bütün idman qurumlarının bir yerdə fəaliyyət göstərməsi uğurlu nəticənin əldə olunmasının əsas səbəblərindən biridir. Bu sırada Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın idmançılara olan diqqəti də nəzərdən qaçmır. Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi, Mehriban xanım Əliyevanın səmərəli fəaliyyəti bu sahədə ölkəmizin ciddi uğurlar qazanması ilə müşayiət olunur. Bir*

sözlə, Azərbaycan dünya idman aləminə nəhəng mərkəzlərdən biri kimi daxil olmuşdur və nailiyyətin təməlində ölkəmizdə idmana olan yüksək münasibət dayanır.

Qeyd edildi ki, kompleksdə yenidənqurma işlərinə 2008-ci ildən başlanılmışdır. Sahəsi 8 min kvadratmetr olan kompleksdə 2,2 min kvadratmetr böyük idman zalı yaradılmışdır. Kiçik idman zalının sahəsi isə 1800 kvadratmetrdir. İdman zalları gələcəkdə burada irimiqyaslı beynəlxalq və yerli əhəmiyyətli yarışların keçirilməsinə tam imkan verir. İdman və sağlamlıq üçün bütün infrastrukturun yaradıldığı Olimpiya İdman Kompleksində hər biri 800 kvadratmetr olmaqla hovuz və SPA mərkəzi, 240 kvadratmetr sahədə isə trenajor zalı yaradılmış və zəruri idman avadanlığı quraşdırılmışdır.

Yenidənqurma işləri nəticəsində kompleksin ərazisində 1400 kvadratmetr sahəni əhatə edən akvapark yaradılmışdır. Bütün əyləncə növlərinin olduğu bu kompleksdə restoran və boulinq zalı da fəaliyyət göstərəcəkdir. Konfrans zalının, internet-klubun yaradıldığı Şəki Olimpiya İdman Kompleksinin tərkibinə 1500 kvadratmetr sahəsi olan otel bölməsi də daxildir. Kompleksin ərazisində 8 min kvadratmetr sahəsi olan futbol meydançası da yaradılmışdır. Ərazidəki 27 kottecdə idmançıların istirahəti üçün bütün imkanlar vardır. Kompleksdə uşaqların da idman növləri ilə məşğul olmaları üçün bütün şərait yaradılmışdır. Burada balacalar üçün 380 kvadratmetr uşaq əyləncə binası tikilmişdir. Kompleksdə yaradılan şərait bir daha təsdiqləyir ki, dünyada özünün sürətli iqtisadi inkişafı ilə fərqlənən Azərbaycan həm də nəhəng idman mərkəzinə çevrilməyi qarşıya məqsəd qoymuşdur. Bu məqsədə nail olmaq yolunda atılan addımlar isə öz bəhrəsini verir.

Dövlətimizin başçısı, həmçinin idmançıların, eləcə də xarici qonaqların qalması üçün burada yaradılan otaqlara, kotteclərə və uşaqlar üçün əyləncə və istirahət mərkəzinə baxdı.

Bildirildi ki, buradakı «Karvan» restoranında nümunəvi xidmət göstəriləcəkdir.

*Prezident İlham Əliyev yenidənqurma işlərindən razılığını bildirdi.*

## Yeni Mərkəzi xəstəxananın açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 17-də Şəkiyə səfəri çərçivəsində Mərkəzi xəstəxananın açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, 100 çarpayılıq xəstəxananın inşası müasir texnologiya və qabaqcıl təcrübə əsasında həyata keçirilmişdir. Xəstəxananın təməli 2008-ci ilin sentyabrında Azərbaycan prezidentinin iştirakı ilə qoyulmuşdur.*

*Əsas bina altı korpusdan ibarətdir. Birinci və ikinci korpuslar üçmərtəbəli, üçüncü və dördüncü korpuslar ikimərtəbəli, digər iki korpus isə birmərtəbəlidir. Burada təcili tibbi yardım, reanimasiya, iki cərrahiyyə, onkoloji xəstəliklər, göz xəstəlikləri, diaqnostika, laboratoriya, dializ və poliklinika şöbələri fəaliyyət göstərir.*

*Təcili tibbi yardım şöbəsi ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, burada reanimasiya və kiçik əməliyyat bloku vardır.*

*Prezidentin ehtiyat fondundan ayrılmış vəsait hesabına inşa olunan xəstəxananın dörd hektarlıq həyətyanı sahəsində avtodayanacaqlar, su hovuzları, içməli və çirkab su anbarları, nasosxana, transformator yarımstansiyası, qazanxana tikilmişdir. Xəstəxananın həyətində geniş abadlıq işləri aparılmış, yaşıllıq zolaqları salınmışdır.*

*Tibb ocağı ilə tanışlıqdan sonra prezident İlham Əliyev xəstəxananın kollektivi və Şəki ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 noyabr 2011-ci il*

Sizi təbrik edirəm. Xatırlayıram ki, 3 il əvvəl bu gözəl xəstəxananın təməl daşını biz bərabər qoyduq. 3 il ərzində gözəl, müasir xəstəxana tikilibdir və bu gün biz bu xəstəxananın açılışında bərabər iştirak edirik. Bu, gözəl, əlamətdar hadisədir. İndi bu, deyə bilərəm ki, bölgənin bəlkə də ən böyük xəstəxanasıdır. Çox geniş, gözəl, yaraşıqlı binadır. Bütün müasir avadanlıqlar, bütün şərait vardır, palatalar da genişdir, həkimlər üçün də yaxşı şərait yaradılıbdır. Bu çox sevindirici haldır, gözəl hadisədir. Bu onu göstərir ki, bütün qərarlarımız icra edilir. Qəbul edilmiş qərarlar vaxtında və keyfiyyətlə icra edilir və xüsusilə sosial sahədə belə gözəl obyektlərin yaradılması çox böyük və əlamətdar hadisədir.

Bütövlükdə Azərbaycanda indi bütün bölgələrdə yeni xəstəxanalar açılır. Demək olar ki, mən hər ay yeni xəstəxananın açılışında iştirak edirəm, bəzi hallarda ayda iki dəfə. Bu onu göstərir ki, bu proses bu gün bölgədə geniş vüsət almışdır. Bu bölgədə, demək olar ki, müasir xəstəxanalar tikilmişdir, tibbi mərkəzlər yaradılmışdır. Şəkidə yaradılmış bu Mərkəz ən müasir mərkəzdir. Bakıda da bu sahədə işlər görülür, yeni xəstəxanalar tikilir, təmir edilir. Ağdaşda, Ucarda, Xaçmazda buna bənzər gözəl xəstəxana tikilmiş və bu yaxınlarda istifadəyə verilmişdir. Mən təkcə son bir ayın hadisələrini yada salıram.

Bu xəstəxananın tikintisində işləri Səhiyyə Nazirliyimiz Dünya Bankı ilə birlikdə görmüşdür. Dünya Bankı ilə əməkdaşlığımız böyük tarixə malikdir. Azərbaycanda bir sıra infrastruktur layihələrinin icrası ilə bağlı birgə fəaliyyət göstərmişik. Bütövlükdə beynəlxalq maliyyə qurumları Azərbaycanda iqtisadi və sosial sahələrdə gedən proseslərə çox müsbət qiymət verirlər.

Regionların inkişafı proqramının icrası ilə bağlı əvvəlki dövrdə başladığımız işlər bu gün reallaşır. Mən bu bölgədə dəfələrlə olmuşam, o cümlədən Şəkidə də dəfələrlə olmuşam. Əminəm ki, bu bölgə Qobustandan Balakənə qədər gözəl müasir turizm zonası kimi özünü göstərəcək. Bunu etmək üçün bütün infrastruktur layihələri icra edilir, yollar çəkilir. Şəki–Qax avtomobil yolu çəkilir, yaxın zamanlarda açılacaqdır. Bu, məsafəni daha da qısaldacaqdır. Yeni binalar, qazlaşdırma, suvarma, içməli su layihəsi, o cümlədən Şəki şəhərinin içməli su problemlərinin həlli üçün layihə icra edilir. Onun birinci mərhələsi başa çatmışdır. Yaxın zamanlarda Şəkinin bütün su və kanalizasiya problemləri öz həllini tapmalıdır.

Qazlaşdırma ilə bağlı indi işlər daha da sürətlə gedir. Bu bölgəni, xüsusilə Şəkini bölgənin mərkəzi kimi, müasir və qədim turizm şəhəri kimi, gərək daha da gözəlləşdirək. Bu məqsədlə müvafiq qərarlar verilmişdir. Əvvəlki dövrdə də sərəncamlar verilmişdir və vəsait ayrılmışdır. Bu yaxınlarda isə Şəkinin abadlaşmasına və tarixi binaların bərpasına 5 milyon manat vəsait ayrılmışdır. Əvvəlki dövrdə də vəsait ayrılmışdır, bundan sonra da ayrılacaqdır. Bu həm gələcəyə yönəlmiş bir addımdır, gələcək fəaliyyətimiz üçün bir istiqamət, keçmişimizə də olan münasibətdir.

Elə bir rayon yoxdur ki, mən orada olmayım. Dəfələrlə olmuşam və bundan sonra da olacağam. Hər bir rayon üzrə proqramlar var, vəsait ayrılır. Ancaq elə tarixi şəhərlər var ki, onların Azərbaycan tarixində, xalqın formalaşmasında, dövlətçilik əsaslarının yaranmasında xüsusi rolu vardır. Şəki o şəhərlərdəndir. Belə sərəncamların verilməsi Şəkidən başlamışdır. Sonra Şamaxı və Quba şəhərlərinin inkişafı ilə bağlı oxşar sərəncamlar verilmişdir.

Şəki indi yeni inkişaf mərhələsindədir. Bütün dövrlərdə bu şəhər Azərbaycan tarixində xüsusi yerə malik olub. Bu bölgələrin inkişafı ilə bağlı konkret proqramlar icra olunur və ətraf rayonlar da sürətlə inkişaf edir. Məni əvvəlki dövrdə narahat edən məsələlərdən biri də o idi ki, Şəki inkişafda bir

qədər ləngiyir, ətraf rayonlar daha sürətlə inkişaf edirdi, abadlıq-quruculuq işləri daha sürətlə gedirdi. Bu məqsədlə bir neçə ciddi addım atılmışdır. İlk növbədə rayon rəhbərliyinin gücləndirilməsi üçün tədbirlər görülmüşdür. Rayon ictimaiyyəti və deputatlarla birgə məsələlər müzakirə edilmişdir. Şəkinin inkişafı ilə bağlı əsas istiqamətlər müəyyən edilmişdir. Rayonun yeni rəhbərliyinə ciddi tapşırıq verilmişdir ki, həm infrastruktur layihələrinin icrası, həm xüsusilə Şəkinin tarixi simasının bərpası ilə bağlı konkret tədbirlər görülsün. Qısa müddətdə böyük layihələrin master-planı hazırlanmışdır və mənə təqdim edilmişdir. İndi o planın icrası başlanmışdır.

Biz ilk növbədə rayon sakinlərini narahat edən bütün problemləri qısa müddət ərzində həll etməliyik. 2013-cü ilin sonuna qədər qazlaşdırma, elektrik enerjisi, içməli su, kanalizasiya, yollar – bütün bu məsələlər öz həllini yüksək səviyyədə tapacaq. İçməli su layihəsi əhalinin artımı nəzərə alınmaqla, 2035-ci ilə qədər hesablanıb. Ona görə bu məsələ ilə bağlı heç bir problem olmayacaqdır.

Tarixi binaların bərpası və qorunması üçün vəsait ayrılmışdır. Çünki burada kifayət qədər tarixi abidələr vardır. Şəkini müasir beynəlxalq turizm mərkəzinə çevirmək üçün konkret tapşırıqlar verilmişdir. Onsuz da turistlər həm ölkə daxilindən, həm xaricdən gəlirlər və gələcəklər. Müasir otellər, turizm kompleksləri, əyləncə yerləri, istirahət parkları – bütün bunlar da yaradılmalıdır. Bu gün vaxtı ilə tikilmiş və indi yenidən qurulmuş Olimpiya İdman Kompleksinin açılışını qeyd etmişik. Bu da bir növ turizm mərkəzidir.

Bu gün yeni mehmanxananın açılışı da nəzərdə tutulur. Qədim Karvansara bərpa edilir. İstəyirik ki, Şəki daha gözəl, cazibədar və daha da gənc olsun. Amma öz tarixi simasını saxlamaqla. Yerli icra orqanlarına göstəriş verilmişdir ki, bu məsələdə geniş ictimai müzakirələr aparılsın. Biz istəyirik ki, görüləcək işlər həm zövqlə, həm keyfiyyətlə, həm də ki, tarixi həqiqətləri nəzərə almaq şərti ilə icra edilsin.

Bu gün Şəkinin gələcək inkişafı ilə bağlı konkret proqramlarımız vardır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində böyük işlər görülmüşdür. Növbəti mərhələ daha da ciddi, təsirli olmalıdır. Nəticələr daha da gözəl olmalıdır.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Bütün həkimləri təbrik edirəm. Həkimlər üçün gözəl şərait yaradılmışdır. Dünyanın inkişaf etmiş ölkələrinin aparıcı paytaxtlarında belə şərait bəlkə də bundan bir qədər aşağı səviyyədə var. İnsanların sağlamlığı bizim üçün prioritet məsələdir. Təkcə gözəl xəstəxananın tikilməsi ilə işimiz bitmir. Ekologiya – Allaha şükür ki, burada ekoloji vəziyyət çox yaxşıdır – təmiz hava! İndi su layihəsi icra ediləcəkdir. Həkimlər hamıdan yaxşı bilir ki, insanın sağlamlığı üçün içməli su, təmiz qida birinci yerdədir. Hər bir vətəndaş ildə bir dəfə müayinədən keçməlidir. İndi belə şərait hər bir yerdə vardır.

2008-ci ildə buranın təməli qoyulanda deyirdim bura böyük xəstəxana olacaq, ətraf rayonlardan da gələcəklər. İndi ətraf rayonlarda yeni xəstəxanalar açılır. Balakəndə böyük xəstəxana, Zaqatalada, Qəbələdə böyük diaqnostika-müalicə mərkəzləri, Oğuzda rayon xəstəxanası tikilmişdir, Qaxda rayon xəstəxanası təmir edilmişdir. İndi Şəkidə xəstəxana açılır. Yəqin ki, bu imkandan daha çox Şəki sakinləri istifadə edəcəklər.

Biz bütün işləri planlı şəkildə həyata keçiririk. Birinci mərhələdə hər bir bölgədə müasir tibb mərkəzi yaradılmalı idi. Sonrakı mərhələdə hər bir rayon mərkəzində. İndi nazir də eşidir, həm iri xəstəxanalar, həm ambulatoriyalar, kəndlərdə tibb məntəqələri – bütün bunları etməliyik. Bu məsələyə birbaşa kənd yollarının tikintisi aiddir. Çünki kənd yolu yaxşı olsa, bəlkə o kənddə heç tibb məntəqəsinə ehtiyac da qalmayacaqdır, rahat gələ bilərlər rayon mərkəzinə. Ona görə kənd yollarının tikintisi ilə bağlı bu il çox ciddi proqram icra edilməyə başlanmışdır. Növbəti illərdə daha da çox vəsait ayrılacaq, o cümlədən Şəki rayonunun kənd yollarına da. Elə etməliyik ki,

Azərbaycanda hər bir sahədə ən yüksək standartlar olsun. Buna nail olacağıq. Bir daha sizi təbrik edirəm.

## «Green Hill İnn» mehmanxanasının açılışı mərasimi

*Noyabrın 17-də Azərbaycan prezidenti İlham Əliyev Şəkiyə səfəri çərçivəsində «Green Hill İnn» mehmanxanasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mehmanxananın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, beşmərtəbəli turizm kompleksinin ümumi ərazisi 1,2 hektardır. Kompleksə daxil olan otel və kotteclərin ümumi sahəsi isə 5 min kvadratmetrdən çoxdur. Ərazidə mehmanxana binası ilə yanaşı, yardımçı tikililər, böyük və kiçik hovuz yaradılmışdır. Mehmanxananın həyəti abadlaşdırılmış, geniş yenidənqurma işləri aparılmış, yaşıllıq zolağı salınmışdır.*

*«Green Hill İnn» mehmanxanası Şəkinin turizm potensialının göstəricisi olmaqla, bu bölgənin imkanlarını da nümayiş etdirir. Burada yaradılan şərait təsdiqləyir ki, müasir dövrdə turizmin əsas məqsədi ölkə iqtisadiyyatının kompleks inkişafını təmin etməkdir. Son illər Azərbaycanda turizmin ölkə iqtisadiyyatının mühüm hissəsinə çevrilməsi, bu sahədə xırda və orta sahibkarlıq üçün möhkəm bazanın yaradılması regionların infrastruktur cəhətdən inkişafını da təmin edir.*

*Dövlətimizin başçısı mehmanxananın açılışı münasibətilə təbriklərini çatdırdı.*

## «Aşağı Karvansara» kompleksində aparılan təmir-bərpa işləri ilə tanışlıq

*Noyabrın 17-də prezident İlham Əliyev Şəki şəhərində «Aşağı Karvansara» kompleksində aparılan təmir-bərpa işləri ilə tanış olmuşdur.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev Azərbaycan prezidentinə məlumat verdi ki, qədim abidələrlə zəngin bölgələrimizdən olan Şəkidəki XIX əsrə aid «Aşağı Karvansara» Yaxın*

*Şərqdə ən böyük karvansaradır. Kompleksdə əsaslı təmir və bərpa işlərinin aparılması dövlətimizin tarixi keçmişimizin qorunmasına olan həssas münasibətindən qaynaqlanır. Şəkinin özünəməxsus memarlıq üslubunu əks etdirən və 8 min kvadratmetr ərazini əhatə edən bu tarixi binada 200-dən çox otaq vardır.*

*Dövlətimizin başçısı kompleksin əvvəlki vəziyyətini, təmir-bərpa işlərinin gedişini və istifadədən sonrakı vəziyyətini əks etdirən stendə baxdı.*

*Diqqətə çatdırıldı ki, xüsusi layihə əsasında aparılan bərpa işlərinə 2010-cu ilin yanvarında başlanılmışdır. Təmir-bərpa işlərinin bu ilin dekabrında başa çatdırılması nəzərdə tutulur. Hazırda işlərin birinci mərhələsi həyata keçirilir.*

*Prezident İlham Əliyev tikinti və bərpa işlərinin yüksək keyfiyyətlə yerinə yetirilməsinə, eləcə də karvansaranın gələcəkdə istifadəsinə dair tapşırıq və tövsiyələrini verdi.*

## Sabit Rəhman adına Dövlət Dram Teatrının binası ilə tanışlıq

*Noyabrın 17-də prezident İlham Əliyev Şəkiyə səfəri çərçivəsində Sabit Rəhman adına Dövlət Dram Teatrının binası ilə tanış olmuşdur.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına məlumat verdi ki, 1973-cü ildə ipəkçilərin Mədəniyyət sarayı kimi fəaliyyətə başlamış bu bina 2 ildən sonra Sabit Rəhman adına Dövlət Dram Teatrının kollektivinin ixtiyarına verilmişdir. Teatr maraqlı çıxışları ilə təkcə Şəkinin deyil, ölkəmizin bütün sənətsevərlərinin rəğbətini qazanmışdır. Teatr binasının uzun müddət əsaslı təmir olunmaması kollektivin fəaliyyətinə təsirsiz ötüşməmişdir. Prezident İlham Əliyevin sərəncam və göstərişləri əsasında indi ölkəmizin bütün tarixi abidələri, sənət ocaqları əsaslı şəkildə yenidən qurulur. Buna uyğun olaraq, Şəki Dövlət Dram Teatrının binasının da əsaslı təmiri planlaşdırılır.*

*Dövlətimizin başçısı təmir-bərpa işlərinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Şərab zavodunun açılışı mərasimi

*Noyabrın 17-də prezident İlham Əliyev «Aqroinvestkom» MMC-nin Şəki şərab zavodunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 2004–2008-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq yaradılan zavodun ümumi sahəsi 7,8 hektardır. Tikintisinə 2008-ci ildə başlanılan zavod ildə 3 min ton üzüm emal etmək gücünə malikdir. Lakin gələcəkdə bu rəqəmin 10–15 min tona çatdırılması nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısının ölkəmizdə özəl sektorun, o cümlədən üzümçülüyün inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət stendə baxdı.*

*Sonra dövlətimizin başçısı zavodu işə salan düyməni basdı və istehsalat korpusunda hazır məhsulun saxlanması anbarı ilə tanış oldu. Bildirildi ki, markalı şərabların istehsalı sexində Fransadan gətirilmiş palıd ağacından hazırlanan hər biri 228 litrlik çəllək qoyulmuşdur. Bu, şərabın daha yüksək keyfiyyətlə saxlanılmasına imkan verir.*

*Qeyd edildi ki, məhsulun rəqabətədavamlı olması məqsədi ilə zavodda quraşdırılan avadanlığın hamısı İtaliyanın bu sahədə ixtisaslaşmış şirkətinin istehsalıdır. Texnoloji avadanlığın daşınması, quraşdırılması və sınaqları da italiyalı mütəxəssislərin rəhbərliyi və iştirakı ilə aparılmışdır. Zavodun ərazisində ikimərtəbəli inzibati bina, istehsalat proseslərinə və hazır məhsullara texniki-kimyəvi və mikrobioloji nəzarət üçün laboratoriya, yeməkxana, konfrans zalı yaradılmışdır. Burada, həmçinin qonaq evi də inşa olunmuşdur. Zavodun həyəti abadlaşdırılmış, yaşıllıq zolağı salınmışdır.*

*Prezident İlham Əliyev görülmüş işləri yüksək qiymətləndirdi, kollektivə uğurlar arzuladı.*

## QƏBƏLƏ RAYONUNA SƏFƏR

*17 noyabr 2011-ci il*

*Noyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qəbələ rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verildi. Bildirildi ki, parkda əhalinin istirahəti üçün hər cür şərait yaradılmışdır.*

### Nic qəsəbəsində 2 saylı tam orta məktəbin açılışı mərasimi

*Noyabrın 17-də Azərbaycan prezidenti İlham Əliyev Qəbələ rayonunun Nic qəsəbəsindəki 2 saylı tam orta məktəbin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, məktəbin yeni binası Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuşdur.*

*Bildirildi ki, məktəbin 1930-cu ildə tikilmiş əvvəlki binası son dövrdə tamamilə yararsız vəziyyətə düşmüşdü. Təhsil ocağının yeni binasının tikintisinə bu ilin aprelində başlanılmışdır. Bunun üçün ayrılmış bir hektar ərazidə qısa müddətdə müasir standartlara cavab verən məktəb binası inşa olunmuşdur.*

*Dördmərtəbəli təhsil ocağının foyesində ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın*

*ölkəmizdə təhsilin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşə yaradılmışdır.*

*Prezident İlham Əliyev sinif otaqlarında yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, təhsil ocağının idman zalı yüksək standartlara cavab verir. Buradakı 200 nəfərlik akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılmışdır. İnformatika otağı tam kompüterləşdirilmiş, sürətli internetlə təmin olunmuşdur. Məktəbin ikinci mərtəbəsindəki kitabxanada 5 mindən artıq ədəbiyyat toplanmışdır.*

*Təhsil ocağının həyətində futbol meydançası da yaradılmış, abadlıq işləri görülmüş, yaşıllıqlar salınmışdır.*

*Dövlətimizin başçısı məktəbin açılışı münasibətilə kollektivi təbrik etdi, uğurlar arzuladı.*

**Olimpiya İdman Kompleksinin açılışı mərasimi**

*Noyabrın 17-də Azərbaycan prezidenti İlham Əliyev Qəbələ Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Gənclər və İdman naziri Azad Rəhimov Azərbaycan prezidentinin diqqətinə çatdırdı ki, şəhərin mərkəzində yerləşən kompleksin tikintisinə 2007-ci ildə başlanılmışdır. Bu nəhəng idman qurğusunun inşası üçün 4,3 hektar torpaq sahəsi ayrılmışdır. Yüksək səviyyədə aparılmış tikinti işləri bu ilin oktyabrında başa çatdırılmışdır. İkimərtəbəli kompleksdə idman zalı, üzgüçülük hovuzu, trenajor zalları, yeməkxana, məşq zalları və kotteclər yaradılmışdır. Kompleks Qəbələdə idmanın müxtəlif sahələrinin müasir standartlar səviyyəsində inkişaf etdirilməsi üçün lazımi avadanlıqlarla təchiz olunmuşdur.*

*Diqqətə çatdırıldı ki, Qəbələ Olimpiya İdman Kompleksi ölkəmizdə istifadəyə verilən sayca 32-ci idman qurğusudur.*

*Prezident İlham Əliyev voleybol zalında məşq prosesini izlədikdən sonra idman qurğularının eskiz layihələri ilə tanış*

*oldu, stadionda gənc futbolçuların məşq prosesini izlədi, onlarla söhbət etdi.*

*Azərbaycan prezidenti gənc futbolçularla və onların məşqçiləri ilə xatirə şəkli çəkdirdi, onlara uğurlar arzuladı.*

*Bildirildi ki, kompleksdə hər cür şəraiti olan üç kottec də inşa olunmuşdur. Burada həm idmançılar, həm də qonaqlar istirahət edə biləcəklər.*

*Qəbələ Olimpiya İdman Kompleksində yaradılmış şəraiti yüksək qiymətləndirən dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.*

## Qəbələ Beynəlxalq Aeroportunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 17-də Qəbələ Beynəlxalq Aeroportunun açılışı mərasimində iştirak etmişdir.*

*Aeroportun kollektivi və rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

**İ l h a m   Ə l i y e v:** Əziz dostlar, mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gözəl gündə sizi Qəbələ Beynəlxalq Aeroportunun açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Bu gün çox gözəl və əlamətdar bir gündür. 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanda milli Dövlət bayrağı kimi qəbul edilmişdir, qaldırılmışdır. Bu hadisə bizim müstəqilliyimizi yaxınlaşdıran hadisə idi. O vaxt Sovet İttifaqının dağılmasına hələ bir ildən çox vaxt qalırdı. Bu müdrik və cəsarətli addımın atılması ulu öndərin öz xalqına nə qədər bağlı olduğunu bir daha göstərmişdir. O vaxt Naxçıvanın Ali Məclisində bu bayrağın Dövlət bayrağı kimi qəbul edilməsi ilə yanaşı, Azərbaycan Ali Sovetinin qarşısında vəsatət qaldırılmışdır ki, bu milli bayraq Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilsin.

Bu gözəl tarixi gündə biz sizinlə görüşürük. Qəbələ Beynəlxalq Aeroportunun açılması da Azərbaycanda son illər ərzində

görülən işlərin məntiqi nəticəsidir. Bu il biz müstəqilliyimizin bərpasının 20 illiyini qeyd edirik. Bu 20 il ərzində ölkəmiz böyük uğurlu və şərəfli yol keçmişdir. 1993-cü ildən başlayaraq ölkəmizdə həyata keçirilən islahatlar Azərbaycanı irəliyə aparmışdır. Biz dünya birliyində böyük hörmətə malik olan, layiq olan ölkəyik. Ölkəmizdə hər bir sahə inkişaf etdiyi kimi, nəqliyyat sektoruna da böyük diqqət göstərilir. Bu sektorda inkişaf göz qabağındadır. Son illər ərzində ölkəmizdə bir neçə beynəlxalq aeroport tikilmişdir – Naxçıvanda, Gəncədə, Lənkəranda, Zaqatalada. Nəhayət, Qəbələdə beynəlxalq aeroport fəaliyyətə başlayır. Bu aeroport istənilən hava gəmilərini qəbul etməyə qadirdir. Ən ağır yük təyyarələri də bura gələ bilər. Uçuş-enmə zolağı kifayət qədər böyükdür və istənilən təyyarənin ağırlığına davam gətirə bilər. Aeroport bütün beynəlxalq standartlara cavab verir. Ümid edirəm ki, gələcəkdə bu aeroportda beynəlxalq uçuşlar da təşkil ediləcəkdir.

Biz hava nəqliyyatının inkişafına çox böyük sərmayə qoyuruq. Aeroportların tikintisi və o cümlədən, Bakıda Heydər Əliyev Beynəlxalq Aeroportunun yenidən tikilməsi, yeni aerovağzal kompleksinin, yeni zolaqların inşası bizim siyasətimizi açıq şəkildə göstərir. Azərbaycan coğrafi vəziyyətindən səmərəli şəkildə istifadə edir və nəqliyyat sektorunda aparılan islahatlar bu reallıqları təmin edir. Biz nəinki aeroportları yaradırıq, yeni müasir təyyarələri də ölkəmizə gətiririk. Son illər ərzində ən müasir, ən gözəl təyyarələr – «Boeing»lər, «Airbus»lar, «ATR» təyyarələri gətirilir. Demək olar ki, təyyarə parkı tam şəkildə dəyişdirilmişdir və indi ən yüksək səviyyəyə cavab verir.

Ölkəmizin beynəlxalq aeroportları – həm Gəncə, həm Naxçıvan, həm Lənkəran aeroportları beynəlxalq uçuşları da təşkil edir. Bu, insanların rahatlığını təmin edir, başqa ölkələrə rahat getmələri üçün şərait yaradır. Qəbələ Beynəlxalq Aeroportunun yaradılması, hesab edirəm ki, bu proqramın ən axırıncı addımlarından biridir. Bu aeroportun tikilməsinin məqsədi bölgəyə, Qəbələyə və ətraf bölgələrə turistlərin axınını

gücləndirməkdir və təmin etməkdir. Nəzərə alsaq ki, Qəbələdə çox müasir və gözəl turizm infrastrukturu yaradılmışdır və bu proses davam etdirilir, ümid edirəm buraya gəlmək istəyənlər çox olacaq, başqa şəhərlərdən Qəbələyə birbaşa təyyarə uçuşları təşkil ediləcəkdir.

Bizim nəqliyyat sektoru inkişafdadır. Həm hava nəqliyyatı, həm də dəniz nəqliyyatı inkişaf edir, yeni tankerlər, bərələr, yük gəmiləri alınır. Bakıda beynəlxalq standartlara cavab verəcək yeni gəmiqayırma zavodu tikilir. Bakının yaxınlığında – Ələt qəsəbəsində Xəzər dənizində yeni ən böyük Beynəlxalq Dəniz Ticarət Limanı tikilir. Bu limanın yükötürmə qabiliyyəti 10 milyon tondan 25 milyon tona qədər artırılacaqdır. Yəni, Xəzərdə ən böyük port Bakı portu olacaqdır. Dəmir yolları tikilir. Bakı–Tbilisi–Qars dəmir yolu tikilir və bu, Azərbaycanı etibarlı tranzit ölkə kimi, dünyaya təqdim edəcək, qonşularımızla birləşdirəcəkdir. Bu layihəni də Azərbaycan tərəfdaşları ilə birlikdə uğurla icra edir.

Avtomobil yollarımız əsaslı təmir edilir, yeni yollar çəkilir. O cümlədən, Qəbələ Beynəlxalq Aeroportuna gələn yol əsaslı şəkildə tikilir. Vətəndaşlar indi Bakıdan Qəbələyə gələrkən çox rahat, gözəl yoldan istifadə edirlər. Bu yol sərhədə – Balakənə qədər davam edəcəkdir. Başqa istiqamətlər üzrə yollar çəkilir. Azərbaycanda nəqliyyatla bağlı bütün məsələlər uğurla, yüksək səviyyədə və peşəkarlıqla həll olunur.

Bu bölgənin gələcək inkişafı ilə bağlı konkret proqramlar və təkliflər vardır. Şimal-qərb bölgəmizin xüsusiyyəti ondan ibarətdir ki, burada turizm potensialı çox güclüdür. Ancaq bu potensial o zaman reallaşa bilər ki, turizm infrastrukturu yaradılsın və biz bunu yaradırıq. Bakıdan sərhədə qədər bütün rayonlarda – Qobustan, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən rayonlarında müasir turizm obyektləri, mehmanxanalar, kempinqlər, istirahət zonaları tikilməkdədir, infrastruktur yenilənir.

Son illər ərzində Qəbələ beynəlxalq mərkəzə çevrilmişdir. Burada keçirilən ənənəvi musiqi festivalları artıq dünyada çox

məşhur olubdur və festivallarda iştirak edənlərin sayı ildən-ilə artır, dünyanın aparıcı sənət adamları bu festivalda iştirak edirlər. Bu gün Qəbələdə yeni Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişəm. Burada yeni Mədəniyyət sarayı tikilməkdədir və gələn il istifadəyə veriləcəkdir. Əvvəlki dövrdə Müalicə-Diaqnostika Mərkəzi tikilibdir və burada tibbi xidmətin göstərilməsi üçün bütün imkanlar vardır. Yeni emal müəssisələri fəaliyyət göstərir. Onlar nəinki Azərbaycanda, bütün bölgədə ən qabaqcıl və ən böyük müəssisələrdir. Yeni iş yerləri, yeni sənaye sahələri açılır, evlər, mehmanxanalar tikilir. Burada tikilən mehmanxanalar dünya miqyaslı və dünya standartlarına cavab verən mehmanxanalardır.

Qəbələ qədim yaşayış yurdudur, qədim şəhərdir. Qədim xəritələrdə Qəbələnin adını görmək mümkündür. Bu gün Qəbələnin tarixi şöhrəti özünə qaytarılıbdır. Bundan sonrakı dövrdə rayonun inkişafı ilə bağlı əlavə tədbirlər görüləcək, əlavə vəsait ayrılacaq, bütün infrastruktur layihələri yaxın 2 il ərzində tam şəkildə icra ediləcəkdir. Bu aeroportun tikintisi, bu gözəl tarixi gündə aeroportun açılması rəmzi xarakter daşıyır. Bu, 20 illik müstəqillik dövründə əldə edilmiş uğurlardan biridir. Bu gözəl bina, bu gözəl memarlıq əsəri Azərbaycan xalqına, Azərbaycan dövlətinə bundan sonra əbədi xidmət edəcəkdir. Bu, strateji obyektdir, bunun strateji məqsədi və mənası vardır. Əminəm ki, bu aeroportun fəaliyyətə başlamasından sonra Qəbələyə turist axını daha da güclü olacaqdır.

Mən sizi bir daha bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, bütün qəbələlilərə cansağlığı və yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*Daha sonra dövlətimizin başçısı aeroportun rəmzi açılışını bildirən lenti kəsdi.*

*«Azərbaycan Hava Yolları» QSC-nin prezidenti Cahangir Əsgərov məlumat verdi ki, aeroportun tikintisinə bu ilin yanvarında*

*başlanılmışdır. Bunun üçün 360 hektar torpaq sahəsi ayrılmışdır. Azərbaycan prezidentinin sərəncamına əsasən inşa olunan aeroport dünyanın ən yüksək standartlarına cavab verir. Burada məlumat bürosu, gözləmə zalı, internet otağı vardır. Aeroportda aviasiya təhlükəsizliyi, sərhəd və gömrük xidmətlərinin əməkdaşlarının rahat işləmələri üçün hərtərəfli şərait yaradılmışdır. Terminalda ən son təhlükəsizlik avadanlığı quraşdırılmışdır. Sərnişin qeydiyyatının rahat və vaxtında aparılması üçün 6 məntəqə yaradılmışdır. VİP sərnişin qeydiyyatı və salonu da ən son avadanlıqla təchiz olunmuşdur. Aeroportun ikinci mərtəbəsində restoran fəaliyyət göstərəcəkdir.*

*Prezident İlham Əliyevə Qəbələ–Ağdaş yolunun yenidən qurulması layihəsi də təqdim olundu. Dövlətimizin başçısı layihə ilə bağlı tapşırıqlarını verdi.*

*Sonra Azərbaycan prezidenti dispetçer məntəqəsi ilə də tanış oldu. Bildirildi ki, uçuşların idarə olunması üçün quraşdırılan avadanlıq dünya standartlarına cavab verir.*

*Qeyd edildi ki, aeroportun uçuş-enmə zolağının uzunluğu 3,6 min metr, eni isə 60 metrdir. Yönəldici yolun sahəsi 26 min kvadratmetrdir. Aeroport çəkisi 400 tona qədər olan təyyarələri qəbul etmək imkanına malikdir. Perronun sahəsi 100 min kvadratmetrdir. Burada, həmçinin təyyarələrin saxlanılması üçün 10 meydança yaradılmışdır ki, bunun da dördü xüsusilə ağır çəkili təyyarələr üçündür. İlkin mərhələdə aeroportda 200 nəfər işlə təmin olunacaqdır. Aeroportun ərazisində geniş yaşıllaşdırma işləri də aparılmışdır.*

*Prezident İlham Əliyev Qəbələ Beynəlxalq Aeroportunda «Silk Way» şirkətinə məxsus karqo təyyarəsinə yükün doldurulması prosesini izlədi. Məlumat verildi ki, «Boeing-747» tipli yük təyyarəsi dünyada ən ağır təyyarələrdən hesab olunur. «Gilan Holdinq»in müəssisələrində istehsal olunan 100 ton məhsulun yükləndiyi həmin təyyarə ilk reyslə Qəbələdən Polşanın paytaxtı Varşavaya yola düşdü.*

## Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş binanın istifadəyə verilməsi mərasimi

*Noyabrın 17-də Azərbaycan prezidenti İlham Əliyev Qəbələ rayonunda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş 36 mənzilli binanın istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Fizuli Ələkbərov dövlətimizin başçısına məlumat verdi ki, indiyədək Qəbələ rayonunda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün üç fərdi ev və ikimərtəbəli 16 mənzilli yaşayış binası tikilərək istifadəyə verilmişdir. Yeni dördmərtəbəli, 36 mənzilli binanın tikintisinə ötən ilin dekabrında başlanılmışdır. Binanın həm xarici görünüşü, həm də daxili tərtibatı ən müasir standartlara cavab verir. Burada əlillərin sərbəst hərəkəti üçün xüsusi qurğular quraşdırılmışdır. Kommunikasiya qurğuları da müasir tələblərə cavab verir.*

*Prezident İlham Əliyev mənzillərdə yaradılan şəraitlə yaxından tanış oldu. Bildirildi ki, bütün otaqlar zəruri avadanlıqlarla və mebellərlə təchiz edilmişdir.*

*Sonra dövlətimizin başçısı İlham Əliyev Qarabağ müharibəsi əlilləri, şəhid ailələrinin üzvləri və Böyük Vətən müharibəsi veteranları ilə görüşdü.*

**İlham Əliyev:** Sizi təbrik edirəm. Qəbələdə çox gözəl yaşayış binası tikilmişdir. Bu gün bu binaya köçəcəksiniz, çox rahat, gözəl mənzillərdir, hər şey çox böyük keyfiyyətlə tikilibdir, bütün şərait vardır. Yəni yüksək səviyyədə yaşamaq üçün bütün şərait yaradılıbdır.

Bu siyasət Azərbaycanda uzun illərdir ki, aparılır. Qarabağ əlilləri, şəhid ailələri üçün həm Bakıda, həm müxtəlif bölgələrdə binalar tikilir. Bu proses çox geniş vüsət almışdır və ümid edirəm ki, növbəti bir neçə il ərzində bütün problemlər öz həllini tapacaqdır. Bu günə qədər 5 minə yaxın Qarabağ müharibəsi əlili və şəhid ailəsi gözəl mənzillərlə təmin edilmişdir. Növbədə isə 3 mindən bir qədər çox ailə vardır.

Bütövlükdə, Azərbaycanda bütün sahələrdə olduğu kimi, sosial sahədə də böyük işlər görülür. Biz bu işləri ardıcıl şəkildə aparırıq. İlk növbədə müharibədən ən çox əziyyət çəkmiş insanların problemlərini həll etməyə başlamışdıq. 2007-ci ilin sonuna qədər, demək olar ki, bütün çadır şəhərcikləri ləğv edilmişdir. Vaxtilə çadırlarda yaşamış insanları biz yaxşı fərdi evlərlə, mənzillərlə təmin edə bilmişik. İndiki mərhələdə yataqxanalarda, hərbi hissələrdə, məktəblərdə məskunlaşmış qaçqın bacı-qardaşlarımızın problemlərini də həll edirik. Bu proses davam edir və əminəm ki, bu məsələni maksimum dərəcədə həll edəcəyik.

Qeyd etdiyim kimi, Qarabağ müharibəsi əlillərinin problemlərinin həlli üçün də ardıcıl işlər aparılır. Əvvəlki dövrdə əlillər üçün maşınları xaricdən gətirirdik. İndi öz istehsalımız başlamışdır və xaricdə istehsal olunan maşınlardan geri qalmır. Naxçıvan avtomobil zavodunun məhsulları indi böyük şöhrətə malikdir, müxtəlif növ maşınlar istehsal olunur. Biz istəyirik ki, yerli istehsaldan daha çox istifadə edək. Nəzərə alaq ki, bu maşınların keyfiyyəti də o biri maşınlardan üstündür. Siz erməni işğalından əziyyət çəkmiş insanlarsınız, öz yaxınlarınızı, sağlamlığınızı itirmisiniz. Ona görə Azərbaycan dövləti sizə daim diqqət göstərməlidir, yardım etməlidir. Bu bina Azərbaycan dövlətinin sizə verdiyi bir hədiyyədir, bu istiqamətdə atılan bir addımdır. Bu addımların sayı çoxdur, onlardan biri də, bax, bu binada özünü göstərir.

Vətən, torpaq uğrunda vuruşmuş, canından keçmiş övladlarımızın xatirəsi daim bizim ürəyimizdədir. Qarabağ böyük yaramızdır. Əminəm ki, ərazi bütövlüyümüz bərpa olunacaq, bütün məcburi köçkünlər öz doğma torpaqlarına qayıdacaqlar, haqq-ədalət zəfər çalacaqdır. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, Azərbaycan torpağı kimi qalır və qalacaqdır. Dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi qəbul edir, tanıyır. Bu tarixi ədalət istənilən yolla bərpa olunmalıdır və olunacaqdır. Danışıqlar yolu ilə həll edilməsə,

biz məcbur olub, hərbi yola əl atacağıq. Bu bizim suveren hüququmuzdur. Heç kim bu hüququ əlimizdən ala bilməz. Beynəlxalq qaydalar da, beynəlxalq hüquq normaları da bu hüququ təsdiq edir və istənilən anda Azərbaycan Ordusu ərazi bütövlüyümüzü bərpa edə bilər. Sadəcə olaraq, biz istəyirik ki, bunu sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Belə imkanlar hələ tükənməyib və gündən-günə güclənən Azərbaycan o tarixi günü yaxınlaşdırır. Bu gün Azərbaycanın imkanları xeyli dərəcədə genişlənmişdir, təsir imkanlarımız artmışdır, ölkə daxilində proseslər müsbət istiqamətdə gedir, xaricdə bizə dəstək hədsiz dərəcədədir. Yəni ölkələrin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir və BMT-dəki son səsvermə də bunu əyani şəkildə göstərmişdir. Azərbaycan böyük səs çoxluğu ilə Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir.

Tarix, hüquq, coğrafi-geosiyasi əhəmiyyət baxımından haqq-ədalət və üstündük bizim tərəfimizdədir. Siyasi, iqtisadi və hərbi güc də Azərbaycanın üstünlüyünü təşkil edir. Biz bütün istiqamətlər üzrə hücum diplomatiyamızı aparacağıq, düşmənə qarşı bütün formalarda mübarizə aparacağıq, onların işğalçı simasını ifşa edəcəyik və ədaləti bərpa edəcəyik. Mən buna şübhə etmirəm. Gün gələcək bizim bayrağımız – 21 il bundan əvvəl ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda qaldırılan Xalq Cümhuriyyətinin bayrağı Xankəndidə, Şuşada dalğalanacaqdır. Əminəm ki, bütün Azərbaycan xalqı buna inanır və bu inamı reallığa çevirmək üçün biz daha da fəal işləməliyik, siyasətimizi daha da məqsədyönlü şəkildə irəliyə aparmalıyıq.

* * *

*Dövlətimizin başçısı yeni mənzillərin orderlərini və avtomobillərin açarlarını sahiblərinə təqdim etdi.*

*Mərasimdə Qarabağ və Böyük Vətən müharibəsi əlillərinə 100 minik avtomobili verildi.*

## Limonad zavodunun açılışı mərasimi

*Noyabrın 17-də Azərbaycan prezidenti İlham Əliyev «Gilan Qəbələ Konserv Zavodu» MMC-nin Qəbələ limonad zavodunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı zavodu işə saldı.*

*Məlumat verildi ki, tikintisinə bu ilin martında başlanılmış müəssisə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla həyata keçirilməsinin bəhrəsidir. Rayon iqtisadiyyatında əhəmiyyətli yer tutacaq müəssisədə dünya standartlarına cavab verən avadanlıq İtaliyanın «Podovan» şirkəti tərəfindən quraşdırılmışdır. İstehsal prosesi tam avtomatlaşdırılmışdır. Zavodun iş prinsipi xammalın qəbulundan başlayaraq qablaşdırılmaya qədər mövcud olan bütün prosesləri əhatə edir.*

*Prezident İlham Əliyev müəssisənin istehsal prosesini izlədi.*

*Dövlətimizin başçısı «Gilan Holdinq»ə daxil olan Lənkəran və Qəbələ konserv zavodlarında, eləcə də yeni istifadəyə verilən Qəbələ limonad zavodunda hazırlanan məhsulların sərgisinə baxdı.*

*Diqqətə çatdırıldı ki, yerli və xarici bazarın tələblərinə cavab verən bu məhsulların nümunələri bir çox ölkələrin nümayəndələri tərəfindən laborator analizdən keçirilərək yüksək qiymət almışdır. Buna görə də həmin müəssisələrdə istehsal olunan məhsullar Rusiya, Ukrayna, Belarus, Baltikyanı respublikaların, Amerika qitəsi dövlətlərinin bazarlarına çıxarılmışdır. Başlıca prinsiplərdən biri də məhsulun məhz yerli xammaldan, bərəkətli Azərbaycan torpağında yetişən nemətlərdən hazırlanmasıdır. Bu məqsədlə müəssisələr yerli fermerlərin köməyi ilə ölkəmizin bütün regionlarından meyvə və tərəvəz məhsulları qəbul edir. Bu, zavodlardan sifariş alan on minlərlə insanın meyvə və tərəvəz məhsullarının becərilməsinə və yetişdirilməsinə marağını daha da artırır. Dövlətimizin başçısı müəssisədə yaradılmış şəraiti yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Qəbələ şəhər məscidinin yeni binasının tikinti işləri ilə tanışlıq

*Noyabrın 17-də Azərbaycan prezidenti İlham Əliyev Qəbələ şəhər məscidinin yeni binasının tikinti işləri ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev məscidin gələcək görüntülərini əks etdirən fotostendə baxdı. Məlumat verildi ki, Qəbələ şəhər məscidinin əvvəlki kiçik binası son dövrdə tamamilə yararsız vəziyyətə düşmüşdü. Məscidin binasının tikintisinə 2011-ci ilin martında başlanılmış, bu məqsədlə 800 kvadratmetr torpaq sahəsi ayrılmışdır.*

*Dövlətimizin başçısını məscidin axundu salamladı.*

**Məscidin axundu**: Xoş gəlmisiniz, cənab Prezident! Sizi Allahın adı ilə salamlayıram. Möhtərəm Prezident, gözəl şəhərimizdə belə bir məscidin tikintisi üçün göstəriş verdiyinizə görə bütün Qəbələ camaatı, bütün Qəbələ dindarları adından Sizə dərin təşəkkürümüzü bildiririk. Hörmətli Prezident, müqəddəs kitabımız olan bu «Qurani-Kərim»i bizdən qəbul etməyinizi xahiş edirik.

**Fəttah Heydərov** *(Milli Məclisin deputatı):* Bu cür məscidlər inşa olunub və olunur. Bunun sayı-hesabı yoxdur.

**İlham Əliyev:** Bakıda da məscidlər tikilib, bərpa olunub. Misal üçün, Təzəpir məscidi, Bibiheybət məscidi. Azərbaycanın ən qədim məscidi Şamaxı məscididir. Vaxtilə ermənilər Şamaxını dağıtmış, məscidi yandırmışdılar, amma axıra qədər dağıda bilməmişdilər.

**Fəttah Heydərov:** Torpağın altında qalmışdı. Bir balaca hissəsi görünürdü. İndi orada böyük kompleks yaradılmışdır.

**İlham Əliyev:** Mən birinci dəfə Şamaxıda bu məscidi görəndə dedim ki, biz bunu mütləq bərpa etməliyik. Özü də necə bərpa?! Biz onu yenidən qururuq. Onun tarixi hissəsi, tarixi divarları qalır, yeni minarələr ucaldılır. Ən hündür

minarələr orada olacaqdır. Bir də ki, o tarixdir. O məscid 700-cü illərdə tikilibdir.

**F ə t t a h  H e y d ə r o v:** Cənab Prezident, mən bu rayondan Milli Məclisin deputatıyam. İnsanlar Sizə çox minnətdarlıq edirlər. Çünki mənəvi ehtiyacları ödəmək üçün bura bir ocaqdır. Bu, azərbaycançılıq ideyasına xidmət edir.

**İ l h a m  Ə l i y e v:** Gəncədə İmamzadə dini-tarixi kompleks yenidən qurulur. Bilirsiniz ki, o da qədim ibadət yeridir. O da tamamilə yenidən qurulur. Gözəl, möhtəşəm bir yer, dini mərkəz olacaqdır. Axundun geyimi də mənim xoşuma gəlir. Mən bu barədə şeyx həzrətlərinə də demişəm ki, bizim din xadimlərinin geyimləri də gözəl olmalıdır, əlbəttə ki, bizim bütün dinimizə xas olan ənənələri qorumaq şərtilə.

**A x u n d:** Cənab Prezident, biz də çox minnətdarıq. Çox məmnunuq ki, mənəvi dəyərlərimiz olan ibadət ocaqlarımız, məscidlərimiz hər zaman Prezidentimizin diqqət mərkəzindədir. Allah Sizdən razı olsun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

## Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışı mərasimi

*Noyabrın 17-də prezident İlham Əliyev Qəbələ Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, müasir standartlara cavab verən binanın təməli ötən ilin martında qoyulmuş, inşaat işləri isə bu ilin oktyabrında başa çatdırılmışdır. Bütün otaqlar zəruri mebel və texniki avadanlıqlarla təchiz olunmuş, yüksək səviyyədə iş şəraiti yaradılmışdır.*

*Bildirildi ki, bina üçün ərazi xüsusi olaraq seçilmişdir. Foyedə Qəbələ rayonunun inkişafında böyük xidmətləri olan ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. Burada, həmçinin ümummilli lider Heydər Əliyev və prezident İlham*

*Əliyevin ölkəmizin inkişafı ilə bağlı fəaliyyətlərini əks etdirən fotoguşə yaradılmışdır.*

*Qeyd edildi ki, yeni inzibati binada işçilərin asudə vaxtlarını səmərəli keçirmələri də nəzərə alınmışdır. Binanın zirzəmi qatında xüsusi istirahət otağı, eləcə də stolüstü tennis və bilyard masalarının quraşdırıldığı idman zalı vardır. Kitabxana, anbar, arxiv otağı və böhran vəziyyətində idarəetmə məntəqəsi də bu qatda yerləşir.*

*Prezident İlham Əliyev idarəetmə məntəqəsi ilə tanış oldu. Buradan rayon ərazisinə nəzarət etmək mümkündür. Fövqəladə hal baş verdiyi təqdirdə eyni anda rayonun Vəndam, Bum və Nic qəsəbələri ilə birbaşa videokonfranslar keçirmək imkanları vardır.*

*Dövlətimizin başçısı binanın balkonundan ətrafı seyr etdi.*

*Azərbaycan prezidenti görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## «Qəbələ» Futbol klubunun stadion və təlim-məşq bazası kompleksində aparılan tikinti işləri ilə tanışlıq

*Prezident İlham Əliyev noyabrın 18-də «Qəbələ» Futbol klubunun stadion və təlim-məşq bazası kompleksində aparılan tikinti işləri ilə tanış olmuşdur.*

*Azərbaycan prezidenti kompleksin planını və burada görülən işləri əks etdirən stendlərə baxdı.*

*Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına məlumat verdi ki, əsas stadionun, məşq bazasının və Qəbələ Futbol Akademiyasının inzibati binasının tikintisi kompleks şəkildə aparılır. Bunun üçün 7 hektar torpaq sahəsi ayrılmışdır. Klubun 15 min yerlik əsas stadionunun tikintisi ən yüksək standartlara uyğun aparılacaqdır. Hazırda klub ev oyunlarını 4 min tamaşaçı yeri olan stadionda keçirir. Tikiləcək əsas stadion ilə yanaşı, kompleksdə əlavə 6 stadion da fəaliyyət*

göstərəcəkdir. 5-i təbii, 1-i isə süni örtüklü olan stadionlardan 4-ü artıq istifadəyə verilmişdir.

Prezident İlham Əliyevə Qəbələ Futbol Akademiyasının yeni binasında aparılan tikinti işləri barədə də məlumat verildi. Qeyd olundu ki, il yarım ərzində istifadəyə verilməsi nəzərdə tutulan akademiyanın daxilində təbii və süni örtüklü meydançalar, yeməkxana, istirahət otağı və digər yardımçı obyektlər fəaliyyət göstərəcəkdir. İnşaat işləri ilə paralel olaraq «Qəbələ» klubunun uşaq futbol bölmələrinə seçimlər də aparılmışdır.

Dövlətimizin başçısı inşaat işlərinin yüksək səviyyədə aparılması ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.

**«Qafqaz Sport Hotel»in açılışı mərasimi**

Azərbaycan prezidenti İlham Əliyev Qəbələ rayonuna səfəri çərçivəsində noyabrın 18-də «Qafqaz Sport Hotel»in açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsdi və turizm obyekti ilə yaxından tanış oldu.

Məlumat verildi ki, beşulduzlu otelin tikintisinə 2010-ci ilin martında başlanılmışdır. Avanqard və klassik arxitektura üslublarının sintezi əsasında inşa edilmiş binanın interyerinin tərtibatında xaricdə hazırlanan mebel və aksessuarlardan istifadə olunmuşdur. Yeddimərtəbəli əsas korpusdan və kottec-lərdən ibarət olan oteldə 98 nömrə vardır.

Prezident İlham Əliyev otelin nömrələrində yaradılan şəraitlə yaxından tanış oldu. Bildirildi ki, nömrələrdə qonaqların yüksək səviyyədə istirahəti üçün hər cür şərait yaradılmışdır. Bütün otaqlar rəqəmli seyf, minibar, havalandırma sistemləri, peyk televiziya və beynəlxalq telefon xətləri, simsiz internetlə təchiz edilmişdir.

Qeyd edildi ki, oteldə ayrıca SPA və sağlamlıq mərkəzi, fitnes zalı, sauna, türk hamamı, masaj otaqları, bərbərxana, gözəllik salonu və vitamin-bar da yaradılmışdır. Qonaqlar kompüter, faks, avtodayanacaq, camaşırxana, iş mərkəzi, avtobus, tibbi yardım xidmətlərindən də istifadə edə biləcəklər.

*Məlumat verildi ki, otelin ərazisində yüksək standartlara cavab verən, ailəvi istirahət üçün hər cür şəraitə malik 21 kottec inşa olunmuşdur. Burada, həmçinin açıq havada hovuz, uşaq oyun meydançası da yaradılmışdır.*

*Dövlətimizin başçısı oteldə yaradılmış şəraiti yüksək qiymətləndirdi, kollektivə uğurlar arzuladı.*

**Cıdır Kompleksində aparılan tikinti işləri ilə tanışlıq**

*Prezident İlham Əliyev Qəbələ rayonuna səfəri çərçivəsində noyabrın 18-də Cıdır Kompleksində aparılan tikinti işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı inşaat işlərini əks etdirən stendlərə baxdı.*

*Diqqətə çatdırıldı ki, Azərbaycan Atçılıq Federasiyasının sifarişi ilə inşa olunan kompleksin tikintisi üçün 40 hektar ərazi ayrılmışdır. İnşaat işlərinə bu ilin iyulunda başlanılmışdır. Ərazidə 4,7 min tamaşaçı yeri olan stadion, 1,6 min metrlik yaşıl ot örtüyündən və 1,6 min metrlik narın qumdan ibarət cıdır meydanı tikiləcəkdir. Bundan başqa, kompleksdə yarışları izləmək üçün 80 kvadratmetrlik monitor, 180 at üçün tövlə, jokeylər üçün 15 ev, konkur oyunları üçün açıq və bağlı manejlər, hər biri 2 min yerlik iki tamaşaçı zalı, gəzinti və istirahət parkı, kafe, restoran, xüsusi avtodayanacaqlar inşa olunacaqdır. Kompleksdə uşaqların at sürməyi öyrənmələri üçün kiçik meydança da tikiləcəkdir.*

*Prezident İlham Əliyev tikinti işlərinin yüksək səviyyədə aparılması üçün tapşırıq və tövsiyələrini verdi.*

**Səfər başa çatdı**

*Noyabrın 18-də prezident İlham Əliyevin respublikamızın şimal-qərb bölgəsinə səfəri başa çatmışdır.*

*Dövlətimizin başçısı yeni istifadəyə verilmiş Qəbələ Beynəlxalq Aeroportundan Bakıya yola düşdü.*

* * *

*Həmin gün prezident İlham Əliyev Bakıya gəldi.*

# AVROPA KOMİSSİYASININ VİTSE-PREZİDENTİ, NƏQLİYYAT ÜZRƏ KOMİSSAR SİİM KALLAS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Avropa Komissiyasının vitse-prezidenti, nəqliyyat üzrə komissar Siim Kallası qəbul etmişdir.*

*Siim Kallas dövlətimizin başçısını Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə təbrik etdi.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında uğurlu əməkdaşlıqdan məmnunluq ifadə olundu, əlaqələrimizin müxtəlif sahələrdə daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Görüşdə, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında nəqliyyat, eyni zamanda, TRASEKA proqramı çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

**RUMINİYANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB TRAYAN BESESKUYA**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı – Birlik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Rumıniya münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Dövlətlərarası münasibətlərimizin inkişafı, eyni zamanda, çoxşaxəli dostluq əlaqələrimizin daim möhkəmlənməsi, əməkdaşlığımızın əhatə dairəsinin gündən-günə genişlənməsi ilə müşayiət olunur.

Əminəm ki, iqtisadi əməkdaşlıq çərçivəsində ikitərəfli qaydada müvəffəqiyyətlə həyata keçirdiyimiz təşəbbüslərimizi ardıcıl şəkildə davam etdirərək, regional enerji layihələrinin gerçəkləşməsi işinə bundan sonra da mühüm töhfələr verəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 noyabr 2011-ci il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAYİD ƏL-NƏHƏYYANA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətlərinin daim möhkəmləndirilməsi, əməkdaşlıq əlaqələrimizin genişləndirilməsi yolunda qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 noyabr 2011-ci il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasındakı dostluq və əməkdaşlıq münasibətləri daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, qardaş xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 noyabr 2011-ci il*

**LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ SAYASONEYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Laos arasında təşəkkül tapmış münasibətlərin dostluq və əməkdaşlıq zəminində inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 noyabr 2011-ci il*

**TAİLANDIN KRALI ƏLAHƏZRƏT**
**BHUMİBOL ADULYADEJƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Tailand münasibətləri bun-dan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edərək xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tailand xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 noyabr 2011-ci il*

**BURKİNA-FASONUN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BLEZ KOMPAOREYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Burkina-Faso arasında təşəkkül tapmış dostluq münasibətləri daim inkişaf edərək əməkdaşlıq imkanlarımızı genişləndirəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 noyabr 2011-ci il*

## ABŞ-ın HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNİN KOMANDANI REY MABUS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də ABŞ-ın Hərbi Dəniz Qüvvələrinin komandanı Rey Mabusu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu, ölkələrimizin hərbi sahədə uzun illərdir ki, uğurla əməkdaşlıq etdiyi vurğulandı, bu sahədə əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.*

*ABŞ-ın Hərbi Dəniz Qüvvələrinin komandanı Rey Mabus Azərbaycanın Əfqanıstandakı beynəlxalq sülhməramlı missiyanın tərkibində iştirakını və beynəlxalq sülhməramlı qüvvələrin fəaliyyəti ilə bağlı nəqliyyat təminatında ölkəmizin rolunu yüksək qiymətləndirdi.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında təhlükəsizlik, enerji və nəqliyyat təhlükəsizliyi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# TÜRKİYƏ PARLAMENTİ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ VOLKAN BOZKIRIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Türkiyə Respublikasının Böyük Millət Məclisinin Beynəlxalq Əlaqələr Komitəsinin sədri Volkan Bozkırın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı parlament seçkilərindən sonra Türkiyə Böyük Millət Məclisi üzvlərinin ilk rəsmi səfərlərinin məhz Azərbaycana etmələrinin önəmini vurğulayaraq bu ənənənin hökumət üzvləri ilə yanaşı, parlament üzvləri tərəfindən də davam etdirilməsindən məmnunluğunu bildirdi, ölkəmizə səfərinin uğurlu olacağına əminliyini ifadə etdi.*

*Volkan Bozkır ilk xarici səfərini Azərbaycana etməsinin onlar üçün mühüm bir vəzifə olduğunu dedi. O, Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün, Baş nazir Rəcəb Tayyib Ərdoğanın, Böyük Millət Məclisinin Sədri Cəmil Çiçəyin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 20-ci ildönümü münasibətilə prezident İlham Əliyevi təbrik edən Volkan Bozkır dünyada və bölgədə ciddi problemlərin mövcud olduğu bir şəraitdə ölkəmizin BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsinin önəmli hadisə olduğunu dedi.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün, Baş nazir Rəcəb Tayyib Ərdoğanın, Böyük Millət Məclisinin Sədri Cəmil Çiçəyin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə, Baş nazirə və Böyük Millət Məclisinin Sədrinə çatdırmağı xahiş etdi.*

# AZƏRBAYCAN–YAPONİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİ, İTOÇİ KORPORASİYASININ İCRAÇI VİTSE-PREZİDENTİ YOİÇİ KOBAYAŞİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Azərbaycan–Yaponiya Hökumətlərarası Komissiyanın həmsədri, İtoçi korporasiyasının icraçı vitse-prezidenti Yoiçi Kobayaşini qəbul etmişdir.*

*Yoiçi Kobayaşi ölkəmizə bundan əvvəlki səfərini xatırladaraq ötən dövr ərzində paytaxtda çox böyük dəyişikliklərin şahidi olduğunu vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Yaponiya arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin müxtəlif sahələrdə genişləndirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Eyni zamanda, görüşdə Azərbaycan–Yaponiya Hökumətlərarası Komissiyanın uğurlu fəaliyyəti yüksək qiymətləndirildi, Yaponiya şirkətlərinin Azərbaycanın enerji sektorundakı və ölkəmizdə həyata keçirilən infrastruktur layihələrindəki fəaliyyətinin önəmi qeyd edildi, qeyri-neft sektorunda əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.*

# QEYDLƏR

**1. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal», «Şərəf», «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 5,11,121,142,178,204.

**2. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin Birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «İstiqlal» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 5,11,121,142.

**3. Hacıbala Abutalıbov,** H a c ı b a l a  İ b r a h i m  o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 5,11,121,142,178,204.

**4. Mehriban Əliyeva** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi al-

tında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 12,31,32,35,37,38,40,50,51,66,67, 90,91,105,229,239, 276,299,327,337.

**5. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 47,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı Korteslərdir (ikipalatalı parlament, Konqres və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madrid şəhəridir. – 15.

**6. I Xuan Karlos** (d.1938) – 1975–2014-cü illərdə İspaniya kralı. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. – 15.

**7. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 16,28,29,46,93,97,99,100,119,120, 138,140,141,145,146,168,178–204,237,291,296,299.

**8. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. – 16,28,29,93,97, 100,120,146,178–204,237.

**9. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi,

müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Respublikasının Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail

olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür.– 24,46,55,90,106,107,108,109,110,134,188,189,214, 220,221,227,229,230,238,276,306,313,318,323,326,336,338,345,348,349.

**10. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 35, 37,90,219,229,242,276,299,336,337.

**11. Şarl de Qoll** (1890–1970) – Fransanın görkəmli dövlət, hərbi və siyasi xadimi. İkinci dünya müharibəsinə qədər müxtəlif hərbi

rəhbər vəzifələrdə olmuşdur. Alman faşist qoşunları Parisə daxil olduqdan (1940,14 iyun) sonra B.Britaniyaya getmiş, Londonda «Azad Fransa» hərəkatının əsasını qoymuşdur. 1943-cü ilin noyabrından Fransa Milli Azadlıq Komitəsinin, 1944-cü ilin iyunundan isə Fransa Respublikası Müvəqqəti Hökumətinin sədri olmuşdur. Fransada prezidentlik rejimi yarada bilmədiyindən istefaya çıxmışdı. 1958-ci ildə Əlcəzairdəki hərbi qiyamla yaranan siyasi böhranla əlaqədar Fransa parlamenti (1958) Şarl de Qollu yenidən hakimiyyətə gətirdi. Şarl de Qoll iki dəfə (1958, 1965) Fransa Respublikasının Prezidenti seçilmişdir. – 36.

**12. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014–2015 və 2015-ci ildən indiyə kimi Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 49.

**13. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 58.

**14. Əhməd Zevayl** (1946–2016) – Misir–ABŞ kimyaçısı. Kimya üzrə Nobel mükafatı laureatı. XX əsrin 80-ci illərində Zevayl dünyada ilk dəfə olaraq molekulların izlərini əldə etmək imkanını verən ən sürətli çəkiliş kamerasını yaratmışdır. Əhməd Zevayl 1999-cu ildə Femkimya sahəsində ayrı-ayrı atomların hərəkətini görməyə imkan verməklə kimya elmində inqilab etmişdir. – 65.

**15. Qız qalası** – Bakı şəhərində tarixi-memarlıq abidəsi. Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 28 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu

mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 81.

**16. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi** (Lətif Kərimov adına) – Azərbaycanın xalça və xalq tətbiqi sənətinin nümayiş edildiyi ən zəngin ekspozisiya. 1967-ci ildə yaradılmışdır. Burada Azərbaycanın xalça və xalça məmulatlarının növləri, tarixi dövrləri, Quba, Şirvan, Bakı, Qazax, Qarabağ və Təbriz toxuculuq məktəblərinin fərdi ənənələri, çoxsaylı çeşidləri qorunub saxlanılır. Bu gün muzeyin 10000-dək xalça və xalq tətbiqi sənəti nümunələri mühafizə edilib saxlanılır. – 81,241.

**17. Çexiya,** Ç e x i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. Paytaxtı Praqa şəhəridir. – 102.

**18. Vatslav Klaus** (d.1941) – 2003–2013-cü illərdə Çexiya Respublikasının Prezidenti olmuşdur. – 102.

**19. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 103,139,299.

**20. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 103.

**21. Abay Kunanbayev** (1845–1904) – görkəmli qazax şairi, maarifçi, qazax realist yazılı ədəbiyyatının banisi. – 131.

**22. Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 206.

**23. Argentina,** A r g e n t i n a  R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub-şərqində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 43,4 milyon nəfərdir. Argentina federasiyası tərkibinə 22 əyalət, 1 milli ərazi (Odlu Torpaq) və 1 Federal (paytaxt) mahal daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Buenos-Ayres şəhəridir. –207, 249.

**24. Kristina de Kirşner** (d.1953) – 2007–2015-ci illərdə Argentina Respublikasının Prezidenti olmuşdur. – 207.

**25. Rasim Balayev,** R a s i m  Ə h m ə d  o ğ l u (d.1948) – Azərbaycan kinoaktyoru. Azərbaycanın Xalq artisti, Azərbaycan Dövlət mükafatı laureatı. 1972-ci ildən «Azərbaycanfilm»in aktyorudur. Nəsimi («Nəsimi» rejissor H.Seyidbəyli) 1973–1974-cü illərdə Moskvada keçirilən VII ümumittifaq kinofestivalında kişi rolunun ən yaxşı ifaçısı mükafatına layiq görülmüşdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 229.

**26. Əbülfəs Qarayev,** Ə b ü l f ə s  M ü r s ə l  o ğ l u (d.1956) – fəlsəfə doktoru. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmiş, mədəniyyət və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. – 240,334.

**27. Qabus bin Səid** (d.1940) – 1970-ci ildən Oman sultanı. Sultan həm də ölkənin Baş naziri, Müdafiə naziri və Xarici İşlər naziri vəzifələrini icra edir. Sultan bin Səid ərəb aləmində yenilikçi və reformator kimi tanınır. – 246.

**28. Mişel Süleyman** (d.1948) – Livan siyasətçisi və hərbçi. 2008–2014-cü illərdə Livan Respublikasının Prezidenti olmuşdur. – 247.

**29. Hillari Klinton** (d.1947) – hüquqşünas, siyasi xadim. Prezident Klintonun həyat yoldaşı. 2001-ci ildən Nyu-York ştatından Amerika Senatına üzv seçilmişdir. 2009–2013-cü illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 248.

**30. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zilhiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahlarının bağışlanması günü kimi qeyd edirlər. – 253.

**31. «Statoyl»** – Norveçin neft-qaz şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycanın neft layihələrində fəal iştirak edir. – 255.

**32. Elmar Məmmədyarov,** Elmar Məhərrəm oğlu (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 261.

**33. Ağqoyunlular** (1370–1503) **–** Ağqoyunlu hökmdarları sülaləsi. Banisi Pəhləvan bəydir. Ağqoyunlular Uzun Həsənin (1453–78) hakimiyyəti illərində ərazicə genişlənmiş, Yaxın və Orta Şərqin ən güclü dövlətlərindən birinə çevrilmişdi. – 267.

**34. Səfəvilər** (1501–1736) – Səfəvilər dövləti hökmdarları sülaləsi. Mənşəcə azərbaycanlılar olmuş və səfəviyyə təriqətinin başçısı Şeyx Səfi əd-Din İshaqın adı ilə adlanmışlar. Banisi I Şah İsmayıldır (Xətai). – 267.

**35. Albaniya,** Albaniya Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 277.

**36. Mavritaniya,** Mavritaniya İslam Respublikası – Qərbi Afrikada dövlət. Sahəsi 1031 km$^2$, əhalisi 3,89 milyon nəfərdir.

İnzibati ərazisi 12 vilayətə, 1 mərkəzi muxtar əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Nuakşot şəhəridir. – 278.

**37. Hafiz Paşayev,** H a f i z  M i r  C ə l a l  o ğ l u (d.1941) – fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Xarici İşlər nazirinin müavini, diplomat, ADA Universitetinin rektoru. 1993–2006-cı illərdə ABŞ-da (eyni zamanda, Meksika və Kanadada) Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur.

Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmşdir. – 286.

**38. Fəttah Heydərov,** F ə t t a h  S ə m ə d  o ğ l u (d.1938) –1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Milli Məclisin Regional Məsələlər üzrə Daimi Komitəsinin sədr müavini, Azərbaycan – Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri. Azərbaycan Respublikasının Ağsaqqallar Şurasının sədridir.

Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmşdir.– 347-348.

**39. Müslüm (Əbdülmüslüm) Maqomayev** (1885–1937) – görkəmli Azərbaycan bəstəkarı. 1912-ci ildən ömrünün axırınadək opera tamaşalarına dirijorluq etmişdir. M.Maqomayevin «Şah İsmayıl» operası Azərbaycan opera sənətinin inkişafı tarixində əhəmiyyətli yer tutur. – 320.

**40. Üzeyir bəy Hacıbəyli,** Ü z e y i r  Ə b d ü l h ü s e y n  o g l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 320.

**41. Rumıniya,** R u m ı n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 353.

## Şəxsi adlar göstəricisi

**Abbasov Əli** – 70
**Abdullayev Rövnəq** – 70, 192
**Abikayev Nurtay** – 28
**Abdulyadej Bhumibol** – 357
**Abutalıbov Hacıbala** – 5, 11, 121, 142, 178–204
**Al Səud Abdullah** – 143
**Al Səud Sultan** – 143
**Alam Əsəd** – 251
**Andreyçenko Vladimir** – 300
**Arokan Rikardo** – 116
**Arslan Zühtü** – 192
**Aslık Əli** – 187
**Atambayev Almazbek** – 250
**Atatürk Mustafa Kamal** – 188
**Atlıxanova Albina** – 79
**Bağırov Faiq** – 191
**Bağırova Xatın** – 224
**Balayev Rasim** – 229
**Baranao Lino** – 249
**Berdıməhəmmədov Qurbanqulu** – 103
**Besesku Trayan** – 353
**Berzniş Andris** – 245
**Bin Səud Qabus** – 246
**Borisov Borislav** – 286
**Boldi Rossana** – 98
**Boyer Haynz** – 70
**Bozdağ Bəkir** – 141
**Börns Uilyam** – 115
**Bradtken Robert** – 6, 150
**Bortnikov Aleksandr** – 212
**Buteflikay Əbdüləziz** – 147
**Bunutto Begum** – 206
**Cavanşir Rəşid** – 193

**Cəfərov Cəfər** – 70
**Çağlayan Zəfər** – 193
**Çavuşoğlu Mövlud** – 49
**Çey Tae-Von** – 236
**Çinq-Kuo Vu** – 38
**Çutora Joli** – 260
**Çoşua Entoni** – 39
**De Kirşner Kristina** – 207
**De Qoll Şarl** – 36
**De Renkur Anri** – 32
**Dəmirəl Süleyman** – 46
**Dimitrov Konstantin** – 286
**Ergin Sadullah** – 237
**Eşton Ketrin** – 9, 303
**Əhmədzadə Əhməd** – 313
**Əhmədinejad Mahmud** – 144
**Əl-Nəhəyyan Xəlifə** – 354
**Əl-Məktum Məhəmməd** – 355
**Ələkbərov Füzuli** – 286
**Əliyev Heydər** – 24, 46, 55, 90, 106, 107, 108, 109, 110, 134, 188, 189, 214, 220, 221, 227, 229, 230, 238, 276, 306, 313, 318, 323, 326, 336, 338, 345, 348, 349
**Əliyev Natiq** – 89
**Əliyeva Mehriban** – 12, 31, 32, 35, 37, 38, 40, 50, 51, 66, 67, 90, 91, 105, 229, 239, 276, 299, 327, 337
**Ərdoğan Rəcəb Tayyib** – 16, 28, 29, 93, 97, 100, 120, 146, 178–204, 237
**Əsgərov Cahangir** – 342
**Fasye Bernar** – 6, 150
**Fedotov Yuri** – 104
**Fərzəliyev Çingiz** – 89
**Filat Vladimir** – 7
**Fişer Haynz** – 66–92, 101
**Fişer Margit** – 66, 67, 90, 91
**Fidan Hakan** – 28
**Görmez Mehmet** – 97

**Gül Abdullah** – 93, 97, 99, 119, 145, 237
**Hacıbəyli Üzeyir** – 320
**Hacıəliyev Heybətulla** – 39
**Hacıyev Rauf** – 229
**Hacıyev Şəmsəddin** – 286
**Heydərov Fəttah** – 347–348
**Heyerdal Tur** – 213
**Həsənov Nəcəf** – 200
**Hüseynova Hicran** – 193
**Xələfov Xələf** – 126, 192
**Xloponin Aleksandr** – 23–24
**I Xuan Karlos** – 15
**İşinger Volfqanq** – 252
**Kallas Siim** – 352
**Kamaliyev Berik** – 126
**Kanokov Arsen** – 23
**Kasprşik Anji** – 6
**Kazıxanov Yerjan** – 126
**Kemp Frederik** – 94
**Klinton Hillari** – 248
**Kilisoğlu Deniz** – 202
**Komşiç Jelko** – 279
**Korrean Rafael** – 116
**Kunanbayev Abay** – 131
**Kurtulmuşlu Əli** – 191
**Klaus Vatslav** – 102
**Qarayev Əbülfəs** – 240, 334
**Qarayev Faiq** – 118
**Qorbaçov Mixail** – 54
**Quliyev Vilayət** – 260
**Landau Uzi** – 254
**Lefort Filip** – 208
**Le Ueru Filip** – 251
**Leytard Doris** – 280
**Lundu Helge** – 255
**Lukaşenko Aleksandr** – 210
**Maqomayev Müslüm** – 320
**Maqomedov Maqomedsalam** – 23
**Mansurov Taymuraz** – 23

**Maltsev Leonid** – 210
**Mikayıl Mirzə** – 229
**Malesani Piter** – 305
**Medvedev Dmitri** – 24, 59
**Matsuura Koişiro** – 50
**Mehdiyev Ramiz** – 5, 11, 121, 142
**Məcidov Məmmədrəsul** – 39
**Məmmədov Fikrət** – 260
**Məmmədov Teymur** – 39
**Məmmədov Ziya** – 18, 19, 126
**Məmmədova Natalya** – 118
**Məmmədyarov Elmar** – 32, 261
**Mixay Arnold** – 260
**Migitinov Soltan** – 39
**Mikayıl Mirzə** – 229
**Mladenov Totyu** – 286
**Morninqstar Riçard** – 301
**Motsart Volfanq** – 73, 89
**Mövsümov Elvin** – 200
**Mustafayev Şahin** – 193
**Müller-Şinvald Markus** – 75
**Nobl Ronald** – 26
**Narışkin Sergey** – 47
**Nazarbayev Nursultan** – 28, 122–142
**Novak İvan** – 78
**Otunbayeva Roza** – 141
**Öztürk Kamal** – 191
**Papakonstantinu Corc** – 151
**Papulyas Karolos** – 151
**Paşayev Hafiz** – 286
**Pavluts Daniels** – 281
**Peres Şimon** – 254
**Pırvanov Georgi** – 282–299
**Piters Maykl** – 305
**Plevneliyev Rosen** – 244
**Popov İqor** – 6, 150
**Putin Vladimir** – 58
**Rasizadə Artur** – 5, 11, 121, 142, 178, 204
**Rayxhard Andreas** – 70

**Repassi Robert** – 260
**Rəhimov Azad** – 337
**Rifai Taleb** – 302
**Rodem Daroti** – 248
**Roys Gerhard** – 70
**Rzayev Ramiz** –311
**Rzayev Səməndər** – 229
**Saakaşvili Mixeil** – 8
**Sarkozi Nikola** – 30–37
**Sayason Coummali** – 356
**Sinirlioğlu Feridun** – 192
**Stalin** – 132
**Stepaşin Sergey** – 238
**Süleyman Mişel** – 247
**Şahin Fatma** – 16, 193
**Şenel Fazil** – 192, 193
**Şərifov Samir** – 70
**Şider Andreas** – 70
**Şirəliyev Oqtay** – 328
**Şmitt Pal** – 256–276
**Şuster Rudolf** – 48
**Tallai Andras** – 261
**Topi Bamir** – 277
**Tusk Donald** – 10
**Uld Əbdüləziz Məhəmməd** – 278
**Usubov Ramil** – 261
**Vaşadze Qriqol** – 209
**Vəhidi Əhməd** – 144
**Yevkurov Yunusbek** – 23
**Yılmaz İsmət** – 93
**Yavuz Arda** – 202
**Zevayl Əhməd** – 65
**Zərdari Asif** – 206

## Coğrafi adlar göstəricisi

**Abşeron(*yarımada*)** – 22
**Albaniya** – 277
**Ağdaş** – 214–218, 329
**Ağsu** – 214, 227–235
**Aktau** – 130
**Almaniya** – 77, 87, 88, 312
**Almatı** – 121–132
**Amerika Birləşmiş Ştatları** – 53, 65, 94, 115, 150,301,312, 359
**Argentina** – 207,249
**Asiya** – 131,139,140
**Avrasiya** – 136,301
**Avropa** – 10,56,62,64,73,74,77,86,87, 127,131,139,140,171,263, 267, 273,295,297
**Avstriya** – 66–92,101
**Balakən** – 330
**Belarus** – 210, 300
**Birləşmiş Ərəb Əmirlikləri** – 354
**Bolqarıstan** – 244, 282–299
**Bosniya və Herseqovina** – 279
**Burkina-Faso** – 358
**Buzovna** – 19
**Cənubi Qafqaz** – 34, 62, 63, 86, 208, 221, 231, 312
**Çexiya** – 10, 77, 88, 102
**Çin** – 140
**Dağıstan** – 23
**Dağlıq Qarabağ** – 6, 9, 33, 56, 57, 60, 71, 75, 77, 106, 111, 112, 115, 130, 134, 137, 158, 160, 161, 182, 195, 200, 201, 208, 222, 252, 263, 268, 292, 299, 303, 343, 344
**Doha** – 117

**Egey dənizi** – 188
**Əlcəzair** – 147
**Fransa** – 30–37, 88, 150
**Gəncə** – 339
**Gürcüstan** – 128, 140, 168, 209
**Xaçmaz** – 329
**Xankəndi** – 345
**Xəzər dənizi** – 127, 128, 139, 140, 188, 298
**Xorvatiya** – 77
**İğdır** – 195
**İran** – 144, 203
**İnquşetiya** – 23
**İsrail** – 254
**İspaniya** – 15
**İsveç** – 10, 88
**İsveçrə** – 280
**İtaliya** – 88, 98, 312
**İzmir** – 178–204
**Kabardin-Balkar Respublikası** – 23
**Kaliforniya** – 65
**Kəlbəcər** – 106, 110
**Koreya Respublikasi** – 236
**Qafqaz** – 127, 182
**Qax** – 306, 313–325, 332
**Qaxbaş** – 315
**Qara dəniz** – 127, 298
**Qars** – 196
**Qazaxıstan** – 28, 121–142
**Qəbələ** – 306, 332, 336–351
**Qətər** – 117
**Qırğızıstan** – 141, 250
**Qobustan** – 330
**Quba** – 330
**Laçın** – 106, 110
**Laos** – 356
**Latviya** – 245, 281
**Lənkəran** – 339, 340
**Lixtenşteyn** – 88
**Livan** – 247

**Lüksemburq** – 88
**London** – 38
**Malta** – 11
**Macarıstan** – 256–276
**Mavritaniya** – 278
**Mərdəkan** – 19
**Moskva** – 38
**Münhen** – 252
**Naxçıvan** – 195, 322, 323, 339, 345
**Naxçıvan MR** – 108, 322
**Nic** – 336
**Norveç** – 255
**Oğuz** – 306–312, 332
**Oman** – 246
**Orta Asiya** – 140
**Pakistan** – 206
**Paris** – 34
**Polşa** – 5–11, 224
**Praqa** – 10
**Rumıniya** – 353
**Rusiya** – 23–24, 41, 47, 54, 57, 58, 150, 234, 238
**Salzburq** – 87
**Səudiyyə Ərəbistanı** – 143
**Slovakiya** – 48, 77
**Sloveniya** – 77
**Şamaxı** – 330
**Şəki** – 306, 326–334
**Şimali İraq** – 203
**Şimali Kipr** – 182
**Şimali Osetiya – Alaniya Respublikası** – 23
**Şimali Qafqaz** – 23–24
**Şuşa** – 106, 110, 345
**Şüvəlan** – 19
**Tailand** – 357
**Taldı Kurqan** – 132
**Tirol** – 87
**Türkiyə** – 16, 28, 29, 46, 93, 97, 99, 100,

119, 120, 138, 140, 141, 145, 146, 168, 178–204, 237, 291, 296, 299
**Türkmənistan** – 103, 139, 299
**Ucar** – 214, 219–226, 329
**Ukrayna** – 168, 234
**Van (***Türkiyədə vilayət***)** – 146, 180, 194
**Varşava** – 6–11
**Vyana** – 88
**Yunanıstan** – 87, 151
**Zaqatala** – 332, 339

# MÜNDƏRİCAT

POLŞA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*28 sentyabr 2011-ci il*......................................................................5

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*29 sentyabr 2011-ci il*......................................................................6

MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİRİ VLADİMİR FİLAT İLƏ GÖRÜŞ

*29 sentyabr 2011-ci il*......................................................................7

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*29 sentyabr 2011-ci il*......................................................................8

AVROPA İTTİFAQININ XARİCİ ƏLAQƏLƏR VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ, AVROPA KOMİSSİYASININ VİTSE-PREZİDENTİ KETRİN EŞTON İLƏ GÖRÜŞ

*29 sentyabr 2011-ci il*......................................................................9

«ŞƏRQ TƏRƏFDAŞLIĞI» SAMMİTİNDƏ İŞTİRAK

*30 sentyabr 2011-ci il*......................................................................10

MALTANIN BAŞ NAZİRİ LOURENS QONZİ İLƏ GÖRÜŞ

*30 sentyabr 2011-ci il*......................................................................11

«HİLTON BAKU» OTEL KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*3 oktyabr 2011-ci il*......................................................................12

İSPANİYA KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

*3 oktyabr 2011-ci il* ........................................................................................*15*

TÜRKİYƏ RESPUBLİKASININ AİLƏ VƏ SOSİAL SİYASƏT NAZİRİ XANIM FATİMA ŞAHİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2011-ci il* ........................................................................................*16*

İRAN İSLAM RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ İSLAMİ İRŞAD NAZİRİ SEYİD MƏHƏMMƏD HÜSEYN İLƏ GÖRÜŞ

*3 oktyabr 2011-ci il* ........................................................................................*17*

BUZOVNA QƏSƏBƏSİNDƏ YERALTI PİYADA KEÇİDLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*4 oktyabr 2011-ci il* ........................................................................................*18*

MƏRDƏKAN YOL QOVŞAĞININ AÇILIŞI MƏRASİMİ

*4 oktyabr 2011-ci il* ........................................................................................*19*

BAKININ ZİYA BÜNYADOV PROSPEKTİNDƏ TİKİNTİSİ DAVAM ETDİRİLƏN YOL QOVŞAQLARI VƏ AVTOMOBİL YOLLARININ SXEMİ İLƏ TANIŞLIQ

*4 oktyabr 2011-ci il* ........................................................................................*20*

BAKIDA NƏQLİYYATI İNTELLEKTUAL İDARƏETMƏ MƏRKƏZİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*4 oktyabr 2011-ci il* ........................................................................................*21*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ, RUSİYA PREZİDENTİNİN ŞİMALİ QAFQAZ FEDERAL DAİRƏSİ ÜZRƏ SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİ ALEKSANDR XLOPONİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 oktyabr 2011-ci il* ........................................................................................*23*

SƏNAYEÇİLƏR VƏ SAHİBKARLAR BEYNƏLXALQ KONQRESİNİN İŞGÜZAR KONFRANSININ İŞTİRAKÇILARINA

*5 oktyabr 2011-ci il* ........................................................................ *25*

İNTERPOLUN BAŞ KATİBİ RONALD NOBL İLƏ GÖRÜŞ

*5 oktyabr 2011-ci il* ........................................................................ *26*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN XÜSUSİ XİDMƏT ORQANLARI KONFRANSININ 14-cü İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*6 oktyabr 2011-ci il* ........................................................................ *27*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*7 oktyabr 2011-ci il* ........................................................................ *29*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ NİKOLA SARKOZİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*7 oktyabr 2011-ci il* ........................................................................ *30*

FRANSA PREZİDENTİ NİKOLA SARKOZİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*7 oktyabr 2011-ci il* ........................................................................ *31*

BAKIDA FRANSIZ LİSEYİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*7 oktyabr 2011-ci il* ........................................................................ *32*

BAKIDA KEÇİRİLƏN BOKS ÜZRƏ XVI DÜNYA ÇEMPİONATININ FİNAL MƏRHƏLƏSİNDƏ İŞTİRAK

*8 oktyabr 2011-ci il* ........................................................................ *38*

«XXI ƏSR: ÜMİDLƏR VƏ ÇAĞIRIŞLAR» DEVİZİ İLƏ BEYNƏLXALQ HUMANİTAR FORUMUN AÇILIŞI MƏRASİMİ

*10 oktyabr 2011-ci il* ...................................................................... *40*

TÜRKİYƏ RESPUBLİKASININ IX PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞ

*10 oktyabr 2011-ci il* ............................................................................. *46*

RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*10 oktyabr 2011-ci il* ............................................................................. *47*

SLOVAKİYANIN KEÇMİŞ PREZİDENTİ RUDOLF ŞUSTER İLƏ GÖRÜŞ

*10 oktyabr 2011-ci il* ............................................................................. *48*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*10 oktyabr 2011-ci il* ............................................................................. *49*

YUNESKO-nun KEÇMİŞ BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞ

*10 oktyabr 2011-ci il* ............................................................................. *50*

BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*10 oktyabr 2011-ci il* ............................................................................. *51*

«ƏL-CƏZİRƏ» TELEVİZİYA KANALINA MÜSAHİBƏ

*11 oktyabr 2011-ci il* ............................................................................. *52*

ABŞ-ın KALİFORNİYA TEXNOLOGİYA İNSTİTUTUNUN FİZİKİ BİOLOGİYA MƏRKƏZİNİN DİREKTORU, KİMYA ÜZRƏ NOBEL MÜKAFATI LAUREATI, KİMYA VƏ FİZİKA ELMLƏRİ ÜZRƏ PROFESSOR ƏHMƏD ZEVAYL İLƏ GÖRÜŞ

*11 oktyabr 2011-ci il* ............................................................................. *65*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ HAYNZ FİŞERİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 oktyabr 2011-ci il ........................................................................66*

AVSTRİYA PREZİDENTİ HAYNZ FİŞER İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 oktyabr 2011-ci il ........................................................................67*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*12 oktyabr 2011-ci il ........................................................................68*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*12 oktyabr 2011-ci il ........................................................................70*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ HAYNZ FİŞER İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*12 oktyabr 2011-ci il ........................................................................71*

AZƏRBAYCAN–AVSTRİYA BİZNES-FORUMU

*12 oktyabr 2011-ci il ........................................................................80*

BAKIDA DAHİ BƏSTƏKAR VOLFQANQ MOTSARTIN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*12 oktyabr 2011-ci il ........................................................................89*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*12 oktyabr 2011-ci il ........................................................................90*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*12 oktyabr 2011-ci il ........................................................................91*

TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ İSMƏT YILMAZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 oktyabr 2011-ci il* ........................................................................... *93*

ABŞ ATLANTİK ŞURASININ PREZİDENTİ FREDERİK KEMPİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 oktyabr 2011-ci il* ........................................................................... *94*

NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*14 oktyabr 2011-ci il* ........................................................................... *95*

TÜRKİYƏNİN DİYANƏT İŞLƏRİ BAŞQANI MEHMET GÖRMEZİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 oktyabr 2011-ci il* ........................................................................... *97*

İTALİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ, SENATOR XANIM ROSSANA BOLDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 oktyabr 2011-ci il* ........................................................................... *98*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*17 oktyabr 2011-ci il* ........................................................................... *99*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*17 oktyabr 2011-ci il* ......................................................................... *100*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNZ FİŞERƏ

*17 oktyabr 2011-ci il* ......................................................................... *101*
ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ

ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA

*17 oktyabr 2011-ci il* ...............................................................................*102*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA

*17 oktyabr 2011-ci il* ...............................................................................*103*

DÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYA VƏ BMT-nin VYANA OFİSİNİN RƏHBƏRİ, NARKOTİK VƏ CİNAYƏTKARLIQ ÜZRƏ İDARƏSİNİN İCRAÇI DİREKTORU YURİ FEDOTOV İLƏ GÖRÜŞ

*17 oktyabr 2011-ci il* ...............................................................................*104*

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASININ 20-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*17 oktyabr 2011-ci il* ..............................................................................*105*

ABŞ DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ UİLYAM BÖRNS İLƏ GÖRÜŞ

*18 oktyabr 2011-ci il* ...............................................................................*115*

EKVADORUN XARİCİ İŞLƏR, TİCARƏT VƏ İNTEQRASİYA NAZİRİ RİKARDO ARMANDO PATİNYO AROKANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 oktyabr 2011-ci il* ...............................................................................*116*

KLUBLARARASI DÜNYA ÇEMPİONATININ QALİBİ – QADINLARDAN İBARƏT «RABİTƏ» VOLEYBOL KLUBUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*18 oktyabr 2011-ci il* ...............................................................................*117*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*19 oktyabr 2011-ci il* ...............................................................................*119*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*19 oktyabr 2011-ci il* ........................................................................*120*

QAZAXISTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*19 oktyabr 2011-ci il* ........................................................................*121*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*20 oktyabr 2011-ci il* ........................................................................*122*

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV
İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*20 oktyabr 2011-ci il* ........................................................................*123*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*20 oktyabr 2011-ci il* ........................................................................*124*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*20 oktyabr 2011-ci il* ........................................................................*126*

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV
İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*20 oktyabr 2011-ci il* ........................................................................*127*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ NAHARDA İŞTİRAK

*20 oktyabr 2011-ci il* ........................................................................*132*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ I
ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*21 oktyabr 2011-ci il* ........................................................................*135*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ
ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN
ƏBDÜLƏZİZ AL SƏUDA

*22 oktyabr 2011-ci il* ........................................................................*143*
İRANIN MÜDAFİƏ NAZİRİ ƏHMƏD VƏHİDİ İLƏ GÖRÜŞ

*22 oktyabr2011-ci il* .........................................................................*144*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*23 oktyabr 2011-ci il ............................................................................145*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*23 oktyabr 2011-ci il ............................................................................146*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ
BUTEFLİKAYA

*24 oktyabr 2011-ci il ............................................................................147*

AZƏRBAYCAN GƏNCLƏRİNİN VI FORUMUNUN
İŞTİRAKÇILARINA

*24 oktyabr 2011-ci il ............................................................................148*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in
HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*24 oktyabr 2011-ci il ............................................................................150*

YUNANISTANIN ƏTRAF MÜHİT, ENERJİ VƏ İQLİM
DƏYİŞİKLİYİ NAZİRİ CORC PAPAKONSTANTİNUNUN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 oktyabr 2011-ci il ............................................................................151*

NAZİRLƏR KABİNETİNİN 2011-ci İLİN DOQQUZ AYININ
SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR
OLUNMUŞ İCLASINDA NİTQ

*24 oktyabr 2011-ci il ............................................................................152*

YEKUN NİTQİ ...........................................................................................*162*
AZƏRBAYCANIN BMT TƏHLÜKƏSİZLİK ŞURASINA ÜZV
SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ BƏYANAT

*25 oktyabr 2011-ci il ............................................................................176*

TÜRKİYƏ RESPUBLİKASINA SƏFƏR

*25 oktyabr 2011-ci il ........................................................................178*

İZMİRDƏ AYPE-T ZAVODUNUN AÇILIŞI, HEYDƏR ƏLİYEV ADINA PEŞƏ TƏHSİLİ LİSEYİNİN VƏ «PETKİM» ŞİRKƏTİNİN «STAR» NEFT EMALI ZAVODUNUN TƏMƏLQOYMA MƏRASİMLƏRİ

*25 oktyabr 2011-ci il ........................................................................179*

TÜRKİYƏ–AZƏRBAYCAN YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ BİRİNCİ İCLASI

*25 oktyabr 2011-ci il ........................................................................190*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*25 oktyabr 2011-ci il ........................................................................191*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*25 oktyabr 2011-ci il ........................................................................194*

TÜRKDİLLİ ÖLKƏLƏRİN VƏ TOPLUMLARIN II MEDİA FORUMUNUN İŞTİRAKÇILARINA

*26 oktyabr 2011-ci il ........................................................................205*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*26 oktyabr 2011-ci il ........................................................................206*

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

*26 oktyabr 2011-ci il ........................................................................207*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2011-ci il* ........................................................................208

GÜRCÜSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
QRİQOL VAŞADZE İLƏ GÖRÜŞ

*26 oktyabr 2011-ci il* ........................................................................209

BELARUSUN TƏHLÜKƏSİZLİK ŞURASININ DÖVLƏT
KATİBİ LEONİD MALTSAV İLƏ GÖRÜŞ

*26 oktyabr 2011-ci il* ........................................................................210

MDB-nin ÜZVÜ OLAN DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK
VƏ XÜSUSİ XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİ
ŞURASININ BAKIDA KEÇİRİLƏN XXXI İCLASINDA
İŞTİRAK EDƏN NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*27 oktyabr 2011-ci il* ........................................................................211

DÜNYA ŞÖHRƏTLİ NORVEÇLİ SƏYYAH VƏ ALİM TUR
HEYERDALIN AİLƏ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*28 oktyabr 2011-ci il* ........................................................................213

AĞDAŞ RAYONUNA SƏFƏR

*30 oktyabr 2011-ci il* ........................................................................214

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*30 oktyabr 2011-ci il* ........................................................................216

UCAR RAYONUNA SƏFƏR

*30 oktyabr 2011-ci il* ........................................................................219

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*30 oktyabr 2011-ci il* ........................................................................220

AĞSU RAYONUNA SƏFƏR

*30 oktyabr 2011-ci il* ..........................................................................*227*

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ
GÖRÜŞ

*30 oktyabr 2011-ci il* ..........................................................................*231*

KOREYANIN SK ŞİRKƏTLƏR QRUPUNUN SƏDRİ
GEY TAE-VONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*31 oktyabr 2011-ci il* ..........................................................................*236*

TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRİ SADULLAH ERGİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*1 noyabr 2011-ci il* ..............................................................................*237*

RUSİYA FEDERASİYASININ HESABLAMA PALATASININ
SƏDRİ SERGEY STEPAŞİN
İLƏ GÖRÜŞ

*1 noyabr 2011-ci il* ..............................................................................*238*

RESPUBLİKA UŞAQ KLİNİK XƏSTƏXANASINDA ƏSASLI
TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA GÖRÜLMÜŞ
İŞLƏRLƏ TANIŞLIQ

*1 noyabr 2011-ci il* ..............................................................................*239*

AZƏRBAYCAN DÖVLƏT MAHNI TEATRININ BİNASININ
ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMADAN SONRAKI
VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*1 noyabr 2011-ci il* ..............................................................................*240*

DƏNİZKƏNARI MİLLİ PARKIN ƏRAZİSİNDƏ APARILMIŞ
YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*1 noyabr 2011-ci il* ..............................................................................*241*

BOLQARISTAN RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİYEVƏ

*2 noyabr 2011-ci il* ......................................................................... *244*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRİS BERZİNŞƏ

*2 noyabr 2011-ci il* ......................................................................... *245*

OMANIN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

*2 noyabr 2011-ci il* ......................................................................... *246*

LİVAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİŞEL SÜLEYMANA

*2 noyabr 2011-ci il* ......................................................................... *247*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ XANIM HİLLARİ KLİNTONA

*2 noyabr 2011-ci il* ......................................................................... *248*

ARGENTİNANIN ELM, TEXNOLOGİYA VƏ PRODUKTİV İNNOVASİYA NAZİRİ LİNO BARANAO İLƏ GÖRÜŞ

*2 noyabr 2011-ci il* ......................................................................... *249*

QIRĞIZ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALMAZBEK ATAMBAYEVƏ

*3 noyabr 2011-ci il* ......................................................................... *250*

DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU ƏSƏD ALAM İLƏ GÖRÜŞ

*3 noyabr 2011-ci il* ......................................................................... *251*

MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSININ SƏDRİ VOLFQANQ İŞİNGER İLƏ GÖRÜŞ

*3 noyabr 2011-ci il* ......................................................................... *252*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ
AZƏRBAYCAN XALQINA TƏBRİK

*4 noyabr 2011-ci il* ........................................................................253

İSRAİLİN MİLLİ İNFRASTRUKTUR NAZİRİ
UZİ LANDAU İLƏ GÖRÜŞ

*10 noyabr 2011-ci il* ......................................................................254

NORVEÇİN «STATOYL» ŞİRKƏTİNİN BAŞ
İCRAÇI DİREKTORU HELGE LUND İLƏ GÖRÜŞ

*10 noyabr 2011-ci il* ......................................................................255

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ PAL
ŞMİTTİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 noyabr 2011-ci il* ......................................................................256

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ PAL
ŞMİTT İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*11 noyabr 2011-ci il* ......................................................................257

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*11 noyabr 2011-ci il* ......................................................................258

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*11 noyabr 2011-ci il* ......................................................................260

MACARISTAN PREZİDENTİ PAL ŞMİTT İLƏ BİRGƏ
MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLAR

*11 noyabr 2011-ci il* ......................................................................262

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*11 noyabr 2011-ci il* ......................................................................267

AZƏRBAYCAN–MACARISTAN BİZNES-FORUMU

*11 noyabr 2011-ci il* ...........................................................................269
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*11 noyabr 2011-ci il* ...........................................................................276

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BAMİR TOPİYƏ

*14 noyabr 2011-ci il* ...........................................................................277

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ

*14 noyabr 2011-ci il* ...........................................................................278

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN
SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB JELKO KOMŞİÇƏ

*14 noyabr 2011-ci il* ...........................................................................279

İSVEÇRƏ KONFEDERASİYASININ ENERJİ, ƏTRAF MÜHİT,
RABİTƏ VƏ NƏQLİYYAT NAZİRİ XANIM DORİS
LOYTARD İLƏ GÖRÜŞ

*14 noyabr 2011-ci il* ...........................................................................280

LATVİYANIN İQTİSADİYYAT NAZİRİ
DANİELS PAVLUTS İLƏ GÖRÜŞ

*14 noyabr 2011-ci il* ...........................................................................281

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ
PIRVANOVUN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ
SƏFƏRİ

*14 noyabr 2011-ci il* ...........................................................................282

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOV İLƏ
TƏKBƏTƏK GÖRÜŞ

*14 noyabr 2011-ci il* ...........................................................................283

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*14 noyabr 2011-ci il* ........................................................................*284*
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*14 noyabr 2011-ci il* ........................................................................*286*

ALİ ORDENLƏRLƏ TƏLTİFOLUNMA MƏRASİMİ

*14 noyabr 2011-ci il* ........................................................................*288*

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOV
İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT-
LARLA ÇIXIŞLAR

*14 noyabr 2011-ci il* ........................................................................*290*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*14 noyabr 2011-ci il* ........................................................................*298*

BELARUS PARLAMENTİNİN NÜMAYƏNDƏLƏR
PALATASININ SƏDRİ VLADİMİR ANDREYÇENKO
İLƏ GÖRÜŞ

*15 noyabr 2011-ci il* ........................................................................*300*

ABŞ DÖVLƏT KATİBİNİN AVRASİYA ENERJİ
MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ
RİÇARD MORNİNQSTAR İLƏ GÖRÜŞ

*15 noyabr 2011-ci il* ........................................................................*301*

DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ TALEB
RİFAİ İLƏ GÖRÜŞ

*15 noyabr 2011-ci il* ........................................................................*302*

AVROPA KOMİSSİYASI SƏDRİNİN MÜAVİNİ, AVROPA
İTTİFAQININ XARİCİ ƏLAQƏLƏR VƏ TƏHLÜKƏSİZLİK
SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ XANIM KETRİN
EŞTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*15 noyabr 2011-ci il ..........................................................................303*

UŞAQLARIN II ÜMUMRESPUBLİKA FORUMUNUN İŞTİRAKÇILARINA

*15 noyabr 2011-ci il ..........................................................................304*

«EURONEWS» KANALININ MÜŞAHİDƏ ŞURASININ SƏDRİ PİTER LUİS MALESANİ VƏ İCRAEDİCİ ŞURANIN BAŞ DİREKTORU MAYKL RİTERS İLƏ GÖRÜŞ

*16 noyabr 2011-ci il ..........................................................................305*

OĞUZ RAYONUNA SƏFƏR

*16 noyabr 2011-ci il ..........................................................................306*

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 noyabr 2011-ci il ..........................................................................307*

QAX RAYONUNA SƏFƏR

*16 noyabr 2011-ci il ..........................................................................313*

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 noyabr 2011-ci il ..........................................................................321*

ŞƏKİ RAYONUNA SƏFƏR

*17 noyabr 2011-ci il ..........................................................................327*

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 noyabr 2011-ci il ..........................................................................330*

QƏBƏLƏ RAYONUNA SƏFƏR

*17 noyabr 2011-ci il ..........................................................................337*

AVROPA KOMİSSİYASININ VİTSE-PREZİDENTİ,
NƏQLİYYAT ÜZRƏ KOMİSSAR SİİM KALLAS İLƏ GÖRÜŞ

*19 noyabr 2011-ci il* ......................................................................... *353*

RUMINİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB TRAYAN BESESKUYA

*21 noyabr 2011-ci il* ......................................................................... *354*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ
ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAYİD ƏL-NƏHƏYYANA

*21 noyabr 2011-ci il* ......................................................................... *355*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ,
BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX
MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

*21 noyabr 2011-ci il* ......................................................................... *356*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ
SAYASONEYƏ

*21 noyabr 2011-ci il* ......................................................................... *357*

TAİLANDIN KRALI ƏLAHƏZRƏT BHUMİBOL
ADULYADEJƏ

*21 noyabr 2011-ci il* ......................................................................... *358*

BURKİNA-FASONUN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
BLEZ KOMPAOREYƏ

*21 noyabr 2011-ci il* ......................................................................... *359*

ABŞ-ın HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNİN KOMANDANI REY
MABUS İLƏ GÖRÜŞ

*21 noyabr 2011-ci il* ......................................................................... *360*

TÜRKİYƏ PARLAMENTİ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ VOLKAN BOZKIRIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 noyabr 2011-ci il ............................................................................361*

AZƏRBAYCAN–YAPONİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİ, İTOÇİ KORPORASİYASININ İCRAÇI VİTSE-PREZİDENTİ YOİÇİ KOBAYAŞİ İLƏ GÖRÜŞ

*22 noyabr 2011-ci il ............................................................................362*

QEYDLƏR ....................................................................................*363*

Şəxsi adlar göstəricisi ..........................................................................*385*

Coğrafi adlar göstəricisi........................................................................*391*

---

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,5. Uçot nəşr vərəqi 26,0. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.